**VAQİF SULTANLI**

# İNSAN DƏNİZİ

roman

Bakı-Azərnəşr-2014

**BBK 47**
**C - 92**

Ön sözün müəllifi:
**Dr.Əhməd Sami El Aydi**
(Qahirə, Misir)

**S-92 Vaqif Sultanlı.**
**İnsan dənizi** (roman). II nəşr, Bakı, Azərnəşr, 2014, 256 səh.

Kitaba müəllifin nəsr yaradıcılığında xüsusi yer tutan «İnsan dənizi» romanı daxil edilmişdir. Hadisələrin ötən əsrin səksəninci illərində cərəyan etdiyi romanda ölüm cəzasından xilas olmuş insanın taleyi fonunda özgələşmə probleminin bədii-fəlsəfi mahiyyəti aşkarlanmışdır.

**4702060201**
**M - 651 (07) 2013**

© Gənclik, 1992
© Azərnəşr, 2014

# «İNSAN DƏNİZİ»NDƏ TƏNHALIĞIN FACİƏSİ

Çağdaş dünya ədəbiyyatında romanın aparıcılığı yalnız onun bəlli janr çalarları ilə məhdudlaşmır, həmçinin burada qaldırılan hər hansı problemin hüdudsuz ifadə imkanları ilə şərtlənir. Bəlkə bu səbəbdən də ədəbi istedadın dəyərləndirilməsində ən mühüm meyar digər janrlardan daha çox romanın timsalında gerçəkləşir.

İmzası Azərbaycan oxucularına yaxşı tanış olan yazıçı Vaqif Sultanlının qələminə məxsus roman, povest, hekayə, miniatür, esse və digər janrlarda yazılan örnəklər təkrarsızlığı, bənzərsizliyi ilə seçilir. Bu, bir tərəfdən yazıçının istedadının mahiyyətindən qaynaqlanırsa, digər tərəfdən onun sözə ciddi münasibətindən irəli gəlir.

Müəllifin «İnsan dənizi» romanı çağdaş Azərbaycan nəsrinin təkrarsız örnəklərindən biri olmaqla, özünəməsus bədii özəlliklərə malikdir. Bu özünəməxsusluq romanın ideya-məzmun sərhədləri ilə məhdudlaşmayib, həmçinin forma, dil və üslub arealını əhatə edir.

Romanın mahiyyətində dayanan çeşidli problemlərin qovşağında tənhalıq fəlsəfəsi orijinal bədii həllini tapmışdır. Həmçinin qeyd olunmalıdır ki, burada tənhalıq klassik məzmun daşımayıb, daha çox çağımızın mənəvi ağrılarını oluşduran özgələşmə problemi müstəvisində gerçəkləşir.

«İnsan dənizi» romanında müəllifin yaratmış olduğu obrazlar daxili-mənəvi dünyasının bənzərsizliyi, təkrarsızlığı ilə seçilir. Yazıçı öz qəhrəmanlarını inandırıcı cizgilərlə, gerçək boyalarla canlandırmaq üçün bədii sözün bütün imkanlarından yararlanmağa çalışır. Kəsişən, çarpazlaşan münaqişələr fonunda obrazların mənəvi dünyasının müxtəlif baxiş bucaqlarından

işıqlandırılması fərqli çalar və cizgilərin üzə çıxarılmasına imkan verir.

Yazıçının bəhrələndiyi çeşidli bədii üsullar, tərz və üslub çevrilimləri hadisə və əhvalatların dramatizmini gücləndirir. Daxili monoloqların, fəlsəfi düşüncələrin üstünlüyü ilə müşayiət olunan süjet xətti həyatın sərt gerçəkliklərinə dayanan real hadisələri ehtiva edir. Müəllif təhkiyəsindən daxili monoloqlara çevik keçidlər əsərin bədii strukturunu kamilləşdirməklə yanaşı, psixologizmi artırır. Təsvir olunan lövhə və epizodların təsadüfi səciyyə daşımayıb biri-birindən törəməsi əsərin bədii tamlığını şərtləndirir.

«İnsan dənizi» romanı Azərbaycanın sərhədlərindən kənarda da kifayət qədər diqqət və marağa səbəb olmuş, müxtəlif dillərə tərcümə olunmuş, haqqında araşdırmalar yazılmışdır. Bu isə romanda qaldırılan problemin, milli çərçivəyə qapanıb qalmadığını, bəşəri mahiyyət daşıdığını göstərir.

Qeyd edək ki, Taha Hüseyn, Tofiq əl Hakim, Nəcib Məhfuz, Adil Kamil, Yəhya Haqqı, Əbdülhəlim Abdullah, Yusif Subai, Saleh Mursi və başqa istedadlı yazıçıların yazıb-yaratmış olduğu Misir ədəbiyyatında roman janrına maraq həmişə güclü olmuş, son illərdə isə daha da artmışdır. Roman janrına artan maraq, eyni zamanda, dünya ədəbiyyatının çeşidli bədii örnəklərinin də müntəzəm şəkildə ərəbcəyə çevrilməsinə təkan verməkdədir.

«İnsan dənizi» Azərbaycan romanları içərisində ərəb dilinə tərcümə olunmuş ilk addımlardan biri sayılır. Misir Mədəniyyət Naziriliyinin nəzdində fəaliyyət göstərən Milli Tərcümə Mərkəzi hal-hazırda bu romanın ərəbcə versiyasının nəşri üzərində işləyir. Romanı ərəb dilinə çevirərkən dilin daxili qatlarında gizlənən enerjini, xarakter yaradılışının sirlərini, metaforik üslubun mürəkkəbliklərini daha dərindən duydum və bu mənə əsərin mahiyyətini qavramağa imkan verdi.

Əsərin ərəbcəyə çevrilməsi həmçinin Misir və Azərbaycan ədəbiyyatının qarşılaşdırılması, müqayisəli tədqiqi üçün də yeni material verəcəkdir. Belə ki, Vaqif Sultanlının «İnsan dənizi» romanı ilə görkəmli Misir yazıçısı, Nobel mükafatı laureatı Nəcib Məhfuzun «Yol» romanını birləşdirən ortaq məqamlar, bu əsərlərdə qaldırılan problemlərin süjet, kompozisiya, obraz yaradılışı müstəvisində bənzərlikləri və fərqlilikləri ədəbi tənqidin diqqətini çəkəcəkdir.

Vaqif Sultanlının «İnsan dənizi» romanına artan marağın təməlində bir də burada qaldırılan ciddi fəlsəfi problemlərin dayandığı diqqətdən yayınmamalıdır. Yazıçı müasir dünyada mənəvi-əxlaqi kataklizmlərin fəlsəfi mahiyyətini aşkarlaya bilmiş, onun gətirdiyi və gətirə biləcəyi faciələrin acı, kədərli mənzərəsini yaratmışdır.

Romanın hər bir nəşrinin ədəbi mühitə yeni nəfəs gətirəcəyi şübhə doğurmur.

**Dr.Əhməd Sami El Aydi**
Qahirə, Misir

# PROLOQ

İyirmi ilə yaxın idi ki, onunçün şəhər büsbütün boşalmışdı; adamlarıyla, telefonlarıyla, maşınlarıyla... İyirmi ilə yaxın idi ki, qaranlıq, ümidsiz günlərinə söykənəcək olan kimsəsiz şəhəri dolaşırdı. Dan yeri ağarmamış qalxır, qaş qaralanacan şəhərin küçələri boyu aşağı-yuxarı gəzir, camaatın gur yerində dayanıb cındır papağını qabağına qoyurdu. Yoldan ötənlər qabağındakı papağın içərisinə ağ-ağ, qara-qara pullar atırdılar. Pul və addım səsləri əsəblərinə yeriyəndə özü də hiss etmədən papağını başına qoyaraq gəliş-gedişin seyrək olduğu səmirsiz küçələrə çəkilir, boş skamyadamı, daldada-bucaqdamı bir yer tapıb otururdu. Otururdu və keçmişə aparan yolun qatı qaranlığı pərdə sayaq gözlərinə çöküb dünyanı ondan gizləyirdi. Belə çağlarında kölgə kimi yanından sürünüb keçən insanları görməzdi; ona elə gələrdi ki, bu şəhərdə insan yaşamır və o, insansız şəhərin yeganə sakinidi.

Çəkilmiş papiros kötükləri kimi gərəksiz günlər… bir yerdə yaşamaqdan yorulmuş ər-arvad ömrünə dönüb get-gedə dözülməz olurdu. Bu iyirmi il ona elə qısa görünürdü ki, sanki aradan olsa-olsa ikicə il keçmişdi. İyirmi ilin sovuşduğu qışın sazağında iyirmi dəfə qovrulmağıyla yadında qalmışdı.

İllər ona kim olduğunu, neylədiyini, həyatının məqsədini, boyunu-buxununu belə unutdurmuşdu. Bu şəhərə necə düşdüyünü, kimliyini özündən savayı heç kəs bilmirdi. Vağzallarda, xaraba binalarda, dalanlarda – harda gəldi gecələyirdi. Bir yerə tez-tez getməyə qorxurdu. Qorxurdu ki, tanıyarlar, bilərlər, qovub şəhərdən çıxararlar. Onda hayana gedər, kimə əl açar, necə dolanar?

…Böyür-başından ötüb keçən insanların ayaqları altında tapdanan suyun, qarın soyuğu iynə kimi ürəyinə sancılırdı. Qəlbində bu kirli qarın, suyun içində yıxılıb ölmək qorxusu gəzirdi. Düşünürdü, özü, öz taleyi barədə düşünürdü, çünki indi

düşünməyə özgə bir şey qalmamışdı və düşündükcə yadından-yaddaşından yaşadığı ömrün, yaşadığı günlərin pərakəndə lövhələri keçib gedirdi. Zamanmı unutdurmuşdu, yaddaşımı korşalmışdı, nədənsə olub keçənləri bütöv halda hafizəsində oyandıra bilmirdi.

Elə bil küləyin qabağında lüt-üryan dayanmışdı, əynində paltar, bürünəcək deyilən şey yox idi. Dənizin nəmişli küləyi içərisinə dolur, ovcunda tutduğu xırda pulların dözülməz soyuğuna qarışaraq iliklərinəcən işləyirdi. Amma onu üşüdən təkcə bunlar deyildi, yaddaşının dərinliklərindən yel kimi əsib keçən xatirələrin bumbuz soyuğuydu.

Beynində dolaşan fikirlərin səsi qulaqlarında idi.

Qorxurdu ki, illərdən bəri sirrə, tilsimə dönüb onu özünə bağlayan bu şəhərdən ayrıla bilməsin və yaşadığı sərgərdan ömür bəxt kimi, qismət kimi alnına, taleyinə yazılmış olsun.

Bir vaxtlar bu şəhərdən biryolluq çıxıb getmək üçün bütün günü cibxərcliyi axtarardı. Yoldan ötənlərin rəhm eləyib verdiyi qəpik-quruşları boğazından kəsə-kəsə neçə dəfə yolpulu eləmək istəmişdi, amma hər dəfə də yoldaşları yığdığı pulları içkiyə xərcləmişdilər. O da onlara qoşularaq içib dünyanın dərdlərini unutmaq istəmişdi. Və içib dünyanın dərdlərini unutmaq istəyəndə elə bilmişdi ki, bir daha ayılmayacaq, hər şeyi, hər şeyi asanca unudacaq, içkinin şirin, dəli mürgüsünə ömrü boyu xumarlanacaq. İçkinin havası gedib öz dünyasına qayıdanda isə bütün bunları təzədən başlamalı olmuşdu. Beləcə hər şey təkrarlana-təkrarlana, illər yarpaq kimi ömründən tökülmüşdü və günlərin birində dərk eləmişdi ki, daha heç vaxt o yolpulunu yığa bilməyəcək.

Tramvayın kəsib atdığı sol qıçını şəhərdə basdırması haçansa bu yurddan çıxıb getmək ümidini birdəfəlik əlindən aldı. Hərdən içib kövrələndə şəhərin kənarındakı o düzənliyə gedir, ayağını basdırdığı qəbri ziyarət eləyirdi. Ona elə gəlirdi ki, təkcə ayağını yox, bütün vücudunu dəfn eləyiblər; qəbrin üstündə oturan o – insan deyil, ruhdu, kölgədi, xəyaldı, indicə uçub

havayamı, küləyəmi, səmayamı qarışıb itəcək, əbədi qalan varsa, yalnız torpaqdı, bu tənha başdaşıdı, torpağa qarışmaqda olan bir əlcə ət parçasıdı.

İndi o qəbri kimin ümidinə qoyub gedəcəkdi...

O, bu şəhərdə istəməyə-istəməyə yaşamışdı...yox... yox, yaşamağa məhkum olmuşdu. Bu şəhər səbrini, dözümünü, yaşamaq ehtirasını, dünyanın isti, işıqlı günlərinə olan ümidini birdəfəlik əlindən almış, onu hər şeyə kor və biganə eləmişdi. O, bütün bunları istəməyə-istəməyə qazanmışdı. Həyat özünün sərt, amansız oyunuyla ona çox şey öyrətmişdi. Bu neçə müddətdə qazandıqları xasiyyətinə keçmişdi, qanına işləmişdi, yaddaşına hopmuşdu.

Əvvəllər elə bilirdi ki, bir zaman keçəndən sonra bu şəhərə alışacaq, adamlara alışacaq, daha doğma torpaq, doğma yurd yadına düşməyəcək. Ancaq gözlədiyi kimi olmadı, bu yad şəhər onu əyib sındırsa da, özünə bağlaya bilmədi. Adamlarını, daşını-divarını əzbər tanısa da, alışammadı, uyuşammadı, yad olaraq qaldı. Bəlkə də şəhərə alışsaydı, qat-qat asan keçərdi onunçün. Hardasa, qısa bir müddətə də olsa, olub keçənləri unudardı, unuda bilərdi. Bəlkə bu yad şəhərə, yad insanlara bir zaman sonra ögey gözlə baxmazdı, özünü qərib sanmazdı. Amma neyləsin ki... bunu bacarmadı. Ona qənim kəsilmiş taleyin sərt, dolanbac gərdişindən heç cür yaxasını kənara çəkə bilmədi ki, bilmədi. Gecəli-gündüzlü ha fikirləşib çək-çevir elədisə, həyatını istədiyi axara, məcraya salammadı, işıqlı bildiyi səmtə yönəldəmmədi. Üz tutduğu yön divara, səddə dönüb önündə bitdi. Həyat onu başı gicəllənincəyə qədər fırladı. Heç imkan tapa bilmədi ki, böyür-başına baxsın, harda olduğunu, taleyin hara sürüklədiyini dərk eləsin. Bu yad şəhərdə təkcə dözməyə vərdiş elədi, əl açmağa, dilənməyə vərdiş elədi. Və şəhər onu o dərəcədə alçaltdı ki, indi özü-özünü tanıya bilmir. Düşüncələri, xatirələri də yadlaşıb, keçmişi də yadlaşıb ona. Ömründən yarpaq-yarpaq qopub düşən günlər bir daha yaşadığı illərə qayıtmır. O,

keçmişindən ayrılıb, yaddaşından ayrılıb. Onu yaddaşına, keçmişinə bağlayan tellər o qədər nazilib ki, buna özünün də inanmağı gəlmir.

İndi bu aydınlıq içərisində birdən-birə hiss eləyir ki, dönüb ayrı adam olmaq istəyir, arxada qoyub gəldiyi ömrə zərrəcə bənzəməyən tamam özgə bir ömür yaşamaq istəyir.

Həyatın məngənəsində elə sıxılmışdı ki, özü-özünün varlığına şübhə eləyirdi. Bu qədər arzularının, ümidlərinin puç olub getdiyinə inanmırdı. Ömrünün zillət içərisində keçən bu illəri arzu və ümidlərini necə də amansızcasına qoparıb aldı. Nəyi harda itirdiyini özü də bilmədi. O zaman ayıldı ki, bir can, bir quru cəsəddi, yeriyən meyitdi, qəbirdi. Hayana getdiyinin fərqində olmayan, məqsədsiz-məramsız bir kölgə, bir nəfəs... İllərin dolaylarında necə əyildi, necə sındı, necə təslim oldu, bilmir. Zamanın gərdişləri onu taleyinin quluna, köləsinə çevirmişdisə, indi nə edir-etsin, çətin ki, bu boyunduruqdan qurtula, xilas ola...

İnsanı idarə eləyən nədi? O hansı səsdən tutub gedir? Həyatını başqa cür qura bilməzdimi? Nə üçün bu yolu seçdi... Özümü seçdi bu yolu?.. O ki belə həyatı qətiyyən istəmirdi... Səbrin, dözümün də bir həddi-hüdudu olmalıydı axı... Bəlkə də o hadisə qaçılmazdı, taledi, qəzavü-qədərdi... Bəs axı, o hadisədən sonra taleyin amansız oyunundan gözlənilməz şəkildə çıxa bildi. Bu cür əzab-əziyyətdən sonra niyə təslim oldu, niyə özünü taleyin ixtiyarına buraxdı?.. Heç olmasa, bir az başqa cür, indikindən fərqli yaşaya bilərdi ki...

Ancaq həyat onun istəyi iləmi hərəkət eləyirdi? Eləcə zamanın təkəri fırlanır, həyatın məcrası, axını onu öz qoynuna alıb aparırdı. Elə sürətlə aparırdı ki, bir anlıq fikirləşməyə, hadisələri ölçüb-biçməyə vaxt, imkan tapmırdı. Ən dəhşətlisi bu idi ki, özünün dözümünə, səbrinə heyrət eləyirdi. Necə olmuşdu ki, istəməyə-istəməyə bu illəri yaşamışdı...

Günlər qar dənələri kimi hiss olunmadan əriyib gedirdi.

Əgər istədiyin kimi yaşaya bilmirsənsə, qismətin müti köləsinə dönüb bircə dəfə yaşayacağın ömrü necə gəldi xərc-

ləməyə məcbur olmusansa, ona həyat demək olarmı, ömür demək olarmı? Bəlkə belə yaşamaqdansa, taleyə boyun əyib ölümü intixab eləsəydi, daha şərəfli olardı. «Ah, şərəf!». Bu sözün nə olduğunu unutmuşdu, özü də duymadan, hiss eləmədən, körpəlikdə gördüyü yuxu kimi unutmuşdu.

...Vağzal reproduktorundan gəmilərin hərəkət vaxtı elan edilirdi. Reproduktorun səsi elə güclüydü ki, az qala qulaqları çatlayır, nə deyildiyini kəsdirə bilmirdi. Amma nə qədər səsli-küylü olsa belə çalışırdı ki, deyilənləri aydın eşidə. Və inanırdı ki, haçansa reproduktordan özüylə bağlı bir söz eşidəcək; ona hansısa bir xəbəri verəcəklər, yaxud kiminlə harda görüşəcəyini elan edəcəklər. Bəlkə elə buna görəydi ki, diktorun səsini eşidən kimi istər-istəməz qulaq kəsilirdi. Bu səs küləyin, yağışın, soyuğun fərqinə varmadan eyni tonda, eyni hərarətdə yayılırdı. Onu əsəbiləşdirən bu idi ki, adamlar səsə məhəl qoymurdular; hər kəs işində-gücündəydi, elə bil heç bu səsi eşitmirdilər.

«– Əkrəm!».

Arxadan kimsə onu adıyla səslədi. Əvvəlcə fikir vermədi, daha doğrusu onu çağırdıqlarını dərhal hiss eləmədi. Çünki adını unutmuşdu, özü də fərqinə varmadan unutmuşdu.

«– Əkrəm!».

Səs onu çəkib saxladı.

Qəfil adını xatırladı. Və diksinişlə xatırladığı bu ad ılıq bir duyğuya dönüb yaddaşına yayıldı; özünə yazığı gəldi. Elə bil uzun müddət idi ki, fikri-düşüncəsi yalnız adını xatırlamaq ilə məşğul idi. Ancaq birdən-birə adını xatırlaması onu sevindirmək əvəzinə kədərləndirdi.

«Aman allah...».

«...Aman allah, insan da...».

«...insan da öz adını...».

«öz adını unudarmış...».

«...unudarmış...».

Yadına düşdü ki, indicə onu çağırırdılar. O öz adını yadından çıxarsa da, kimsə, hardasa hələ bu adı unutmayıb. Onun adı, varlığı kimlərinsə yaddaşında yaşayır.

Dönüb səs gələn səmtə baxdı. Kimsə görünmürdü.

Bir xeyli gözlərilə adamların arasında o yan bu yanı gəzdi, amma onu tanıya biləcək tanış bir üz görmədi.

Bəlkə qulaqlarına səs gəlir... Yoxsa bu yad şəhərdə, yesir kökündə kimdi onu gendən-genə tanıyıb bilən, adıyla çağıran?..

Özünü ələ alaraq qulağına səs gəldiyinə əmin halda yoluna davam elədi. Ancaq bir qədər getməmiş eynən bayaqkı səslə çağırdılar. Dərhal geriyə çevrildi – səs gələn səmtdə heç kəs yox idi.

Bu nə olan işdi? Aydınca öz adıyla çağırırdılar, amma səsin hardan gəldiyini bilmir. Elə bil səs qeybdən, bilinməzlikdən gəlir. Bəlkə də tanıyan-bilən kimdisə, qəsdən onunla əylənmək istəyir, indicə gizləndiyi yerdən çıxıb özünü göstərəcək. Bu amansızlıqda əyləncəmi olardı?..

«– Əkrəm!».

Bayaq uzaqdan eşidilən çağırış indi lap yaxından, ikicə addımlığından gəldi. Qeyri-ixtiyari döndü. Arxasınca tanımadığı bir adam gəlirdi. O adamın gəlib çatması üçün dayanıb gözlədi. Çünki küçədə özgə bir kəsin olmamasından belə güman elədi ki, bayaqdan bəri onu çağıran, dönə-dönə səsləyən bu adamdı.

Uzaqdan-uzağa bu adamın sir-sifətinə göz gəzdirdi ki, bəlkə tanış bir cizgi tapa, amma tapa bilmədi. İndi bu adamın nə istədiyindən, kimliyindən daha çox, onu hardan tanıması, adını kimdən öyrənməsi maraqlandırırdı.

Amma yad adam ona məhəl qoymadan sakitcə yanından ötüşüb vağzal pilləkənlərini qalxdı, yaylı qapını açıb gözləmə zalına girərək izdihama qarışdı.

O adam gözdən itənədək dayanıb mat-mat baxdı.

«– Əkrəəəm!..».

Elə ucadan səslədilər ki, vücudu titrədi.

Qeyri-ixtiyari:

– Heyyy! –dedi. Və bayaqkı çevikliklə çevrilib dörd bir yana baxdı – yox, kimsə gözə dəymirdi.

Qarşıdakı park səmtə boylandı. Yağışın islatdığı ağaclar zəif mehdən titrəşirdilər.

Fələk, başına havamı gəlir, dəlimi olur, yoxsa qaramı basır. Bu nə sirrdi, nə bəladı düşüb?

Onu çağıran səs qulaqlarında hey təkrar olunur. Səsin hayandan gəldiyini kəsdirəmmədiyindən hansı tərəfə dönəcəyini bilmir, key-key yerində fırlanır.

# I FƏSİL

Onu nələr gözlədiyini düşündükcə bütün vücudu gərilirdi və elə bilirdi ki, damarlarının qanı dayanıb, axmır. Məhkəmənin belə hökm çıxaracağı yatsa yuxusuna da gəlməzdi. Zalda oturanlar da gözləmirdilər. Tamam günahsızdı, bu işdə qətiyyən təqsiri yoxdu. O qədər bezdirmişdilər ki, on ilə də dözərdi, on beş ilə də. Amma güllələnmə?.. Aman allah!.. Hər şeyin sonu, nəhayəti!.. Bu barədə qətiyyən fikirləşməmişdi.

Bütün fikri, düşüncəsi çalpaşıq düşmüşdü. Bu çalpaşığın içərisində hər şeyin səmtini, yöndəmini itirmişdi. Ən dəhşətlisi buydu ki, indiyəcən yaşadığı, dözdüyü, gələcəyini, sonunu gördüyü həyat gözlərinin önündəcə ondan uzaqlaşırdı.

... Hər şey bir amansız təsadüf ucundan necə də məhv olub getdi... Nə qədər arzuları, qayğıları, görülməmiş işləri vardı. Gecələr yadına düşəndə yuxusu çəkilərdi, ta səhərəcən yatağında qovrulardı. Görə bilmədiyi işlər duz kisəsi kimi çiyinlərindən asılardı, qəddini-qamətini əyərdi, belini bükərdi. Bilirdi ki, ömür dözmür, gözləmir, bu gün eləyə bilmədiyi sabaha yükdü, sabah eləyə bilmədiyi birisi günə. Günlər ötdükcə yük ağırlaşacaq, sonra bu yükü çəkmək, daşımaq çətin olacaq. Ən qəribəsi də, vaxtdan gileyləndikcə vaxt yel atına minirdi; günün hardan doğub harda batdığını bilmirdi, görmürdü. Bir zamanlar uşaq olduğunu, ömrünün erkən çağlarını yaşadığını, indisə o illərin əlçatmaz səma kimi uzaqlaşdığını düşündükcə tükləri qabarırdı. Ömrün qəfil sovuşduğuna, vaxtın saat əqrəbi kimi bilinməz hərəkətinə inana bilmirdi.

Bir dəfə yaşlı bir kişinin dəfnində iştirak eləmişdi. Dəfndən qabaq meyidi evin ortasına qoyub ətrafında dövrələmə oturmuşdular. Meyidə məhəl qoymadan yeyib-içirdilər. O da bir tərəfdə oturmuşdu. Yas yerində nə vaxtsa dilinə bir şey vurduğu yadına gəlmirdi. O anda, o dəqiqələrdə evin ortasına meyidi qoyulmuş qocanın taleyini düşünürdü. Bir vaxtlar onun doğuluşu intizarla gözlənilmiş, körpə olmuş, qucaqdan-qucağa gəzmiş,

dünyanın ən xoş sözlərilə əzizlənmişdi. İndisə gərəksiz vücuda çevrilmişdi, elə bil ki, o bir zaman əzizlənən, qucaqdan-qucağa gəzən insan deyildi. Onun öləcəyini bilirdilər, gözləyirdilər, istəyirdilər. Buna görə də dəfnində göz yaşı yoxdu; eləcə laldinməz yeyib-içirdilər. Bir azdan aparıb torpağa quylayacaqlar və daha bundan sonra adı tutulmayacaq, anılmayacaq, xatırlanmayacaq...

Dəfndən sonra uzun zaman özünə gələ bilməmişdi. Çünki bu dəfn ömrün, həyatın puç və mənasızlığını, ölümün labüdlüyünü, qaçılmazlığını ona xatırlatmışdı. «İnsan ölümə yaxınlaşdığını bilə-bilə niyə tələsir, niyə vaxtı qabaqlamağa çalışır, niyə zamanın təkərini saxlamır, saxlamağa cəhd eləmir, hələ üstəlik fikri-xəyalı vaxt, zaman haqqında düşüncələrə gedir... İnsanın axtardığı, can atdığı, uğrunda ölümün varlığını, labüdlüyünü unutduğu nədi? Səadətmi? Xoşbəxtlikmi? Axı, insan niyə buna can atır, niyə bunu özünün halal haqqı sanır? Niyə düşünmür ki, axtardığı, vaxt-bivaxt can atdığı səadət nə olan şeydi belə, bunu kim vəd eləyib, haçan vəd eləyib ona?».

O dəfndən sonra başa düşmüşdü ki, ömürlə, tale ilə, zamanla bağlı düşüncə bir anlıq olmalıdı, insanı özündən bircə anlıq ayırmalıdı, yoxsa bu düşüncələrə dözülə, tab gətirilə bilməz. İnsan insan kimi yaşamaq üçün işığına, istisinə pənah gətirdiyi dünyanın acı, amansız həqiqətlərini unutmağı bacarmalıdı, unuda bilməlidi, getdiyi yolun bitəcəyini, tükənəcəyini yaddan çıxarmalıdı, vaxt, zaman haqqında düşüncələrdən qopmalıdı, ayrılmalıdı. Yoxsa, həyatının necə gəlib-keçdiyini bilməyəcək, özü öz əlilə ömrünü-gününü qara eləyəcək...

– Hər şey bitdi! – Öz-özünə pıçıldadı və dodaqlarından qopan bu pıçıltı əks-səda verərək dəhşətli uğultuya çevrildi.

Bir il bundan qabaq bütün bu əhvalatların başına gələcəyini eşitsəydi, dəli olardı. «İnsan qəribə məxluqmuş, gərək onu nələr gözləyəcəyini, taleyin hansı səmtə sürükləyəcəyini bilməsin. Sən demə, yaşamaq naminə gələcək gizli və dumanlı qalma-

lıymış, insan sabahından xəbərsiz ömür sürməliymiş. Sən demə, həyatın sirri, sehri də elə bu qaranlıq və gizli olmağındaymış».

Bu dəhşətli hadisə necə oldu ki, gözlənilmədən baş verdi? Axı, o əzilsə də, alçalsa da, belə dəhşətli hadisənin baş verəcəyini gözləmirdi. İnanmırdı, heç cür inanmırdı ki, belə bir hadisə onun əlindən çıxa – adam öldürə.

Əvvəlcə sakit-sakit, səbrlə, hövsələ ilə qulaq asırdı. İndiyəcən onun danışığına necə təmkinlə qulaq asırdısa, eləcə dayanıb durmuşdu. Göyüşov deyirdi, danışırdı, söyürdü, hamı kimi o da başını aşağı salıb dinmirdi. Ancaq birdəncə darıxmağa başladığını hiss elədi, sanki sözlər, cümlələr tüpürcək idi, deyilmirdi, tüpürülürdü. O, tüpürcəyin üzünə-gözünə necə çırpıldığını, yanaqları aşağı axıb çənəsinə yığıldığını, boynunu-boğazını islatdığını duyurdu. Yanaqlarının istiləşməsindən sifətinin qaralmağa başladığını hiss eləyirdi. Sanki içərisində qorxu deyilən ağır bir yük qaldırırdı. Bu yükün ağırlığı üzünün cizgilərinə, gözlərinin rənginə çökmüşdü. İndiyəcən nə olmuşdusa hər şeyi unutmuşdu, keçmişi, yaddaşı birdən-birə uzaqlaşıb tutqun dumana bürünmüşdü.

Əsəbləri gərilib sümüyə dönmüşdü. Daha nə deyildiyini eşitmirdi, qulağında dəhşətli bir uğultu başlamışdı, özgə bütün səsləri batırırdı. Ağzının tərpənişindən Göyüşovun hələ də danışdığını hiss eləyirdi. Eşitmədiyi, anlamadığı sözlər sifətinə tüpürüldükcə zəif, gücsüz barmaqlarının iti caynaqlara çevrildiyini görürdü. Caynağa çevrilən bu barmaqlar sözünə baxmırdı, özgəsininmiş kimi yad hərəkətlər eləyirdi.

Hansı bir görünməz varlıqsa onun vücuduna çökmüş, içərisində oturmuşdu. Hiss eləyirdi ki, dayana bilmir, dözə bilmir. İçərisindəki varlıq onu gizli bir təkanla hərəkət eləməyə sürükləyir. Hiss eləyirdi ki, o varlıq bütün hərəkətini tənzim eləyir. Öz-özünə qıcanan, caynaqlara çevrilən barmaqlarına baxdıqca canına üşütmə düşürdü. Nə qədər eləyirdisə, əlləri, barmaqları açılmırdı. Ona elə gəlirdi ki, dırnaqları uzanıb iti caynaqlara çevrilir.

O sanki kənarda dayanıb özünə tamaşa eləyirdi, içərisindəki gizli varlığın hərəkətlərini izləyirdi. Budur, əlləri yavaş-yavaş torpağa sarı əyilir, nə qədər eləyirsə, torpağa sarı uzanan əllərini saxlayammır. Əllər görünməmiş bir cəldliklə torpaqda gəzməyə başlayır. Sonra əllər hardansa o dəmir parçasını tapır. Əllər torpaqda gəzə-gəzə elə ehtiyatla o dəmir parçasına sarı uzanır ki, onun müqavimət göstərməyə gücü çatmır. İlahi, barmaqlar o dəmir parçasından necə yapışıb... Bütün kini, nifrəti axıb barmaqlarının ucuna yığılıb, əlləri od tutub yanır...

– Aaa-xxxx!!!

Əllər bu dəmir parçasını necə selbələdi, fələk! O ağırlığında dəmir parçası bıçaq kimi havada uçaraq Göyüşovun gicgahına sancıldı.

Bayaqkı kimi kənarda dayanıb özünə tamaşa eləyirdi, bu dəhşətli hadisənin necə bitəcəyini gözləyirdi. Göyüşov yerə yıxılan andaca hiss elədi ki, onu gic bir titrətmə tutub, yarpaq kimi əsir və nə illah eləyirsə, titrətməsi dayanmır. Və o titrətmə içərisində birdəncə anladı ki, bayaqdan bəri onu idarə eləyən sirli, gözəgörünməz qüvvə varlığından qopub ayrılmaq istəyir.

O yerə yıxılıb qan içində çabalayan insanı deyil, tüstüyə, dumana çevrilərək varlığından ayrılıb gedən o gizli qüvvəni görür, hiss eləyirdi.

Bu qorxunc mənzərədən başı gicəllənirdi və yıxılmamaq üçün gözlərini yumdu. Handan-hana gözlərini açanda baş gicəllənməsi çəkilmişdi. Göyüşovun qan içində çabalayan cəsədi bir az qabaq ona yuxu kimi görünən dəhşətli hadisənin həqiqət olduğunu xatırladırdı və bu amansız həqiqəti özündən qovmağa, uzaqlaşdırmağa gücü, iradəsi çatmırdı.

İlahi, bu qan qoxusu, qan rəngi! Necə sakit dayanıb baxa bilir... Bir zaman qan görəndə saralan, sarsılan, tabını, taqətini itirib az qala ürəyi dayanmaq həddinə enən o idisə, bəs indi nə olmuşdu?..

İnsan elə qanmış, başdan-ayağa kimi qanmış. Gör bir necə axdıqca axıb gedir... İnsanın qanı kəsilməsə, insan özü axıb-axıb tükənər, axan qanla birgə qurtarıb gedərmiş. İndi yıxılıb çabalayan cəsədə baxdıqca insanın ağappaq vücudunda qırmızı qan gəzdirdiyinə inanmırdı, inana bilmirdi. Damarlarından axıb gedən bu qan nə idisə dipdiriydi, canlıydı. Bəs, axı insana həyat verən, hərəkət verən qan niyə onu qorxudurdu? Qanın rəngində, qoxusunda nə vardı ki, belə vahimə doğururdu, qorxu yayırdı. Bəlkə insanın içərisində həyat olan qanın bədəndən axıb getməsi elə həyatın axıb getməsi demək idi, ruhun, yaddaşın axıb getməsi demək idi. Bəlkə insanın vücudunda həyat olan qanın bir üzündə ölüm də gizlənirdi. Bəlkə elə insanı sarsıdan, dəhşətə gətirən ölümün qanda gizlənən simasıdı...

Yoxsa canında gəzdirdiyi qan insanı niyə dəhşətə gətirməliydi... Niyə insan qandan qorxub çəkinməliydi. İnsan qandan qorxursa, əslində qanda gizlənən ölümdən qorxmurmu? Axı, insan yalnız ölüm qarşısında belə sarsıla bilər...

Hələ qanın iyi – iliyinəcən işləyən bu dəhşətli qoxu huşunu başından çıxarırdı. Ürəyi gəlib ağzına dayanmışdı. Bəlkə ayrı vaxt olsaydı, içi-içalatı ağzına dayananacan nə yemişdisə qaytaracaqdı, amma onu saxlayan, qaytarmağa qoymayan qanın vahiməsi idi.

... Və hələ də yıxılıb çabalayan, çabalaya-çabalaya tabdan düşən cəsəd gözlərinin qabağındaydı. İndi də xəyalına gətirəndə bütün ruhu, varlığı sarsılırdı. Bu hadisə birdən, qəfildən baş vermişdi, bir an içərisində bitmişdi. Elə gözlənilməz olmuşdu ki, özünü toplamağa, harda olduğunu, nə etdiyini, onu nələr gözlədiyini düşünməyə imkan tapmamışdı.

Meyitdən aralanmaq istəyirdi, ancaq bacarmırdı; qan tutmuşdu onu. Elə bil ayaqları torpağa buxovlanmışdı və onu nə isə sirli, görünməz bir əl tutub saxlayırdı ki, elədiyi cinayətə təkrar-təkrar baxsın. Tutub saxlayırdı ki, elədiyi cinayətin ağırlığını, çəkisini təkrar-təkrar duysun, bilsin, ağrısın. Tutub saxlayırdı ki...

Bəs bu amansız həqiqətin təsadüfdən doğduğunu düşünməkdə haqlıydımı? Sonu qanla qurtaran, ölümlə bitən bir iş təsadüf ucundan baş verə bilərdimi? Hansı yöndən baxırdısa, inanmırdı, inana bilmirdi buna. Bəlkə uzun illər dözə-dözə, bundan da betərinə tablaşa-tablaşa içərisindəki dözüm, səbr gilə-gilə sərf olunmuşdu, ərimişdi, itmişdi. Bəlkə buna görə o anda, o dəqiqədə özünü saxlaya bilmədi, səbrini basa bilmədi?..

Açılmaz düyün kimi sirli olan bu suallar onu hədsiz dərəcədə yorurdu. Nə qədər fikirləşsə də, bu sualların məngənəsindən xilas ola bilmirdi, qurtula bilmirdi, sakitliyə, asudəliyə aparan çıxış yolu görmürdü.

İndi ötmüş vaxtın soyuqqanlılığıyla baş vermiş o hadisəni təzədən yaşayanda nə günahın yiyəsi olduğunu dərk eləyə bilmirdi.

...Ömür yolunda necə də birdən-birə uçurum yarandı. Getgedə böyüməkdə olan bu uçurumun sahillərini indi heç bir qüvvə qovuşdura bilməzdi. Ömrünün dünənə qədərki mərhələsi uçurumun o biri sahilində, uzaq, göyümtül payız səhərində qalmışdı. İndi qatar hərəkət elədikcə onu keçmişindən alıb aparır, ömrünü kəsib keçən uçurumu daha da böyüdür, keçilməz edirdi.

Dünənə qədər qatar gəmi-bərədəydi. Onda bütün günü gözləri ucu-bucağı bilinməyən göy sulardaydı. Ah, illərlə sahilində yaşadığı bu dənizin sonu, qurtaracağı yoxmuş, elə hey uzanır, uzanır... O isə bunu bilmir, dənizin belə böyüklüyünü ağlına belə gətirmirmiş.

Gəmi-bərə dənizin sakit, fırtınasız sularını yara-yara irəliləyir, pərlərdən çıxan suyun şırıltısını güclə eşidirdi.

...Kaş indi dənizin qoynunda olaydı. Göy, sakit suların köksündəcə yorulana qədər üzər, sonra...sonra dənizin göz yaşı kimi sularına təslim olardı. Eləcə arxası üstə uzanar, ömrünün ən əziz günlərini yadına salardı. Yadına salardı ki, illəri hədər yerə xərclədiyini duymasın, bilməsin. Heç kimi köməyə, fəryada çağırmazdı, sakitcə allahın ona bəxş elədiyi bu xoşbəxt ölümü göz-

ləyərdi. Ancaq kimdi bu xoşbəxt ölümü ona qıyan, bağışlayan... Ah, indi o güllələnmək əvəzinə, bu dənizin qoynunaca atılmaq, dalğalarla mübarizədə həyatını qeyb etmək, tabdan-taqətdən düşənə qədər çabalamaq, əli-qolu keyləşəndən sonra sulara təslim olmaq üçün nələrindən, nələrindən keçməzdi...

Gəmi-bərə hiss olunmadan irəliləyirdi. Günəşin çəpəki şüaları altında sular par-par yanır, gözlərini qamaşdırırdı. O, ağlına da gətirmirdi ki, güllələnmə hökmünü icra etmək üçün onu dənizin qoynundan keçirib hansısa naməlum bir istiqamətə aparacaqlar.

Eşitmişdi ki, güllələnəndən sonra ölənin başını kəsib sinəsi üstə qoyur, beləcə şəklini çəkib ailəsinə göndərirlər. Onun da şəklini olsun ki, bu cür çəkib göndərəcəklər. Və...xəfif-xəfif ləpələnən dənizin qoynunda ölmək qisməti olmayacaq. İlahi, o necə də mavi sulara təslim olmaq istəyir, sularda ölmək istəyir...

Bütün gecəni gəmi-bərə dənizin qoynu ilə üzdü. Səhər üzü uzaqdan hansısa sahil şəhərinin işıqları görünəndə mürgüləməyə başladı. Mürgüsü çəkiləndə artıq dəniz arxada qalmışdı. Qatar səhranın qoynuyla taraqqataraq hərəkət eləyirdi. Qatarın dənizdən aralanmağıyla onun göy sularda ölmək ümidi də ixtiyarsız qeyb olmuşdu.

...Qatar uğuldaya-uğuldaya səhranın ortasıyla keçib gedirdi. Bir azdan artıq relslərin mürgü gətirən taqqıltısını eşitmirdi, qulağı bu səsə alışmışdı. Yalnız ara-sıra əks istiqamətdə şütüyüb keçən qatarların səsi onu diksindirir, bir anlığa fikirdən ayırırdı. Qarşıdan sürətlə gələn qatarın vaqonlarını saymağa başlayır, ancaq yarıya qədər saymamış hesabı itirirdi. Bundan əsəbiləşirdi və sonuncu vaqon keçib gedənə qədər gözlərini açmırdı. Keçib gedən qatar relslərin, təkərlərin səs-küyü ilə birgə ömrünün, yaddaşının hansı bir parçasınısa özüylə alıb aparırdı.

Dəmir şəbəkənin arxasından bütün səhra – ucu-bucağı bilinməyən qum dənizi mil-mil görünürdü. Qatar bu ucu-bucağı bilinməyən qum dənizini arxada qoyub gedirdi. Qatar onun keçmişini, ömrünün yaşanmış illərini, xatirələrini – indiyəcən

olub bitən nə vardısa, arxada qoyub gedirdi. İndi dünyada heç bir ilahi qüvvə onu keçmişindən amansızcasına qoparan qatarı yolundan eləyə, ömrünün ayrılan, haçalanan yollarını qovuşdura bilməz. Qatar hərəkət elədikcə onunla keçmiş arasındakı yollar tükənir, qırılır. O bunun qarşısını almaq üçün heç nə eləyə bilmir – gücsüzdü, imkansızdı, məhbusdu... Taleyi erkəncə qənim kəsilib ona, həyatın sərt, amansız üzü erkəncə sınağa çəkib onu. Özü də bilmədən insanlıq haqqı, yaşamaq haqqı əlindən alınıb.

Qatar bayaqkı sürətlə səhranın qoynundan keçib gedir. Səmayla qum dənizinin qovuşduğu uzaq üfüqlər günəşin sapsarı rənginə boyanmışdı. Səhra kipriklərinə kimi sapsarı rəngə boyanmışdı.

Qatar gedir.

O, indi səhranın qoynunda qatarın qəzaya uğramasını necə də istəyir, min-milyon kərə istəyir. Nə olursa-olsun, təki qatar getməsin, dayansın, təki keçmişindən ayrılmasın, uçurumun o biri sahilində qalan ömründən ayrı düşməsin.

İndi onu keçmişindən alıb aparan qatarın vaqon-kamerasında ölüm qorxutmur. Ölə bilər. Ölmək istəyir, hər cür ölümə hazırdı. Təki güllələnməsin...

Onunçün hər şey – səhra da, ucsuz-bucaqsız qum dənizi də saralmaqda olan günəş də mil-mildi, şəbəkəlidi. Bundan belə ta güllələnmə hökmü yerinə yetiriləncən o, dünyaya şəbəkələr arxasından baxacaq, dünyanı şəbəkələrdən süzəcək. Dünya ilə onun arasındakı bu dəmir şəbəkələri heç nə qopara bilməz...

Bir anlığa hər şeyi unudanda ona elə gəlirdi ki, bütün bunlar yuxudu, əfsanədi, onu güllələnmə cəzasına məhkum eləməyiblər, tamam azaddı, sərbəstdi, vaqon-kamerada deyil, bir adamlıq kupedə çox sevdiyi hansısa bir şəhərə səyahətə gedir. Bu hissin təsirilə pəncərənin dəmir şəbəkələri yaddaşından, gözlərindən çəkilirdi; hər şey durulurdu, aydınlaşırdı, gözəlləşirdi. Ancaq heyhat... Bir an sonra yenə dünya gözlərində şəbəkələrlə, millərlə bəzənirdi.

Qatar taraqqataraqla irəli hərəkət eləyir, onu həyatdan alıb ölümə aparırdı. Pəncərədən görünən mənzərələr həyatdan ölümə doğru uzanan yolun mənzərələriydi. Arxada həyat durur, keçmiş durur, qarşıda gələcək, ölüm! Qatar həyatla ölüm arasında hərəkət edir. Qatar təkərlərinin yeknəsəq səsi həyatdan ölümə aparan yolun hər an, hər saniyə qısaldığını xatırladır. Bu səs vaxtı yeyən saat səsi kimi beynində səslənir, bircə anlığa belə bu düşüncələrdən qopmağa qoymur.

Hadisələrin yönü, səmti necə də birdən-birə döndü. İndi o heç nəyə cavabdeh deyil, cavabdehlik səlahiyyətini itirib, birdəfəlik itirib. Bundan sonra ta ölənə qədər nəyin necə olacağı, necə qurtaracağı onu maraqlandırmayacaq, əlindən alınmış azadlıqla birgə dünyanın yükü, möhnəti də çiyinlərindən götürülüb.

Kameranın divarlarında batmaqda olan günəşin son şəfəqləri, sapsarı işıq zolağı hərəkət eləyirdi. Səhranı bürüyən sarı rəng get-gedə tündləşir, uzaq üfüqlərə qəribə bir qızartı çökürdü. Axşam ağlasığmaz bir sürətlə düşürdü. Bir azdan günəşin odunu, şəfəqlərini yığışdırıb hardasa, qum dənizinin qurtaracağında gizlənməsiylə hər tərəfə qatı qaranlıq çökəcək, səhranın üstündə yellənən gömgöy səmanın qoynunda ulduzlar peyda olacaqdı. Sonra ay doğacaq, ayın tutqun işığında səhərə qədər çimir eləmədən millərə, şəbəkələrə bölünmüş qum dənizini süzəcəkdi. Çünki onun başqa bir işi, məşğuliyyəti yox idi, təkcə buna haqqı çatırdı. Güllələnmə hökmü yerinə yetiriləndən ona dünyanı şəbəkələr arxasından görmək haqqı verilmişdi, yalnız dəmir, keçilməz şəbəkələr arxasından.

Qatar səhranın qoynuyla inadla hərəkət eləyirdi.

Ah, kaş ki, bütün bunlar yuxu olaydı, gecənin bir aləmi qəfil diksinişlə ayılıb görəydi ki, evində – kirayədə yaşadığı o darısqal divarların arasında ailəsi-uşaqları ilə birlikdə uzanıb yatır. Bütün günü əlləşdiyindən arvadı Züleyxa daş kimi düşüb qalıb, körpələrin ikisinin də üstü açılıb. Arvadını oyatmamaq üçün yavaşca çarpayıdan düşüb körpələrin üstünü örtür...

Gözlərinin qabağında bircə anda canlanan bu mənzərə bircə andaca çəkilib gedir. Ah, güllələnmə!.. Yox, yox... Ola bilməz... Bu yuxudu, ayılacaq, mütləq ayılacaq... Qoy hələ yuxusu bir az uzansın. Belə yuxuları görmək ona görə lazımdı ki, insan həyatda öz xoşbəxtliyinin qədrini bilsin, özünün xoşbəxtliyinə inansın. Başa düşsün ki, elə xoşbəxtlik arın-arxayın yatmaqmış, sakit yaşayışmış, evmiş, ailəymiş... Buna inanmaq, əmin olmaq üçün bu yuxunu görməlidi, mütləq görməlidi. Axı, neçə dəfə olub ki, ağır yuxulardan sonra qan-tər içərisində oyanıb qalxıb, özünə gəlmək üçün yerinin içərisində saatlarla oturub. Bəzən sevindiyindən, yuxunun həqiqət olmadığına sevindiyindən durub evdən çıxıb, ta səhərə kimi gözlərinə yuxu getməyib, ta səhərə kimi gecənin qaranlığında var-gəl eləyib. Ürəyində təskinlik tapıb ki, nə yaxşı yuxuda gördükləri həyatda başına gəlməyib. Nə yaxşı bütün bunlar yuxudu. Kaş ki, indi də belə olaydı... Səhər üzü yuxudan ayılaydı. Bircə bununçün hər şeyindən keçməyə hazırdı, təki bütün başına gələnlər yuxuda olsun, yuxuda baş versin.

Qatar səhranın qoynuyla uğuldaya-uğuldaya hərəkət elədikcə bütün bu əhvalatların yuxu olduğuna inamını itirir. Çünki yuxudusa, bunun bir sonu, nəhayəti olmalıdı. Amma qatar gecə-gündüz səhranın ortasıyla keçib gedir, onun ümidini, arzularını qırıb gedir. Belə yuxu olmaz, heç cür ola bilməz. Nə qədər amansız, dəhşətli olsa da, bu həqiqətdi. Həyatın sərt üzüdü, daş üzüdü. Həyatı öz rəngində, öz görkəmində görür.

Aman allah, bu həyatdı, bütün bu əhvalatlar onun əllərindən çıxıb. Bütün bu cinayətləri o törədib, öz əllərilə törədib. Nə baş veribsə, onun əlilə, iştirakı ilə olub...

Əllərinə baxır; elədiyi cinayətin, ona yuxu kimi gələn cinayətin izlərini axtarır. Ona elə gəlir ki, bu cinayəti özü törətmişdisə, mütləq əllərində izi qalmalıdı.

Və birdən-birə darıxdığını, bədəninin istiləşdiyini duydu. Bu hiss ona tanış idi. Qəfil ümidsizləşəndə, gücsüzlüyünü, əlac-

sızlığını dərk eləyəndə bu hissi keçirərdi. Elə bil bu çağacan ölümə getdiyini, ona güllələnmə kəsildiyini bilmirdi və ölümün qoxusunu – qorxusunu indicə duymuşdu. Bu balaca, biradamlıq vaqon-kamerada birdəncə darısqallıq duydu. Nəfəsi darıxdı, ona elə gəldi ki, içəridə hava çatışmır, indicə boğulacaq və səsi-ünü heç yerə yetməyəcək, dadına-imdadına kimsə gəlməyəcək.

Dartıb köynəyinin yaxasını cırdı. Ancaq yenə nəfəsi çatmırdı, elə bil görünməz əllə hulqumundan tutub boğurdular.

Qalxıb kameranın qapısını itələdi. Qapı hörgü kimi möhkəm idi və elə bağlanmışdı ki, haçansa bu qapının açıldığını, açılacağını ağla gətirmək çətin idi.

Yumruğu ilə kameranın dəmir qapısını döyməyə başladı.

Səs gəlmirdi. Bu cür səslərə öyrəşdiklərindəndimi, yoxsa eşitmədiklərindəndimi ona məhəl qoymurdular. Bir anlığa ona elə gəldi ki, bu vaqonda ondan başqa heç kəs yoxdu, onu güllələnmə cəzasına deyil, eləcə biradamlıq vaqon-kamerada ömürlük həbs cəzasına məhkum eləyiblər. Ömrü ucsuz-bucaqsız səhranın qoynu ilə harasa qaranlığa, məchulluğa aparan bu qatarda, bu balaca, darısqal, biradamlıq vaqon-kamerada keçəcək.

– Açıın!!! – elə bağırdı ki, özü öz səsindən diksindi.

Səs möhkəm, keçilməz divarlara çırpılıb bir neçə dəfə əks-səda verdi.

Var gücüylə kameranın dəmir qapısını döyürdü. Hirsi, nifrəti elə kükrəyib qalxmışdı ki, əllərinin al qan içərisində olduğunu hiss eləmirdi.

– Əc-laf-lar, al-çaq-lar! – Yumruqları ilə qapını döyə-döyə bağırırdı.

Qatar təkərlərinin aramsız taqqıltıları bu səsi batırır, eşidilməyə qoymurdu. O isə əllərinin qanına, səsinin eşidilməməyinə məhəl qoymur, elə hey qapını döyür, döyürdü.

Bir azdan yorulmuş, süstləşmiş halda taxta oturacağa çöküb vaqonun tutqun, çirkli pəncərəsindən gecənin qaranlığına, kimsəsizliyinə tamaşa eləyirdi. Bayaqkı coşqunluqdan əsər-əlamət qalmamışdı.

Ayın tutqun işığında səhra qüssəli və vahiməli görünürdü. Səhranın böyüklüyünə, sonsuzluğuna baxdıqca bir anlığa özünü bu genişliyin qoynunda hiss edir, kamerada olduğunu unudurdu. Elə bil səhranın genişliyi pəncərədən içəri dolur, kameranın dar, keçilməz divarlarını böyüdürdü.

Qatar səhranın ortasıyla keçib gedirdi. Ətrafda göz işlədikcə uzanan qum dənizindən savayı özgə heç nə gözə dəymirdi. Pəncərənin qabağında dayanıb baxdıqca hərdən qum dənizinin sonu, axırı olduğunu unudurdu. Ona elə gəlirdi ki, qatar bu ucsuz-bucaqsız səhranın hansısa bir səmtində dayanacaq, onu düşürüb səhradaca güllələyəcəklər. Ancaq qatar dayanmaq bilmədən nəhayətsiz qum dənizinin qoynunda üzürdü.

Uzanıb bir qədər dincini almaq istədi, çünki daha pəncərədən baxa bilmirdi. Ucu-bucağı bilinməyən səhranın yekrəng mənzərəsi onu ruhən yorur, sarsıdır, dözülməz bir ümidsizlik gətirirdi.

Ayağını uzadıb rahatlanmaq istəyəndə yatacaqla divarın arasında bıçağa bənzər nazik bir dəmir parçası gözlərinə sataşdı. Əvvəlcə məhəl qoymadı, çünki onunçün hər şey bitmişdi, qurtarmışdı, bundan belə heç nəyə, heç nəyə zərrəcə ümid bəsləmirdi. Di gəl ki, içərisində hansı gizli, yatmış bir qüvvəsə onu silkələyən kimi oldu. Həvəssiz-həvəssiz əyilərək dəmir parçasını barmaqlarının ucunda çəkib çıxardı; əldə düzəltmə dəstəkli balaca mişardı.

İstədi gərəksiz bir şey kimi təzədən götürdüyü yerə atsın, amma nədənsə dayandı və hansı yollasa, kimin əliləsə kameraya yol tapmış bu balaca, əldə düzəltmə mişara baxa-baxa özü də fərqinə varmadan pəncərənin dəmir şəbəkələri yaddaşında bir-bir sökülməyə başladı, bir anlığa işığa, aydınlığa, səhranın, səmanın boşluğuna şəbəkələrsiz baxdı.

«... Tale özümü göndərib bunu, yoxsa bir təsadüfmü...

... Yox, yox, burda nə təsadüf; təsadüf olammaz...

...Taledisə, bəlkə qətiləşmiş ölümü qəfil bir gülləylə yaxınlaşdırmaq istəyir...

... Bəlkə son dəfə həyatın şirinliyi qarşısında sınağa çəkiləcək?

... Nəyinə lazım?..

... Taledən nə almışdı, nə umsun...

... Pəncərənin millərini doğrayıb...

... Doğrayıb?! Necə, necə?

... Doğrayıb... qaçmaq...

... qaçmaq?

... qaçmaq!

...qaçmaq...».

Birdən-birə ağlına gələn bu fikirdən qəlbinə, varlığına aydınlıq doğdu və bu aydınlığın işığında onu gözləyən ölümün vəhşi, qorxunc kölgəsini gördü; belə fürsət bir də çətin ki, əlinə düşəcəkdi. Məsələnin üstü açılsa, qaçmaq planı pozulsa belə fərqi yox idi, heç nə itirmirdi – ölüm hökmü oxunmuşdu və insanı məhkum eləmək üçün bundan ağır cəza qalmırdı. İndi nə yolla olursa-olsun, pəncərənin dəmir millərini doğrayıb qaçmaqdan savayı çıxış yolu görünmürdü.

Vaxt itirmək olmazdı, son dərəcə ümidsiz olan bu işdə hər dəqiqənin, bəlkə hər saniyənin hökmü vardı. Dərhal işə başladı.

Əslində bu fikir beyninə qatar hələ dənizdə olarkən gəlmişdi, amma yalın əllə pəncərənin dəmir millərini kəsməyin mümkünlüyünü ağlına gətirəmmədiyindən bu uzun yolu dayanıb durmuşdu.

Neçə gündən bəri yemək yemədiyindən taqətdən düşmüşdü. Çiyni avtomatlı əsgərin dəmir qabda gətirdiyi boz-bulanıq xörəyə baxanda ürəyi qalxırdı. Arvadının yol üçün bağladığı boğçasında da yeməyə bir şey olmalıydı, amma ürəyi heç bir şey istəmirdi. İndi pəncərənin millərini doğradıqca sanki ona güc, qüvvə gəlirdi. Elə gərgin işləyirdi ki, vaxtın necə sovuşduğundan xəbəri yox idi. Ona elə gəlirdi ki, vaxt azlıq eləyəcək, mənzil

başına çatanacan milləri kəsib qurtarammayacaq, bütün əzab-əziyyəti hədər gedəcək.

Mişar elə işləyirdi ki, əllərini görmək olmurdu. Tər sel kimi bərini-bədənini yuyub aparırdı. Dəmir şəbəkədən başqa özgə heç nəyi görmürdü. Budur, şəbəkənin üç tərəfini kəsib, qalıb təkcə bir tərəfi. İşin çətini görülüb. Bircə bu milləri də doğrasa...

İşləyə-işləyə hiss eləyir ki, mişar kütləşib, əvvəlki kimi kəsmir. Ancaq əl saxlayıb mişarın dişlərinə, itiliyinə baxmaq istəmir – belə dar macalda buna vaxt itirmək olmaz.

Birdən qapının balaca gözlüyü aralanır. Mişarı nə vaxt əlindən saldığından xəbəri olmur. Qeyri-ixtiyari dizləri bükülür, taxta oturacağa çökür.

Çiyni avtomatlı növbətçi əsgər içərini gözdən keçirir.

Gözlərini yumur, elə bilir ki, kipriklərini aralasa, hər şey bilinəcək.

«...İşıqdı, yoxa alatorandı, ilahi?..

...Niyə qorxur, ölümə getmirmi?..

...Qorxu qayıdırsa, həyat ümidi oyanır...

...Qorxu qayıdırsa... qayıdırsa...

...Qayıdırsa, o hələ inanır, xilas olacağına inanır...».

O səmtə baxmasa da, mişarın döşəmənin göz tutan yerinə düşdüyünü görür... Görür və yaddaşı ürəyinin döyüntüsündən başqa bütün səsləri batırır. Saniyələri saya-saya qorxur ki, özünü saxlaya bilməyib gözlənilməz bir hərəkətlə hər şeyi büruzə verər.

Pəncərənin şəbəkələrinə sarı baxmaq, vaqon-kameranın döşəməsini gözdən keçirmək növbətçi əsgərin ağlına belə gəlmir.

Nəfəsini çəkməyi belə unudub gözləyir. Gözləyir ki, nə olacaqsa, olsun, qurtarsın...

Aradan nə qədər keçdiyini bilmir. Amma get-gedə yüngülləşdiyini duyur. Gözlərini açmasa da, təhlükənin sovuşduğunu

hiss eləyir. Ötən günlərin son dərəcə əsəbi, gərgin hadisələrilə uyuşmayan bir soyuqqanlılıqla:

– Nə var, nə istəyirsən? – deyir.

– Heç. Neçə gündən bəridi ki, az qala qapını sındırırsan. İndi birdən-birə səs-küy kəsildi, dedim görən nolub?..

– Qorxursan ki, özümü öldürərəm?

– Hər şey ola bilər.

– Nə fərqi varmış ki? Onsuz da ölümə getmirəmmi?

– Fərqi var. Necə ölməyin fərqi böyükdü. Nə isə... hələlik.

Qapının gözlüyü dartılıb bağlanır.

Addım səslərinin uzaqlaşdığını eşidir. «Deməli belə... Necə ölməyin fərqi böyükmüş... Növbətçi əsgərin sözlərində həqiqət var».

Döşəməyə düşmüş mişarı götürüb təzədən mili doğramağa başlayır. Ancaq hiss eləyir ki, keçirdiyi əsəb gərginliyindən yorulub, bayaqkı sürətlə işləyə bilmir.

Handan-hana axırıncı mili kəsib qurtarır, dəmir şəbəkəni götürüb ustufca yerə qoyur. Əlinin dalı ilə alnının, gicgahlarının tərini silir.

Qatarın dayanmağını, sürətin azalmağını gözləyə bilməzdi. Elədə atılmaq çətin olardı, görə bilərdilər. Əvvəlcə bağlamanı atdı, sonra kameranı son dəfə gözdən keçirib cəld hərəkətlə pəncərəyə qalxdı və özünü qaranlığın qoynuna buraxdı.

Qanad çıxarıbmış kimi qeyri-adi yüngüllük duydu və sonra...daş kimi yerə çırpılaraq huşunu itirdi.

Amma dərhal da huşu özünə qayıtdı.

Ona elə gəlirdi ki, qatarın pəncərəsindən atıldığını kimsə gördü, indicə bütün heyət xəbər tutacaq, qatarı səhranın ortasındaca saxlayıb elliklə arxasınca töküləcəklər.

...Bu nədi, niyə qatar sürətini azaltdı?..

...Yoxsa, doğrudan onu gördülər...

...Durub qaçsınmı?..

...Hayana qaçsın?..

...Qaçıb qurtarmağa ümid yeri varmı?..

...Nahaq atıldı... Taledən qaçmaq əbəsmiş…

Bu hiss o qədər güclüydü ki, əlinin-qolunun taqəti büsbütün çəkildi və qatar uzaqlaşana kimi yerindən tərpənə bilmədi. Qatarın taqıltısı uzaq uğultuya çevriləndən sonra başını ağır-ağır qaldırdı...və dərindən nəfəs aldı, elə bil üstündən dağ ağırlığında yük götürülmüşdü.

Sınığı olub-olmadığını bilmək üçün barmaqlarıyla yüngülcə bədəninin ağrıyan yerlərini yoxladı. Sonra bağlamanı tapmaq üçün təxminən yarım kilometrə qədər geriyə qayıtdı. Yoldan xeyli aralı düşüb qalmış bağlamanı çiyninə atıb səhranın içərilərinə doğru baş aldı.

Elə qaranlıqdı ki, göz-gözü görmürdü. Özgə vaxt olsaydı gecənin qaranlığından üşənərdi. Amma indi ölümün soyuq nəfəsinin canından çəkildiyi bir vaxtda qorxu və vahimə əbəs idi. Qaçıb qurtarmaqdan savayı özgə heç nəyin barəsində düşünə bilmirdi.

Ölüm?! İnsan yaşadığı xoşbəxt həyatın şirinliyindən aldığı gizli ləzzətdən başqa heç nə duymadığı halda yatır və bir səhər yuxudan oyanmır. Həyat onun cismindən görünmədən çıxıb gedir, quruca cəsəd qalır. O özü bunu bilmir, duymur, hiss eləmir.

O, dünyada ölümün varlığını erkən hiss eləmişdi. Hələ uşaqkən babası ölən gündən ölümün – qara, qorxunc bir varlığın olduğunu anlamışdı. Hərçənd ki, babasının ölümü barədə çox az şey yadında qalmışdı. Amma babasının ölümündən bir gün qabaq onunla ova çıxmağı yadındaydı, dünən olubmuş kimi yadındaydı. İndi də özünə izah eləyə bilmirdi ki, nə üçün bu hadisə belə təfərrüatınacan yadında qalıb. Ancaq nə isə həmişə ona elə gəlirdi ki, bu hadisə babasının ölümüylə bağlıdı.

...O səhər bütün gecəni yağan qardan çöl-bayır ağappaq örpəyə bürünmüşdü. Qar bürümüş düzlə babası onun əlindən tutub gedirdi. Uzaqda ağappaq təpələrin üstündə səhər günəşi hərəkətsiz asılmışdı. Günəşə baxanda adama elə gəlirdi ki, o, ömür-billah təpənin üstündəcə dayanıb duracaq.

Babası onun anlaya bilməyəcəyi nə isə bir əhvalat danışır. Təkcə onu bilir ki, söhbət ölümdən gedir. Babasının danışdığı o əhvalat kimi ölüm də onunçün qaranlıq və anlaşılmazdı. Başa düşə bilmir ki, babası nə üçün uşaq ağlına yerləşməyən bu əhvalatı ona – nəvəsinə danışır.

Elə hey suallar yağdırır:

– Nə üçün adamlar ölürlər, baba?

– Ona görə ki, yaşamaqdan yorulurlar.

– Sən də öləcəksən, baba?

– Əlbəttə... Mənim ölümümə lap az qalıb

– Bəs onda məni ova kim aparacaq, baba?

– O vaxt sən böyük oğlan olacaqsan... Özün təkcə gedəcəksən ova.

– Baba, mən istəmirəm sən öləsən.

– Heç kim ölmək istəmir, quzum... Amma bu məndən asılı deyil, yaranan ölməlidi...

– Niyə adamlar ölmək istəmirlər, baba?

– Ona görə ki, həyat şirindi, quzum...

– Baba...– Sözünün dalını gətirəmmir, qəhər onu boğur.

– Nədi, quzum?

– Mən ölməyəcəyəm...

Qocanın çöhrəsinə isti bir təbəssüm qonur:

– Sənin ömrün hələ qabaqdadı, quzum... Sən həyatın şirinliyini hələ dadmamısan. İnşallah, böyüyərsən, hər şeyi bilərsən...

«...Görən həyat niyə şirindi? Ömrün, həyatın nəyi şirindi ki, ondan belə ağız dolusu danışırlar? Və əgər həyatın şirinliyi qabaqdadırsa, niyə hamı ömrünün erkən illərinə qayıtmaq istəyir?..».

Nə qədər fikirləşirdisə, uşaq ağlıyla bunu dərk eləyə bilmirdi. Bilmirdi ki, qoca indicə söhbət elədiyi anlarda uşaqlığını, yetmiş il bundan qabaq babasının əlindən tutub qar bürümüş düzlə getdiyini xatırlayır. Bilmirdi ki, babasının çiynindəki heybə ona da babasından qalıb. Hardan biləydi ki, onun əlindən

tutub gedən qoca bayaqkı qoca deyil, yetmiş il bundan əvvəl bu qarlı düzlə babasının əlindən tutub gedən uşaqdı.

– Acmısanmı, quzum?

– Hə, baba.

Babası sol çiynindəki heybədən yuxa dürməyi çıxarıb verir və onun soyuqdan ağzı sulana-sulana necə yeməsinə tamaşa eləyir. O, yedikcə qocanın gözlərinə işıq gəlir.

– Su istəyirəm, baba.

Qoca heybədən su dolu şüşəni çıxarıb ona verir. Şüşəni başına çəkib babasına qaytarır.

Qar üstündə ləpir sala-sala gedirlər. Babası sol əlilə çiynindəki tüfəngin qayışından bərk-bərk tutub. Çölü-düzü bürüyən qar günəşin çəpəki şüaları altında alışıb yanır. Birdən qar basmış yulğun topasının dalından dovşan çıxır.

– Baba, dovşan!..Bax...bax...

Elə sevinclə qışqırır ki, babası diksinir. Qoca tüfəngi çiynindən çıxarıb nişan alanacan dovşan xeyli aralanır. Tüfəngi sinəsində sağa-sola gəzdirməyindən hiss eləyir ki, qocanın gözləri hədəfi yaxşı seçmir. Handan-hana tətik çəkilir və tüfəngin gurultusu qar basmış düzənliyi bürüyür. Dovşan yaralansa da, yıxılmır. Bəmbəyaz qar üstünə dovşanın ləkə-ləkə qırmızı qanı tökülür.

Tüfəngin atılmağıyla uzaqdan onun indiyəcən eşitmədiyi ulaş səsləri qalxmağa baxlayır.

– O nə səsdi, baba?

– Canavardı, quzum.

– Niyə onnar elə ulaşırlar?

– Məni çağırırlar...

– Hara çağırırlar səni, baba?

– Ölümə...

– Ölümə?..

– Hə, mənim ölümümə az qalıb...

Onu dəhşət bürüyür. Soyuq bir gizilti güllə kimi varlığını dəlib keçir. Qorxur ki, hardansa uzaqlardan gələn bu ulaş səsləri qocanı sehrinə salıb apara və o, qar bürümüş düzənlikdə tək-tənha qala... Bircə anda yaddaşı boyu keçib gedən bu fikrin vahiməsi onu qeyri-ixtiyari babasına tərəf atır.

– Getmə, baba, mən qorxuram!

– O nə sözdü, quzum, heç səni qoyub gedərəmmi?

Ulaş səsləri getdikcə daha aydın eşidilməyə başlayır. Babası təsəlli versə də, o, heç cür sakitləşmək bilmir. Qorxudan tükləri qabarıb qalxır, dizləri titrədiyindən ayaq üstə dayana bilmir.

– Baba, məni qucağına al!

– Qorxma, quzum, mənim yanımda heç nədən qorxma, baban ölməyib ki... Qoy bir yaxına gəlsinlər, onlara elə toy tutum ki, qiyamətəcən yadlarından çıxmasın.

– Yox, baba, qorxuram, məni qucağına al!..

– Sənə dedim ki, qorxma...

– Yooox! Qorxuram...– Qəfildən eşidilən ulaş səslərindən diksinib babasına qısılır.

Babası onu qucağına alır. Hiss eləyir ki, tüfəng və heybəylə birgə qoca onu çətinliklə aparır. Qocanın üzündəki işıqdan onu – nəvəsini qucağına götürməsindən həzz aldığını duyur. Ancaq bu hərəkətilə babasını təkrar keçmişə qaytardığını bilmir. Bilmir ki, yetmiş il qabaq uşaq olan babası eləcə ulaş səsindən qorxduğu, üşəndiyi üçün bu yoldaca öz babasının köksünə sığınıb. Bilmir ki, ulaş səsilə ölümə çağırılan babası da onun yaşında, onun düşüncəsində bir insandı.

Bu hadisədən bir gün sonra babası ölmüşdü. Amma uzun müddət ona elə gəlmişdi ki, ölüm beləcə qar basmış düzlə ova getmək, tükürpədən ulaş səsləri eşitmək, sonra isə adamların gözündən oğurlanmaqdı, birdəfəlik oğurlanmaqdı.

Axı, niyə ölüm haqqında belə erkən düşünməyə başlamışdı. Ömrünün o uzaq, qayğısız, dünyanı oyun sandığı illərində ölümə indiki kimi yaxın olmaya-olmaya onun varlığını belə

yaxından hiss eləmişdi. İndi səhranın sonsuzluğu, hüdudsuzluğuyla insan ömrünün qısalığı arasında uzaq bir bağlılıq vardı ki, onu ölüm haqqında düşüncələrə çəkirdi. Bəs o zaman? O zaman niyə bu qorxunu özündən qova bilmir, ən qayğısız günlərində belə ölümün varlığını, qaçılmazlığını unudammırdı? Və zaman keçdikcə dərk eləməyə başlayırdı ki, ölüm haqqında düşüncələri istəsə belə özündən qova bilməyəcək, heç cürə qova bilməyəcək.

Bəlkə də bu, həyata başlamağın ölümə hazırlaşmaq, ölümə yaxınlaşmaq, ölümlə barışmaq olduğunu erkən dərk eləməsiylə bağlı bir hissdi. Amma yox... yox, buna inanmırdı. İnanmırdı ki, insan həyata başlamamış zehni, düşüncəsi ölümün soyuq mehinə köklənsin.

Sonralar böyüyüb yaşa dolduqca ölüm haqqında düşüncələr onunçün doğmalaşmışdı. Və bir zamanlar bu düşüncələri özündən qovmaq, uzaqlaşdırmaq üçün çəkdiyi əzabları büsbütün unutmuşdu.

İndi daha ölüm haqqında düşünmək onu qorxutmur, özünün dəfnini belə xəyalən yaşamaqdan çəkinmirdi.

...Budur, qışın soyuq günlərindən biridir, şaxta sümükləri sızıldadır. Qəbiristanlıqda adam əlindən tərpənmək olmur. Ağac kimi bitib durublar. Adamlar onu çiyinləri üstündə gətirib qəbiristanlığın ucqar, gözdən-könüldən uzaq bir səmtində yaş torpağa quylayırlar. Qəbrin bir tərəfindəcə yanı üstə yıxılmış, hələ torpağa basdırılmamış başdaşında özünün adını, soyadını, doğum-ölüm tarixini görür.

Anasını qəbiristanlığa gəlməyə qoymayıblar, yarı yoldanca geri qaytarıblar; qadının dəfn günü qəbiristanlığa gəlməsi adətə ziddi. Amma anasının uzaqdan, lap uzaqdan gələn ağlamaq səsini eşidir. Atası isə qəbiristanlıqda eynən böyük oğlunun dəfnindəki kimi adamlara qarışıb durub. Bir gecənin içində saçlarından tutmuş kipriklərinəcən ağarıb, beli bükülüb; doxsan yaşında qocanı xatırladır. Üz-gözünün donmuş, sanki heç bir

zaman açılmayacaq cizgilərindən yarandığına, dünyaya gəldiyinə, insan olduğuna acı bir peşimanlıq oxunur.

Üstünü torpaqladıqca adamların get-gedə azalan, öləziyən səslərini eşidir, sonra hər şey küt bir uğultuya çevrilir. Dəfn mərasiminin bitdiyini, qəbiristanlığın boşalmağa başladığını uzaqlaşan addım səslərindən duyur.

Sonra günlərlə tək qalır; qulaqlarına nə bir səs, nə bir hənir dəyir. Nə gecə bilinir, nə gündüz. Təkcə zülmətdi, əbədi zülmət... əbədiyyət... Ara-sıra başdaşını döyürlər, bilir ki, qocalar qəbri üstünə gəlib. Onların göz yaşları torpaqdan süzülərək sinəsini isladır. Əlini uzadıb sinəsinə damcılayan göz yaşlarını oxşamaq, sığallamaq istəyir, amma nə illah eləyirsə, qolu qalxmır, yadına düşür ki, ölüb, əbədi yuxuya gedib, qəbirdədi, torpağa qarışmaqdadı.

Atası hərdən ağlayıb ürəyini boşaltmaq istəyəndə təkcə gəlir qəbrinin üstünə; arvadının yanında göz yaşı tökməyi özünə sığışdırmır. Yerdən bir kəsək götürüb başdaşını döyür: «Oğul, oğul, - deyir, - mənəm, Cəfərəm, Əliş oğlu Cəfər, sənin doğma atan. Gəlmişəm qəbrini ziyarət eləyim, səni yad eləyim. Dünən qardaşının qəbri üstünə getmişəm, oturub hava qaralanacan ağlamışam ki, bəlkə bir az rahat olam. Amma ürəyim boşalmır ki, boşalmır. Sizdən sonra yediyimi, içdiyimi, yaşadığımı özümə haram bilirəm, oğul! Niyə məni yetim qoyub getdiniz?.. Eşidirsənmi məni, oğul?»

Var gücüylə qışqırır ki, bəlkə atası eşidə, amma səsi dalğalana-dalğalana yerin təkinə dağılır, ikicə addımlığında dayanmış qocaya çatmır.

Ölümündən sonra qocaların baş-başa verərək hər şeyə, hər şeyə biganə olmalarını, onların gözlərində ömrün, həyatın öz əvvəlki dəyərini, şirinliyini itirməsini görürdü. Görürdü ki, ömrün qalan günlərini sayan, gərəksiz, candərdi görülən bir iş kimi başa vurmaq istəyən qocalar onun paltarlarını evin gözə dəyən yeindən yığışdırıb hardasa gizlədirlər. Amma atmaq, kiməsə bağışlamaq istəmirlər. Bunu övladlarına xəyanət sanırlar. Bir-

birindən gizli bu paltarları qoxulayıb oğullarının iyisini alırlar, üstündə göz yaşı tökürlər...

* * *

Yeridikcə ayaqlarının altında xışıldayan qumun səsi yeknəsəq ritmə çevrilir, əsəblərini yumşaldırdı. Belə yerimək onu yormur, əksinə ağrılarını canından, damarlarından çəkib çıxarır, yadını, yaddaşını duruldurdu.

* * *

... Anası, arvadı, uşaqları vağzalda dayanmışdılar. Srağagün min bir müsibətlə onlara xəbər yollamış, hansı qatarla, nə vaxt ötürüləcəyini bildirmişdi. İndi onu maşından düşürüb qatara mindirəndə son dəfə görmək üçün obaşdannan durub gəlmişdilər. Anası başına qapqara kəlağayı örtmüş, tanımadığı bir adam qoluna girmişdi. Arvadı bir az o yanda qucağında körpə durmuş, böyük qızı ona qısılmışdı.

Maşın dayanan kimi cəld irəli yeridilər. Amma əsgər yaxın buraxmadı, arvadını qucağında uşaq döşündən itələyib geri qaytardı. Sifətinə birdən-birə elə rəng çökdü ki, bir anlığa böyür-başındakılar qorxub çəkildilər. Qəzəbini, nifrətini içində boğanda bu hala düşürdü. Dişləri xırçıldayana kimi bir-birinə sıxıldı. Ona elə gəldi ki, içəridən parçalandı, içərisinin hansı əzasısa yaralandı, qan axıb içərisinə yayıldı.

– Əclaf! – dedi, - sən nə haqla qadına əl qaldırırsan?

İki əsgər bərk-bərk qollarından tutmuşdu. Sözlər ağzından köpük kimi daşırdı. Necə dartındısa dəmir həlqə biləklərinə işlədi. Nə qolunu tutanlar, nə arvadının döşündən basıb itələyən o serjant dillənmirdi, heç nə olmayıbmış kimi dayanıb baxırdılar. Nə isə tıxac kimi boğazının yolunu tutmuşdu, onu boğur, nəfəs almağa qoymurdu, elə bil əzaları bir-birilə əlaqəsini itirmişdi. Nə qədər çalışırdısa, bədəninin əsməcəsini saxlaya bilmirdi.

Yaddaşında hər şey göy, tutqun dumana bürünmüşdü. Vağzaldakı canlanmadan qatarın yaxınlaşmaqda olduğunu hiss elədi. Qollarını tutmuş bayaqkı əllər onu dayanacağa sarı çəkməyə başladı. Ayaqları yerdən aralanmırdı, sürüyə-sürüyə aparırdılar.

Qatar ağır-ağır stansiyaya yan alıb dayandı.

Qapılar açıldı.

Qolunu tutanların hansısa nə isə dedi.

Heç bir şey eşitmir, eləcə dayanıb gözləyirdi.

Onu yavaşca itələdilər. Ayağını pilləkənə qoymamış çevrilib arxaya baxdı. Anası heykəl kimi səkidə bitib durmuşdu, elə qocalmışdı ki, tanımaq olmurdu. Arvadı lap yaxına gəlmişdi. Qucağında uşaq – kiçiyi Aysel yuxudaydı və onu dünyaya gətirən insanın birdəfəlik ömründən, taleyindən çıxıb getməyindən xəbərsiz idi. Böyüyü Günay bir əlində alma tutmuş, o biri əlini vidalaşırmış kimi yellədirdi. Onun da ağlı kəsmirdi, çox güman düşünürdü ki, atası əvvəlki kimi harasa gəzməyə, ya bir iş dalınca gedir. Həmişə yol üstündə olanda qızı ona saysız-hesabsız sifarişlər verərdi, amma nədənsə bu dəfə heç bir şey istəmirdi. Qəfildən qızı ona sarı yüyürərək əlindəki almanı uzatdı:

– Al, ata, - dedi, - yolda yeyərsən.

Ürəyi sızıldadı.

Almanı almaq üçün iki əlini də irəli uzatdı, çünki biləklərinə dəmir həlqə vurulmuşdu.

– Əllərini niyə bağlayıblar, ata? – qızı soruşdu.

Bu suala nə cavab versin, ağlı kəsməyən bir uşağı nə yolla başa salsın? Nə desin ki, bir cavaba oxşasın?.. Axı, bu innən belə atasız, yetim böyüyəcək qızıyla son söhbəti, son görüşüdü... Doğrudanmı, son dəfə görüşür qızıyla?..

Uşaq maraq və təəccüb dolu məsum gözləriylə onun əllərinə baxır, cavab gözləyirdi. Əgər bu son görüşləriydisə, uşağa verdiyi cavab da son cavab olacaqdı.

Sözü azdırmaq istədi, amma bir şey alınmadı. Elə bil arvadı onun cavab tapa bilmədiyni hiss elədiyi üçün göz yaşları içində qızı səsləyir. Bu sözə bəndmiş kimi dərhal:

– Qaç ananın yanına, - dedi, - çağırır səni.

Və bir anlığa gözlərini arvadından, uşaqlarından, onlardan azca aralı ağac kimi bitib durmuş anasından ayırıb son dəfə bu yerlərə – göyümtül payız səhərində üşüyən evlərə, ağaclara, buludlara baxdı; bunlar onun indiyəcən yaşadığı həyatıydı və elə bil qoyub getdiyi bu həyatı bircə baxışla yaddaşına köçürmək istəyirdi. Baxdı, baxdı... bir anlığa ömür yolu gözləri qarşısında çözələndi və yığıldı. Sonra arxaya çevrilmədən pillələri qalxdı.

Qəfildən uşaq nə isə anlayıbmış kimi dəlicəsinə:

– Dayanın, dayanın, - atamı hara aparırsınız?.. Buraxın, mən də gedirəm. Ata!!! Ata!!! – deyə qışqırmağa başladı.

Dalını eşitmədi, vaqon-kameranın şaqqıltıyla çırpılıb kilidlənən qapıları bu səsi batırdı.

...Birdən-birə vücudunda yorğunluq duydu. Bağlamanı başının altına qoyub uzandı.

Ancaq uzun müddət yata bilmədi. Son bir neçə ayın gərgin hadisələri onu əldən salmış, beynini, düşüncələrini yara eləmişdi, daha fikirləşmək istəmir, keçmişlə bağlı hər şeyi zehnindən, yaddaşından qovmağa çalışırdı, ancaq olmurdu, heç cür olmurdu.

Bir vaxtlar işdən başı açılmırdı. Ailəsi-uşaqlarıyla məşğul olmaq üçün macal tapmırdı, vaxtını onlara qıymırdı, heyfi gəlirdi. Hamısı əbəsmiş!.. İndi heç yana, heç yana tələsmir, qarşıda isə ömrünün xərclənməyən illəri durur.

Səhranın dərinliklərindən qəribə bir uğultu gəlirdi. Uğultu su kimi içərisindən axa-axa, süzülə-süzülə tükənmək, öləzimək bilməyən bir səslə keçib gedirdi.

Hələ bağlamanı açmamışdı, içərisində nə olduğunu bilmirdi. Yemək-içməkmi qoyulmuşdu, yoxsa təmiz alt paltarımı? Daha nə qoyula bilərdi? Hər halda ölümünə qədər istifadə edə-

cəyi zəruri əşyalar olacaqdı. Axı arvadı bağlamanı tutarkən onu ölümə yola saldığını bilirdi.

Sabahı düşünmürdü, daha doğrusu düşünəmmirdi. Fikirləri hələ aydınlaşmamışdı, sahmana salınmamışdı. Zehni, düşüncəsi gecə kimi, zülmət kimi qaranlıq idi. Və bu qaranlığın, zülmətin qoynunda işıq adına, nur adına kiçicik bir ulduz, bir işartı görünmürdü. Hər şey sirli, dumanlı bir zülmətin içərisində gizlənmişdi.

Bir də olub-keçənlər sərsəm yuxunu xatırladırdı.

Biri-birinin ardınca baş verən sürətli hadisələr – körpə qızının tələf olması və uşağın dəfni köhnəlməmiş o boyda cinayətin baş verməsi, neçə gündən bəri fasiləsiz davam edən məhkəmənin yeknəsəq, bezdirici sorğu-sualları, labüd ölümün pəncəsindən gözlənilmədən xilas olması, yuxusuzluq (yemək lazım olduğunu elə bil birdəfəlik unutmuşdu) – bunlar hamısı üst-üstə yığışıb hissiyyatını dumanlandırırdı.

## II FƏSİL

Qarşısında özünə də məlum olmayan qaranlıq, dolanbac ömür yolları durur. Bu yolların onu hayana aparacağını, hansı keşməkeşlərdən keçəcəyini bilmir. Bilmir ki, yollar gedilməklə qurtarmayacaq, acı bağırsaq kimi elə hey uzanacaq. Bəxtinə, taleyinə nə yazıldığından xəbərsizdi. Sabah, birisi gün, bir ay, bir il sonra onu nə gözləyəcəyini bilmir. Bilmir... bilmir...

Elə bil dalğalar onu dənizin ölüm qoxuyan qoynundan uzaq, yad bir adaya atmışdı. Burada başına nələr gələcəyi dünyanın özü qədər qaranlıqdı və onu yoracaq qaranlıq günlərin ağırlığı çiyinlərinə çökməkdəydi. Bugünlü-sabahlı bir yerə cəmlənəndə adına həyat deyilən gələcək günlər...

Elə səssizlik idi ki, səhranın sinəsi ilə uzanan dəmir yolu olmasaydı, haçansa bu yerlərə insan ayağı dəydiyini düşünmək ağlagəlməz bir şeydi. Qatar təkərlərinin uzaqlaşıb itməkdə olan taqqıltıları ölümün varlığına hopmuş qoxusunu, vahiməsini alıb

özü ilə aparırdı. Nə qədər ki, qatardaydı, nə qədər ki, ölümün yaxınlaşmaqda olan buz nəfəsini duyurdu, yalnız və yalnız qaçıb qurtarmaq barədə düşünürdü. Amma indi tamam ümidsiz və çıxılmaz vəziyyətdən qurtuluş yolu tapandan sonra yeni, əvvəlkindən daha müdhiş bir həyatın başlandığını duyurdu.

Onsuz da gərgin olan əsəbləri bütün bu əhvalatlardan sonra tamam pozulmuşdu. Durduğu yerdəcə haldan çıxır, əsməcəsi tutur, bədənini tər basırdı. Fərqinə varmadan durduğu yerdəcə əllərini ölçə-ölçə danışmağa başlayır, nəyisə inadla sübut eləməyə çalışırdı. Danışa-danışa qəfildən özündən çıxır, qışqırır, söyüb yamanlayırdı; bəzən elə olurdu ki, saatlarla özünə gələ bilmirdi.

O hadisə uzaq, çox uzaq bir keçmiş kimi yaddaşının dərinliklərinə çökməkdəydi. Və o hadisə yaddaşının dərinliklərinə çökdükcə uzaq, çox uzaq bir əhvalat kimi nağıla dönür, bir vaxt bu cinayətin öz əlindən çıxdığına inanmırdı, inanmağı gəlmirdi. Elə zənn eləyirdi ki, gözlərinin qabağındaca baş verən o müdhiş hadisənin sadəcə müşahidəçisidi, bu işdə qətiyyən günahı, təqsiri yoxdu. Və nə yaxşı ki, o bütün bu əhvalatlardan kənardadı...

Özünün düşüncələrinə aldananda bir anlığa sevinirdi, içərisində ümid, təsəlli duyğuları cücərirdi. Amma bu düşüncələr yuxuya bənzəyirdi – şirin, yalan, sonu xoşbəxt bitən yuxulara... Qəfil bir diksiniş yuxunu alt-üst elədiyi kimi, o da düşüncələrinə aldandığını birdəncə anlayırdı. Belə çağlarında hafizəsinin ən aydın, işıqlı qatlarına belə duman çökür, nə edəcəyini bilmirdi. Keçmiş qorxulu, gələcək qaranlıq, həyatın yelkəni baxtın ümidində. Taleyin çaldığı havaya oynamaqdan savayı ona nə qalırdı ki?

Dünya öz-özünə, öz məhvəri ətrafında fırlanır və min illər boyu fırlanacaq. Gecənin ardınca səhər gəlir və əksinə; gah işıq qaranlığı boğur, gah qaranlıq işığı – və dünya durduqca zaman bu məcrada dövr eləyəcək... Yox, yox, həyat, yaşayış insanın

düşündüyü qədər mürəkkəb deyilmiş. İnsan acı həqiqətə, reallığa necə də əzabla qayıdır...

Amma onun yaddaşında həyat adlı sərt, amansız dünya yaşayır və bu dünyanın cazibəsi öz məhvərində tutub saxlayırdı. «...Bu cazibədən nə zamansa qopa biləcəkdimi? Yoxsa ömürlük məhkumdu, həyat əbədi mənasını itirə-itirə davam edəcəkdi... Fələk, necə açılsın bu tilsimdən...».

Özü öz düşüncələrindən qorxurdu, xoflanırdı.

Yorulduğu üçün yox, son bir neçə ayın əsəb və gərginliyindən qopmaq, ayrılmaq üçün heç olmasa bir qədər yatıb dincəlmək istəyirdi, amma elə bil yuxu da gözlərindən qaçaq düşmüşdü.

Ay doğmuş, gecə ağappaq süd rənginə boyanmışdı. Ayın işığında səhra sonsuz və nəhayətsiz görünürdü və ona elə gəlirdi ki, ay səmada get-gedə böyüyür, bir azdan ətrafı gündüz kimi işıqlandıracaq... onu tapacaqlar, tanıyacaqlar, bütün zəhməti, əziyyəti puç olub gedəcək. Ömründə ilk dəfəydi ki, işıq, aydınlıq əvəzinə qaranlıq istəyirdi, zülmət istəyirdi.

Uzaqdan səhranın dərinliklərindən qatar səsi gəlirdi. Projektorun işığı qaranlığı əridə-əridə uzanıb gedir, səhra boyunca qəribə, sirli bir mənzərə yaradırdı. Bir anlığa elə bilinirdi ki, qatar işıq selinə qoşulub və qatarı çəkib aparan, qaranlığın amansız, qorxunc caynaqlarından xilas eləyən bu işıq selidi.

Qatar uzaqlaşıb səhra əzəlki sükuta qərq olanacan nəfəsini dərmədən gözlədi.

Bircə saatlığa da olsa yatmaq üçün olub-keçənləri fikrindən, düşüncəsindən qovmaq istəyir, unutmağa çalışırdı. Ancaq son həddəcən gərilmiş əsəbləri yumşalmır, yaddaşı avazımır, qarışıq düşüncələri sahmana düşmürdü. Beynini didən fikirlərin əzabları içərisində yuxuya gedəndə səhərə az qalırdı.

...Yuxuda görürdü ki, şəhərdə kirayədə qaldığı evin çarpayısında yatır. Gecənin bir aləmi uşaq beşikdə ağlayıb özünü öldürür. Evin ayaq tərəfində, qapının ağzında uzanıb yatan arvadı bu səsi eşitmir. Arvadını oyatmaq üçün çağırmaq istəyir, amma

nə illah eləyirsə, səsi çıxmır. Uşağı qucağına alıb sakitləşdirmək üçün qalxmağa çalışır, ha əlləşirsə, yatağından aralanammır, ona elə gəlir ki, görünməz ilmələrlə çarpayıya sarıyıblar. Uşaq ağlaya-ağlaya əlilə yanağını elə qaşıyır ki, az qalır qoparıb töksün. Qaşıdıqca yanağı qızarıb şişməyə başlayır. Qəfildən beşikdən sallanan ilanı görür. Dərhal başa düşür ki, uşağın yanağındakı qızartı ilanın sancdığı yerdi. Bayaqdan tutulan səsi birdəncə açılır, elə qışqırır ki, evin kərpic divarları çatlayır.

Öz qışqırığına gözlərini açdı. Üzündə, saçlarında səhərin ılıq nəfəsini duydu. Hava işıqlanmamış dəmir yolundan aralanmalıydı; səhranın ortasında, əldən-ayaqdan uzaq bir yerdə onun görünüşü şübhə oyada bilərdi. Ona görə də qalxıb bağlamanı qoltuğuna vuraraq yola düzəldi.

Hansısa bir səmti tutub gedirdi. Başını aşağı salıb yeriyir və ayaqlarının altında xışıldayan qumun səsindən özgə bir səs eşitmirdi. Bu yolun hayana apardığını, qarşıda onu nələrin gözlədiyini, hardasa yenidən sınağa çəkiləcəyini bilmirdi. Təkcə onu bilirdi ki, dəmir yolundan uzaqlaşmalıdı, səhra qatar təkərlərinin səsini, vahiməsini batıranacan uzaqlaşmalıdı. Yalnız sonra ayaqlarının onu hayana apardığını düşünə bilər...

Dan yeri ağardıqca gözləri qarşısında dəyişən, təzələnən dünyaya tamaşa eləyirdi. Uzaqda, gündoğan səmtində səma qan rənginə boyanmağa başlamışdı. O isə yerişini pozmadan, ağır addımlarla gedirdi. Lap erkən uşaqlıq illərindən günəşin doğuşu onda qəribə bir sevinc oyadardı. Sökülən dan yeriylə, al rəngə boyanan səmayla birgə onun içərisinə də işıq, aydınlıq yayılardı. Elə bilərdi ki, günəşin doğuşu ilə dünya təzələnir, insanın ömründə, taleyində acı, ağır nə varsa, arxada qalır, hər şey, hər şey yenidən başlayır. Ən çətini günəşin doğuşunacandı... İndi isə günəşin doğuşu onda tamam başqa duyğular oyadırdı. Doğan, təzələnən günəşlə birgə onun gözləri önündə qorxu və vahiməylə dolu olan qaranlıq günlərin uzun kələfi açılırdı.

Qarşıda ucsuz-bucaqsız qum dənizi dalğalanırdı. Dünyanın belə böyük olduğunu elə bil indiyəcən dərk eləməmişdi. Bəs niyə dünyanın böyüklüyü, hüdudsuzluğu onu qorxudurdu? Niyə günəşin doğuşu dərk eləyəmmədiyi sonsuz bir kədər oyadırdı? Niyə ucsuz-bucaqsız səhra onu heç bir şeylə çəkib özünə bağlayammırdı? Niyə? Niyə? Təkcə onu bilirdi ki, bu geniş, hüdudsuz dünyada yaşamağa haqqı yoxdu. Udduğu hava, isindiyi günəş, ayaq basdığı torpaq onunku deyil. O hər şeydən, hər şeydən məhrumdu. Bundan belə yaşamağa, yer üzündə dolaşmağa ixtiyarı yoxdu. Təkcə əriyib torpağa qarışa bilər və bu onun yer üzündə son haqqı, son alacağıdı.

O, qaçqındı. İnsanlardan, cəmiyyətdən, qanunlardan – hər şeydən, hər şeydən. Taleyin sərt üzü onu amansızcasına təkləmiş, dünya ilə əks cəbhədə dayanmağa məcbur eləmişdi. Yaşamaq üçün dünyaya qarşı vuruşmalıydı. İndi ucsuz-bucaqsız səhrada addımladıqca bu acı həqiqəti daha aydın dərk edirdi. Onun yaşaması qanunla yasaq olunmuşdu. Cəmiyyətdən kənarda, əldən-ayaqdan uzaq səhrada qaçqın kimi necə yaşayacaqdı? Bütün ömrü beləmi keçəcəkdi? Kimə desin, kimə danışsın dərdini... Kim eşidəcək onu? Necə anlada bilsin ki, o da başqaları kimi yaşamaq istəyir. Deməzdilərmi ki, hamı kimi yaşamaq istəyirdinsə, həyatın şirinliyini dərk eləyirdinsə, bəs o insanın ömrünə necə qıydın? Necə əlin gəldi canlı insana əl qaldırmağa? Bəs onda bu barədə niyə fikirləşmirdin? Nə cavab verərdi, nə deyərdi? Bu suallar onunçün qaranlıq idi, gələcəyi qədər qaranlıq idi. Və indiyəcən – o dəhşətli hadisə baş verəndən məhkəmə ölüm hökmü oxuyanacan bu qaranlıq suallara cavab tapmaq üçün çox baş sındırmışdı. Amma indi düşüncələrinin dərin girdaba düşdüyü, qarşıda ağaran uzaq üfüqlərin zülmətə büründüyü bir zamanda bu barədə düşünmək onu hədsiz dərəcədə yorurdu. Çünki hər dəfə bu məsələyə qayıtdıqca çıxış yolu görmürdü. Ən dəhşətlisi buydu ki, özünü günahsız bilirdi. Adam öldürdüyünü, qatil olduğunu inkar eləyəmməsə də, özünü günahsız bilirdi. Özünün qatil adlandırılmasına heç cür alışa bilmirdi. Bəs günahsız

olduğunu nə yolla sübut eləsin?.. Məhkəmədə son söz veriləndə hər şeyi olduğu kimi söyləməkləmi? Amma onsuz da bunun zərrəcə əhəmiyyəti yoxdu. Söhbət elə bir məcraya gəlib çıxmışdı ki, onun danışığı təsirsiz qalacaqdı. Nə desə, nə danışsa, qulaq asmayacaqdılar, bəlkə də ağzını açıb bir kəlmə söyləməmiş sözünü kəsəcəkdilər.

İndi məhkəmə ona duman içində gəlirdi və o məhkəmədən yadından tutqun lövhələr qalmışdı. Özünün müttəhimlər kürsüsündə oturduğuna inana bilmirdi. Gör bir tale onu hara gətirib çıxardı? Ağzına kimi dolu salonun qabağında başını aşağı salıb durub. Başını qaldırmaq istəmir ki, birdən tanış sifətlə üzləşər. Bəlkə qorxduğu yeganə şey elə bu salondaca kiminləsə göz-gözə gəlməkdi. Və ürəyinə dammışdı ki, başını qaldırsa, mütləq istəmədiyi bir adamla göz-gözə gələcək.

Məhkəmə uzun çəkir, ona elə gəlir ki, heç vaxt qurtarmayacaq, aylarla, illərlə davam eləyəcək, ömrü elə bu qurtarmaq bilməyən məhkəmə sorğu-suallarınaca sərf olunacaq.

Sorğu-sual onu son dərəcə bezdirirdi. Gün kimi aydın olan şeyləri dönə-dönə soruşurdular. Əsəbiləşirdi, qəfildən ayağa qalxaraq qışqırmaq, söyüb yamanlamaq, hər şeyə tüpürmək istəyirdi. Ancaq sağ-solundakı silahlı mühafizəçiləri görən kimi özünə gəlir, harda olduğu yadına düşürdü; hirsi-hikkəsi dəri altında boğulan qan kimi içərisində boğulurdu, sifəti kömür rəngi alırdı.

Vəkildən imtina eləmişdi. Həm vəkilə veriləsi pulu yox idi, həm də onun nəyi isə dəyişə biləcəyinə inanmırdı.

...Məhkəmənin rəsmiyyətinə axıracan dözə biləcəkmi, görən? Yoxsa sorğu-sual bitməmiş ürəyi dayanacaq... Aman allah, bunlar niyə yorulmaq, usanmaq bilmir...

– Vətəndaş müttəhim, ayağa qalxın!

Ağır-ağır ayağa qalxır.

– Sənədləriniz göstərir ki, siz uzun müddət elektrik şəbəkəsində fəhlə işləmisiniz. Bu müddətdə Göyüşovla aranızda bir münaqişə olmuşdumu?

Necə desin, məsələni yerli-yataqlı izah eləsinmi, bunun bir faydası olacaqdımı? Axı Göyüşov ölüb, onun əlilə ölüb, o nə söyləsə, məsələni necə izah eləsə, bu, alacağı cəzanı yüngülləşdirməyəcəkdi. Ölümə nə yolla haqq qazandırmaq olar? O zaman niyə özünü yorur?

– Yox, - dedi.

– Deməli, Göyüşovla aranızda elə bir ciddi intriqa olmayıb. Bəs eləydisə, niyə Göyüşova əl qaldırdınız?

Axı bunu da izah eləmək lazımdı. Ancaq o danışmaq istəmir, qətiyyən istəmir. Salon başına fırlanır. Özünü ələ almağa çalışır, gözləyir ki, salondakı əşyalar, insanlar öz yerini alsın, ancaq olmur. Diqqətlə ona dikilən, kipriklərinin hərəkətini belə gözdən qoymayan bu adamların zəhmli baxışlarını öz üzərində hiss eləyir. Bu ağırlığa dözmür, dözə bilmir. Bircə məhkəmənin nə vaxt sona yetəcəyini, bu yekrəng sualların bitəcəyini, hökmün oxunacağını gözləyir.

– Vətəndaş müttəhim, sualı təkrar edirəm: Əgər Göyüşovla aranızda ciddi bir münaqişə yox idisə, nə üçün onu öldürdünüz?

Nə desin, nə cavab versin? Danışmaq istəməsə belə, bir şey deməlidi, nə isə bir cavab verməlidi, heç olmasa müstəntiqin üzücü suallarından canını qurtarmaq üçün cavab verməlidi. Bir də bundan belə necə danışmağının nə fərqi vardı ki?

– Göyüşov adam deyildi.

Elə bil səsi divara dəyib əks-səda verdi:

–...adam deyildi...adam deyildi...deyildi...

Bir az yüngülləşdi, cavab tapıb verə bildiyinə görə daxili bir rahatlıq duydu.

– Vətəndaş müttəhim, mənim bir sualım da var: Siz bilirdinizmi ki, adam öldürməyin cəzası nədi? Xahiş edirəm suala konkret cavab verin: hə, ya yox.

Cavab vermək istəmir, ümumiyyətlə danışmağa hövsələsi çatmır. Sual bir də, bir də təkrar olunur. Hər şeyin etiraf olunduğu bir vaxtda məhkəmənin hadisəni təfərrüatınacan öyrənmək cəhdi onu əsəbiləşdirir.

Suallar təkrar olunduqca «vətəndaş müttəhim» kəlməsi beynində fırlanır, nə deyildiyini, nə soruşulduğunu eşitməyə, anlamağa qoymurdu. Daha məhkəmə salonunu, insanların ona dikilən baxışlarını duymurdu. Gözlərinə qara, tutqun kölgələr görünürdü və o bu kölgələri özündən qovmaq istəyir, qovmaq istədikcə kölgələr daha da böyüyür, qorxunc olurdu.

«– Bəsdirin, qurtarın bu həngaməni!».

Ona elə gəlirdi ki, bu sözü ucadan dedi, bağıra-bağıra dedi, hətta səsdən salonun tutqun şüşələrinin titrədiyini də gördü. Amma ona məhəl qoymadılar. Sanki bununla demək istəyirdilər ki, bu salonda çox məhkəmələr olub, onun oturduğu bu kürsüdə çox müttəhimlər əyləşib. Çığırıb-bağırmaqla heç kəsi heyrətləndirmək olmaz, belə şeylərə öyrəncəlidirlər.

Ona qədər yüzlərlə insanın qorxu, səksəkə içərisində oturduğu, mühakimə olunduğu, haqlı-haqsız iş kəsildiyi kürsü, salon... İçəridə boğulan göz yaşları... Bu salonda görülən işlərin görünməyən izləri yaşayırdı.

Fikri, düşüncəsi bir nöqtədə qərar tutmur, onu bu gündən alıb ömrünün uzaq, erkən illərinə aparırdı, amma hər dəfə zəhmlə səslənən «vətəndaş müttəhim» kəlməsi amansızcasına xəyallarını uçurur, çəkib salona qaytarırdı. «Bircə məhkəmə qurtaraydı, bircə kameraya qaytaraydılar... Bircə özüylə, düşüncələrilə,yaddaşıyla təkbətək qalaydı...».

Anasıyla arvadının adamların arasında olub-olmadığını bilmir, başını qaldırıb baxmağa da cəsarət eləmirdi. Xəbər yollayıb dönə-dönə tapşırmışdı ki, heç biri məhkəməyə gəlməsin. Onların bir belə adamın diqqət mərkəzində olmağını istəmirdi, qorxurdu ki, nə isə artıq-əskik söz danışarlar. İllah da ondan çəkinirdi ki, birdən anası məhkəmə sədrinin ayağına düşər,

yalvarıb oğlunun bağışlanmasını, buraxılmasını xahiş edər, salonu ona da, özünə də güldürər.

Günlər ötür, məhkəmə qurtarmaq bilmirdi. Məhkəmənin bu qədər davam edəcəyini gözləmirdi. Sonra yavaş-yavaş buna da alışdı. Başını yuxarı qaldırmasa da, çıxış edənlərə maraqla qulaq asırdı. Elə maraqla qulaq asırdı ki, sanki özgə birisini mühakimə eləyirdilər. Ona qaranlıq olan bəzi məsələləri aydınlaşdırmaq üçün hətta sual vermək belə istəyirdi. Ancaq tezcə də harda olduğu, kim olduğu yadına düşür, özünü yığışdırırdı.

Danışılanlar, deyilənlər ona yuxu kimi gəlirdi. O bu söhbətlərdən, danışıqlardan olub keçənləri yaddaşında bərpa eləməyə çalışırdı.

Bu danışıqlara dözürdü, dözə bilirdi. Ancaq suallara, məhkəmənin üzücü, zəhlətökən suallarına dözməyə gücü, hövsələsi çatmırdı. Ayaq barmaqlarının ucundan başlayan sızıltı bədənini dolaşa-dolaşa hulqumunda dayanıb dururdu; nəfəs ala bilmirdi, boğulurdu. Bir andaca soyuq tər basırdı onu. Amma dözməliydi, oturmalıydı, getməyə, dincəlməyə ixtiyarı yoxdu, azadlığı əlindən alınmışdı, birdəfəlik alınmışdı. Ürəyi istədi, istəmədi buyuruğa qul kimi əməl eləməliydi.

–Vətəndaş müttəhim!

Sualın dalını eşitmirdi, bu söz soyuq dalğa kimi onu vurur, tabdan, taqətdən salırdı.

«...Vətəndaş müttəhim!.. Vətəndaş müttəhim!.. Vətəndaş müttəhim!..».

Bir də, bir də təkrar edirdilər.

Günəş bir adam boyu qalxsa da, gecənin sərini hələ yerin canından çəkilməmişdi. Səma elə duruydu ki, sanki mavi dəniz kimi səhranın üzərinə tökülmüşdü. Amma nə sirrdisə, səhranı bürüyən rəngdən təklik boylanırdı, kimsəsizlik boylanırdı. Bu rəng insanın ümidini, xəyallarını – işıqlı, isti nə vardısa əlindən alırdı. O bu kimsəsizliyin, sonsuzluğacan uzanan kimsəsizliyin canına, varlığında hopduğunu hiss eləyirdi. Qum dənizinin, buludsuz səmanın, uzaq, aydın üfüqlərin qovuşuğundan doğan rəng

niyə kimsəsizlik gətirirdi, niyə sonsuzluq gətirirdi – bunu özünə izah eləyə bilmirdi.

Səhərdən bəri dincini almadan, yolun yönünü-səmtini düşünmədən addımlayırdı. Bu qədər yol getməsinə baxmayaraq yorulmamışdı.

Bağlamanı bir tərəfə atıb oturdu. Ayaqqabılarını çıxarıb içərisinə dolmuş qumu boşaltdı. Üç gündən artıq idi ki, dilinin altından su keçmirdi. İndi birdən-birə aclığını hiss elədi. Bağlamanı açmağa başladı. Düyünü açdıqca ürəyi titrəyirdi. Bu düyün onun ən əziz, doğma adamı tərəfindən vurulmuşdu. Bağlamaya baxdıqca mətbəxdə ora-bura vurnuxaraq onunçün son dəfə yemək hazırlayan arvadının əllərini görürdü; əllərinin, barmaqlarının tabı-taqəti çəkilir, düyünü açmağa heyi qalmırdı.

Handan-hana əlləri titrəyə-titrəyə düyünü açdı. Bağlamanın içərisində yuxa, pendir, göyərti, bir də qızardılmış toyuq vardı. Kiçik dərman şüşəsində duz qoyulmuşdu. Başqa bir kağız bükülüsünü çıxardı – təmiz alt paltarıydı.

İlahi, bunlar nədən ötrüydü? Ölümə getmirdimi? Evdə bilmirdilərmi ki, onu güllələməyə aparırlar? Bilmirdilərmi, ölümlə hər şey bitir – bu bağlama da, bağlamadakı azuqə də, təmiz alt paltarları da artıqdı, ölümdən o yana heç nə, heç nə yoxdu.

Bağlamadan çıxardığı yeməklərə elə baxırdı ki, sanki keçmiş günlərinə baxırdı, xatirələrini yaşayırdı.

... Bir vaxt gör necə də xoşbəxtmiş... Hər axşam ailəsi ilə süfrə başında oturmaqdan, qızlarının çığır-bağırla xörək yeməsinə tamaşa eləməkdən gözəl heç nə yoxmuş. Bəs indiyəcən niyə bunu dərk eləməmiş, xoşbəxt olduğunu niyə anlamamışdı. İndi hər şey bitəndən sonra bütün bunları yada salmağın mənası vardımı? Getdi o günlər...həmişəlik getdi... Süfrədəki yeməklərə elə baxırdı ki, sanki onları yemək ötən xatirələri itirməkdi.

Ona ən çox təsir eləyən bağlamanın içərisindən çıxan şəkildi. Ailənin xoşbəxt günlərindən birində bu şəkli arvadı və iki qızı ilə birlikdə dənizin sahilində çəkdirmişdi. Daş səkinin

üstündə oturmuşdular, kiçik qızını qucağında tutmuş, böyüyü aralarında ayaq üstə durmuşdu. Evdəki şəkillərdən ən çox bu xoşuna gəlirdi. Özü də bu şəkildən bircə dənə qalmışdı. Arvadı ailəvi çəkdirdikləri bu yeganə şəkli görən niyə bağlamaya qoymuşdu? Ölümqabağı bir daha keçmiş xoşbəxt günlərini xatırlamaq üçünmü?

Şəkil çəkdirməklə arası yoxdu. Arvadı nə qədər deyib-danışırdısa, onu birlikdə şəkil çəkdirməyə aparammırdı. Gah işi olduğunu bəhanə gətirirdi, gah da pulsuzluğunu. Birgə çəkdirdikləri bu yeganə şəklin əksər nüsxələrini isə qohum-əqrabaya bağışlamışdılar. Özlərinə qalan iki şəklin birini uşaq cırmış, o birini qoruyub saxlaya bilmişdilər. Bu şəkli evdə əvəzsiz bir xatirə kimi əzizləyirdilər. İndi arvadı evin, ailənin, birgə yaşadıqları xoşbəxt günlərin ən qiymətli xatirəsini bağlamaya qoymaqla nə düşünmüşdü? Bəlkə fikirləşmişdi ki, son dəqiqəyədək özünü onlarla birgə hiss eləsin, bu şəklin havasına ömrünün axır günlərində təkliyin, yalqızlığın nə demək olduğunu bilməsin.

Onsuz da başqa heç nə barəsində düşünəmmirdi. Evdən-ailədən ayrılalı fikri-xəyalı yalnız onların yanında qalmışdı. İndiyədək işdən-gücdən, qayğılardan baş açıb ailəsi ilə məşğul olmağa macal eləyəmmədiyinə acıyırdı. Həmişə fikirləşirdi ki, sabah hər şey yaxşı olacaq, başı işdən-gücdən ayılacaq, qayğıları azalacaq və ömrünün bundan beləsini büsbütün evinə-ailəsinə həsr eləyəcək. Amma günlər ötdükcə qayğıları azalmaq bilmirdi ki, bilmirdi. Böyük qızı hər axşam gəzməyə getmək istədiyini xatırladırdı. Neçə dəfə söz versə də, macal eləyəmməmişdi. Tək bircə dəfə heyvanxanaya aparmışdı ki, uşaq bunu qeyri-adi hadisə kimi evlərinə gəlib-gedənlərə danışırdı.

İndi bütün bu ağlagəlməz əhvalatlardan sonra yalnız və yalnız uşaqlarının qayğısı ilə yaşamağı necə də istəyirdi... Amma necə? Daha innən belə doğma balalarına atalıq eləməyə haqqı yoxdu. Ölümə məhkum olunmuşdusa, heç nəyə, heç nəyə ixtiyarı çatmır. İstəsə də, istəməsə də taleyə boyun əyməlidi, təslim olmalıdı, bundan savayı çıxış yolu yoxdu.

Onu nələr gözlədiyini bilmir. Bəlkə bu ucu-bucağı bilinməyən səhrada qurda-quşa yem olacaq, bəlkə də yol-səmt axtara-axtara aclıqdan-susuzluqdan öləcək, zaman-zaman qum dənizində əriyib itəcək. Nə qədər ki, vaqon-kameranın darısqal divarları arasında sıxılırdı, hər an, hər saniyə yaxınlaşan ölümü görürdü, onda bu darısqallıqdan xilas olmaqdan, qurtulmaqdan savayı özgə bir düşüncəsi yoxdu, amma indi səhra boyda bir azadlığa qovuşduqdan sonra yad dənizdə balıq ovlayan ovçu kimi nagüman qalmışdı, nə edəcəyini bilmirdi.

Toyuqdan bir tikə kəsib ağzına qoydu. O saatca da tanış qoxu onu bihuş elədi. Bu qoxu yalnız arvadının xörəyindən gələrdi. Dünyada heç bir qadın bu təmdə, bu ətirdə xörək bişirəmməzdi. Bir vaxt necə xoşbəxtmiş, ilahi! İnsan niyə kor olurmuş... Niyə bəxtinə, qismətinə düşən səadəti görmürmüş? Niyə? Niyə? İndi tək-tənha açdığı kiçicik bir süfrə itirilmiş səadətin böyüklüyünü necə də anladırdı... Görən indi evdə nə düşünürlər? Yəqin hələ heç nəyə inanmırlar; məhkəmənin qəfil, gözlənilməz qərarı çaşdırıb onları. Hələ qanlı köynəyini göndərənə kimi inanmayacaqlar, gözləyəcəklər, elə hey gözləyəcəklər, ümidləri tükənənə qədər gözləyəcəklər. Arvadı atası evinə qayıdacaqmı? Bəs uşaqları? Anası güman ki, uşaqları gəlininə verməyəcəkdi. Oğlunun bir cüt yadigarından əl çəkəmməz, lap dünya yığılsa əl çəkəmməzdi. Bu neçə ildə şəhərdə arvadı-uşaqları üçün şərait yarada bilmədi. Ömrünün kirayədə keçən illəri yadına düşəndə sümükləri sızıldayır. Yaxşı ki, uşaqları bir az gec doğulmuşdu; onlar ehtiyacın amansız üzünü görməmişdilər. Sonra yavaş-yavaş kirayə həyatına alışdılar. Özü də bilmədən, duymadan, istəmədən şəhərə təslim oldu.

Gözlərini şəklə zilləyib durmuşdu, nə illah eləyirdisə çəkəmmirdi. Əvvəllər də bu şəklə saatlarla baxardı, özünü, varlığını unudub tamaşa eləyərdi. Hələ o vaxtdan içində özünə də məlum olmayan sirli bir qorxu gəzdirirdi. Ürəyinə dammışdı ki, bir vaxt gələcək, onu evindən, uşaqlarından, ailəsindən zorla

çəkib ayıracaqlar, yurdundan, yuvasından didərgin düşəcək, ömrü uzunu ona doğma, əziz olan insanlardan ayrı yaşamağa məcbur olacaq. Bu şübhə, bu qorxu qəlbinə nə vaxt düşmüşdü, necə düşmüşdü, bunu bilmirdi. Amma bu qorxunu həmişə özündən qovmağa çalışmışdı. Neçə illər özündən qovmağa çalışdığı qorxu indi həqiqətə çevrilmişdi və bu həqiqət elə qəfil, elə gözlənilməzdi ki, heç cür inanmağı gəlmirdi.

Aclığı büsbütün çəkilmişdi. Şəklə baxdıqca ömrünün həmin çağları gəlib gözlərinin önündən keçirdi. Bir anlığa hər şeyi unudurdu, ona elə gəlirdi ki, bütün bu əhvalatlar baş verməyib, hər şey – həyat, ömür, səadət qabaqda, gələcəkdədi, hələ yaşamalıdı, dözməlidi, təslim olmağa, ruhdan düşməyə haqqı yoxdu.

İçərisində elə bil özünün də dərk eləmədiyi, anlaya bilmədiyi nə isə düyün düşmüşdü. Bu düyün köksünü, sinəsini ağrıdırdı, nəfəs almağa qoymurdu.

Bağlamanı başının altına qoyub uzandı.

Gün günorta yerini aşmışdı. Göy üzündə qatar-qatar durnalar uçuşurdular. Ürəyində birdən-birə quş olmaq arzusu doğdu. Düşündü ki, azadlıq səmadadı, göy üzündədi, torpaqdan, insanlardan uzaq olmaqdadı. Bəs əgər beləydisə, niyə torpaqdan ayrı səma yoxdu, həyat yoxdu? Deməli, ömür, həyat torpaqdan ayrı dərkolunmazdı. Torpaq insanlar üçün ilk və son mənzildi, qaçılmazlıqdı, əbədiyyətdi.

Göy üzü dəniz kimi təmiz, səhra suyu kimi lal və səssiz idi. Elə səssizlikdi ki, hətta, milçək, cırcırama səsi belə eşidilmirdi. Elə bil yer üzünün bu səmtində həyat yox idi. Və hərdən ona elə gəlirdi ki, ölümdən qaçıb qurtarmaq üçün taleyin gətirib çıxardığı bu səhra elə ölüm mənzilidi, son sığınacağıdı...

Bağlamanı başının altına qoyub uzansa da, rahatlana bilmirdi. Sonsuz, nəhayətsiz səhrada ona həyan olan yalnız günəş idi. İndi günəş üfüqlərə sarı yollandıqca o da durub günəşin ardınca qaçmaq istəyirdi. Səhranın içərilərinə doğru hərəkət elədikcə gecə, gecənin vahimə dolu, sirr dolu qaranlığı onu qorxudurdu. Dincəlmək, əsəbi, üzücü günlərin yorğunluğunu çıxar-

maq yadına da düşmürdü. Səhranın yönünü, səmtini tapmamış, dünyanın harasında olduğunu bilməmiş gözlərinə yuxu getməyəcəkdi, istəsə belə dincələ, rahatlana bilməyəcəkdi.

Qalxıb oturdu.

Həftənin gününü, ayın neçəsi olduğunu bilmirdi. Bir müddətdən sonra ilin hansı ayı olduğunu da yadından çıxaracaq, daha sonra ili də. İnsanlardan, cəmiyyətdən uzaqda vaxt, təqvim nəyinə lazımdı ki...

Ayağa durub bağlamanı qoltuğuna vurdu. Ayaq izlərinə görə bayaq tutduğu səmti tapdı. Ağır-ağır yola düzəldi.

Canında yorğunluq hiss etmirdi. Bəlkə bu ona görəydi ki, istədiyi vaxt qumun üstünə uzanıb dincələ bilərdi, istədiyi vaxt dayana bilərdi; hər işdən-qayğıdan azad idi.

Qarşıda onu nələr gözlədiyini bilmirdi. Qorxurdu. Bu qorxu aclığın və susuzluğun qorxusu deyildi, bəlkə taleyin, hadisələrin qaranlıq və nagümanlığındandı. Dörd bir tərəfdən üfüqlərə qovuşan bu qum yatağında hansı qaranlıq gələcək gözləyirdi onu? Bu ümidsiz vəziyyətdən çıxış yolu tapandan sonra həyatının bundan beləsini qura biləcəkdimi, onu gözləyən mürəkkəb hadisələr burulğanından xilas olmaq üçün özündə güc, qüvvə tapacaqdımı?

Vaxt ötdükcə hadisələr təsəvvüründə aydınlaşır, durulur, qatı, tutqun dumana bürünmüş gələcəyin xofu, vahiməsi onu ümidsizləşdirirdi.

Günortadan əsməyə başlayan külək getdikcə güclənirdi. Külək gücləndikcə qum dənizi aram-aram dalğalanır, heyrətamiz bir mənzərə yaranırdı. Külək hardansa cənubdan əsirdi; bunu küləyin səmtindən yox, istiliyindən, ətrindən bilirdi. Külək əsdikcə səhra çalxalanıb göyə sovrulur, uzaq üfüqlər qum dumanında görünməz olurdu. Havanın belə keçməsi onu darıxdırırdı.

Pencəyinin qolu ilə gözlərini tutub gedirdi. Gözlərinə qum dolmasından qorxurdu. Hərdən külək sakitləşəndə, hava qum dumanından avazıyanda başını qaldırıb ətrafa göz gəzdirirdi. Elə

bil ki, səhrada bu vəhşi, həris boğanağın o üzündə kiminləsə üzləşəcək, qarşılaşacaqdı. Amma hayana baxırdısa ucsuz-bucaqsız səhrada özgə bir canlı gözə dəymirdi.

Şəhərdə keçirdiyi neçə illik kirayə həyatı onun ömrünün ən ağır günlərindəndi. Tək özü işləyirdi. Arvadına iş düzəldə bilmirdi, şəhərə qeydiyyatı yox idi. Döymədiyi qapı, yazmadığı ünvan qalmamışdı, heç yerdə işə götürmürdülər. Arvadı ali təhsilli idi, amma lap fəhlə də işləməyə razı olardı. Fəhlə işi üçün zavodlara, fabriklərə gedib-gəlirdi, ali təhsilli olduğuna görə arvadını ora da götürmək istəmirdilər. Əli hər yerdən üzüləndən sonra bu işdən birdəfəlik əl götürmüşdü.

İlk illər uşaqları olmurdu. Nə qədər çalışırdısa, heç cür evdə səmimiyyət yaradammırdı. İşdən evə qayıdanda arvadını həmişə əlləri qoynunda görərdi. Evin ab-havasına sanki qaramat çökmüşdü. Bir yandan da ehtiyac göz verib işıq vermirdi. Belə tez evləndiyinə peşman olmuşdu. Ona elə gəlirdi ki, bu imkanla, bu dolanışıqla ailə qurmağa haqqı yoxdu, evlənmək, ailə qurmaq da bütün qeyri işlər kimi pulu, imkanı olanlar üçündü.

O bədbəxt hadisə baş verməsəydi, bəlkə də evlənməyəcəkdi. Çünki bu barədə qətiyyən fikirləşməmişdi. Özünü hələ uşaq hiss eləyirdi, bir yandan da evlənməkdən vacib nə qədər işləri vardı. Amma qəzadanmış... Hər şey düşündüyünün əksinə oldu.

Böyük qardaşı – ailənin ilki nişanlı idi. Toya hazırlıq görülmüş, bir aləm xərc çəkilmişdi. Toya üççə gün qalmış elə bil qardaşını vurğun vurmuşdu. Axşam üstü işdən qayıdanda elə rulun dalındaca (qardaşı sürücü işləyirdi) ürəyi tutmuş, maşın yoldan çıxıb çevrilmişdi. Meyiti maşının kabinəsindən zorla çəkib çıxarmışdılar, bədənində salamat yeri qalmamışdı.

Bu qədər xərc-xəcalətdən sonra necə hər şeyi silib atasan...

Bir evin, ailənin adına yazılmış qızı özgə qapıda gəlin görməyə dözməkmi olardı?..

Bütün kənd qızı qarğıyır, öz dərdi azmış kimi elin qınağı da yük olur ona...

Qardaşının nişanlısını ona alacaqlar... Necə?.. Necə?.. Kim atdı ortaya bu ağılsız, sərsəm fikri?..

Heç cür evlənmək istəmirdi. Vaxtsız itirdiyi yeganə qardaşının qismətinə arvad gözüylə baxmağı ağlına gətirmirdi. Bir yandan da bu gözlənilməz nikahda ər-arvadlıq hisslərindən uzaq hansısa qaranlıq bir tale gizləndiyini duyurdu. Amma atasının gözlərinin dərinliyində elə bir kədər duydu ki, sözünün qabağına söz çıxara, etiraz eləyə bilmədi.

Atası:

– Sözümü yerə salsan, atalıq haqqımı halal etmərəm, – dedi.

Bütün bu hadisələr o qədər sürətlə baş vermişdi ki, özgə bir çıxış yolu axtarmağa imkan tapa bilməmişdi. Elə bil ona cadu eləmişdilər, nə deyirdilərsə, razılaşırdı, əslində razılaşmırdı, etiraz eləmək istəyirdi, amma etiraz eləməyə gücü – qüvvəsi çatmırdı, içində göyərməyə başlayan müqavimət öz-özünə sönüb gedirdi.

Vəziyyətin belə şəkil alması qardaşının ölümünü unutdururdu. İndi qardaşının ölümündən çox evi-ailəni onun qızı – nakam qardaşının qismətini necə qəbul eləməsi düşündürürdü. Sanki qəfil baş verən bu ölüm labüdmüş, qaçılmazmış... Sanki onun xoşbəxtliyi üçün bu qurban lazımmış...

Kənddə bu cür toy görünməmişdi. Bir ayrı cür bolluqdu. Qoyunlar şaqqalanıb yerbəyerdən budaqlardan asılmışdı. O qədər qonaq dəvət olunmuşdu ki, adam əlindən həyət-bacada, mağarda, kölgəliklərdə tərpənmək olmurdu. Mağarın yuxarı başında aşıqlar oturmuşdular. Anası göz yaşları içərisində oynayırdı. Bütün bunlar o toydan yadında qalan pərakəndə mənzərələrdi. O toy indi də duman kimi xatırına gəlirdi, elə bil bütün bu əhvalatlar yuxuda baş vermişdi. Ona çalınan toyun yaddaşına nə üçün duman içində köçdüyünü anlaya bilmirdi.

O çıxıb getmək istəyirdi, baş götürüb getmək istəyirdi, amma evdən aralana bilmirdi. Hiss eləyirdi ki, göz qoyurlar, izlə-

yirlər, hayana getsə, fərqi yoxdu, arxasınca düşüb tapacaqlar, qaytaracaqlar. Onu da hiss eləyirdi ki, nə isə ayaqlarına sarılaraq saxlayır, çıxıb getməyə qoymur. Gözləri mağarda için-için ağlaya-ağlaya oynayan anasına sataşan kimi əllərinin, qollarının tabı-taqəti çəkilirdi, gücsüzləşirdi, heysizləşirdi, dönüb hissiz-duyğusuz bir məxluq olurdu.

Anası hərdən mağardakılara sarı:

– Niyə oynamırsınız, camaat, – deyirdi. – Bura yasamı gəlmisiniz, əlləri qoynunda dayanıb baxırsınız...

O gecə möhkəmcə içmişdi. İçməsəydi, dözəmməzdi, ürəyi partlayardı. Adamlar dağılışandan sonra həyətdə boş stollardan birinin arxasında oturub bir şüşə arağı boşaltmışdı. İçmişdi ki, bir qədər yüngülləşsin. İçmişdi ki, hər şeyi unutsun, heç olmasa bircə günlüyə unutsun. Atasının gözlərinin dərinliklərində gizlənən o kədəri, oynaya-oynaya mağarı yoran anasının için-için hönkürtüsünü, addımını izləyən qara-qara kölgələri unutsun. Unutsun ki...

Qızın yanına girəndə ayaq üstə güclə dayanırdı. Amma ayağını qapının astanasından içəri qoyan kimi sərxoşluğu dərhal keçdi.

Otaq qaranlıq idi, pəncərənin qabağında nazik şam yanırdı. Ancaq şamın işığı otağa düşmürdü, pəncərədən bayıra dağılırdı. Gözləri qaranlığa alışanacan dayanıb gözlədi. İlk qulağına dəyən səs qızın hıçqırtısı oldu.

Ayaqlarının ucunda yaxınlaşıb qızın yanında oturdu, əllərini ovcuna aldı. Əllər qızdırmalıymış kimi istidən od tutub yanırdı. Qızın damarlarında qanın necə hərəkət elədiyini ovcunda duyurdu və ona elə gəlirdi ki, indicə əllərini çəkəcək: «Mənim qismətim sən deyilsən, allah xatirinə çıx get burdan...» – deyə onu rədd eləyəcək.

Amma qız əllərini çəkmədi.

Eləcə əlləri onun ovcunda için-için ağlayırdı. Hiss eləyirdi ki, qız elə belə, ağlamaq xatirinə ağlamır, içəridən ağlayır, ürəkdən ağlayır. Ona görə də nə isə deməyə, dillənməyə, təsəlli ver-

məyə qorxurdu.

Əllərini ovcuna sıxıb qızın nə vaxt ovunacağını gözləyirdi. Və hərdən başını qaldırıb otağın alatoranlığına nəzər salanda kölgələr içərisində qardaşının kölgəsinə bənzər nəsə gözlərinə sataşır, qeyri-ixtiyari diksinirdi. Handan-hana özünü ələ alaraq:

– Ağlama, – dedi.

Ancaq qız hıçqırtısını boğa bilmirdi.

Sonra qızın başından gəlinlik örpəyini götürdü. Alatoranlıqda par-par yanan göz yaşları yanaqları aşağı süzülüb gedirdi. Elə ümidsiz ağlayırdı ki, sakitləşəcəyinə inanmaq olmurdu.

Həmin gecə qıza toxunmadı. Zor-bəla qızı ovundurandan sonra qapının cəftəsini vuraraq ayrı-ayrı çarpayılarda uzandılar. Amma səhərə kimi heç biri gözlərini yummadı. İkisi də bir-birindən utanırdı, ikisi də özünü günahkar bilirdi.

O gecə özünə söz verdi ki, daha qıza toxunmayacaq, o qız bu evdə gəlin olsa da, qardaşının qismətinə gözünün ucuyla belə baxmayacaq.

Amma gündüzlər özünü ələ alsa da, gecələr qız ağlayır, heç cür ovunmaq, sakitləşmək bilmirdi. Get-gedə qızın göz yaşları daha dözülməz olurdu.

Nə yaxşı ki, bu əhvalatdan evdə heç kəs xəbər tutmadı, yalnız özlərinin arasında sirr olaraq qaldı.

Hər şey qurtarandan sonra çıxıb Bakıya getdi. Düz bir həftəydi ki, işdən icazə alıb gəlmişdi. Ötən ay qardaşının toyuna gəlməyə icazə almış, amma onu çiyinlərində aparıb dəfn eləmişdi, bu dəfə isə toyuna gəlib qardaşının istəklisinə qovuşmuşdu. Qardaşının yasıyla onun toyunu qırxca gün ayırırdı.

Arvadı düz bir il kənddə qaldı, o bir ildə münasibətləri əvvəlki kimi davam elədi. Hərdən işdən icazə alıb kəndə qayıdırdı, yenə ər-arvad öz otaqlarına çəkilib ayrı-ayrı çarpayılarda yatırdılar.

Amma bir dəfə kəndə gələndə qız:

– Məni də apar özünlə, Əkrəm, – dedi, – daha qala bil-

mirəm.

– Ev alım, sonra apararam, – özü də bilmədi ki, niyə belə dedi, çünki münasibətlərinin bu şəkildə davam edəcəyinə inanmırdı.

– Yox, ev gec olar, kirayədə yaşayarıq... – Qız təkid elədi.

Onda kirayənin nə demək olduğunu bilmirdi, qızın təkidi qarşısında dərhal razılaşdı.

Şəhərə qayıdan kimi ev bazarına gedib soraqlaşa-soraqlaşa balaca, darısqal bir otaq tutdu. Bir həftə sonra qızı da şəhərə gətirdi.

Özlərilə cehiz mebelini, xırda-para ev əşyalarını da gətirmişdilər. Mebeli açandan sonra evdə stol qoymağa balaca yer qalırdı. Mətbəx o qədər darısqal idi ki, iki adam yanaşı dayanammırdı. Evə yol mətbəxin içərisindən keçirdi. Pəncərəsi olmadığından mətbəxdə qaz yandıranda istidən evdə oturmaq qeyri-mümkündü.

Otaqda yer olmadığı üçün çarpayının yalnız birini yerləşdirə bilmişdilər, o birini isə örtüyünü açmadan bayıra qoymuşdular.

Həmin gün işdən qayıdanda görmüşdü ki, Züleyxa özünün gəlinlik paltarını geyib, çarpayının üstündə oturub onun yolunu gözləyir. Bir il bundan əvvəlki toy gecəsi, o gecə qızın için-için ağlamağı, şam işığının titrək alovunda divarda oynaşan əcayib-qərayib kölgələr içərisində qardaşının kölgəsinin gözlərinə görünməsini xatırladı. Çünki bu balaca darısqal otaqdakı hər şey ona həmin toy gecəsini xatırladırdı.

Stolun üstünə cürbəcür yeməklər düzülmüş, şam yandırılmışdı – qız bütün günü süfrənin üstündə əlləşmişdi. İşığı da qəsdən yandırmamışdı ki, bir-birinin gözlərinə baxa bilmədikləri, özlərini günahkar bildikləri o gecənin rəngini-ruhunu qaytara bilsin.

Pencəyini soyunub yemək stolunun arxasında oturdu. Qızın səliqəylə hazırladığı süfrənin ətri, gözəlliyi onu bihuş elədi. Ancaq nə qədər elədisə qızı yemək stoluna yaxın gətirə bilmədi.

Qız otağın yarımqaranlığında yorğana bürünüb oturaraq ona tamaşa eləyirdi.

Yeyib qurtarandan sonra qalxıb özünə çay süzdü, sonra keçib çarpayıda qızın yanındaca oturdu. Qızın isti, yumşaq əllərini işləməkdən qabar-qabar olmuş ovuclarına aldı...

O gecə ilk dəfə olaraq ər-arvad kimi yaşadılar. Sonralar heç biri bu hadisəni xatırlamaq istəmirdi. Çünki bu hadisədə nə vardısa, elə bil ikisinin də heysiyyətinə toxunurdu.

İlki doğulanda sevinmədi. Arvadı doğuşdan qabaq bərk qorxu keçirirdi. Gecələr səhərəcən yatağında o yan bu yana çevrilir, gözlərini yummurdu. Hər şeydən səksənir, üşənirdi. Gecənin bir vədəsi onu silkələyib yuxudan qaldırır:

– Əkrəm, – deyirdi, – yatma, mən qorxuram.

– Evin içində nədən qorxursan?

– Ürəyimə damıb ki, sağ çıxmayacağam.

– Ağlını başına yığ, – deyirdi. – Bir səndə görünməyib ki... Dünya yaranandan bu yana gündə minlərlə uşaq doğulur.

– Orası elədi... Amma fikirləşəndə tüklərim biz-biz olur.

– Qorxma, – deyirdi, – çalış ki, bu barədə fikirləşməyəsən. Birdəfəlik yadından çıxar, onda hər şey asan olacaq.

– Axı bacarmıram.

– Uşaq deyilsən ki...

Amma onun təsəllilərinin faydası olmurdu. Hiss eləyirdi ki, arvadı qorxunu heç cür özündən qova bilmir. Arvadının həyəcanları ona da sirayət eləyirdi, üzdə təsəlli versə də, içində qorxmağa başlayırdı.

Gecələr yenə arvadı qalxıb oturardu.

– Nə olub, niyə yatmırsan?

– Uşaq təpikləyir məni, yəqin doğum vaxtı keçir, doğa bilmirəm.

– Necə yəni doğum vaxtı keçir, axı o gün deyirdin ki, hələ üç həftə var. Heç üççə gün keçməyib o vaxtdan.

– Nə bilim, vallah, elə bil uşaq tələsdirir məni, yəqin daha

dözəmmir.

Uşağın sağ-salamat doğulması, arvadına xətər toxunmaması onu həddən artıq sevindirmişdi. Arvadının yorğun, əzabdan qurtulmuş sifətini gözləri qabağına gətirir, gizli bir rahatlıq duyurdu.

Uşaq doğulandan sonra birgə yaşadıqları bütün bu illərdə olub keçənləri xatırlamaq istəməsə də, fikrindən-düşüncəsindən də qova bilmirdi. Hər dəfə arvadıyla göz-gözə gələndə onun baxışlarının dərinliklərində gizlənən o əbədi kədəri hiss eləyirdi və görürdü ki, uşaqları doğulsa belə onun kimi arvadı da ailə həyatına alışammır...

Təzə-təzə gözlərini uşaqdan çəkə bilmir, vaxtsız ölən qardaşıyla uşağın üz-gözündə oxşarlıq axtarırdı. Onu ağrıdan buydu ki, qardaşı ölməsəydi, uşaq ona oxşayacaqdı. O zaman bu uşaq yox, başqa birisi dünyaya gələcəkdi. Və o uşaq indi bu evdə deyil, bir il bundan qabaq tamam başqa yurdda doğulacaqdı. Amma tale elə gətirib ki, o uşaq doğulmayıb. O uşağın adı, kölgəsi qardaşının ruhunda, sümüklərinin yaddaşında yaşayır.

Bir az sonra doğulmayan, qardaşının ruhunda, ruhunun yaddaşında yaşayan o uşaq yuxularına gəlməyə başladı. Gecələr yuxunun şirin vədəsi ilan çalıbmış kimi diksinib ayılırdı. Səhərə qədər gözlərini yummurdu, qorxurdu ki, yatar, uşaq təzədən yuxusuna gələr. Uşağı yuxuda görəndə tabı-taqəti çəkilir, haldan düşür, heysizləşirdi, ona elə gəlirdi ki, get-gedə daşa dönür.

Onu gecələr səksəndirib oyadan uşağın yuxularında oxuduğu sirli mahnıydı. Bu mahnı ona tanış gəlirdi, elə bil haçansa, hardasa eşitmişdi və səs qulaqlarına dolan kimi bu səsi haçan, harda eşitdiyini xatırlamağa çalışırdı. Yaddaşı onu elə uzaqlara çəkib aparırdı ki, az qalırdı ağlını itirə. Sanki bu mahnını ana bətnindəykən, dünyanın hansı rəngdə olduğunu bilmədiyi, duymadığı çağlarda oxumuşdular və bu mahnı iliyinin, qanının, sümüklərinin yaddaşındaydı.

Arvadı onun yuxudan oyandığını, yata bilmədiyini hiss eləyirdi, amma heç bir şey soruşmurdu. Oyaq olduqlarını bir-bi-

rindən gizləyə-gizləyə səhəri açırdılar.

Sonra gecələr yuxudan səksənib oyananda geyinib bayıra çıxmağa başladı. Gecənin nə vədəsi olur-olsun, yuxudan qalxan kimi evdə dözə bilmir, çıxıb həyətdə gəzişirdi. Gəzişə-gəzişə papiros çəkirdi. Əvvələr heç vaxt papiros çəkməmişdi, gündüzlər də çəkmirdi. Amma gecə... gecə heç cür dözə bilmirdi.

Bir gecə yenə yuxudan oyanıb bayıra çıxmaq istəyəndə arvadı qalxıb oturdu:

– Hara gedirsən? – dedi.

Gecələr bayıra çıxanda arvadının onu izlədiyini bilmirdi, bir anlığa karıxan kimi oldu. Amma tezcə də özünü ələ alıb:

– Heç, gəlirəm, – dedi və uşaq oyanmasın deyə yavaşca qapını açıb həyətə çıxdı.

Papirosunu alışdırmağa macal tapmamış arvadı gecə köynəyindəcə ardınca çıxmışdı.

Bu anda, bu dəqiqədə istəmirdi ki, kimsə onu sorğu-suala tutsun, niyə uyuya bilmədiyinin səbəbini soruşsun. İstədiyi bircə şey vardısa, o da təklik idi, kimsəsizlik idi. Amma arvadı ona yaxınlaşırdı, indicə nə isə soruşacaqdı, inad eləyəcəkdi – ən çox qorxduğu da elə bu idi.

Arvadı gəlib onunla üzbəüz dayandı:

– Nə olub sənə, – dedi, – niyə yata bilmirsən?

– ...

– Səninlə deyiləm?

– Yeri yıxıl yat, – dedi, – soyuq olar sənə...

– Yox, bu saat de görüm sənə nə olub?

– Heç bir şey olmayıb. Elə belə havamı dəyişməyə çıxmışam. – Söhbəti yayındırmaq istədi.

Amma arvadı inad eləyirdi:

– Əkrəm, – dedi. – Mən uşaq deyiləm... başa düşürəm ki, nəsə olub, niyə məndən gizlədirsən. Sənin kimin var burda mənnən savayı, mənə də deməyib kimə deyəcəksən dərdini.

– ...

– Eşitmirsən nə deyirəm?

Cavab vermədi, küçə qapısına tərəf yönəldi. Arvadı bir qədər gözləyib incik halda çıxıb getdi. Əslində bunun cavabı da yox idi. Yata bilmədiyini, uşağın yuxularına gəlib onu dəli elədiyini deyəmməyəcəkdi, desəydi belə, arvadını heç cür buna inandırammayacaqdı.

Bu hadisədən sonra daha bayıra çıxmırdı, gecələr o doğulmayan uşağın sirli səsinə oyananda yatağında o yan bu yana çevrilə-çevrilə səhəri dirigözlü açırdı.

Yaxşı ki, bu vəziyyət çox çəkmədi, o uşaq qəfil gəldiyi kimi qəfil də yuxularından çəkildi.

## III FƏSİL

... Elektrik şəbəkəsində fəhlə işlədiyi düz on il idi. Hər gün şəhərdən otuz kilometrlik yolu yük maşını ilə gətirib çölün düzünə tokür, bir də axşam hava qaralana yaxın dallarınca gəlirdilər. Bütün il uzunu işləri çöldə-bayırda keçirdi, gah xətt çəkir, gah təmir işləri aparırdılar. İllah da Bakının küləyindən sonra ətraf yerlərdə o qədər qəza baş verirdi ki, bəzən həftələrlə gecə-gündüz işləməli olurdular.

On nəfərlik briqadada idi. Özü də bilmirdi ki, tale onu necə gətirib bura çıxarmışdı. Əvvəl-əvvəl dözümü çatmırdı, iş ağır idi. İlk günü işə çıxanda elə yorulmuşdu ki, yataqxanaya dönəndən sonra axşamdan ac-susuz yıxılıb yatmış, bir də səhərisi gün öynə radələrində ayağa qalxmışdı. O biri günü briqadir işə çıxmamasının səbəbini soruşanda:

– Yorulmuşdum, – dedi.

Briqadir:

– Ə, necə yorulmuşdum, işdə yorularlar da... Bura dincəlməyə gəlməmisən ki... Bəlkə səninçün bu qayalıqda istirahət mərkəzi tikdirək, – dedi.

Dillənmədi, əslində deməyə sözü də yox idi, gəlmişdisə, işləməliydi.

Sonra tədricən çətinliyə alışdı. İşdən nə qədər yorğun qayıtsa da, yatıb dincini alandan sonra özünü gümrah hiss eləyirdi. Bu cür çətinliyə vərdiş eləməyi özünə də ləzzət verirdi.

Əvvəllər heç vaxt şəhərdə işləmək fikri olmamışdı. Bura gəlməkdə də fikri o idi ki, işləyə-işləyə instituta hazırlaşsın, axşam şöbəsinə daxil olsun. Kənddə evin, ailənin vəziyyəti eləydi ki, gündüz oxumağa heç cür imkanı yox idi.

Amma bir qədər keçəndən sonra hiss elədi ki, burda iş ağırdı və üstəlik imtahana hazırlaşmağa qətiyyən şərait yoxdu. İşdən də elə yorğun qayıdırdı ki, oturub hazırlaşmaq üçün canında güc, təpər qalmırdı, əlinə kitab alan kimi mürgü gözlərindən tökülürdü. Heç bir ay keçməmiş yenidən özünə iş axtarmağa başladı. Ancaq şəhərdə iş tapmaq o qədər də asan deyildi, üstəlik də qeydiyyatı yoxdu, hayana üz tuturdusa, əli quruya çıxırdı. Və iş axtara-axtara günlərin bir günü dərk elədi ki, bu kollektivə, işlədiyi briqadaya elə öyrəşib ki, onlardan ayrılmaq çətindi. Çünki bu kollektiv ailə kimi mehriban idi, bütöv idi. Həm əldən-ayaqdan, səs-küydən uzaq bir yerdə işləyirdilər, həm də başlarının üstünü kəsdirib duran yox idi. Hərdənbir şəbəkənin direktoru Göyüşov səhərlər maşını ilə işin gedişini yoxlamağa, onlara baş çəkməyə gəlirdi. Özgə bir xatircəmlikləri yoxdu. Bilirdilər ki, Göyüşov həftədə, iki həftədə bir dəfə sahəyə baş çəkib gördükləri işin hesabatını istəyəcək. Vəssalam.

Sonra mənzil növbəsinə durmuşdu. Düz on il də ev gözləyə-gözləyə şəbəkədən aralana bilmədi. Çünki işdən çıxmaqla mənzil növbəsini, şəhərə qeydiyyatını itirə bilərdi. Ev isə onu hər şeydən çox narahat eləyirdi, gecə-gündüz fikri-zikri elə bununla məşğul idi, bilmirdi ki, məsələni nə yolla həll eləsin. Direktor neçə il idi ki, mənzil vəd eləməyinə eləyirdi. Ancaq vəd elə vəd olaraq qalırdı. Ondan sonra işə düzələnlərin bir çoxuna mənzil vermişdilər, amma o yada düşmürdü. Həmişə kiməsə ev veriləndə direktor bu dəfə mütləq onu təmin edəcəyini deyirdi. Amma idarəyə ev ayrılan kimi elə gizli bölüşdürülürdü ki, onun

xəbəri olmurdu.

Ev almış olsaydı, ailə sarıdan xatircəm olardı, üstəlik maddi vəziyyəti də bir qədər düzələrdi. Maaşını alıb bütünlüklə ev kirayəsinə verirdi. Ailənin bir aylıq xərcliyi üçün cəmisi on manat qalırdı; on manat isə quruca çörəyə də çatmırdı. Evi-ailəni dolandırmaq üçün özünü oda-közə vururdu.

Ehtiyac üzünü bozartdıqca pal-paltarlarını, evin xırda-para əşyalarını, qiymətli qab-qacaqlarını satırdılar. Satırdılar deyəndə, dəyər-dəyməzinə verirdilər, çünki gözləməyə imkan yox idi, pul vacib lazımdı. Daha sonra arvadının qızıllarını, evin mebelini satdılar.

Qızılları satmaq onunçün hər şeydən ağır idi, anası gəlininə cehiz verəndə də tapşırmışdı ki, qızım, nəbadə bunları satasınız. Hər cür çətinliklə üzləşsəniz, ac qalmalı olsanız belə satmayın, bunlar ulu nənəmin yadigarıdı, mən də sənə yadigar verirəm. Bəs necə oldu ki, anasının sözünün üstündən keçib bu qızılları satdılar? Aclıqmı məcbur elədi, ehtiyacmı vadar elədi buna? Axı, o aclığı anası da çəkmişdi... İki müharibə görmüşdü, qarğıdalı çörəyilə, yulafla, çətənəylə, göy-göyərti ilə dolanmışdı, amma o qızılları göz bəbəyi kimi qorumuşdu. Bəlkə indi zəmanə daha çətin idi? Axı, böyür-başındakıların bolluq dənizində üzdüyü bir zamanda aclıq niyə məhz onunçün amansız bir varlığa çevrilmişdi, dəf olunmayan, keçilməyən səddə, maneəyə dönmüşdü?

Mebeli satandan sonra evə heç cür alışammırdılar. Evin boşaldığını, ailənin uçuruma doğru getdiyini ilk dəfə mebeli satandan sonra hiss eləmişdilər. Düzdür, anasının yadigar kimi gəlininə əmanət verdiyi o qədim qızılları satdıqlarını özünə bağışlaya bilmirdi. Bu barədə söhbət salmasalar da, hər ikisi əzab çəkirdi. Amma xırda-para şeylər nə qədər qiymətli olsa da gözə görünmürdü. Mebel çıxarılandan sonra isə evdə indiyəcən hiss eləmədikləri bir boşluq yaranmışdı. Xalçaları da mebellə birgə satdıqlarından yalın divarlardan indiyəcən duymadıqları, yaşamadıqları, sözlə deyilə bilinməyəcək bir qüssə tökülürdü.

Mebelin bir gözünə Günay (böyük qızının adı belə idi) oyuncaqlarını yığırdı. Alıcılar gəlib mebeli evdən aparanda qız ağlayıb özünü öldürürdü.

– Vermirəm, – deyirdi, – aparmayın. Oyuncaqlarımı yığıram bura. Çıxın gedin bizim evimizdən.

Nə təhər eləyirdilərsə, uşağı yola gətirə bilmirdilər.

– Verməyəcəyəm, – deyirdi və az qalırdı həyəcandan uşağın nəfəsi dayana.

Uşağın oyuncaqlarını zor-bəla mebelin gözlüyündən çıxarıb alıcıları yola salmışdılar.

Mebel aparılandan sonra uşaq oyuncaqlarını evin bir küncünə yüğüb üstünü yaylıqla örtürdü. Onu ağrıdan cehizin satılmağından, evin yalın divarlarından qüssə və ümidsizlik tökülməyindən çox uşağın yığmağa yer tapmayıb küncə tökərək yaylıqla üstünü örtdüyü oyuncaqlarıydı. Bu hadisədən elə sarsılmışdı ki, uzun müddət özünə gələmməmişdi. Mebeldən aldığı pulu da xərcləməyə əli gəlmirdi. Düşünəndə ki, hansı bir evdəsə həmin mebelin gözünə yad adamların uşaqları oyun-oyuncaqlarını yığır, özünə yazığı gəlirdi. İstəyirdi ki, gedib ucuz da olsa, başqa bir mebel alıb gətirə, amma imkanı yox idi, pul vacib lazımdı. Heç kəs borc vermək istəmir, daha istəməyə də üzü gəlmirdi. Bütün dost-tanışlarına ağız açmışdı; onları da qınamırdı, bilirdi ki, yoxlarıdı, olsaydı güman ki, əsirgəməzdilər.

Günayı həyətə oynamağa buraxmırdı. Hərdən ev sahibinin uşaqları onların yanına gəlirdi. Nədənsə, Günayın da onları görməyə gözü yox idi. Bir dəfə yenə uşaqlar oynamağa gələndə Günay onları evdən çıxarmaq istəmişdi. Uşaqlar isə özlərini ev sahibi kimi aparırdılar, getmək istəmirdilər.

– Bura bizim evimizdi – dedilər, – siz burda kirayədə qalırsınız.

Uşaqların mübahisəsini nə yolla həll edəcəyini bilmirdi.

Qızı ağlamağa başlamış, uşaqlar gedəndən sonra isə onu sorğu-suala tutmuşdu:

– Niyə onnar deyillər ki, bura bizim evimizdi?

–...

– Kirayə nə olan şeydi, ata?

–...

– Biz niyə kirayədə qalırıq?

–...

– Bəs bu pəncərə bizim deyil, kimindi?

–...

– Niyə bizim evimizin balkonu yoxdu, ata?

–...

Uşağın suallarına cavab tapa bilmirdi. Söhbəti yayındırammayanda ürəyi ağrıya-ağrıya özünü gülümsəməyə məcbur eləyərək:

– Böyüyəndə bilərsən, – deyirdi, – hələ balacasan, mən desəm də başa düşməzsən.

Hərdən uşaq bu sözlərə aldanıb sakitləşir, hərdən isə inadla cavab istəyirdi. Uşaq inad eləyəndə dözə bilmirdi, az qalırdı havalana. Arvadının qızıllarını satanda bilirdi ki, daha təzəsini alammayacaq. Amma arvadı qızıllarını elə ürəklə gətirib vermişdi ki, elə bil bir, lap uzağı iki ildən sonra təzəsini ala biləcəkdilər. Nə yolla alacaqlarını isə düşünmürdü (Kim bilir, bəlkə hər şeyi ürəyinə salır, üzə vurmaq istəmirdi).

Başqa çıxış yolu yox idi. Ortancıl qızı neçə vaxt idi ki, xəstə yatırdı. Uşaq qızdırma içində yandığından bütün gecəni yuxusuz qalırdılar. Ən dəhşətlisi buydu ki, dərman almağa belə pulları olmurdu. Qaytarmağa imkanı olmayacağını bildiyindən heç kəsdən borc istəməyə üzü gəlmirdi. Gecəni uşaqla birgə yuxusuz açırdı deyin bütün günü başı gicəllənir, heç cür işləyə bilmirdi. Günorta nahar eləməyə də iştahı olmurdu. Çox vaxt arvadının bağlamaya büküb qoyduğu pendir-çörəyi açmır, quruluca evə qaytarırdı. Camaat nahara çıxanda başının altına bir şey qoyub uzanırdı ki, gözlərinin acısını ala. Ancaq gözlərinə yuxu getmirdi. Uzun gecələrin yuxusuzluğu, əzginliyi ilə yanaşı, nə isə bir ümidsizlik də ona əzab verir, yatmağa, dincəlməyə qoy-

murdu.

Uşaq xəstə olan vaxtlar evə tez getməyə məcbur olurdu. Hər şey də elə bunun üstündə başladı. Hardan biləydi ki...

Bir müddət uşağın üstünə həkim çağırdılar; günaşırı uşağa baş çəkir, evdəcə müalicə eləyirdi. Amma günlər ötüb keçir, uşaq sağalmaq bilmirdi ki, bilmirdi. Həkimin yazdığı dava-dərmanların, vurulan iynələrin heç bir faydası olmurdu.

Həkim baş çəkməyə gələndə:

– Hava lazımdı uşağa, – deyirdi, – bu evdə sağalmayacaq xəstə. Bu rütubətə böyük adam tab gətirəmməz, onda qalmış ki, uşaq ola. Ya xəstəxanaya qoyun, ya da götürün aparın kəndə. Heyifdi, tələf eləməyin uşağı...

O biri gün gələndə yenə əvvəlki sözlərini təkrar eləyirdi:

– Nə qədər deyərlər adama... Niyə axı söz başa düşmürsünüz?.. Göz görə-görə uşağı öldürməkdimi qəsdiniz?..

Kəndə aparmağa imkan yox idi, onsuz da xəstə olan uşağın halı uzaq yolda daha da pisləşə bilərdi. Ona görə də xəstəxanaya qoymuşdular. Arvadı gecə-gündüz uşağın yanında qalırdı. Hər gün işdən bir-iki saat tez çıxıb xəstəxanaya qaçırdı. Yeməyi özü hazırlayıb aparırdı. Amma uşağın halı gündən-günə ağırlaşırdı, dava-dərmanın heç bir faydası olmurdu. Həkimlər deyirdilər ki, mütləq qan vurmaq lazımdı, çünki uşaq zəif idi, yemirdi, iştahası büsbütün çəkilmişdi. Xəstəxanaya gedəndə saatlarla uşağın çarpayısı başında otururdu. Əvvəllər deyib-gülən, səsi həyəti-bacanı bürüyən uşaq indi lal-dinməz olmuşdu. Gözlərini adama zilləyib elə hey baxırdı. Uşağın gözlərində heç bir ifadə yox idi, elə baxırdı ki, sanki canlı deyildi. Hayana çevrilirdisə, uşaq da gözlərini o səmtə çevirirdi, kipriklərini qırpmadan baxırdı.

Elə həmin gün uşağa qan vurulmuşdu. Qan vurulandan sonra uşağın halı nədənsə daha da pisləşdi. Uşaq yatmaq istəyirdi, göz qapaqları öz-özünə yumulurdu. Həkim tapşırmışdı ki, yatmağa qoymasınlar. Xəstəxanada uşaq qucağında koridorda gəzirdi. Qucağından yerə qoymurdu ki, birdən uşaq yuxuya ge-

dər. Səhərə qədər uşağı beləcə qucağında gəzdirmişdi. Səhər üzü uşaq qucağında özü də hiss eləmədən gözləri baxa-baxa keçinmişdi.

Uşaq keçinəndə arvadı palatada yatırdı. Neçə gün idi ki, səhərə qədər uşağa keşik çəkdiyindən yuxu nə olduğunu bilmirdi. Bu gecə isə ona arxayın olub yatmışdı.

Uşaq qucağında get-gedə soyumaqdaydı.

Bütün xəstəxana yatırdı. Növbətçi tibb bacısı da başını masanın üstünə qoyub yuxuya getmişdi. Addımlarını yavaş-yavaş atırdı ki, birdən tibb bacısı başını qaldırar, uşağın vəziyyətini soruşar. Uşağın keçinməyini səhərə qədər gizli saxlamaq istəyirdi. Qorxurdu ki, gecənin qaranlığında arvadı yuxulu-yuxulu bu xəbəri eşidib dəli olar.

Hava işıqlaşanda palatanın qapısını yavaşca itələdi. Arvadı qolunu gözlərinin üstünə qoyub uzanmışdı. Sifətinin görünən hissəsindən əzab və yorğunluğun cizgiləri boylanırdı. İndi onunçün dünyada bu ölüm xəbərini arvadına bildirməkdən çətin heç nə olammazdı.

Qapının ağzında dayanıb durmuşdu. Nə içəri keçə, nə də çıxıb gedə bilirdi. Elə heysiz idi ki, sanki qucağındakı uşaqla birgə əli-qolu, ayaqları ölmüşdü, bütün vücudu ölmüşdü, əllə yüngülcə toxunulsaydı yıxılacaq və bir daha ayağa qalxammayacaqdı.

Arvadı yatağında çevrildi. Çevriləndə birdən-birə göz-gözə gəldilər. Arvadının gözlərində yuxudan əsər-əlamət görmədi. Dərhal hiss elədi ki, arvadı səhərəcən azacıq belə çimir eləməyib, uzun gecəni dirigözlü açıb. Onu görən kimi başını yüngülcə yastığından qaldıraraq:

– Uşaq necədi – dedi, – yatırmı?

Bilmədi nə cavab verə, gözlərini yayındırmaq istədi.

Birdən-birə palata stulları, yemək dolabları, baş-başa qoyulmuş çarpayıları ilə başına fırlanmağa başladı, hiss elədi ki, bir yerə söykənməsə gözləri qaralıncaya qədər fırlanıb qucağındakı meyidlə birgə yerə səriləcək.

Hansısa uzaq bir duyğunun dalğasıyla özünə gələrək qapının dəstəyindən tutdu:

– Yatır, – dedi və dərhal da qapını örtüb bayıra çıxdı ki, arvadı bu dəhşətli xəbərdən heç olmasa bir az gec xəbər tutsun. Amma elə bil arvadının ürəyinə nə isə dammışdı, tezcə xalatını çiyninə salıb ardınca çıxdı. Dinməz-söyləməz uşağı qucağına almaq istədi.

Arvadının qollarını yüngülcə itələdi:

– Lazım deyil... narahat eləmə.

– Ver mənə uşağı, get bir az dincəl, bütün gecəni yatmamısan, – arvadı israr elədi.

– Dəymə, – dedi, – dəymə... uşaq ölüb... – Bu onun səsinə bənzəmirdi.

Ölüm xəbərini belə soyuqqanlılıqla verdiyinə görə özüözünə heyrət eləyirdi.

Dönüb pəncərəyə sarı getdi ki, arvadı göz yaşlarını görməsin.

Xəstəxananı bir andaca ayağa qaldıran o dəhşətli qiyyə hələ də qulaqlarından çəkilib getmək bilmir.

.... Həmin günücə maşın tutub kəndə getmişdilər. Uşağı şəhərdə dəfn eləmək ona ağır gəlirdi. Bilirdi ki, haçansa, qocalığındamı, ölümqabağımı kəndə qayıdasıdı. Əgər uşağı şəhərdə dəfn eləsə, qəbri kimsəsiz qoyub kəndə qayıdammayacaq, qayıtsa da kənddə sığınacaq tapammayacaq.

Maşında da uşağı yerə qoymamış, üç saatlıq yolu qucağındaca saxlamışdı. Uşağı bərk-bərk qucağına sıxmaqla sanki öz hərarətini soyuq, cansız bədənə vermək istəyirdi.

Evlərinə çatanda hələ gün günorta yerini almamışdı. Yarımca saat keçməmiş kəndin eşidən-biləni yığışdı.

Meyidi bircə günlüyə də olsa saxlamaq istəyirdilər, amma o razı olmadı. Ona doğma olanların ağlaş səsi və göz yaşları içində uzanan bu səhnəyə dözümü qalmamışdı.

İlkindi çağı meyidi evdən çıxardılar.

Qəbiristanlığa çathaçatda hiss olunmadan sısqa yağış başladı – elə narın, elə arxayın çisələyirdi ki, deyirdin ömür-billah kəsməyəcək. Bir dəfə eynən beləcə dəfn zamanı qəbiristanlıqda möhkəm yağış düşmüşdü. Əvvəlcə narın çisələyən yağış birdən-cə şıdırğıya çevrilmiş, yer-göy bir-birinə qarışmışdı. Elə yağırdı ki, sanki aftafa lüləyindən tökürdülər. Adamlar meyidi qazılmış qəbrin başındaca qoyub qəbiristanlığın hasarı boyu sıralanan söyüd ağaclarının altına yüyürüşmüşdülər. Təkcə o getməmişdi, abrına qısılıb tabutun yanındaca durmuşdu. Amma kimsə qolundan tutub onu da söyüdün altına çəkmişdi.

– Sətəlcəm olarsan, – özünü islatma.

Meyid açıq tabutdaca yağışın altında qalmışdı. Yağış öləziyəndən sonra təzədən qəbrin başına qayıdanda tabut yarısına qədər su ilə dolmuşdu. Meyidi suyun-palçığın içindəcə torpağa quylamışdılar.

İndi qəbiristanlıqda narın çisələyən yağış ona birdən-birə həmin dəfni xatırlatdı. Onu göynədən, qəlbini parçalayan bu idi ki, bir azdan hamı çıxıb gedəcək, balaca Lalə bu dözülməz yağışın altında tək-tənha qalacaqdı. Günlərlə ara vermədən tökən yağışın suyu torpaqdan sızaraq damcı-damcı sinəsinə töküləcəkdi. Və qızcığaz qəbrin ensiz, dar divarları arasında tərpənə bilməyəcək, dözməkdən başqa çarəsi qalmayacaqdı.

Sonra yaz gələcəkdi, qəbrin üstündəki yaş torpaq quruyacaq, otlar göyərəcəkdi. Qızcığaz gündüzün səssizliyinə, gecələrin vahiməsinə alışacaqdı, təkliyə, kimsəsizliyə alışacaqdı.

Uşağı dəfn eləyib qəbiristanlıqdan qayıdanda artıq şər qarışmışdı. Nənəsi bağda meyid yuyulan yerdə şam yandırmışdı. Axırıncı dəfə nə vaxt çörək yedikləri yadlarına gəlmirdi; iştahaları çəkilmişdi. Yalvar-yaxar bir tikə çörək yedirtmişdilər. Arvadı daha ağlamırdı, elə bil göz yaşı tamam qurumuşdu.

Ertəsi gün də kənddə qalmışdılar, o biri günün səhəri isə avtobusla Bakıya qayıtmışdılar.

Qapını açıb evə girənəcən sanki uşağın öldüyünə inanmırdılar. Uşağın ölümünü məhz bu anda, otaqdakı səssizlikdə, boş

qalmış çarpayıyla tək qalanda hiss elədilər.

Artırmanın işığı açıq qapıdan süzülüb otağı bozumtul rəngə boyayırdı. Və bu bozumtul işıqda gözə toxunan hər şey onu keçmişə qaytarır, körpənin yoxluğunu xatırladırdı. Sanki körpənin xatirəsi otağın ab-havasına qarışmış, divarın rənginə çökmüşdü. Bu duyğunu bir-birindən xəbərsiz, bir-birinə etiraf eləmədən yaşayırdılar.

Amma birdən Günay:

– Məmə, bacı hardadı? – deyə soruşdu.

Bu sual gözlənilməz idi və bilirdi ki, indi hər ikisi üçün dünyada bu suala cavab verməkdən çətin heç nə olammaz. Üzünü çevirdi ki, göz-gözə gəlməsinlər.

Ancaq uşaq israr eləyirdi:

– Məmə, sənnən döyüləm, bacı hardadı bəs?

Arvadı:

– Kənddədi, qu...zu... – dalını gətirəmmədi, səsi titrəyib qırıldı, sözləri hıçqırığa çevrildi.

Ona elə gəldi ki, ürəyini yerindən çəkib çıxarırlar – sinəsində tikə-parça olan ətini, dartılıb qırılan damarlarının ağrısını duydu. Hiss elədi ki, nəfəsi çatmır. Aralı qapıdan həyətə çıxmaq istəyəndə Günay arxadan:

– Ata, məmə ağlayır, – dedi.

Qapını örtdü ki, arvadının hönkürtüsünü eşitməsin.

Kəndə gedəndə arvadı uşağın pal-paltarını, oyuncaqlarını yığıb aparmışdı. Bağın ətəyində quyu qazıb basdırmışdılar. Bunu eləmişdilər ki, evdə uşağı yada salan heç bir xatirə qalmasın. Qapının ağzında uşağın gəlinciyinin ayaqqabıları düşüb qalmışdı. İndi də uşağı xatırlayanda ilk yadına gələn qapının ağzına düşüb qalmış o bir cüt xırdaca ayaqqabılar olurdu.

O, uşağı unuda bilmirdi, nəinki unuda bilmir, həm də bütün varlığıyla hiss eləyirdi. Hiss eləyirdi ki, o, uzaqda deyil, hardasa onunla yanaşıdı, yaxınlıqdadı. Gecələr, illah da səhər üzü, yuxuyla oyaqlığın arasında vurnuxduğu çağlarda uşağın varlığını

o dərəcədə hiss eləyirdi ki, gözlərini açmadan onun balaca, yumşaq əllərinin hərarətini, isti nəfəsini duyurdu, ürəyinin döyüntüsünü eşidirdi. O, evin kəsif havasında, pəncərəsi olmadığından zülmət tökülən divarlarında uşağın varlığıyla doğan ətri, işığı hiss eləyirdi, onun sifətini, balaca duru gözlərini görürdü. O, səssiz, qımıldanmadan, nəfəsini udub qulaq asırdı, qorxurdu ki, ehtiyatsız bir hərəkətlə körpəni qorxudar, səksəndirər.

Ona elə gəlirdi ki, gecələr, səhər üzü körpə özünün unudulmağından, həmişəlik unudulmağından qorxduğu üçün qayıdır. Qayıdır ki, ölümündən sonra özünün varlığını bir daha hiss elətdirsin. Hiss elətdirsin ki, o var və qoyub getdiyi bu evdə xoşbəxtlik deyilən şey ondan ayrı puçdu, yalandı, əfsanədi...

Hərdən onun gəlişini elə aydın hiss eləyirdi ki, əlini uzadıb bədəninə toxunmaq istəyirdi. Ancaq əlləri boşluqla görüşür və dərhal da onu kədər və ümidsizlik bürüyürdü.

Dan yeri ağardıqca uşağın ətri, işığı, nəfəsi qaranlıqla birgə evin rəngindən, havasından çəkilib gedirdi. Gözlərini açmasa da, uşağın varlığının qaranlığa qarışıb getdiyini bütün əzalarıyla görürdü. Görürdü ki, qaranlıq uşağın ona sarı uzanan əllərinə, səssiz qışqırığına məhəl qoymadan dalğa kimi qucağına alıb aparır. O qalxmaq, yüyürmək, uşağı qaranlığın əlindən almaq istəyir, amma ha əlləşirsə, yatağından qopammır.

Sonra qorxa-qorxa gözlərini açırdı. Körpənin yoxluğuna heç cür inana bilmirdi. Ona elə gəlirdi ki, uşağın yığılıb səliqəyə salınmış yatağı pərakəndədir, tər qoxuyur, gecəni burada keçirdiyindən istisi çəkilməyib.

* * *

Uşaq xəstəxanada keçinən günü işdən gedəndən bir az sonra Göyüşov sahəyə baş çəkməyə gələndə onu görməmişdi.

– Niyə işə çıxmayıb? – hirslənib özündən çıxmışdı.

– ...

– Bu nə özbaşınalıqdı belə? – Üzünü briqadirə tutmuşdu. –

Deməli, mən burda yoxam, özünüz necə istəyirsiniz, elə də eləyirsiniz?.. Kim icazə verib ona?

– Mən icazə vermişəm, – briqadir dillənmişdi, – uşağı xəstədir, getdiyi bir saat ola, ya olmaya.

– Dinəndə durub düzlükdən, ədalətdən danışır. Guya biz işçilərin tələblərinə məhəl qoymuruq, onlara qayğı göstərmirik. Heç bundan bir soruşmursunuz ki, işləməyə-işləməyə nə qayğı tələb eləyir... Hələ bir mənimlə ev davası eləyir. Bütün ölkədə rüsvay eləyib məni. Yazmadığı yer qalmayıb. On il işlədiyini gözümə soxur. Sən demə elə bu cür işləyirmiş. Çıxıb iclasda ağzına gələni danışır, siz də əl çalırsınız...

– Yoldaş Göyüşov, vallah uşağı xəstədi. Başqa bir işi olsaydı, icazə verməzdim. Heç o özü də getməzdi, – briqadir onun tərəfini saxlamaq istəmişdi.

– Necə yəni? Bəs, biz burda nəyik? Gəlib icazəni bizdən niyə almır? Ona görə ki, içində qurdları qaynayır. Məni burda müdir hesab eləmir.

– Axı, iki saat icazədən ötrü niyə bu qədər yolu basıb kontora getsin.

– İki saat niyə olur. Demirsən, uşağı xəstədi? Gəlib adam kimi icazə istəsəydi, üç gün işdən azad eləyərdim. Biz də insanıq, hər şeyi başa düşürük. Dinəndə vicdanlı olmağıyla öyünür... Namusdan-qeyrətdən danışır... Nə bilim əsl direktor elə olmalıdı, belə olmalıdı. Az qalır qırx ilin işçisinə dərs desin.

– Yoldaş Göyüşov...

– Qurtardıq! Hamınız bir bezin qırağısınız, bircə tikə yaxşılıq başa düşmürsünüz. – Sağollaşmadan dönüb maşınına sarı getmişdi və maşının qapısını açıb: – Gələn kimi bildirin, işə çıxmasın, birbaş yanıma gəlsin, – demişdi.

Bu söhbətin hardan gəldiyini bilirdi. Bir ay əvvəl iclasda çıxış eləyib Göyüşovun ünvanına o ki var döşəmiş, onu köhnə rəhbərliklə müqayisə eləmişdi. Bu çağacan hələ idarədə Göyüşovun sözünün qabağına söz çıxaran olmamışdı. Çünki Göyüşov

amansız adam idi, dediyini yeridəndi, onunla döş-döşə gəlməyin nə demək olduğu gün kimi aydın idi. Bütün bunları bilə-bilə ürəyini deşən sözlərin birini də saxlamamışdı:

– Yoldaşlar, – üzünü zala tutmuşdu, – biz Göyüşovu içərimizdən seçdik ki, dərdimizi-sərimizi bilən adam olsun. Çünki Göyüşov gözünü açıb bu idarədə işləyib, fəhləlikdən directorluğa qədər yüksəlib. Amma gəlin əyri oturaq düz danışaq. Göyüşov gələn gündən bu idarədə it yiyəsini tanımır. Nə ağsaqqal bilinir, nə qarasaqqal. Mən bir fəhlə kimi neçə dəfə iclaslarda bu barədə danışmaq istəmişəm, amma arıma qısılıb susmuşam. Gözləmişəm ki, bəlkə başqaları danışa. İndi görürəm ki, heç kəs isti yerini soyuq eləmək istəmir.

Zal uğuldayırdı. Gözlər, get-gedə parıldayan gözlər, işıq dolu gözlər məhəbbət və qorxuyla ona dikilmişdilər. Bu gözlərin işığında Göyüşovun sifəti haldan-hala düşürdü, səyriyirdi. Amma dillənmirdi, sözünü kəsmirdi. Əlindəki avtomat qələmin sancağını dartıb buraxmaqla hirsini-hikkəsini yatırmağa çalışırdı. Bəlkə də gözləyirdi ki, baş mühəndismi, rəis müavinimi onu dayandırsın. Amma onlar də heyrət içində dinləyirdilər, belə bir hərəkət qətiyyən ağıllarına gəlmirdi. O isə getdikcə coşur, coşurdu:

– Bu kollektivdə Göyüşovun rüşvətxor olduğunu hamı bilir, amma bir adam dillənmir, dillənməyəcək də. Çünki hamı yerindən qorxur, canından qorxur, arına qısılır. Göyüşov saxtakardı. Gələndən görün kimlərə ev almaqda qəyyumluq eləyib. Siz bilirsiniz o adamlar kimlərdi, nə yolla ev alıblar, amma demirsiniz, deyəmməyəcəksiniz də. Mən on ildi kirayədə yaşayıram, neçə dəfə Göyüşova ağız açmışam. İndiki vəziyyətimdə mən lap toyuq hininə də getməyə razı olaram.

Zal artıq sakitləşmişdi. Camaat cınqırını çıxarmadan onu dinləyirdi. Elə sakitlik idi ki, milçək uçsaydı, qanad səsi eşidilərdi.

– Göyüşov qatildi, – zal sakit oturmasaydı, bunu deməyəcəkdi. – Sizdən soruşuram: Mikayılın ölümündə kimdi günah-

kar? Mənə elə gəlir ki, əsil günahkar Göyüşovdu.

Mikayıl bir il əvvəl ölmüşdü. Elə dəhşətli şəkildə həlak olmuşdu ki, xəyala gətiriləndə adamın tükləri biz-biz olurdu. Mikayıl bu idarədə cəmi-cümlətanı bircə ay işləmişdi. Gecə şəbəkədə qəza baş vermiş, şəhərin yuxarı məhəlləsinin işıqları keçmişdi. Göyüşov fövqəladə qrup yaratmış, dərhal işə başlamağa göstəriş vermişdi. Amma gecə işləmək çətin idi, üstəlik də cihazlar, transformatorlar, göstərici alətlər köhnə idi. Hər halda səhərə qədər gözləmək daha məqsədəuyğun idi. Ancaq Göyüşovun sözünü, əmrini ikimi eləmək olardı? Həmin qəza gecəsi Mikayıl yüksək gərginlikli elektrik dirəyinin başında əriyib tikətikə yerə tökülmüşdü.

Amma Göyüşov da Göyüşov idi. Bunun üstündə baş mühəndis dərhal işdən qovulmuşdu. Zərrəcə bu işdə günahı olmayan neçəsinə töhmət verilmişdi. Hamının bildiyi əsil cinayətkar isə cəzasız qalmışdı. Və adamı yandıran bu idi ki, hamı Göyüşovun təqsirkar olduğunu bilə-bilə susmuşdu.

İndi Mikayılın adı çəkilən kimi elə bil Göyüşovu ilan vurdu. Çünki Göyüşov bu adı unutmaq istəyirdi, birdəfəlik unutmaq istəyirdi. Mikayılın adı gələndə Göyüşov xoflanırdı, vahimələnirdi, çünki bu ölümdə (etiraf eləməsə də) özünün günahkar olduğunu görürdü. Bu ölüm Göyüşovu daha yüksək rütbələrə aparan yolda keçilməz bir sədd idi və o, bu səddin qarşısında özünü gücsüz bilirdi, köməksiz bilirdi.

– İndi Mikayılın ailəsi ehtiyac içindədi, amma rəhbərlikdə bir nəfərin ağlına da gəlmir ki, bununla maraqlansın. Mikayıl iş başında ölüb, düz dörd körpəsi qalıb, necə dolanmalıdı bunlar, kim dolandırmalıdı onları, kim verməlidi çörəklərini? Siz Göyüşov bu barədə zərrəcə fikirləşmisinizmi? Əlbəttə yox! Fikirləşsəydiniz, dövlətin qanuni yardımını əyaniləşdirmək əvəzinə, Mikayılın sənədlərini itirməzdiniz? Guya belə bir işçi olmayıb, burda işləməyib, nə bilim nə, nə... Bu da baş tutmayanda günahı baş mühəndisin boynuna yıxdınız. O cürə işçini ikicə günün

içərisində ləkələyib idarədən qovdunuz. Nə var, nə var, adınıza bir ləkə gələ bilərdi...

İclas olduğu unudulmuşdu, adamlar ovsunlanmış kimi qulaq asırdılar. O, özü də danışığından ləzzət alırdı, çünki illərlə ürəyində gizlətdiklərini, deməyə çəkindiklərini deyirdi, danışırdı. Elə yüngülləşmişdi ki, deyirdin uçacaqdı... Bilirdi ki, bu çıxışından sonra Göyüşov onu işdə saxlamayacaq, bir bəhanə ilə dalından dəyəcək. Ancaq acığa düşmüşdü, işləyəcəkdi, Göyüşovun acığına işləyəcəkdi. Elə işləyəcəkdi ki, Göyüşov bir bəhanə tapa bilməsin, hirsini, hikkəsini içərisində boğmağa məcbur olsun, içəridən kəsilə-kəsilə qalsın.

Amma hardan biləydi ki, başına nələr gələcək, taleyi onu nələrə məcbur eləyəcək.

O iclasdan sonra Göyüşov özünü elə aparırdı ki, sanki aralarında heç bir şey olmamışdı, guya o iclası da, bir elə adamın qarşısında hər cür sözlərlə təhqir olunmağını da unutmuşdu. Ancaq Göyüşovu tanıyırdı, bilirdi ki, məqam gözləyir, vaxt, fürsət gözləyir. Göyüşov necə olsa da, öz işini bilən adam idi.

Eh, gərək o iclasdan sonra ərizəsini yazıb işdən çıxaydı, nə çoxdu bu şəhərdə iş, lap çıxıb kəndə gedərdi. Ev də cəhənnəm olsun, oxumaq da. Onda bütün bu müsibətlər də baş verməzdi. Harda olsa, bir tikə çörəyini qazanacaq, balalarını başına yığıb dolanacaqdı. Kim acından ölmüşdü ki, o da öləydi. Gecə yuxusuna haram qatıb evlərdə də işləyə bilərdi. Oxumağın da daşını biryolluq atardı. Nəyinə lazım idi oxumaq, ali təhsil alıb neyləyəcəkdi… İnstitutu qurtaranlar əllərində diplom küçələrdə it döyürlər. Bütün bu əhvalatların qabağında onun dərdi nə qədər mənasız, nə qədər gülünc imiş...

Amma, axı... belə insafsızlıq da olmazdı. Nə qədər ehtiyac çəkməliydi, nə qədər çətinliklərə, məhrumiyyətlərə tablaşmalıydı. Axı, içəridən əriyirdi, gilə-gilə soğulurdu. Ehtiyac kəndir kimi əl-qolunu bağlayırdı.

Özünün, arvadının əyin-başı yoxdu. Yayı birtəhər yola vermək olurdu, qışda isə vəziyyət çətinləşirdi. Neçə il idi ki, arvadı

qışı köhnə, nazik plaşda keçirirdi. Özünün də əyni nazik idi, tamam nazik idi. Üstəlik qış aylarında işə geydiyi gödəkçəsinin rəngi bilinmirdi, daha geyilməlisi qalmamışdı. Amma arvadının üst-başını görəndə özünü unudurdu. Bir də ona görə ağrıyırdı ki, arvadı dillənmirdi, əyninin köhnə, nazik olduğunu dilinə gətirmirdi. Bir dəfə də olsun, bu barədə söz-söhbət salmamışdı, əksinə həmişə təsəlli verirdi, çalışırdı ki, beləcə quru təsəlliyə də olsa, ailənin ağırlığına o da sinə gərsin, nəyəsə kömək əlini uzatmış olsun. Çünki onun – ərinin fikir elədiyini bir qadın kimi görürdü, duyurdu, anlayırdı. Başa düşürdü ki, evləndikləri bu neçə ildə əri palto cəhənnəm, əynindəki nimdaş plaşı təzələyə bilmirsə, onun fikrini çox güman ki, içəridə çəkir, bunu deməyin, qabartmağın, üzə vurmağın mənası yoxdu. Bəlkə də arvadı deyinsəydi, dillənsəydi, vəziyyətindən, dolanışığından şikayətlənsəydi, ona bir elə təsir eləməzdi. Əksinə, arvadının dözümü, dəyanəti içini, varlığını sarsıdırdı.

Həmin gün işdən icazəsiz getdiyinə görə Göyüşov ona şiddətli töhmət vermiş, ən dəhşətlisi isə mənzil növbəsindən çıxarmışdı. Mənzil növbəsindən çıxarılmağı bütün ümidlərini qırmışdı. Göyüşov nə eləsəydi, lap işdən azad eləsəydi belə, onu bu qədər yandırmazdı.

Bütün bunları ona işə çıxan günücə xəbər verdilər. İşə isə uşağı dəfn eləyəndən düz bir həftə sonra çıxmışdı.

Heç cür özünə gələ bilmirdi. Ona elə gəlirdi ki, uşağı aclıq və imkansızlıq öldürüb. Hər şey gözlərində dəyərini, çəkisini itirmişdi. Evin, ailənin dərdlərini büsbütün unutmuşdu. Saatlarla gözlərini bir nöqtəyə zilləyib dururdu. Arvadı ondan dəyanətliymiş; bu çətin məqamda ərinin təsəlli verəni olmuşdu. Amma heç nə ilə barışa bilmirdi, əvvəlki həyatına, həyatın ümumi axarına uyuşa bilmirdi. Ona elə gəlirdi ki, daha işləyə bilməyəcək, bir daha əli işə yatmayacaq. Həyat, yaşayış tanınmaz dərəcədə gözlərində dəyişmişdi.

Bir həftə sonra işə çıxanda da hələ özünə gəlməmiş, sar-

sıntısı keçməmişdi. Elə bil iş yoldaşlarından uzun illər idi ki, ayrılmışdı. Bu adamlar tamam yad, uzaq görünürdü gözlərinə. Körpəsinin öldüyünü də heç kəsə bildirməmişdi. Uşağın ölümünə görə kiminsə (ən çox da Göyüşovun) ona rəhmi gəlməsini istəmirdi.

Günorta üstü Göyüşovun maşını görünəndə özünü pis hiss elədi. Çünki indi Göyüşovla qarşılaşmaq istəmirdi, ümumiyyətlə, heç kəslə kəlmə kəsməyə həvəsi yox idi. Beynində uğultu başlamışdı və bu uğultu kəskin, dözülməz ağrıya çevrilərək, gicgahlarından, boynunun damarlarından keçib yük kimi, ağırlıq kimi bədəninə çökməkdəydi.

Sonrasını xatırlaya bilmirdi. Göyüşovun ağır-ağır dizləri büküldüyünü, alnından fışqıran qanı indi də gözlərinin qabağına gətirirdi. Kəsəyimi tullamışdı o, yoxsa çəkicimi? Orası yadındaydı ki, əlindəki nə isə dəmirdəndi, dəmir parçasıydı. Necə selbələdisə, dağ boyda kişi bircə dəfə ağzını açıb yumdu. Gözlərinin parıltısı da – qapanmazdan qabaq ildırım kimi çaxıb keçən o dəhşətli parıltı da yadında qalmışdı. Nə ifadə vardı o parıltıda, necə oxumaq, necə anlamaq olardı o işığı?

İlahi, o dağ boyda cüssə necə çabalayırdı... Ağzından, burnundan qanlı köpük gedirdi. Yaradan fışqıran qan səsi də qulaqlarındaydı.

Aləm bir-birinə qarışmışdı, nə edəcəklərini bilmirdilər. Onu tamam unutmuşdular. Ağsaqqalından qarasaqqalınacan bir bölük adam mat-mat dayanıb baxırdı.

– Tez təcili yardıma zəng eləmək lazımdı – Bunu hansısa dedi.

– Hə, hə, tez olun, diri tərpənin.

– Əcəb söz danışdın, burda telefon nə gəzir.

– Yuxarı stansiyaya getmək lazımdı, nə durmusunuz tamaşaya! Bu boyda kişi yıxılıb ölür, durub baxırsınız.

– Bə bunun maşını noldu? Şoferini hara göndərdi?

– Şoferini özü göndərdi. Deyəsən arvadını harasa aparacaqdı.

– Tfu...

– Ə, insafınız olsun, biriniz qaçın stansiyaya zəng eləyin...

– Burdan stansiyaya bilirsən nə qədərdi? Dörd kilometr, üstəgəl şəhərdən bura təcili yardımın gəlib çıxmasını...

– Ə, indi kişi gözümüzün qabağında can versin, biz də durub qolu qoynunda baxaq?..

Qan şoralanıb gedirdi. Axıb-axıb sol əlinin yanında gölməçə əmələ gətirmişdi. Və gölməçə get-gedə böyüyür, meyidin barmaqlarına doğru yaxınlaşırdı. Üzünü çevirdi ki, qanın necə axıb getdiyini görməsin.

Qolları ağac kimi çiyinlərindən asılmışdı.

Kimsə adamlardan aralanıb yüyürə-yüyürə stansiya yoluna tərəf üz qoydu.

Elə bil adamlar bu hərəkətə bənd idilər. Köməkləşib meyidi hamar bir yerə sürüdülər, boş kisələrin üstünə uzatdılar. Artıq yaradan axan qan kəsmiş, meyidin qanı çəkilmiş sifəti ağappaq olmuşdu. Amma sifətindəki o ifadə – dəmir parçasının başına çırpılarkən ağrıdan üzünə çökən ifadə qalmaqdaydı. Və üzünün, sifətinin bu ifadəsi onu meyitdən çox canlıya oxşadırdı.

....Cənubdan əsən külək get-gedə güclənirdi. Külək qalxdıqca boz qum dumanı havanı bürüyür, bir addım üzağı görmək olmurdu. Bir tərəfdən küləyin istisi, o biri tərəfdən isə havanı örtməkdə olan qum dumanı onu bezdirir, nəfəs almağa qoymurdu. Qaranlıqda yeriyirmiş kimi addımlarını ehtiyatla atırdı.

Əllərilə gözlərini örtüb gedirdi. Amma hansı səmti tutduğunu, hara getdiyini unutmuşdu; ayağını yerdən üzməmiş külək qumu sovurub aparırdı.

Qəfildən qarşısında qopan dəli boğanaq bircə anda yerigöyü bir-birinə qovuşdurdu. Göy üzünə millənən qum sütunu burula-burula, sovrula-sovrula çıxıb getdi.

Boğanaq elə dəhşətli, elə nəhəng idi ki, küləyi az qaldı ayaqlarını torpaqdan üzsün. Üstünə yerisəydi, bəlkə onu sovurub aparacaq, havadaca boğub səhranın hansı bir səmtinəsə tulla-

yacaqdı.

Dayanıb durdu.

Qum dənizi elə uğuldayırdı ki, az qalırdı qulaqlarını batıra. Yaxında-uzaqda yeriyən dəhşətli boğanaqları, göyə millənən qum sütunlarını gördükcə onu vahimə basırdı. Səhranın belə qorxunc olduğu yuxusuna da gəlməzdi. Və birdən ona elə gəldi ki, səhra insan kimi canlıdı, ona – insanlardan, qanunlardan qaçmış bir məxluqa qənim kəsilib, dünyanın bu kimsəsiz qoynunda onu məhv etmək üçün təkbətək döyüşə çəkir. İndicə yeni, dəhşətli qum sütunuyla qayıdacaq, bir də üstünə yeriyəcək.

Ağzına, burnuna, gözlərinə dolub dişlərinin arasında xırçıldayan qumun bürküsü nəfəsini kəsirdi. Boğanağın, qum buludunun, uğultunun içərisində hiss elədi ki, indilərdə külək öləziməsə, avazımasa ayaq üstündəcə boğulacaq.

Birdən ağlına nə gəldisə, köynəyini əynindən çıxarmağa başladı. Köynəyini çıxarıb başını bürüdü və bağlamanı qucağına alıb üzü üstə yerə uzandı. Səhranın uğultusu bir qədər öləzidi. Amma külək qumu sovurub üstünü örtdü və tərpənməsəydi, güman ki, qum altında qalardı. Onu nə vaxt yuxu tutduğunu bilmədi.

Yuxuda görürdü ki, ayda yanğın var. Yanğınsöndürən maşınlar yerbəyerdən gəlib dayanmışdılar. Bilmirdilər göy üzünü örtən alovu nə yolla söndürsünlər. Alov get-gedə bütün səmanı bürüyürdü. Nə allah eləyirdisə, rezin kəmərlər aya çatmırdı. Ay gəlib təxminən yerin bir kilometrliyində dayanmışdı, amma yenə kəmər çatmırdı. Yanğınsöndürənlər başı lovlu ora-bura vurnuxurdular. Yağış da yağmırdı ki, bəlkə yanğın bir qədər öləziyə...

* * *

Yuxudan oyananda qaş qaralmış, göy üzündə xırda-xırda ulduzlar peyda olmuşdu. Bayaq dünyanı lərzəyə gətirən külək yatmış, çalxalanmış qum dənizi sakitləşmişdi. Hava su kimi durulmuşdu.

Axşamın düşməyi, havanın belə qəfildən qaranlıqlaşmağı onu təəccübləndirdi. Axı, bir az qabaq boğanaq qopanda, köynəyi başına bürüyüb qumdan, küləkdən qorunmaq üçün üzüqoylu yerə uzananda hələ gün günorta yerini təzəcə almışdı. Günün ömrü bu qədərmi qısaydı?

Səmada ulduzlar yorğun-yorğun sayrışırdılar. Yuxudan oyansa da, qalxmaq istəmirdi, eləcə arxası üstə uzanıb qalmışdı. Ovsunlanmış kimi gözlərini göy üzündən çəkə bilmirdi. Səma eyni səmaydı, ulduzlar eyni cür sayrışırdılar. Hardasa burdan çox-çox uzaqlarda anası, arvadı, uşaqları eynən bu cür səma altında uzanmışdılar. Göy üzü necə də bir-birinə bənzəyir...

Yuxunun və bayaq çalxalanan qum dənizinin vahiməsindən hələ də özünə gələ bilmirdi. Yatmasaydı, o dəhşətli boğanağın içərisində yuxuya getməsəydi və o qorxulu olduğu qədər də həsrət və ümid qoxuyan yuxunu görməsəydi, bəlkə uzun zaman özünə gəlməyəcəkdi.

Bayaq külək başlamazdan fikirləşirdi ki, bu axşam hava qaralanacan mənzil başına yetişəcək, yaşamalı, yox, yox, yaşamaqdan daha artıq düşüb qalmalı olduğu yeri bələyəcək. Və bayaq külək başlamamışdan ona elə gəlirdi ki, axtardığı, ömürlük düşüb qalmaq istədiyi mənzil başı bu axşam havanın qaralmağa başladığı yerdədi. Amma indi külək sakitləşəndən, qaş qaralandan sonra ulduzlu səmaya baxa-baxa düşünürdü ki, daha bundan belə özünə yurd yeri tapa bilməyəcək. Çünki dərin, tutqun səma, sirli-sirli sayrışan ulduzlar, gecənin səssizliyi sonsuzluqdan, qaranlıqdan, tənhalıqdan xəbər verirdi və bunlardan savayı özgə heç bir şeyi xəyalına gətirə bilmirdi.

Bu bir neçə ayın gərgin günləri içərisində ömrü yuxu kimi hiss olunmadan ötüb keçmişdi (Qalan ömrü də beləcə hiss olunmadan keçib gedəcəkmi yoxsa...). Həyatının üstündən çalın-çarpaz xətt çəkilmişdisə, yaşamaq haqqı biryolluq itirilmişdisə, bunu dərk eləyə-eləyə niyə harasa, nəyəsə can atırdı?.. Sanki bütün bu qaranlıqların qoynunda nə isə ağlagəlməz, gümanolun-

maz bir ümid işığı parlayırdı. O, bu işığı görmürdü, amma bütün varlığıyla hiss eləyirdi, duyurdu. Onu həyata bağlayan da, ən ümidsiz, ən mürəkkəb burulğanlardan çəkib çıxaran da bu işıq idi.

Külək yatandan sonra havada qəribə bir ətir və rütubət duyulurdu. O, bu ətrin, rütubətin hayandan gəldiyini bilmirdi. Təkcə onu bilirdi ki, bu ətir və rütubət küləkdən qalıb. Bəs bu külək hardan başlayır, hardan əsirdi? Niyə bayaq külək qum dənizini göyə sovuranda o, bu ətri hiss eləməmişdi. Bəs niyə ətir ona bu qədər tanış gəlirdi... Yoxsa külək bu ətri, rütubəti onun doğma torpağından, yurdundan qovub gətirirdi?

Gözlərini yumub küləyin ətrini ciyərlərinə çəkirdi.

## IV FƏSİL

Payız yağışlarının ağzı açılmışdı. Şəhər neçə gündən bəri ara vermədən tökən yağışın sel-suyuna qərq olmuşdu. İndiyəcən heç bir yanda belə yağış, sel-su görməmişdi. Taleyin gətirib çıxardığı bu şəhərdə gecə-gündüz tökən yağış onu həyata bağlayan nə vardısa alıb aparırdı.

Bu neçə müddətdə ilin fəsillərini büsbütün unutmuşdu. Bir qarın çörəkdən ötrü başı elə qarışmışdı ki, dünyanın istisini – soyuğunu bilməmişdi, səhər açılandan şər qarışanadək təpəsinə döyən yağışa, qara, günəşə mahal qoymadan küçəbəküçə, dalan-badalan gəzmişdi, amma indi kəsmək, öləzimək bilməyən bu qara yağış ona dünyanın əzəlini, sonunu xatırladırdı, yatmış, korşalmış duyğularını oyadırdı.

Neçə illər idi ki, özünün qatil olduğunu unutmuşdu, qorxduğu yeganə şey aclıq idi. Hərdən tox olanda belə toxluğunu yaddan çıxarırdı və içərisində elə bir aclıq baş qaldırırdı ki, nə edəcəyini bilmirdi. Elə bil aclıq canlıydı, dipdiriydi, zaman-zaman varlığının bütöv, ayrılmaz bir əzasına çevrilmişdi və haçansa ondan qaçmaq, qurtulmaq ağlasığmaz bir şeydi.

Bütün günü gəlib-gedən gəmilərə baxırdı. Gözləri gəmidən

düşən sərnişinlərin içərisində kimisə axtarırdı. Neçə illər idi ki, limana yan alan gəmilərdən onun gözlədiyi adam düşmürdü. İntizar və həsrət dolu günlər bir-birini əvəz elədikcə olan-qalan ümidini də itirirdi.

Son vaxtlar isə bütün günü körpüdə keçirdi. Qorxurdu ki, uzun illərdən bəri gözlədiyi o adamı izdiham alıb aparar. Bəlkə də o adam neçə dəfə ardınca gəlib onu tapmamışdı. Axı, yad yerdə, yad şəhərdə onu tapmaq asan iş deyildi. Əvvəllər buna fikir verməmişdi. Bilsəydi bütün günü bircə dəqiqəliyə belə vağzaldan aralanmazdı, onda vaxtında qarşılamağa da çıxardı. İndi isə bütün gününü sahildə keçirir. Gəmilər vaxt-bivaxt gəlib-qayıtsa da, onun gözlədiyindən bir soraq çıxmır ki, çıxmır.

Vağzal saatının əqrəbləri çaqqıldaya-çaqqıldaya vaxtı yeyirdi. O saatın çaqqıltısını əsəblərində hiss eləyirdi. Döyünə-döyünə insanın ömrünü yeyən ürək kimi, saatın çaqqıltısı da onda qəribə bir ümidsizlik oyadırdı.

Restoranın açılıb-örtülən qapısından çılğın gülüş dalğası onu vurdu. O, bu restoranda olmuşdu, tək bircə dəfə olmuşdu. Tanımadığı yaşlı bir qadın dəvət eləmişdi onu bu restorana. Elə-belə, yoldaca qolundan tutub məcbur çəkə-çəkə aparmışdı. Üst-başı elə gündəydi ki, qapıçı onu içəri buraxmaq istəməmişdi, onda arvad qapıçının ovcuna bir üçlük basmışdı. Keçib küncdə boş stollardan birinin arxasında oturmuşdular. O, heç vaxt restoranda olmamışdı və bu şəhərə ayaq basdığı gündən burda belə bir yerin olduğuna da inanmağı gəlmirdi. İçərini gözdən keçirə-keçirə düşünürdü ki, çox güman bu qadın onu aldadır, gözünü oğurlayıb aradan çıxacaq və... yeməyinin pulunu vermədiyi üçün onu milisə çəkəcəklər.

Ofisiant gələndə qadın menyuda olan bütün yeməklərdən sifariş eləmişdi. Bir azdan stolun üstü çoxdan unutduğu cürbəcür təamlarla dolmuşdu.

Restoranın yuxarı başında orkestr nə isə yad bir melodiya çalırdı. Ona elə gəlirdi ki, musiqi rahat yeməsinə mane olur.

Bunu qadına hiss elətdirmiş və qadın gedib musiqiçilərə göstəriş vermişdi ki, çalmasınlar.

O yedikcə qadın baxırdı. Baxırdı və göz yaşları tokürdü. Anası sağ olsaydı, yalnız o belə ağlaya bilərdi.

...Vağzalda anasını itirmiş bir uşaq hündürdən ağlayırdı. İstədi uşağa təsəlli verə, anasını tapmaqda kömək eləyə. Yaxınlaşıb qolundan tutmaq istəyəndə uşaq onun üst-başındanmı, saç-saqqalındanmı qorxduğundan qışqırıb əlini itələdi və bir az da ucadan anasını çağıra-çağıra ağlamağına davam elədi.

Yağış əvvəlki kimi tökürdü. Adamlar vağzal pilləkənlərini tələsə-tələsə, qaça-qaça qalxıb düşürdülər. Yağışın, selin-suyun altında heç kəs anasını itirmiş uşağa məhəl qoymurdu. Sanki heç kəs bu uşağı görmürdü. Uşaq isə selləmə yağışın altında elə durmuşdu ki, deyirdin yağışın yağdığını duymur, hiss eləmir. Soyuğu, yağışı duymadan ağlaya-ağlaya anasını axtaran bu altı-yeddi yaşlı qızcığazın halına dözmədi. Qalxıb qoltuq ağacına söykənə-söykənə uşağa yaxınlaşmaq istədi. Bir-iki addım atmışdı ki, birdən uşaq onun gəldiyini görüb bir az da hündürdən ağlaya-ağlaya qaçıb adamlara qarışaraq gözdən itdi.

Qayıdıb təzədən əvvəlki yerində oturdu.

Uşaq adamlara qarışıb gözdən itsə də, bir elə səs-küyün içərisində onun səsini eşidirdi.

Soyuqdan tir-tir titrəyirdi. Külək buz kimi yağışı üz-gözünə çırpdıqca nəfəsi kəsilirdi. Bir-birinə dəyən dişlərinin səsi qulaqlarındaydı, nə illah eləyirdisə, bədəninin əsməcəsini saxlaya bilmirdi. Elə bil damarlarında qanı soyumuşdu, axdıqca bədəninə soyuqluq yayılırdı, əli-qolu buzlayırdı, keyiyib ağaca dönürdü.

Havaların sınmağıyla qıçının kəsiyi göynəyirdi. Elə bil qıçına iynə yeridirdilər, ağrı sümüklərinəcən işləyirdi. Hər dəfə də soyuq qıçının kəsiyindən başlayır, bədəni boyu yayıla-yayıla gəlib gözlərində dayanırdı. Bəbəkləri üşüyürdü. Üşüyən bəbəklərinə soyuqdan, yağışdan, sazaqdan savayı heç nə görünmürdü; dünyanı soyuq rəngində görürdü. Heç nə ilə qızmırdı, isinmirdi.

Havalar soyuyandan belinin bükümü açılmırdı. Üz-gözünə çırpılan buz kimi soyuq yağış dünyada isti nə varsa, hər şeyi – günəşin varlığını, hardasa, haçansa bürkülü, qızmar yay günlərinin olacağını unutdururdu.

Ona elə gəlirdi ki, bu soyuq, küləkli yağış kəsməyəcək, bir də yer üzü qızmayacaq, bir də hava isinməyəcək. Bu yağış, bu soyuq dünyanı əbədi tutub duracaq. Dünyada əbədi olan varsa, elə bu sel-sudu, bu soyuq yağışdı, sazaqdı...

Elə bil içi-içalatı buz bağlamışdı. Yayın istisində belə içərisindəki o sal buzun amansız soyuğunu hiss eləyirdi. Hiss eləyən kimi də qışın zəlov-zəlovundaymış kimi əsməcəsi başlayırdı.

Ürəyində saymağa başladı. Bəzən bütün günü tək-tənha oturub sayırdı. Saymaq başını o qədər qatırdı ki, günün əyilməyindən xəbəri olmurdu. Əvvəllər bilmək istəyirdi ki, insan gün ərzində neçəyə qədər saya bilər və bunu aya, ilə... insan ömrünə vursan nə qədər eləyər. Bəlkə elə həyat bu sirli, magig rəqəmlərdədir, kim nə qədər çox sayırsa, saya bilirsə, o qədər çox yaşayır...

Saymaq da bütün başqa şeylər kimi uzun müddət onu məşğul edə bilmirdi. Bu da yorub əldən salırdı onu.

Qabaqdan gecə gəlirdi. İlahi, gecəni necə səhər eləyəcək. Necə dözüb dayanacaq səhərə qədər. Bir gün deyil, beş gün deyil, buna əsəbmi dözər?..

Gecələri ağır fikirlər içində üzülürdü. Bu fikirlərin ağırlığına dözmürdü, tablaşmırdı. Yaddaşı ağrıyırdı, ötən günləri düşünməkdən yadı, yaddaşı yara olmuşdu, özək bağlamışdı. Gecəni səhər eləyənəcən onunku ona dəyirdi. Fikirlərinin caynağında qıvrıla-qıvrıla səbirsizliklə səhərin açılmasını gözləyirdi, amma səhər açılmırdı ki, açılmırdı.

Yuxusu birdəfəlik çəkilmiş, yatmaq onunçün əzab və işgəncəyə çevrilmişdi. Hərdən inanırdı ki, gecələr vaxt geriyə işləyir. Çünki gecənin belə uzun olduğunu heç vaxt hiss elə-

məmişdi. Əksinə, əvvəllər həmişə yatıb yuxudan doya bilmədiyinə heyfsilənmişdi.

Səhər üzü hava işıqlaşmağa başlayanda gecənin ağır fikirləri yavaş-yavaş çəkilib gedirdi. Onda bir qədər yüngülləşirdi. Unudurdu, qısa bir müddətə də olsa, bütün bunların təkrar olunacağını unudurdu. Gün günorta yerini keçəndən sonra isə yenə uzun gecə, gecəni səhər eləmək barədə düşünürdü.

İki sərxoş metronun harda olduğunu soruşdu. O, uzun-uzadı izah eləməyə başladı. Onun çərənləməsini gözləməyib çıxıb getdilər.

Bu şəhərə gəlib çıxdığı üçün özünə lənət oxuyurdu. Fikirləşirdi ki, hardasa – çöldə, düzdə, meşədə yaşasaydı, günü bundan min pay xoş keçərdi. İnsanlardan uzaqda, özüylə, taleyiylə təkbətək yaşamaq insan dənizində üzməkdən qat-qat yaxşıydı. Onda heç olmasa, insan üçün darıxardı, insan üçün darıxdığını bilərdi. Bilərdi, ona görə bədbəxtdi ki, insanlardan, cəmiyyətdən uzaqdı, qanunlar yasaq kəsilib ona. Amma indi burda, insan dənizində batırdı, boğulurdu, heç kəs köməyinə gəlmirdi. Onu görmürdülər, duymurdular, eşitmirdilər. Bu qədər insanın içərisində təklənmişdi. Və get-gedə ətrafında şəhər olduğunu, insanlar olduğunu unudurdu.

Axı, niyə həyat insanın istəyi ilə getmir? Niyə tale insanın istəyi ilə yazılmır? İnsanın həyatdan, ömürdən, qismətdən qoparmaq, almaq istədiyi nədir? İnsanın məramı, məqsədi nədir? Niyə insan yer üzünün yeganə şüurlu məxluqudu? Bu şüur, bu ağıl, dərrakə insana nə verir? Bu ağılla, dərrakə ilə birgə həyat insanı hayana qovur?

O dayanmaq, bir anlığa həyatın yorduğu günlərin ağrısını çıxarmaq istəyir. Bir anlıq, çox yox, bircə anlıq... Amma həyat dincəlməyə, bir anlıq belə dayanıb nəfəs almağa aman vermir. İnsanı ömrünün sonuna, ölümə doğru qovur, sürükləyir, istədi-istəmədi o, bu yolu, bu səmti tutmalıdı. Həyat budu – dincini almadan, nəfəsini dərmədən hərəkətdi. İnsan yuxuda da sonuna doğru hərəkətdən qalmır. Əksinə, yuxu insanı daha qaçaraq apa-

rır, kəsə yolla aparır.

«İnsanın son mənzili ayağının altındakı torpaqdısa, bəs onda hara tələsir, niyə aldanır, niyə ölümdən – ayağının altındakı torpaqdan qaçmağın, qurtarmağın mümkünlüyünə inanır».

Torpağa baxanda orda insan cəsədini görürdü. Ovulmuş, çürümüş, torpağa qarışmış insan sümükləri. Bilirdi ki, vaxt gələcək o da başqaları kimi əriyəcək, çürüyəcək, torpağa qarışacaq. Üstündə evlər tikiləcək, asfalt döşənəcək. Torpaqdan otlar göyərəcək, ağaclar bitəcək. Amma bütün bunlara hələ xeyli var. İnsan üçün bu həmişə uzaq, lap uzaq həqiqətdi. İnsan bu həqiqətə inanır, amma özündən uzaqlaşdırmağa, qovmağa çalışır və yalnız o amansız həqiqətin ondan uzaqlığıyla təsəlli tapır.

Bəlkə torpaq adamı ona görə çəkir ki, orda doğma adamların varlığı, ruhu, qan yaddaçıyla bağlı nə isə var...

Bəs axı, insan sonunu bilə-bilə niyə unutmağı bacarır. Axı, bu aydın həqiqətə göz yummaq şirin yuxunu uzatmaq kimi bir şeydi. İnsan özü-özünü aldatmaqla nə qazana bilər?

## V FƏSİL

Briqadada nə düşünürlər haqqında görəsən? Ümumiyyətlə, düşünürlərmi? Bəlkə heç yadlarına da düşmür... Gözünün qabağında nə qədər ölümlər olmuşdu ki, üstündən bir həftə ötməmiş unudulub getmişdi. Elə unudulmuşdu ki, deyirdin bu adda insan yerli-dibli olmayıb. Amma yox... Bu ola bilməz. Ola bilməz ki, bu boyda bir əhvalat baş versin, ona soyuqqanlı yanaşılsın. Bu dünyasında mümkün olan iş deyildi. Yəqin hamı onun bu cinayəti törədə biləcəyinə mat qalıb... Özünün əlindən çıxan bu cinayətə özü inana bilmədiyi kimi başqaları da inanmır. Axı, indiyə qədər bir adamla hündürdən danışmamışdı, özgələrinin xətrinə toxunan hansısa hərəkətə yol verməmişdi. Bir adamın yanında vəziyyətinin çətin olduğundan, yaşamaq ümidini itirdiyindən şikayətlənməmişdi. Deməyəcəkdilərmi ki, bu necə adam-

mış belə, az qala on il bir yerdə işləmişik, onun necə xasiyyətdə olduğunu tanımamışıq. Bəlkə də düşünəcəkdilər ki, suyun lal axanı, adamın yerə baxanı. «Adamı tanımaq olmazmış», – deyəcəkdilər. Amma çox güman ki, hər kəs öz düşündüyü kimi bu işə məna verməyə çalışacaqdı. Axı, o, məhkəmədə danışmamışdı, son sözdən imtina eləmişdi.

Hələ uşaqkən inanırdı ki, bir zaman məşhur dramaturq olacaq. Buna zərrəcə şübhə eləmədiyi üçün imkan tapdıqca oxuyur, mütaliə edir, işləyirdi. Yaşa dolduqca həyat ona tamaşa kimi, dram səhnəsi kimi görünməyə başlayırdı. Bir vaxt yaşadığı ömür yaddaşında özünün də baş rollardan birində oynadığı teatr tamaşasına çevrilirdi. Qəribə burasındaydı ki, gələcək haqqında düşüncələri, arzuları, xəyalları da dram şəklini alırdı. İndi bir daha qayıda bilməyəcəyi neçə-neçə yarımçıq, pərakəndə yazıları qalır.

Bircə günlüyə möhlət versəydilər, evdə hər şeyini yığışdırıb yandıracaqdı. Ancaq bircə dəqiqəliyə də buraxmadılar ki, heç olmasa əlyazmalarını, ondan sonra qalan kağız-kuğuzlarını sahmana salsın, daha doğrusu məhv eləsin. Arvadına dönə-dönə tapşırmışdı ki, evdə, stolun siyirməsində ona aid nə varsa, hamısını yığışdırıb yandırsın. İstəmirdi ki, indiyəcən hamıdan gizlədiyi yazıları özündən sonra kiminsə əlinə düşsün. Bəs niyə belə düşünürdü? Axı, bütün bunları düşünəndə bilirdi ki, ölümə gedir, onu labüd, qaçılmaz ölüm gözləyir. Və bütün bunları bilə-bilə ölümdən sonrakı günlərin qayğısına qalırdı, özündən sonranı fikirləşirdi. Hamıdan gizlədiyi əlyazmaları onun etiraflarıydı. Orda heç nəyi gizləməmişdi, heç nəyi pərdələməmişdi. O, bu yazılarda özüydü, yalnız özüydü. Yazıları oxusaydılar, tanıyıb-bilənlər onun faciəsini duyardılar və bu ölümdə, bu qətldə onu təqsirli bilməzdilər. Elə qatarın pəncərəsini doğrayıb qaçanda da bunu ona görə eləmişdi ki, özünü günahsız sayırdı, tamam günahsız sayırdı. Onun yerinə kim olsaydı, başqa cür hərəkət eləməzdi. Bu vəziyyətdə olan insanın, yeganə çıxış yolu (bu çıxış yolu olmasa belə) qarşısındakını öldürmək və yalnız öldürmək

idi. Başqa onu heç nə xilas eləyəmməzdi. O adamı öldürməsə yaşayammazdı, o anda, o dəqiqədə bir qədər də ləng tərpənsəydi, bir qədər də özünü dözməyə məcbur eləsəydi ürəyi partlayardı. «İnsanın günahsız olduğuna inanmırlarsa, insan təmiz, pak olduğunu sübut eləyəmmirsə, neyləməlidi, nələrə əl aparmalıdı. Ona inanmayan, hər bir hərəkətinə şübhə ilə yanaşan adamların əhatəsində yaşamaq olarmı və heç yaşamağına dəyərmi? Yoxsa insan ölümümü seçməlidi? Bəs həmişə ölümün gözəllik olduğunu düşünmürdümü? Həmişə ölümün gözlərinə dik baxanlara, qorxmadan ölümün üstünə yeriyənlərə qibtə eləmirdimi? Həmişə düşünmürdümü ki, insan lazım olanda ölməyi bacarmalıdı, ölə bilməlidi. Bəs indi necə olmuşdu ki, ölüm onunçün amansız, qorxunc bir varlığa çevrilmişdi».

Atasının ölümü ona möhkəm, sarsıdıcı bir zərbə kimi dəymişdi. Bu ölümlə həyatda yeganə arxasını da itirdiyini dərk eləmişdi. Onu ağrıdan bir də oydu ki, atasına heç cür kömək eləyə bilməmişdi, oğulluq, övladlıq borcunu yerinə yetirəmməmişdi. Hərdən şəhərə yanına gələndə kişinin üst-başına baxdıqca ürəyi ağrıyırdı. Atası onun köhnələrini geyərdi. O paltarları ki, qolları, ciblərinin ağzı süzüləncəyə qədər geymişdi, onları atasının əynində görəndə özünə yazığı gəlirdi, gücsüzlüyünü, imkansızlığını dərk elədikcə nə edəcəyini bilmirdi. «İlahi, bir kostyum nə olan şeydi, axı? Vur-tut yetmiş-səksən manat. Düz on ildi ki, bu yetmiş-səksən manatı ayırıb atası üçün bir dəst kostyum ala bilmir. Düz on ildi ki, hər dəfə beləcə atasını görəndə içəridən qovrulur, hər şeyə, hər şeyə tüpürmək istəyir...».

Atası uşaqlarından, illah da ki, ondan heç nə əsirgəməmişdi. Onun şəhərdə elədiyi borclarını da atası verirdi. «Fikir eləmə, oğul, hər şey yaxşı olacaq, – deyirdi. – Yaman günün ömrü az olar. Özünə korluq vermə, nəyə ehtiyacın olsa, gəl mənə de. Dağ kimi arxanda dayanmışam. Yerin deşiyindən də olsa, pul taparam, qoymaram səni korluq çəkəsən. Özüm çox əziyyət çəkmişəm, bilirəm ki, ehtiyac nə olan şeydi. Heç nəyin də lazım

deyil mənə, bircə quru sorağın bəsdi».

Addımbaşı atasının üstünə qaçmasa da, onun belə deməyi təsəlliydi, heç nəylə əvəz olunmayacaq bir təsəlliydi. Və nə qədər ki, bu təsəllini duyurdu, nə qədər ki, arxası olduğunu anlayır, dərk eləyirdi, fikir çəkmirdi. Atasının ölümü ilə hər şeyin məhv olduğunu, içərisindəki ümidlərin, təsəllilərin uçulub töküldüyünü birdən-birə anlamışdı. Anlamışdı və dünya deyilən bu qorxunc məkanda özüylə təkbətək qaldığını dərk eləmişdi.

Atasının ölümünü iş yerinə zəng eləyib xəbər vermişdilər. İdarədən dalınca sahəyə maşın göndərmişdilər. O, üç saatlıq yolu necə getmişdi, indi də xatırlaya bilmirdi. Axşam saat yeddi radələrində rayona çatmışdı. Yarımca saat da geciksəydi, tamam iş-işdən keçəcəkdi. Maşını birbaşa qəbiristanlığa sürdürmüşdü. Qəbiristanlığa o məqamda yetişmişdi ki, artıq görülməli işlər görülmüş, tabut çəkilib qazılmış qəbrin yaş torpağı üstünə qoyulmuşdu. Maşından düşüb adamlara qarışmağından heç kəsin xəbəri olmamışdı. Birdəncə ona elə gəlmişdi ki, atasının dəfninə yığışan bu adamlar tamamilə yad, uzaq insanlardı və kim olduğunu burda heç kəs bilmir...

İstəyirdi ki, tabuta yaxınlaşıb atası ilə halallaşsın, amma yerindən tərpənə bilmirdi, ona elə gəlirdi ki, bircə addım atsa, tir-tap yerə sériləcək və bir daha ayağa qalxa bilməyəcək.

– Gəldi... gəldi... – pıçıltıyla deyilən bu sözlərdə özünə qarşı sonsuz bir rəhm duydu və birdən-birə dərk elədi ki, qəbiristanlığa dəfnə yığışan adamların içərisində vaxtın bu məqamında ondan dərdlisi yoxdu. Gözlərinə qaranlıq çökdü. Sonrasını xatırlaya bilmirdi. Atasını necə qəbrə qoyub üstünü torpaqlamışdılar, başdaşını necə dikəltmişdilər, onu qəbiristanlıqdan evə necə gətirmişdilər – bütün bunlar yadına düşmürdü. O dəfndən yadında qalan ora-bura vurnuxan insanlar və bir-birinə qarışmış, nə deyildiyi anlaşılmayan cürbəcür səslər idi.

Adamlar gəlib-gedirdilər, yeyib-içirdilər və çıxıb gedəndə təsəlli verirdilər. Həm də təsəllini elə verirdilər ki, sanki borc verirdilər. Amma bilirdi ki, bütün təsəllilər də boş və mənasızdı.

Çünki bu təsəllilərdə işıq görmürdü, ümid görmürdü. Bu təsəllilər içərisindəki ümidsizlik və tərkidünyalığı qovub çıxara bilmirdi. Bu təsəllilər xəstədən, lap ölüm yatağına düşmüş bir qocadan ötrü verilsəydi, yenə də işıq ucu görünərdi. Ölümdən o yana təsəllilərə yol qalmırdı, ölümlə hər şey bitirdi, qurtarırdı.

Dəfni keçirmək, mərhumun üçünü, yeddisini, qırxını vermək üçün xeyli pul lazımdı. Amma kəndə ikicə manatla gəlib çıxmışdı. Evdə də pul yox idi. Qohum-əqrəbaya gəldikdə isə özləri təklif eləməsə, onlara ağız aça bilməzdi – öz xasiyyətinə bələddi. Evdə satılmalı nə varsa, bir-bir gözdən keçirmişdi. Yükdən xalçanı götürmüşdü, həyətdəki qoyunlardan üçünü kəsmək üçün saxlamış, qalanını bazara çəkərək dəyər-dəyməzinə satmışdı.

Əvvəllər işin sonrasını fikirləşməmişdi, amma hər şey satılıb qurtarandan sonra və biləndə ki, daha evdə bir inəkdən savayı satılmalı şey yoxdu, onda vəziyyətin çətinliyini, ümidsizliyini, evi-ailəni bürüyəcək yaxın ehtiyacların qara, qaçılmaz caynaqlarını hiss eləmişdi.

Ailənin bütün çətinlikləri onun boynuna düşürdü. Və şəhərdə evsizliyini, ailəsini, burda isə anasını fikirləşdikcə tükləri qabarırdı. Bunlar hansı pulla dolanacaqdı... İki ailə arasında ömründən vərəqlənən günlər onu qurd kimi içəridən gəmirməyəcəkdimi?

Atasının yeddisini verəndən sonra şəhərə dönüb bir də kəndə qırxı tamam olanda qayıtdı. Bütün bu müddətdə atasının ölümünə inanmamışdı. Günlər kədər və narahatlığın əzici ağırlığı altında keçib getdikcə ona elə gəlirdi ki, yuxu görür, haçansa bu yuxudan ayılacaq və onda hər şey arxada qalacaq. Amma vaxt ötür, bu amansız yuxudan ayrılammırdı. Atasızlığa öyrəşə bilmirdi.

Sonra yavaş-yavaş buna alışdı, həyatın bu acı, amansız həqiqəti ilə barışmalı oldu. Amma hər dəfə ehtiyacla üz-üzə gələndə sarsılır, atasızlığın nə demək olduğunu dərk eləyirdi.

Atasının ölümündən sonra evdə səs-səmir azalmışdı. Danışanda qorxa-qorxa, pıçıltıyla danışırdılar, bir-birilə göz-gözə gəlməkdən çəkinirdilər.

Həmişə inanırdı ki, işiylə, təhsiliylə, günü-güzəranıyla nə vaxtsa, atasını sevindirəcək, amma qismət olmadı...

Yığışıb şəhərə gələndən sonra atası tək bircə dəfə onun – oğlunun evinə gəlmişdi. Bu hadisəni ömrünün ən qəmli günlərindən biri kimi qəlbində gəzdirir.

Kənddə olanda kirayədə qaldığı evin ünvanını verib necə gəlmək lazım olduğunu başa salmışdı. Amma atası gəlməmişdən qabaq teleqram vurub bildirmişdi ki, evi tapa bilməyəcək, vağzala çıxıb onu qarşılasın. Hansı avtobusla gələcəyini, nə vaxt şəhərə çatacağını da xəbər vermişdi ki, oğlu vaxtında qabağına çıxa bilsin.

Atasının teleqramını həmin axşam almışdı. Fikirləşmişdi ki, səhər işə gedib icazə alar, qayıdıb arxayınca atasını qarşılayar. Ancaq vəziyyət elə gətirmişdi ki, səhər işdən nəinki icazə ala bilməmiş, heç bu barədə söhbət salammamışdı. Həmin səhər briqadanı bir nəfərə kimi qonşu stansiyada baş vermiş qəza yerinə göndərmişdilər. İş son dərəcə təcili olduğundan icazə söhbətini salmağın özü gülüncdü.

Bütün günü fikri-xəyalı özündə olmamışdı. Atasının gələcəyi vaxtı dəqiqəbədəqiqə izləmişdi.

Budur, saat on ikinin yarısıdır. Avtobus yavaş-yavaş vağzala daxil olur. Sərnişinlər bir-bir tökülürlər. Atası da ağır-ağır pillələri enir. Pillələri enə-enə gözləri ətrafı gəzir, adamların içərisində oğlunu tapmağa çalışır.

Vaxt keçmişə doğru dönür. Avtobus boşalır, adamlar tamam dağılışırlar, meydanda təkcə o qalır.

Saat işləyir.

Atası onu – oğlunu axtarmaqdan yorulub taxta skamyada oturur. Tələsmədən çıxarıb papiros yandırır və ləzzətlə sümürməyə başlayır. İnanır ki, oğlu harda olsa, indilərdə gəlməlidi, özgə cür ola bilməz. Bir qədər gecikibsə, yəqin başı qarışıqdı...

Axı, oğlu bekar deyil, iş adamıdı, vaxtında gəlib çıxa bilməməsi mümkündü, eybi yox, gözləyər. Bəlkə də avtobusun gələcəyi vaxtı dəqiq bilmir...

Saat işləyir.

Bayaqdan səbrlə oturub gözləyən kişi get-gedə ümidsizləşir, ağlına cürbəcür fikirlər gəlir. Aclıqdan, susuzluqdan üzülsə də, yaxınlıqdakı yeməkxanaya gedib nahar eləmək yadına düşmür. Qorxur ki, burdan aralansa, oğlu gəlib onu tapmaz, korpeşman qayıdıb gedər. Onda bəs neyləyər?..

Saat işləyir.

Atanın narahatçılığı artır. Ağlına min cür fikir gəlir... Bəlkə oğlunun evini soruşsun? Yəqin onu burda yaxşı tanıyırlar, gör bir neçə ildi şəhərdə işləyir. Və qabağına çıxan bir qadından oğlunun evini soruşur. Qadın cavab vermədən başını bulaya-bulaya çıxıb gedir. Sonra bir başqasından soruşur. O da gülə-gülə uzaqlaşır. Daha soruşmağa üzü gəlmir.

Saat işləyir.

O, saatın səsini beynində hiss eləyir. Elə bil çəkiclə təpəsinə döyürlər... və get-gedə haldan düşməyə başlayır. Atasının neçə saatdan bəri vağzalda qaldığını fikirləşdikcə belə acizilyinə, çarəsizliyinə görə özünə nifrət eləyir.

Saat işləyir.

Ata oğlunun taleyi üçün qorxmağa başlayır. Axı, oğlu nə üçün bu qədər geciksin? O ki, sözündə bütövdü... Bəlkə teleqramı almayıb, bəlkə onun gələcəyindən xəbəri yoxdu? Burda özgə nə ola bilər?.. Ah, kaş ki, belə olsun, oğlunun başında bir iş olmasın... O, hər şeyə dözər.

Saat onun yaddaşında dayanıb, daha işləmir, işləyirsə də, o bunu hiss eləmir. İşdən çıxıb taksiyə oturur. O qədər yolu necə gəlməyindən, nə vaxt vağzala çatmağından xəbəri olmur. Qaça-qaça vağzalın həyətinə keçir.

Meydan tamam boşdu, heç kəs gözə dəymir. Elə bil qolları qırılıb yanına düşür. Hiss eləyir ki, ayaqlarının da tabı çəkilib,

ayaq üstə dayana bilmir, oturmasa, söykənməsə, tir-tap yıxılacaq. Divardan tutub yavaş-yavaş yerə çökür. Birdən taxta skamyada atasını görür. İçərisindən ildırım kimi bir dalğa çaxıb keçir. Onu səbəbini izah eləyə bilmədiyi qəfil ümidsizlik bürüyür. Bu ümidsizlik içərisində atasına yazığı gəlir, özünə yazığı gəlir.

Atası haqqında düşünəndə hər şeydən qabaq bu əhvalatı xatırlayırdı və hər dəfə də ona elə gəlirdi ki, vağzala gələ bilməsəydi, atası ömrünün sonuna qədər oturub ac-susuz onu gözləyəcəkdi.

... Daha əvvəlki kimi şəhərdə duruş gətirə bilmirdi. Ən azı ayda iki dəfə kəndə baş çəkirdi. Amma bu ona çətin başa gəlirdi. Həm gedib-gəlmək üçün pul lazım idi, həm də işini-gücünü buraxmalı olurdu. Bəzən günün hardan doğub harda batdığını bilmirdi.

Ah, bircə atası sağ olsaydı... Elə bil ölüm nəslin yaxasını tanımışdı, son nəfərinəcən qırmayınca əl çəkən deyildi. Əvvəlcə qardaşını, sonra atasını, daha sonra körpə övladını. Budur, ona da ölüm cəzası kəsildi. Onu güllələyəcəklər. Bu cəza daha amansızdı. Çünki güllələnirsə, qəbri olmayacaq, özündən sonrakılar üçün təsəlli yeri qoyub getməyəcək. Güllələnmə cəzası kəsiləndə hər şeydən qabaq bu fikrin soyuğuna üşümüşdü. İnsanın mövcudluğunu qəbirsiz dərk eləyəmmirdi. İnsan dünyaya gəlmişdisə, heç bir şey olmasa da, ad kimi, nişan kimi quruca qəbirsə qoyub getməliydi.

Ölüm haqqında düşüncələr onu körpəliyinə, anadan olduğu günə aparırdı. Budur, qonşu uşaqları evi-həyəti kəsdirib durublar, anasının nə vaxt azad olacağını gözləyirlər. O, hələ anasının bətnindədi, hələ dünya işığının nə olduğunu bilmir, hər tərəf qatı zülmət içərisindədi. Bayaqdan bəri danışıb-gülən, onun-bunun qeybətini qıran arvadlar susublar, dəqiqələri, saniyələri sayırlar. Zülmətin get-gedə onu darıxdırdığını, bezdirdiyini hiss eləyir. Onu da hiss eləyir ki, nə isə, harasa çəkilir. Handan-hana evdən sevinc dolu səslər eşidilir. Kimsə ucadan:

– Oğlandı, oğlandı! – deyə qışqırır.

Qohum-qonşular gözaydınlığı üçün evə cumurlar.

Anası evin bir tərəfindəcə yorğan-döşəkdə halsız uzanıb. Mamaça onu – indicə anadan olmuş körpəni xoş sözlərlə əziz-ləyə-əzizləyə ağ mələfəyə bükür. Evdəkilərin gözü bu körpəcə oğlan uşağındadı. Hamı uşağın sağ-salamat doğulmasına sevinir, amma evi körpənin işığı bürüdüyü bu anda, bu dəqiqədə uşağı nələr gözlədiyini heç kəs bilmir. Heç kəs ağlına belə gətirmir ki, vaxt gələcək uşaq boya-başa yetəcək, ömrünün, həyatının açılan çağında ölümə – güllələnmə cəzasına məhkum ediləcək.

Ancaq nə qədər qəribə olsa da o – dünyaya indicə gözünü açan, hələ ağlı kəsməyən bir körpə bunu bilir, onu gözləyən taleyin qaranlıqları içərisində hələ aydın dərk eləyə bilmədiyi ölüm cəzasının vahiməsini duyur.

...Bayaqdan bəri arxası üstə uzanıb qalmışdı. Bütün bu əhvalatların öz başına gəldiyinə inanammırdı. Hər şey təzədən yaddaşından keçib getdikcə yaşadığı ömürə səksəkə içərisində baxır, özü-özündən xoflanırdı.

Səmada ulduzlar sayrışırdılar. Sanki göy üzünə əlvan örtük sərilmişdi. Ulduzlar yanıb-söndükcə gecənin ömründən saniyə-lərin, dəqiqələrin aram-aram çıxıb getdiyini duyurdu.

Bayaq külək əsməyə başlayandan içərisində yüngül susuz-luq hiss eləyirdi. Ancaq hələ susuzluq o qədər də narahat elə-mirdi. Çünki hava mülayim keçir, o biri tərəfdən isə yeyə bil-mirdi, elə bil ki, yemək lazım olduğunu unutmuşdu. Amma bilirdi ki, bu gün də olmasa sabah, lap uzağı o biri gün susuz-luğu baş qaldıracaq, onda bu ucsuz-bucaqsız səhrada əli heç ya-na çatmayacaqdı. Dünən külək qalxmamışdan ətrafda üfüqlərə qədər uzanan qum dənizindən savayı heç nə gözə dəymirdi. Bu o demək idi ki, yaxınlıqda su olduğunu ağla gətirmək əbəsdi. Və belə bir vəziyyətdə səhrada çıxış yolu əvəzinə, qaçıb qurtarmaq əvəzinə su axtarmaq ağlasığmazdı və bununçün özündə qətiyyən güc hiss eləmirdi. Aclıq barədə isə düşünmək hələ tezdi. Yemə-

yə iştahası olmadığından gətirdiklərinin əksəriyyəti qalırdı.

Ona təsəlli verən səhranın sonsuzluğuydu. Nə qədər ki, səhradaydı, bir elə təhlükədən uzaq idi. Amma səhranın gec-tez sonu, nəhayəti olacaqdı. Onu ən çox qorxudan bir də buydu. Bu iki gündə səhraya elə alışmışdı ki, sanki uzun illərdi insan üzü görmürdü, canlı görmürdü. Əgər bu ucu-bucağı bilinməyən səhranın sonuna bir gün çatacaqdısa və nəhayət, insan yaşayan məskun bir yerlə üzləşəcəkdisə, qarşısına çıxana nə deyəcəkdi? Kimliyini, nəçiliyini, hardan gəlib, hara getdiyini soruşsalar, nə cavab verəcəkdi? Boz qumun içərisində dolaşmaqdan rəngi-ruhu bilinməyən üst-başına, pal-paltarına baxan nə düşünəcəkdi? Hələ ki, səhraydı... Səhranın genişliyi, sonsuzluğu ona təskinlik gətirirdi. Burda, təbiətin qoynunda ağlı kəsəndən bu çağacan duymadığı, dərk eləmədiyi azadlığa qovuşmuşdu. Amma buna yaşamaq demək olardımı? Bir halda ki, insan arasına çıxa bilməyəcək, ailəsini, uşaqlarını nəinki görə, hətta onlarla məktublaşa bilməyəcək, yaşamağına dəyərdimi? Bir halda ki, uşaqları, ailəsi onun sağ olduğunu bilməyəcəklər, bir halda ki, onu – ölümə məhkum edilmiş bir insanı – doğma atalarını ürəklərində ömürlük dəfn eləyəcəklər, belədə hamıdan xəbərsiz yaşamağına dəyərdimi? Bu həyat kimin üçün idi? Kimin üçün, nəyin naminə yaşayırdı? Axı, bu elə ömürdü ki, hər şey, hər şey çoxdan həll olunmuşdu. İşıq, ümid, təsəlli – bütün bunlardan uzaq, qaranlıq, həm də zülmət kimi qaranlıq bir həyat; taleyinə yazılan buydu. O, ölümə məhkum olunmuşdu. Ölümə məhkum olunmuş adamın taleyinə bundan artıq ömür düşəmməzdi.

Onu həyata bağlayan nəydi görəsən? Gör nə vaxtdan bəri beynini didən bu sualın qarşısında aciz idi. Bu cür həyatı ölümdən üstün tutduğunu heç cür özünə izah eləyəmmirdi. «Bəlkə günahsız olduğuna görəydi? Axı, günahsızlığını sübut eləyəmməmişdi. İnnən belə isə heç sübut eləyəmməyəcək. Ona görə yox ki, deyəcəkləri əsassızdı, sadəcə qulaq asmayacaqdılar, eşitməyəcəkdilər. Ölüm hökmü artıq çoxdan oxunmuşdu. Qatarın pəncərəsinin millərini doğrayıb qaçmaqla cinayət üstə bir cinayət

də gətirmişdi. Başqa çıxış yolu da yox idi; addımbaaddım ölümə yaxınlaşırdı. Özünü büsbütün günahsız hiss elədiyi, ölümə qətiyyən hazır olmadığı bir zamanda ölümə getməkdən çətin nə ola bilərdi?»

Ümidsiz və qaranlıq düşüncələr içərisində nə vaxt yuxu apardığını bilmədi.

Gözlərini açanda səhər üzüydü. Uzaq ulduzların get-gedə öləziyən işığında səhranın üstüylə axıb keçən səhər dumanı güclə sezilirdi. Üst-başına şeh düşmüş, pal-paltarı əməllicə nəmişləmişdi. Amma bütün gecəni havada soyuqluq hiss eləməmişdi. Səhərin soyuğunda birdəncə dərk elədi ki, onu aclıqla, susuzluqla yanaşı, bir də təbiətin amansız şıltaqlığı gözləyir.

Qalxıb oturdu. Boyun-buxunu ağrıyırdı. Qum üstündə yatmağa vərdiş eləmədiyindəndimi, yoxsa havanın soyuq keçdiyindəndimi, qolu-qabırğası sızıldayırdı. Bu neçə gündə ilk dəfəydi ki, bədənində belə ağrı və yorğunluq duyurdu.

Onu ən çox yoran qoşa su damcısı kimi bir-birinə bənzəyən günlərdi. Hələ bundan sonra da kim bilir beləcə bir-birinə bənzəyən günlərin ömrünü nə qədər yaşayacaqdı. Bəs nə etməliydi? Nə qədər ki, səhradaydı, özgə qayğılar onu o qədər də narahat eləmirdi. Ancaq səhra qurtarandan sonra ömrünün yeni bir mərhələsi başlayacaqdı; dumanlı, qaranlıq, anlaşılmaz olan bir mərhələ...

Bütün bunları fikirləşdikcə ağlına da gəlmirdi ki, onun şəklinin min nüsxələrlə surəti çıxarılıb ölkənin hər yerinə göndərilib. Üzünün, bədəninin nişanələri, boyu, yaşı barədə məlumat dərc olunub. İndi onu hər yerdə axtarırlar. Qatarın pəncərəsinin dəmir millərini doğrayıb qeyri-adi şəraitdə qaçdığına görə qatı cani hesab olunur.

Onun qaçdığını üç saatdan sonra bilmişdilər. Bu zaman artıq gec idi. Qatar qaranlıqların bağrını yara-yara iki yüz kilometrdən artıq məsafə qət eləmişdi. Növbətçi əsgər bunu bölmə rəisinə xəbər verməyə ürək eləmirdi. Onun ağlına da gəlmirdi ki,

belə qeyri-adi bir işi səssiz-səmirsiz görmək olar. Qapını bağlayıb gözləmişdi. Dustağın qaçması barədə xəbəri handan-hana özünə gələndən sonra, səhər üzü bildirmişdi. Vaqonda bütün dəstə bir-birinə dəymişdi. Bütün bağlı kupelər bir-bir açılıb yoxlanmış, pəncərələrin milləri diqqətlə nəzərdən keçirilmişdi. Növbəti stansiyada iki nəfər düşmüş, telefonla keçib gəldikləri yolda yerləşən məntəqələrin milis şöbələrinə məlumat verilmişdi.

O bütün bunlardan xəbərsizdi. Qaçmağı barədə düşünəndə fikrinə təkcə üzü çıxarılıb divarlara vurulan, kənarında isə canilərin əlamətləri haqqında məlumat dərc olunan qorxunc şəkillər gəlirdi.

Bağlamadakı çörəyi iki yerə böldü. Bir tikəsini büküb saxladı, o biri tikəsini isə yeməyə başladı. Əslində yeməyə iştahası yox idi, amma yaşamaq xatirinə yeməliydi. Ağzı, dili-boğazı qupquruydu. Elə bil ağzında tüpürcəyi də qurumuşdu. Çörəyi eləcə quru-quru çeynəyib udurdu. Çörək boğazından ötsə də, yumrulanıb sinəsini deşirdi. Axırıncı tikəni ötürüb ayağa qalxdı.

Qarşıda göz yorulunca uzanan qum dənizi baş alıb gedirdi. Hansısa bir səmti tutub getməyə başladı. Aram-aram irəliləyirdi. Ancaq özünün hərəkətinə, nə qədərsə bir məsafə qət elədiyinə inanmırdı. Qum dənizinin qoynunda onun hərəkəti hissolunmazdı. Amma gedirdi, hərəkət eləyirdi. Hərəkət elədiyini arxada qalan ayaq izlərindən bilirdi.

Bağlamada bir əlcə çörək qalırdı. Ona hələ toxunmayacaqdı. Susuzluq ciyərini odsuz-ocaqsız yandırırdı. Bayaq yediyi çörək daş olub mədəsindən asılmışdı. Qarşıda isə üfüqlər ağarırdı.

Hərdən əlini qaşına qoyub uzaq üfüqlərə baxırdı. Gün günorta yerinə gələndə uzaqda gölü xatırladan ilğım onu çəkirdi. Bunun göl olduğunu düşündükcə özündə güc, təpər hiss eləyirdi. Amma hərəkət elədikcə üfüq kimi göl də ondan uzaqlaşırdı. Belədə bədəninin tabı-taqəti çəkilib gedirdi.

Yaman qəribsəmişdi. Sonu-səmti bilinməyən bu böyük səhrada insan üçün, səs-hənir üçün darıxırdı. İndi hər şey ke-

çəndən sonra bütün bu əhvalatları soyuq başla kiməsə danışmaq, kiminləsə dərdləşmək istəyirdi. Təklik onu içəridən yeyirdi. Bütün bu əhvalatlardan sonra heç kəslə olub bitənlər barədə danışmamışdı, dərdləşməmişdi. Günahsız olduğuna şübhə eləyirdi, özünə inamını da itirməyə başlamışdı. «Axı, onu da öldürürdülər, göz qabağında öldürürdülər. Hər gün, hər saat, hər addımda ölümə yaxınlaşırdı. Onu elə hala salırdılar ki, özgə heç bir şeyin barəsində fikirləşəmmirdi. Sadəcə bu gözlənilməz hərəkətilə ölümü yaxınlaşdırmışdı.

Bəs niyə cəmiyyət, insanlar onu özünə çəkir? Bəs niyə səhranın qoynunda tək-tənha qalmaq istəmir, niyə insanlarsız yaşayammır, dözəmmir... Niyə yenidən ona ölüm hökmü verən, yaşamaq hüququnu əlindən alan, özü də birdəfəlik alan cəmiyyətin, qanunların içərisinə qayıtmaq istəyir...».

...Evsiz-eşiksiz olduğunu, kirayədə yaşadığını düşündükcə əli işdən-gücdən soyuyurdu. Düz yeddi il idi ki, yayı instituta imtahan verirdi. Hər dəfə də müsabiqədən keçə bilmirdi. Daha işdən xasiyyətnamə almağa üzü gəlmirdi; di gəl ki, inadından da dönəmmirdi. İnstituta daxil ola bilməməsini heç cürə özünə bağışlaya bilmirdi. Qəribəydi ki, illər ötdükcə oxumaq ehtirası sönmək əvəzinə, daha da alovlanırdı. Ümidini də itirmirdi, əksinə hər dəfə instituta daxil olmadığını yəqin elədikcə içərisində yeni-yeni ümidlər cücərirdi. Bu ümidlər elə işıqlı, elə parlaq idilər ki, ilin necə gəlib keçməyindən xəbəri olmurdu, bir də görürdü ki, imtahanların vaxtı çatıb. Hərdən onunla bir yerdə imtahan verənlərlə yolda, küçədə rastlaşırdı. Salamlaşıb hal-əhval tuturdu. Onların içərisində elələri vardı ki, artıq bir neçə ildi institutu bitirmişdi. Bunlar da onu ruhdan salmırdı, əksinə yeni bir ehtirasla hazırlaşmağa səsləyirdi.

Yadındaydı, bir dəfə yeddinci sinifdə oxuyanda ədəbiyyatdan dərsini hazırlamamışdı. Az-az olardı ki, dərsə hazırlıqsız gəlsin, sadəcə ilin axırıydı deyin öyrənməmişdi. Və bütün sinif bilirdi ki, bu gün müəllim dərs soruşmayacaq, illik qiymətlər

yazılacaq. Ancaq müəllim dərsi danışmağa çağırmışdı, özü də təkcə onu çağırmışdı. Ayağa qalxıb:

– Bilmirəm, – demişdi.

– Niyə oxumamısan?

Aldatmaq istəməmişdi:

– Elə bildim soruşmayacaqsınız...

Müəllim dayanıb-dayanıb:

– Səndən heç nə olmayacaq, – demişdi, – lap gecə-gündüz oxuyub hazırlaşsan da. Bü sözləri möhkəm-möhkəm yadında saxla, eşidirsən? Heç nə çıxmayacaq sənnən...

«...Heç nə çıxmayacaq sənnən, eşidirsənmi... eşidirsənmi...» – Bu sözlər aramsız olaraq qulaqlarında əks-səda verir, artıq nə danışıldığını eşitmirdi.

Həmin dərsdə müəllim ona «bir» qiymət yazmışdı («İki» də yox, «bir»). Amma ilin sonunda yazılan, ömründə ilk dəfə aldığı bu qiymətdən çox müəllimin sözləri ona təsir eləmişdi. Və birdəncə ona elə gəlmişdi ki, daha bu sözdən sonra istəsə belə heç nə ola bilməyəcək, gecə-gündüz özünü həlak eləyib oxumağı, çalışmağı əbəsdi. Çünki o müəllimə inanırdı, qəti inanırdı.

O gün dərsdən çıxıb birbaş evə gəlmişdi. İkicə günün içində ədəbiyyat kitabını təzədən oxuyub başa çıxmışdı. Ondan nə isə çıxacağını müəllimə sübut eləmək üçün yox, özünə təskinlik verməkçün oxuyub öyrənmişdi.

«...Heç nə çıxmayacaq sənnən, eşidirsənmi... eşidirsənmi...» – O yaşda insanı sarsıtmaq üçün bundan ağır söz tapmaq çətin idi. Və bu sözləri heç bir zaman unuda bilməmişdi.

Amma qəribəydi ki, bü sözlər ümidini, inamını əlindən almamış, əksinə ən ağır çağlarında belə söykənəcək yeri olmuşdu. İnanmışdı ki, nə vaxtsa ad-sanı, mövqeyi ilə ədəbiyyat müəlliminin sözlərini təkzib eləyəcək.

İnstituta hazırlaşmağa isə imkanı olduqca az idi. Təkcə ona görə yox ki, işi ağırdı, hər gün evə yorğun dönürdü. Bir də onunçün ki, evsizliyini, ailənin ehtiyaclarını fikrindən, düşüncəsindən qova bilmirdi, əlinə kitab alan kimi beynində dəyirman

daşı təkin vaxt-bivaxt fırlanan bu dərdləri oyadırdı. Sonra yavaş-yavaş buna da alışmağa başladı. Əslində alışmadı, sadəcə ehtiyac dərdlərin yüngülünü qovub ağırını gətirdi, başı uşaqlarına qarışdı, ev-ailə qayğıları hər şeyi üstələdi.

...Axşama yaxın çevrilib arxaya baxanda uzaqda gözlərinə nöqtə kimi iki kiçik qaraltı dəydi. Əlini qaşına qoyub xeyli uzaqları süzdü. Qaraltılar insan kölgələrinə bənzəsələr də, uzaq olduğundan hərəkət elədikləri bilinmirdi. Üfüqdə qaraltıların görünməsi ilə içərisində sevinc qarışıq bir qorxu gəzdi. Elə bil üstündən dağ götürüldü. Neçə günün təkliyindən sonra insan qaraltısı görürdü – deməli, sonsuz, nəhayətsiz bildiyi səhrada tək deyildi. Bəs içərisində get-gedə böyüyən, köksünü, varlığını titrədən bu qorxu nəydi belə? Yoxsa özünü tək-tənha bildiyi səhrada azadlığının sona çatmağındandı?..

Qəti yəqin elədi ki, qatardan atıldığı yerə yaxın stansiyalardan birində arxasınca düşüblər. Yol boyu axtarıb ayaq izlərini tapıblar. Bəs tufan? Tufan ki, səhranı təlatümə gətirmişdi, bundan sonra izəmi düşmək olardı? Amma tufanın qurtardığı vaxtdan on gündən artıq keçirdi. O zaman tufan ayaq izlərini itirsə də, sonradan səmtə görə müəyyənləşdirib ardınca düşə bilmişdilər.

...Yox, nahaqca arxayınlaşdı... Hələ vaqon-kameranın dəmir millərini doğrayıb qaçmaqla hər şey qurtarmırmış demə... Səhranın böyüklüyünə, sonsuzluğuna bel bağlamaq əbəsdən də əbəsmiş... Gör bir neçə vaxtdı ki, qaçıb xilas olmaq əvəzinə, günlərini boş-boşuna xərcləyir, hələ üstəlik istirahətindən də qalmır...

Əlini qaşına qoyub bayaqkı səmtə baxdı. Qaraltı əvvəlkinə nisbətən xeyli böyümüşdü. Diqqətlə baxanda yanaşı addımlayan qaraltıların hərəkətini də hiss eləmək olurdu. Damarları gizildədi.

Axşam düşürdü. Kölgəsinin çox güman ki, onu izləyən qaraltılar tərəfindən seçilə biləcəyi bir vaxtda axşamın yaxınlaş-

mağı təsəlli gətirirdi. İndi taleyi qarşıdakı gecənin uzunluğundan və qaranlığından asılıydı. Bir də ümid küləyə qalırdı, yoxsa sakit havada səhrada iz itirmək ağlasığmaz bir şeydi.

Azadlığın bu qədər ucuz olduğunu düşünmək nə sadəlövh bir fikirmiş... Necə oldu ki, bu xülyaya düşdü, arxayınlaşdı? Hər şeyi vaxtlı-vaxtında ölçüb-biçsəydi, indi bu təhlükə yaranardımı? Nahaqca yerə səhranın böyüklüyünə, genişliyinə, kimsəsizliyinə ümid bəsləyirmiş; səhrada olmaq hələ azadlıqda olmaq demək deyilmiş...

Başını dolandırıb göy üzünü süzdü. Səma təmiz və apaydın idi. Havadan külək qoxusu gəlmirdi.

Neçə gün idi ki, tələsmədən hərəkət eləyirdi. Ürəyi istəyəndə dayanır, uzanıb dincəlir, gözününün acısını alırdı. Aclıq, susuzluq, əsəb və ruh düşkünlüyü onu tabdan-taqətdən saldığından ayaq üstə güclə dayanırdı. Ancaq nə qədər yorğun olsa belə anlayırdı ki, hərəkət eləməlidi, dayanıb durmaq ölümə bərabərdi. Canında, cəsədində güc varkən özünü bir tərəfə çatdırmalıdı. Daha innən belə gecələr arın-arxayın yatıb dincələmməzdi. İzinə düşənlər ay işığında da hərəkət eləyə bilər, onu yuxudaca tutardılar. Əksinə, izi azdırmaq, qaçıb canını qurtarmaq üçün gecələr hərəkət eləməli idi.

O iki qaraltını görəndən elə bil yorğun, əzgin bədəninə təpər gəlmişdi. Bir qədər əvvəlki halına uyuşmayan iti, inadlı yerişlə addımlayırdı. Arabir dönüb arxaya baxır, amma hava tutqunlaşdığından daha gözləri uzağı seçmirdi.

Azadlığın nə demək olduğunu hələ indi-indi anlamağa başlayırdı.

Bu minvalla nə qədər yol getdiyini bilmədi. Ay doğub səhranı aydınlığa boyayanda birdən-birə xatırladı ki, axşam hava qaralmamışdan bu çağa – gecənin yarısına qədər qıçını qatlamadan yol gəlir. Bu qədər yolu birnəfəsə qət eləməklə təhlükədən heç olmasa bir qədər uzaqlaşmağı ona təsəlli gətirsə də, axşam çağı gördüyü o qaraltıların xofunu, qorxusunu özündən qovub uzaqlaşdıra bilmirdi.

Qarşıda təpəni xatırladan qara-qara kölgələr gözə dəyirdi. Ayın aydınlığında nəzərə çarpan o alçaq təpələr səhra ilə uyuşmurdu. Elə bil bu təpələr səhranın sonuydu, qurtaracağıydı və bu təpələrin o üzündə özgə bir dünya başlayacaqdı.

Beləcə fikirləşə-fikirləşə gedirdi ki, birdən su şırıltısına bənzər bir səs duydu. Qulaqlarına inanmadı. Ayaq saxlayıb gecənin səssizliyini dinşədi; suyun səsi aydınca eşidilirdi. Ağlına da gəlmirdi ki, ayın aydınlığında ağarışan təpələr səhranın ortasıyla axan lal çayın sahilidi. Neçə gündən bəri gözlərinə qum dənizindən savayı özgə bir şey toxunmadığından qarşısına çay çıxacağını təsəvvürünə belə gətirəmmirdi.

Qaça-qaça təpənin üstünə qalxdı, ay işığında son dərəcə qəribə mənzərə yaradan çaya tamaşa eləməyə başladı. Çayın suyu par-par yanırdı və elə sirli, elə səssiz axıb keçirdi ki, deyirdin bu çay yalnız gecə, qaranlıq üçündü, günəş doğan kimi qeyb olacaq, yerini səhra tutacaq, qum dənizi tutacaq. Gözlərinə inanmır, ovsunlanmış kimi tamaşa eləyirdi.

Neçə günün susuzluğundan sonra su içmək yadına da düşmürdü, eləcə mat-mat dayanıb baxırdı. İndicə çayın sahilinə enəcək, nə vaxtdan bəri ona əzab verən susuzluğunu söndürəcəkdi. Amma buna sevinmir. Ən çox ona sevinir ki, özgə bir həyatın başlandığını bütün varlığıyla duyur. Və izinə düşüldüyü bir vaxtda səhranın sinəsiylə axıb keçən bu səssiz, sirli çayın onun taleyində nə isə qoyub gedəcəyinə inanır...

Handan-hana təpəni enib çayın sahilinə düşdü. Torbasını bir tərəfə tullayıb su içmək üçün bir az da aşağı endi. Ulduzlar axar suda əks olunmuşdular. Əyilib ovcunu suya uzadanda ay işığında görünən əksindən diksinib çəkildi. Su güzgüsündən ona yad adam baxırdı – üzünü basan saqqaldan tamam xəbərsizmiş. «İlahi, gör bir necə dəyişib? Dəyişib demək olardımı buna, az qala insan sifətindən dönüb... – Aradan nə qədər keçib ki, bunu hiss eləməyib... Bu müddətdə insan bir belə dəyişərdimi? Özü öz görkəmindən diksinirsə, onu bu vəziyyətdə anası belə tanıyam-

maz... Onda qalmış ki, özgələri ola...»

Birdən-birə içərisində ümid qığılcımları parladı. Bu qəfil parıltının işığında yadının-yaddaşının qaranlıqları qurğuşun kimi əriyib töküldü, içərisinə indiyəcən duymadığı bir aydınlıq yayıldı. Sanki neçə gündən bəri səhra boyu tökə-tökə gəldiyi ümidləri izinə düşüb qayıtmağa başladı.

Əksindən xoflana-xoflana sudan doyunca içib təzədən təpənin üstünə qalxdı. Çöməlib oturdu. Üstündən dağ götürülübmüş kimi yüngüllük duydu. İçərisində doğmuş ümid işığı getgedə böyüyür, xəyalına cürbəcür fikirlər gəlirdi. Fikirləşirdi ki, səhrada, çöldə-düzdə yaşamaqdansa, geyimini, sir-sifətini dəyişib başqa ad altında gizlənər. Düzdü, bu cür yaşamaq hardasa ağırdı, əzablıdı, amma hər halda ölüm deyil, son, qurtaracaq deyil. Həyat varsa, insan ümidini üzməməlidi. Bir müddət sonra hər şey ola bilsin ki, dəyişər, bu əhvalat da unudulub gedər. Ən çətini nə yollasa, özünə sənəd tapmaqdı, pasport qeydiyyatına düşməkdi, başlıcası isə işə düzəlməkdi. Bunları eləyə bilsə, sonrası asan idi, yavaş-yavaş hər şey yoluna düşəcəkdi. Aradan xeyli keçəndən sonra başqa adla evə məktub da yaza bilər, gizli yolla xəbər də göndərər... Bəlkə hardasa gizlicə anası, ailəsi ilə görüşməsi də mümkün ola. Amma bütün bunlar hələ qabaqdadı... İndilikdə arxasınca tanımadığı-bilmədiyi o iki qaraltının düşdüyü, ölümün onu qarabaqara izlədiyi bir vaxtda bu barədə düşünmək hələ tezdi.

Çay aşağı getmək lazımdı. Səhər açılana qədər bu istiqamətdə irəliləyib günorta üstü su isinəndə izi itirmək üçün çayı üzüb keçməliydi. Qəti hərəkət vaxtıydı, yersiz düşüncələrə vaxt itirmək olmazdı.

Beynində aydın məqsəd doğandan sonra aclığını büsbütün unutmuşdu. Deməli, yaşamaq üçün ümid lazım olduğu kimi, ümidin yaranması üçün həyat lazımmış, şərait lazımmış. Səhranın sinəsiylə axıb keçən bu səssiz, lal çayın cazibəsi o qədər güclüydü ki, gözlərini sulardan çəkə bilmirdi. Çayın sahilində birdən-birə qəlbində doğan ümidlər təzəydi, qatardan atıldığı

vaxtdan bu çağa kimi bu barədə düşünməyi ağlına belə gətirməmişdi. İndi birdəncə qəlbində doğan xəyalların, ümidlərin işığı onu sehirləyir, başını gicəlləndirirdi.

Qalxıb təpənin üstüylə çayın axarı boyu getməyə başladı.

Ay səmada bayaqkı kimi yanırdı. Çayın xırda, zərif ləpələrində ayın parlaq əksi dalğalanır, gözlərini qamaşdırırdı. Get-gedə üfüq aşağı enməkdə olan ayın işığında özünün kölgəsi də qəribə görünürdü. Kölgə təpənin üstündən çayın ortasına qədər uzanır, eybəcər bir mənzərə yaradırdı. Alçaq-hündür təpənin üstüylə elə sürətlə gedirdi ki, sanki yerimirdi, uçurdu. Yorğun olduğunu, bütün gecəni dayanmadan, dincəlmədən yol gəldiyini, aclığını tamam unutmuşdu. Ölümdən xilas olmaq istəyi o qədər güclüydü ki, gecəykən, qaranlıqkən qaçıb qurtarmaqdan savayı özgə heç bir şey düşünəmmirdi.

Gecə uzanırdı. Ay gah buludların arxasında gizlənir, gah da çıxaraq dünyanı süd rənginə boyayırdı.

Bayaqkı sürətlə yoluna davam edirdi. Artıq çayın o biri sahilində seyrək ağaclıqlar gözə dəyirdi. Ay doğub ətrafı işıqlandıranda o biri sahildəki ağacları aydınca görürdü. Və get-gedə ağaclar sıxlaşır, aşağıya doğru seyrək meşəliyi xatırladırdı. Qaçıb gizlənmək, arxasınca düşən o qaraltıları azdırmaq üçün mütləq o biri sahilə keçmək lazımdı – bu işi heç cür sabaha saxlamaq olmazdı. Çünki artıq yorulduğunu hiss edirdi; tez-tez büdrəyib yıxılır, ayaq üstə durmağa gücü-taqəti çatmırdı.

Amma suya girməyə cəsarət eləmirdi. Bir yandan suyun soyuqluğu, o biri tərəfdən də çaya bələd olmaması onu qorxudurdu. Qorxurdu ki, ac, taqətsiz halda axarına bələd olmadığı, üzdən səssiz, lal görünən çayın o biri sahilinə üzüb keçməyə qüvvəsi çatmaya. Bununla belə mütləq bu işi görməliydi, dayanıb fikirləşmək, götür-qoy eləmək sadəcə olaraq vaxtı uduzmaq idi və indiki məqamda buna heç cür yol vermək olmazdı.

Səhərə yaxın olduğundan soyuq meh başlamışdı. Meh əsdikcə lal, səssiz səhra çayını həzin-həzin dalğalandırır və suyun

ətrini sahil boyu yayırdı.

Vaxt gözləmirdi.

Soyunub toz-torpaq içərisində olan paltarlarını çırparaq bağlamaya yığdı. Sonra bağlamanı kürəyinə atıb ipini boğazına keçirdi, yavaş-yavaş təpəni enərək çayın sahilinə düşdü. Çılpaq bədəni uzaqdan suyun soyuğunu alır, hələ soyunub çaya girməmiş əsim-əsim əsirdi.

Yavaş-yavaş suya girməyə başladı. Çayın suyu dayaz idi, beş-altı metrə qədər getsə də, suyun səviyyəsi hələ dizinə çıxmamışdı. Təcrübəsindən bilirdi ki, axar suda üzmək o qədər də çətin deyil və məktəb illərində dəfələrlə Kürü üzüb keçmişdi. Amma indi adını bilmədiyi, dərinliyinə, axarına bələd olmadığı çayı üzüb keçməyə ürək eləmirdi, üstəlik də gecənin qaranlığında sudan üşənirdi.

Soyuqdan tükləri qabarıb biz-biz olmuşdu.

Birdən sanki quyuya düşübmüş kimi suyun dibinə getdi.

Suyun üzünə qalxanda artıq soyuğu hiss eləmirdi. Tələsmədən o biri sahilə doğru üzməyə başladı. Bir az üzmüşdü ki, ay səmada buludların arxasında gizləndi. Ətraf tamam qaranlığa büründü. İndi ona elə gəlirdi ki, yer-göy tamam sudu, hardasa sahilsiz bir dənizin ortasındadı, xilas və qurtuluş yolu yoxdu. Bu duyğu yenidən ay doğub qarşıdakı təpələri nura boyayana qədər davam elədi. Və ay doğanda qaçqın sahildəki alçaq təpələrin lap yaxınlıqda olduğunu görüb sevindi və son gücünü toplayıb sahilə sarı üzməyə başladı.

Sahilə xeyli qalmış əli suyun dibinə, palçığa batanda artıq qüvvəsi tükənmək üzrəydi. Birtəhər sürünüb qırağa çıxdı. Su bədənini buz kimi soyutmuşdu və sahilə çıxanda havada elə hərarət duydu ki, bir qədər aralıda tünd zolaq kimi uzanıb gedən meşənin içərilərinə kimi paltarlarını geymədi. Onsuz da paltarları yaş idi, çaya girərkən ayağı sürüşüb birdən-birə suya batanda tamam islanmışdı. Təkcə kostyumunun arasına qoyduğu alt paltarına su keçməmişdi. Alt paltarlarını və ayaqqabılarını geydi, kostyumunu isə sıxıb yenidən bağlamaya qoydu.

Get-gedə meşə qalınlaşırdı. Ətri, qoxusu ciyərlərinə təpilən meşənin içərisində yeməyə də bir şey tapa biləcəyinə inanırdı.

Ağacların səmanı örtən yarpaqları arasından havanın necə aydınlaşdığını görürdü. Addımını atdıqca quru budaq və xəzəllər ayaqlarının altında xışıldayırdı.

Hardansa, meşənin dərinliklərindən gələn quş səsinə diksindi. «Görən hansı quşdu bu, belə gecəgözü ötür. Necə də heybətli səsi var...».

Quş bir də ötdü.

Səksəkədən bədəni ürpəşdi. Üzü işığa getməsəydi, meşəyə girməyə cürəti çatmayacaqdı.

Hərdən moruq kollarına rast gəlirdi, amma üstündə meyvəsi olmadığından ona elə gəlirdi ki, nə isə özgə bitkidi. Ancaq bir az keçməmiş ağacların arasında moruq kolları basmış bir yerə gəlib çıxdı. Kolların üstündə o qədər meyvə vardı ki, gözlərinə inanmadı. Meyvələrin bir hissəsi dəyib qurumuş, qaxaca dönmüşdü. Moruqdan birini qoparıb ağzına qoydu, tanış qoxu onu bihuş elədi. Sonuncu dəfə nə vaxt moruq yediyi yadına gəlmirdi. İndi ağzında, dodaqlarında gəzən bu ətir birdən-birəcə uzaq uşaqlıq illərindən bu yana taleyin onun başına gətirdiklərini unutdurdu. Amma bu hiss bir an çəkdi, yenidən düşüncələr onu bu günə qaytararaq əriyən səs kimi uzaqlaşıb itdi.

Moruqdan doyunca yeyib yoluna davam elədi. Artıq bədəninə güc, gözlərinə işıq gəlmişdi. İndi təkcə dayanmadan yol gəldiyi uzun gecənin yorğunluğunu canından çıxarmaq barədə düşünürdü.

Meşənin seyrək yerlərində, talalarda quruyub qalmış otlardan xeyli toplayıb qalın pöhrəliklərə çəkildi. Bağlamadan yaş paltarlarını çıxarıb sərdi. Sonra isə quru otları yerə döşəyib uzandı. Əvvəlcə üşüyürdü, gün qalxdıqca hava qızmağa başladı. Nə vaxt yuxuya getdiyini bilmədi.

Oyananda gün günorta yerini aşmışdı. Qalxıb ətrafa göz gəzdirdi. Sakitlik idi. Paltarları tamam qurumasa da, əyninə

geydi. Sellafon örtüyə bükdüyü şəkli qoltuq cibinə qoydu. Özünü təzədən moruq kollarını vurdu. Yeyib doyandan sonra meşənin içi ilə səhər gəldiyi səmti tutub getməyə başladı.

Daha izinə düşənlərdən qorxmurdu. Bu boyda meşədə izinə düşüb onu tapa biləcəklərinə inanmırdı. Ancaq mümkün qədər hərəkət eləmək, məskun bir yerə yetişmək lazım idi. Bilirdi ki, belə yaşıllığın ətrafında mütləq yaşayış məskəni olmalıdı.

Bu yerlər doğma yurdun meşələrinə necə də bənzəyirdi. Ağaclar da, otlar da, tala da, yediyi moruq da eyni idi. Təkcə meşədən özgə ətir gəlirdi və bu ətir doğma torpaqdan uzaqda olduğunu ona xatırladırdı.

...Axşama yaxın on-on iki evdən ibarət olan kiçik bir kəndə yaxınlaşdı. Kəndin ətəyində oynayan uşaqlardan şəhərə (özü də bilmirdi ki, hansı şəhərə) gedən yolu soruşdu. Heç biri dillənmədi. Uşaqlar canavar balaları kimi heyrətlə, ehtiyatla ona baxırdılar. Handan-hana onlardan nisbətən böyüyü çınqıllı yolu göstərdi.

Meşə arxada qalmışdı, yolun kənarlarıyla adda-budda ağaclardan və kol-kosdan savayı gözə heç nəyin dəymədiyi düzənlik uzanıb gedirdi. Bütün gecəni çınqıllı yolla dayanmadan hərəkət elədi. Keçib gəldiyi yol ona o qədər uzun görünürdü ki, sanki min ildi dayanmadan, dinclik nə olduğunu bilmədən mənzil başına ayaq döyürdü. Arabir ötüb keçən maşınları şübhələndirməmək üçün yoldan çıxıb ağaclıqda, kol-kos arxasında gizlənirdi; başa düşürdü ki, birə min ehtiyatlı olmalıdı. Maşın ötüb keçdikdən sonra isə yoluna davam edirdi.

Səhərə yaxın uzaqdan şəhərin gözü ağrıyan adam kimi aramsız kiprik çalan işıqları görünəndə rahat nəfəs aldı.

## VI FƏSİL

Bir vaxt ona yad, uzaq olan şəhər indi büsbütün doğmalaşmışdı. Hər gün küçələrdə, mağazaların qabağında, dəniz sahilində üzləşdiyi adamları dünyanın hansı şəhərində görsə tanıyardı.

Bu adamlar danışıqları ilə, hərəkətlərilə, təbəssümlərilə ona doğmaydılar. Elə bil gözlərini dünyaya açandan bu adamların içinə düşmüşdü, onlarla bir böyümüşdü.

Bəzən şəhərin küçələrilə məqsədsiz-məramsız addımladığı çağlarda kimlərlə qarşılaşacağını çox zaman qabaqcadan bilirdi. O adamlara rast gəlməyəndə darıxırdı, narahat olurdu.

Sahildə qara paltarlı bir qadın məhəccərə söykənib dənizə tamaşa eləyirdi. Hər gün axşamlar hava qaralana yaxın qapqara geyinmiş o qadın dənizin sahilinə enir, məhəccərə söykənib gözlərini göy sulara dikirdi. Ən küləkli havalarda belə o qadın sahilə gəlirdi. Vağzalda olanda axşam tərəfi gözlərini qadın dayanan səmtə dikib onun nə vaxt gələcəyini gözləyirdi. Ta ki, qadın gəlməyincə rahatlanmazdı.

O, qara paltarlı qadının hər axşam eyni vaxtda sahilə enərək saatlarla dayanıb dənizə tamaşa eləməsinə gizlin-gizlin göz qoyurdu. Neçə dəfə yaxınlaşıb onunla söhbət eləmək, kimliyini, nəçiliyini öyrənmək istəmişdi, amma hər dəfə nədənsə çəkinib dayanmışdı. O qadında adamı susmağa, hərəkətlərini cilovlamağa vadar eləyən nə isə bir ciddiyyət vardı və onun kimisə sevə biləcəyinə, kiminləsə bir yastığa baş qoyacağına inanmaq olmurdu.

Bir də ondan çəkinirdi ki, ola bilsin bu söhbətdən sonra qadın buralara ayaq basmasın. Bu qadına elə öyrəşmişdi ki, onsuz dəniz vağzalını təsəvvürünə gətirəmmirdi.

Qəribəydi ki, vağzalda ondan başqa heç kəs bu qadına fikir vermirdi. Gözəlliyini duymaq bir yana, onu yerli-dibli görmürdülər.

Üfüqdə bir gəmi işilib qalmışdı. Elə bil gəmi səmaya lövbər atmış, səmaya bənd olmuşdu. Ona elə gəlirdi ki, gəmilərin üfüqdə itəndən sonra qarşılaşdığı sahil, yan aldığı uzaq-uzaq limanlar – dənizin o tayı sirli, sehrli bir dünyadı. O uzaq, əlçatmayan sahilləri xəyalına gətirəndə həyəcanlanır, içərisinə dolan ümidlərin işığı, istisi onu bihuş eləyirdi. Və bu sirli-sehrli dün-

yanı dolaşıb gələn gəmilərə, o gəmilərin bərli-bəzəkli sərnişinlərinə həsədlə baxırdı – elə bil onlar özgə palçıqdan yoğrulmuş, özgə bir tanrıdan xəlq olunmuşdular. Hərdən fikirləşirdi ki, bu adamlar gəmidə doğulur, gəmidə yaşa dolur, gəmidəcə ölürlər; onların həyatı gəmidən ayrı təsəvvür olunmazdı.

«...Göy sular, göy sular, niyə bəxtimə açar olmursunuz, göy sular? Niyə məni sevindirmirsiniz, göy sular? Ölüm qaçaq düşdü məndən, uzaq düşdü məndən... Sevindirin məni, göy sular, göy sular...».

Dəniz beşik kimi yırğalanırdı. Qara paltarlı qadın qımıldanmadan dənizi seyr etməkdə idi. Uzaqdan baxana elə gəlirdi ki, qadın gözlərini üfüqdəki gəmiyə dikib durub, gözlərini o gəmidən çəkə bilmir və gəminin nə vaxt sahilə yaxınlaşacağını gözləyir.

Bir azdan hava qaralana yaxın qadın çıxıb gedəcək, bir də sabah həminki vaxtda gələcək, məhəccərə söykənib gözlərini göy sulara dikəcək. Yenə səbri kəsilənə kimi sahildə dayanıb gözləyəcək, gözləyəcək...

Bircə onu bilirdi ki, qadın kimisə gözləyir, çoxdannan bəri gözləyir. Nişanlısıydımı, əriydimi, oğluydumu – kimdisə burdan, dəniz səmtindən gəlməliydi. Həm də axşamtərəfi, qaş qaralan vaxt gəlməliydi. Bəlkə hansı əzizinisə dənizdə itirmişdi – bu da ola bilərdi – hər gün sahilə gəlirdi ki, o sevgini unuda, təskinlik tapa, yüngülləşə...

Kim bilir, özgə, bundan daha ağır dərdi də ola bilərdi...

Qadına yaxınlaşa bilməməsi içərisindəki gizli müqavimətlə bağlıydı. O müqavimət hər addımda sərhədə çevrilirdi; dünya onun yaddaşında saysız sərhədlərə bölünmüşdü. Amma heç cür bunu özünə izah eləyə bilmirdi. Əlini nəyə uzadırdısa, içərisindəki müqavimət kükrəyib qalxırdı. Küçədə insan dənizində üzdüyü çağlarda da qorxurdu, çəkinirdi. Bəlkə onun haqqını, ixtiyarını zaman özü əlindən almışdı? Küçəylə keçib getdiyi vaxt hərdən ona elə gəlirdi ki, sürüyüb səkidən yerə salacaqlar ki, ay filan-filan olmuş, bilmirsənmi, sənin bu asfalt səkinin üstündə

gəzməyə haqqın, ixtiyarın çatmır. Düş elə rədd ol ki, bir də ayağın buralara dəyməsin. Lap elə soyuq reklamlara baxanda kimsə qoşa barmağını göz bəbəklərinə dayayacaq, deyəcək ki, bir də bu səmtə göz çevirsən, bəbəklərini ovub tökərəm yerə. Qorxurdu ki, bir vaxt küləyin səsini eşitməyi də qadağan edəcəklər, yağışın altında islanmağı da, qışın soyuğuna titrəməyi də. Haqqı, ixtiyarı çatmadığı bu şeylərin haçansa əlindən alınacağından qorxurdu. Özü də duymadan, hiss eləmədən hər şeyə qarşı çəkingən olmuşdu və zaman-zaman bu çəkingənlik qanına işləmiş, iliyinə yerimiş, varlığına hopmuşdu.

Gecə-gündüz içərisində duyduğu qorxunun əsirinə dönmüşdü. Bu qorxu qəlbinə uşaqkən, ağlı kəsdiyi ilk günlərdən dolmağa başlamış, sonra illər bu qorxunu gilə-gilə, damla-damla böyütmüşdü. İndi bu qorxu yığılıb-yığılıb o qədər böyümüşdü ki, içərisinə sığmırdı. Bu qorxu bəlkə insanın dünyaya bir dəfə gəlməyi və o bir ömrü istədiyi kimi yaşaya bilməyiylə bağlıydı. Qorxu bir də ondan idi ki, bu ömür insandan həmişəlik alına bilərdi. Qorxular ölüməcən uzanır, ucu gedib ölümə çıxırdı, ölümlə qurtarırdı...

Skamyada cavan bir qızla iki qoca oturmuşdu. Cavan qız skamyanın ortasında, qocalar isə onun sağında-solunda əyləşmişdilər. Qocaların hərəsi qızın bir əlini qucaqlayıb öpürdü. Heç nə anlaya bilmədiyi bu mənzərəyə dayanıb maraq və təəccüblə baxırdı.

Qocalar qızın barmaqlarını duz kimi yalayırdılar. Az qalırdılar ki, qızı didik-didik eləsinlər. Və qızın əlini, barmaqlarını öpdükcə ehtirasları qalxırdı. Ehtiraslarının qalxdığı tövşüyən nəfəslərindən, yarıyumulu gözlərindən aydın bilinirdi. Ən qəribəsi buydu ki, qocalar qızı qucaqlamaq istəmirdilər, üzündən, yanaqlarından, dodaqlarından öpmək istəmirdilər, ehtiraslarını əllərə, barmaqlara tökürdülər.

Qız isə gözlərini yumub gözləyirdi. Elə bil o, bu iki qocaya vaxt vermişdi, razılığa gəlmişdi, bir müddət dözüb dayanmalıydı

ki, qocalar onun cavan bədəniylə oynasınlar, əllərini öpməklə ölüb getməkdə olan qocalıq ehtiraslarını söndürsünlər. Amma birdən necə oldusa, qocaların biri qızın döşünə əl atmaq istədi. Qızın sifətindəki xumarlıq dərhal çəkildi və gözlərini açmadan, saymazyana onun əlini dirsəyi ilə itələdi.

Bu cavan qıza və qocalara qarşı qəlbində nə isə bir ikrah duydu və üzünü çevirdi.

Ondan bir qədər aralıda yaşlı bir adam yol çemodanını skamyanın yanındaca yerə qoyaraq oturdu. Tələsə-tələsə gəldiyindənmi, ya yükünün ağırlığındanmı tövşüyürdü. Dəsmalını çıxarıb üz-gözünün tərini sildi. Sonra ciblərini eşələməyə başladı. Görünür, biletini, yaxud da hansısa sənədini axtarırdı. Axtardığının yerində olduğunu yəqinləşdirəndən sonra rahatlandı.

Bir azdan bu adam başqa sərnişinlər kimi gəmiyə minib gedəcəkdi. «Xoşbəxt adam! Kimsə, hardasa yolunu gözləyir. Yəqin ailəsi, uşaqları var. Gör necə narahatdı, elə bil qor üstündə oturub, gözünü bir anlığa da olsun saatdan çəkmir. Qorxur ki, gecikər, gəmidən qalar... Kim bilir, yolunu necə həsrətlə gözləyirlər. O, nigarançılıqla saata baxdığı kimi yolunu gözləyənlər də eləcə dəqiqələri sayırlar... Xoşbəxt adam!..».

Bircə o, bu böyük vağzalda heç yana tələsmir və tələsməyəcək. Onun yolunu heç kəs gözləmir və gözləməyəcək. Gəmilər heç vaxt onu vağzaldan ayırıb aparmayacaq. Öz dərdi-səri ilə təkbətək bu sahildəcə qalacaq...

Qoca çemodanın dəstəyindən tutub oturmuşdu. Elə oturmuşdu ki, sanki bu saat qaçış əmri veriləcəkdi və o, gecikməmək üçün əlini çemodanın dəstəyindən ayırmırdı.

Ona elə gəlirdi ki, gəmiyə minib gedənlərin sayı gələnlərdən çoxdu, şəhərdə adamların sayı azalmaqdadı, vaxt gələcək gəmi bu limandan sonuncu adamı da alıb aparacaq və... sahildə tək-tənha qalacaq. O, bunu bütün varlığıyla duyurdu. Duyurdu və hərdən özünü sahildə tənha hiss eləyirdi.

Fit verildi. Taxta skamyada oturmuş qoca dərhal ayağa durdu, çemodanı götürüb tələsə-tələsə körpüyə tərəf yönəldi.

«...Bax beləcə, adamlar bir-bir izsiz-tozsuz çıxıb gedəcəklər, hiss olunmadan gedəcəklər, o, sahildə tək-tənha qalacaq. Bu taledi, alın yazısıdı, heç yana qaçmaq olmaz bu yazıdan...»

İllər ötdükcə bu şəhərdən çıxıb getmək ümidini itirmişdi. Axı, getmək üçün pul lazımdı – pulu isə yoxdu. Pul yığa bilmirdi, dilənməklə ona lazım olan pulu qazana bilmirdi. Diləndiyi çörək puluna güclə bəs eləyirdi. Və get-gedə daha artıq inanırdı ki, yol pulunu yığa bilməyəcək, bütün ömrü boyu dilənsə belə yığa bilməyəcək.

Nə qədər ümidsiz olsa da, getmək fikrini heç cür xəyalından çıxara bilmirdi. Hətta bir dəfə gözdən oğurlanıb özünü gəmiyə də salmışdı. Adamların diqqətini cəlb etməmək üçün sakitcə, heç kəsə məhəl qoymadan göyərtə ilə gəminin baş tərəfinə addımlayaraq, kapitan otağına gedən yolun pilləkəniylə yanaşı, yanğın söndürmə ləvazimatı yığılmış şkafa girib gizlənmişdi. Əlilə qapını içəridən tutub saxlamışdı ki, açılmasın.

İçəri darısqal, havası ağır idi, ən çətini də buydu ki, uzun müddət dözüb dayanmaq, yaxud oturmaq qeyri-mümkündü. Amma hər şeyə dözməyə razı idi: aclığa da, susuzluğa da, iki sutkalıq yolu yuxusuz qalmağa da – təki onun burda olduğunu bilməsinlər, gəmidən düşürməsinlər.

Adamların gözündən oğurlanıb burda gizlənə bildiyinə görə sevinirdi, çünki işin ən çətini görülmüşdü. Gəmi yola düşənəcən dözüb dayana bilsəydi, hər şeyin istədiyi kimi qurtaracağına ümid eləmək olardı.

Get-gedə göyərtədə ayaq səsləri çoxalmaqdaydı. Nəfəsini udub göyərtədə gəzən adamların ayaq səslərini dinləyə-dinləyə nə vaxt fit veriləcəyini, gəminin sahildən aralanacağı anı gözləyirdi. Çətini sahildən aralanıncadı. Bilirdi ki, gəmi sahildən aralandısa, qurtardı, yalnız ondan ötrü bu boyda gəmini geri döndərməyəcəklər.

Dəqiqələr il kimi gəlib keçirdi. Amma fit səsi eşidilmirdi ki, eşidilmirdi.

Göyərtəni bürüyən ayaq səsləri artıq öləzimişdi, indi hərdənbir gecikən sərnişinlərin qaça-qaça, tələsə-tələsə keçib getdiyi eşidilirdi.

Tək qıçı üstündə oturduğundan bir tərəfi keyimişdi, iynə batırsaydın xəbəri olmazdı. Amma qımıldanmadan dözüb outrurdu. Gəmi hərəkətə gəlməyincə yerində qurcalanmağa cəsarət eləmirdi, qorxurdu ki, yersiz bir hərəkətlə şübhə oyadar, gəmidəkiləri duyuq salar, onu düşürərlər, bütün zəhməti hədər gedər.

Sakit otursa da, qorxudanmı, həyəcandanmı, nəfəsi tövşüyürdü və düşünürdü ki, nəfəsinin səsini hamı eşidər, bu səsdən tuta-tuta gəlib onu tapacaqlar. Bəlkə heç çoxunun ağlına da gəlmirdi ki, o, limandan çıxıb getmək üçün bu dar şkafa sığınıb. Ələ keçsə, kimi oğru hesab eləyəcək, kimi dəli sanacaq, kimi təxribatçı biləcək...

Qəfildən eşidilən fit səsindən diksindi və gözlənilmədən əli qapıdan üzüldü, açılan qapıdan üzü üstə göyərtəyə yıxıldı.

Qulağı qışqırıq səsi çaldı.

Sonrası yuxu kimi gəlirdi ona. Bu hərəkət elə gözlənilməz baş vermişdi ki, heç cür özünə gələ bilmirdi. Eləcə göyərtədə uzanıb qalmışdı. Elə bil əli-qolu, bəri-bədəni özünün deyildi, nə illah eləyirdisə yerindən tərpənə bilmirdi.

– Qalx ayağa! – Səs elə bil iki addımlığından deyil, hardasa uzaq dərinliklərdən gəlirdi.

Ağır-ağır ayağa qalxmağa başladı. Qoltuq ağaclarını tarazlayıb çiynindən sürüşüb göyərtəyə düşmüş bağlamasını təzədən çiyninə keçirdi.

Geyimindən matrosa oxşar adam:

– Düş qabağıma! – dedi.

Dinməz-söyləməz getməyə başladı.

Hələ özünə gəlmədiyindən nə baş verdiyini anlayammırdı. Hər şeyin belə gözlənilməz bir təsadüfdən məhv olub getməsi onu elə sarsıtmışdı ki, bundan belə neyləyəcəyini bilmirdi.

Onu gəminin içiylə keçirib kapitan otağına apardılar.

Ürəyində özünü lənətləyirdi. Fit səsindən diksinib yıxılma-

saydı, indi gəmi yəqin ki, yola düşmüşdü. Sahildən aralanandan sonra kim idi gəmini saxlatdırıb geri döndərən. Lap xəbər tutsaydılar belə, uzaq başı üstünə qışqırıb-bağıracaq, milislə hədələyəcəkdilər; bununla da hər şey qurtarıb gedəcəkdi. Hər halda dənizin ortasında onu gəmidən düşürməyəcəkdilər, pis-yaxşı o biri sahilə gedib çıxa biləcəkdi.

Kapitan otağının ağzına ona qədər adam yığılmışdı. Bircə anda gəminin heyətinə səs düşmüşdü. Adamları gəminin yola düşməsi ərəfəsində içəridə nə baş verdiyini öyrənmək marağı götürmüşdü. Bu qədər adamın gözündən oğurlanıb içəri keçməsi hamını çaşdırmışdı, ona görə də key-key biri-birilərinə baxırdılar.

«– Ə, bu qoca bura necə soxulub?» – Qulağı bu səsi çaldı.

Çox keçmədən vağzaldakı iki serjant içəri daxil oldu, onu milisə təhvil verdilər. Bir az sakitləşən kimi oldu; qəlbini, varlığını bürüyən həyəcan keçib getdi.

Milis işçiləri dinməz-söyləməz qolundan tutub gəmidən düşürdülər və körpüdən keçib vağzala tərəf döndülər. Vağzalın pillələrini qalxanda çevrilib arxaya baxdı – gəmini körpüyə bağlayan burazları açırdılar, indicə hərəkət əmri veriləcəkdi. «...Necə də fürsəti əlindən verdi? Özcə günahı ucundan belə bir imkanı puç elədi. Keçdi, daha bir də çətin ki, belə fürsət ələ düşsün. Axı, niyə özünü itirdi, niyə həyəcanını boğa bilmədi?.. İşin çətinini ki, görmüşdü – gəmiyə yol tapmışdı...

Bəs niyə tələsdi, niyə soyuqqanlılıqla işi axıra çatdıra bilmədi?.. Niyə? Niyə?».

Əvvəllər milis işçisi görəndə qeyri-ixtiyari səksənir, içərisində özünə də bəlli olmayan bir qorxu baş qaldırırdı. Amma illər ötdükcə bu qorxu canından çəkilib getmişdi, daha qadağan olunmuş yerlərdə görünməkdən, gecələməkdən çəkinmirdi. Nə vaxtsa ələ keçmək, tutulmaq qorxusunu birdəfəlik unutmuşdu.

Qollarından tutan bu iki serjant həmişə dəniz vağzalında qoşa gəzirdi. O, bu iki nəfəri orda görməyə öyrəşmişdi. Elə

öyrəşmişdi ki, qorxub çəkinmədən, onların varlığını hiss eləmədən sahildəki həmişəki yerində oturardu. Bu iki serjantın sifətində yumşaq, milis işçilərinə yaraşmayan bir mülayimlik vardı. Bilirdi ki, burda, dəniz vağzalında, gediş-gəlişin gur yerində onun dilənməyindən xəbərdardılar. İstəsələr hər dəqiqə qovub vağzaldan çıxararlar, lap elə tutub milis bölməsinə apararlar. Ancaq bunu eləmək istəmirlər, kimsəsizliyinə, şikəstliyinə görəmi, nədənsə ona yazıqları gəlir.

Bəlkə də axtarışda olan canilərin siyahısında onun şəklini görüblər, haqqında kifayət qədər məlumatları var. Amma ağıllarına da gəlmir ki, ölkənin ən kiçik milis bölmələrinin belə axtardığı cani (hər dəfə cani sözünü təkrarladıqca ixtiyarsız olaraq canından bir gizilti keçirdi) onların gözlərinin qabağındadı. Nə yaxşı ki, insanlar bir-birinin düşüncələrini oxuya bilmir.

Vağzalın pilləkənləri üstündə dayandılar. Qollarından milis nəfərlərinin tutduğunu unutmuşdu, gözlərini gəmidən çəkəmmirdi. Artıq gəmini körpüyə bağlayan burazlar açılmış, işləyən motordan qalxan göy tüstü havaya yayılmaqdaydı. Gəmi suyu dalğalandıra-dalğalandıra yerindəcə fırlanırdı ki, səmt alsın.

Milis işçiləri hələ qolunu buraxmamışdılar və birdən-birə ona elə gəldi ki, qolunu yola düşməkdə olan gəmiyə çata bilməmək üçün tutublar, gəmi sahildən aralanan kimi buraxacaqlar.

Göy tüstü dumanının yetmədiyi yüksəklikdə qağayılar çığırışırdılar. Baş verən hadisənin sarsıntısından açıla bilmədiyindən qulağı bütün səsləri batırır, qağayıların fəryadını eşidəmmirdi.

Heç biri danışmırdı, eləcə baxışları ilə gəmini uzaqdan-uzağa izləyirdilər.

Sonra o iki nəfərin biri:

– Niyə minmişdin gəmiyə? – soruşdu.

– Getmək istəyirəm, – dedi, – çıxıb getmək istəyirəm burdan.

Təəccüblə baxışdılar, bir müddət heç biri dinmədi. Sonra əvvəlcə sual verən:

– Hayana getmək istəyirsən? – dedi.

– Heç özüm də bilmirəm, – uzaqlaşıb kiçilməkdə olan gəminin arxasınca boylanaraq – Dənizin o tayına, – əlavə elədi, – daha dözə bilmirəm.

– Axı bu cür gedə bilməzsən? Bilmirsən ki, bilet almaq lazımdı, sənəd lazımdı?

– Nə pulum var, nə də sənədim...

Dayanıb-dayanıb:

– Çıx get, – dedilər, – bir də belə iş tutma!

Bunu ikisi də birdən dedi və qollarını buraxaraq dönüb getdilər. Milis işçilərinin bölməyə aparmamaları, sorğusuz-sualsız buraxmaları onu birdən-birə kövrəltdi. İstədi qayıdıb onları səsləyə, başına gələnləri bitdə-bitdə açıb söyləyə. Çünki milis işçilərinin yaxşılığının qabağında onları aldatmağa ürəyi gəlmirdi. Qoy nə olur-olsun, onsuz da nə vaxtsa, kimsə onun cani olduğundan xəbər tutacaq. Ancaq getmədi, dayandı, elə bil içərisində onu nə isə tutub saxladı.

## VII FƏSİL

Hansı şəhərə gəlib çıxdığını bilmir, soruşmağa da ehtiyat eləyirdi. Üst başının toz-torpağına, üstəlik də bu suala görə ondan şübhələnə bilərdilər. Onsuz da şəhərin adını gec-tez öyrənib biləcəkdi və öyrənməsə belə, hayana gəlib çıxmasının onunçün elə bir fərqi yox idi.

Adamlar küçələrdə o yan bu yana tələsirdilər. Heç kəs ona məhəl qoymurdu. Nə tərdən-torpaqdan bomboz olan pal-paltarına, nə də saqqal basmış sir-sifətinə fikir verirdilər.

Ömrünün keçmiş, yaşanmış illəri ilə heç bir əlaqəsi olmayan yeni həyata qədəm qoymuşdu. Bu həyat sirr, qaranlıq, qorxu vəd eləyirdi. Küçələrdə tələsən, ora-bura vurnuxan adamlara, sürətlə şütüyən avtomobillərə, soyuq reklamlara tamaşa eləyir, keçmişin uçurumla ondan ayrıldığı bir vaxtda həyatın, yaşayışın

adi gedişinə heyrətlənirdi.

Amma gizli bir istək taleyin onu gətirib çıxardığı bu şəhərin adını öyrənməyə çəkirdi. Obaşdannan, hələ tamam qalxmamış, şəhərin küçələrilə ora-bura tələsən adamların üz-gözünə baxır, söz soruşmaq üçün münasib adam axtarırdı. Uzaqda olanda özünü toplayıb soruşmaq istəsə də, yaxına gələndə cürətini itirir, ağzını açmağa ürək eləmirdi. Nəhayət, özünü ələ alıb qoca bir qadından:

– Bura hansı şəhərdi? – soruşdu.

Qarı yuxusuzluqdanmı, yoxsa qocalıqdanmı qıyılmış gözlərilə onu təəccüblə başdan-ayağa süzərək:

– Nə dediniz? – soruşdu.

– Deyirəm ki, bura hansı şəhərdi?

– Özünüzü ələ salmısınız, yoxsa məni? – Qarı burnunun altında mızıldana-mızıldana çıxıb getdi.

Daha şəhərin adını soruşmağa cürət eləmədi.

Xeyli keçəndən sonra küçəni süpürən şikəst bir kişidən vağzalın harda yerləşdiyini soruşdu. Çünki hələlik gecələməyə vağzaldan münasib yer olammazdı. Kişi vağzalın uzaqlığını, ora hansı miniklə getmək lazım olduğunu da söylədi. Neçə günün yorğunu olsa da, maşına minmək istəmirdi; həm pulu yox idi, həm də piyada getməklə hələ adını bilmədiyi şəhəri gəzib tanımaq istəyirdi. Kim bilir, bəlkə ömürlük bu şəhərə bağlanıb qalacaqdı... Taleyin işini nə bilmək olardı...

Vağzala gedib çıxmağı uzun çəkmədi. Gah səssiz, gah da izdihamlı küçələri adlayaraq yarım saat, bəlkə bir az artıq yol getdi. Gediş-gəlişin çoxluğundan vağzal olduğu dərhal bilinən qədim, hündür tağlı binaya yetişəndə səhər saat doqquz-on radələriydi.

Ayağını basan dəqiqədən yad həyatın, yad insanların qoxusunu duyduğu bu şəhərdə nədənsə vağzal ona tanış gəlirdi. Sonralar şəhərin adını öyrənib ömründə bu vağzalda olmadığını biləndə başa düşdü ki, şəhərlər bir-birinə vağzalları ilə bənzəyir. Dünyanın hansı şəhəri olur-olsun, vağzallar onları birləşdirir,

doğmalaşdırır, aralarındakı fərqi silib aparır.

İndiyə qədər səhrada idi, gecəni gündüzə qatıb hərəkət eləmək və qaçıb canını qurtarmaqdan savayı özgə qayğısı yoxdu, amma indi səhra arxada qalmışdı, şəhərdə isə onu nələr gözlədiyi qaranlıq idi. Səhrada onu əldən salan amansız aclıq şəhərdə də davam edəcəkdimi?.. Qarışqa kimi qaynayan şəhərin küçələrində, insanların əhatəsində də ümidsizlik və tənhalıq məngənəsində boğulacaqdımı?.. Bunu hardan bilə bilərdi…

Sərnişinlərin yüklərini daşıyıb qəpikdən-quruşdan qazanmaq, neçə günün aclığından sonra heç olmasa bir dəfə əməllibaşlı nahar eləmək istəyirdi. Perrona keçib əli arabalı adamların getdiyi səmtə yönəldi. Hardansa gələn qatar dayanan kimi özünü vaqonların birinin qapısı ağzına yetirdi.

Elə qıy-qışqırıq idi ki, perronda səsdən qulaq tutulurdu. Adamlar hansısa şəhərin ətrini yaya-yaya keçib gedirdilər. Hammal gözləyən qoca qadına yanaşdı. Çəkinə-çəkinə:

– Sizə kömək lazımdırmı? – dedi.

Qadın başı ilə köməyə ehtiyacı olduğunu bildirdi və yükünü ona göstərdi. Özünə belə rahat iş tapdığına sevindi.

Amma…

Əyilib çemodanlardan yapışmaq istəyirdi ki, arxadan ilişdirilən təpikdən az qaldı üzü üstə yerə gəlsin. Müvazinətini güclə toplayıb dayandı. Əvvəl-əvvəl qorxdu və elə bildi ki, ardınca düşənlər gəlib bu uzaq şəhərdə onu tapıblar, gecə-gündüz yol gəlməyi, çəkdiyi bütün əzab-əziyyətlər hədər gedib… Çevrilib baxanda əli arabalı, arıqlığından ovurdları-ovurdlarına keçmiş qoca bir hammalı gördü. Hammal sifətindən zəhrimar yağdıra-yağdıra:

– İtil burdan, əl-ayağa dolaşma, – dedi və… ardınca iyrənc bir söyüş söydü.

Yoldan ötənlər bu mənzərəyə tamaşa eləyirdilər. Xəcalətindən yer yarılsaydı, yerə girərdi. İstədi hammalı ayaqları altına salıb palçıq kimi yoğura. Özünü güclə saxladı. Qorxdu ki, bu

qədər əziyyətdən sonra təzədən ələ keçər, tutub aparAarlar, işin üstü açılar və bütün zəhməti puç olar. Kinini, nifrətini zəhər udurmuş kimi çətinliklə də olsa uddu. Çevrilib arxasına baxmadan vağzalı tərk elədi.

…Uzun müddət ac-acına yol gəldiyindən ayaq üstə dayanmağa taqəti qalmamışdı. Meşədə yediyi moruq onun çoxdannan bəri yatmış iştahasını tərpədib oyatmışdı. Üstündə-başında satılmalı qiymətli heç nəyi yox idi. Yoxsa, satıb heç olmasa bir-iki günlüyə qarın dolusu çörək yeyərdi.

O vaxt yanına görüşə gələrkən anasının gətirdiyi pulu geri qaytarmışdı. Arvad nə illah eləmişdisə, pulu götürməmişdi.

– İnnən belə pul nəyimə lazımdı, – demişdi, – götür, evə, uşaqlara xərcləyərsən.

– Necə yəni innən belə?.. – Arvadı qəhər boğmuşdu. Və onda başa düşmüşdü ki, bütün bu əhvalatlardan sonra da anası onun ölümə getdiyinə, hər şeyin bitdiyinə, qurtardığına inanmır.

Tezcə:

– Pulum var, – demişdi, – lazım olsa, götürərdim. – Sonra da özünü ələ alıb: – Narahat olmayın mən sarıdan, birtəhər keçinərəm, – əlavə eləmişdi.

O zaman nə biləydi ki, bükülü dəsmalda anasının təklif elədiyi pul bu uzaq şəhərdə gərəyi olacaq.

…Birdən ağzında qızıl dişləri olduğu yadına düşdü. Ağla bir bax… Necə olmuşdu ki, indiyə qədər fikrinə gəlməmişdi. Dişləri çıxarmaqla həm izi itirər (yəqin ki, onun nişanələri göstərilərkən qızıl dişləri də qeyd olunmuşdu), həm də bir vaxta qədər minnətsiz dolana bilərdi.

Qabağına çıxan bir poliklinikaya girdi. Uzun dəhliz boyu axtarıb diş həkiminin kabinetini tapdı. Qapının ağzındakı uzun növbəyə, növbədəkilərin yerbəyərdən deyintilərinə əhəmiyyət vermədən özünü içəri saldı. Çox çətinliklə həkimi dişlərini çıxarmağa razı sala bildi.

Əvvəllər onunçün dünyada diş çəkdirməkdən çətin heç nə olammazdı, amma indi bütün əzab-əziyyətlərdən sonra bu iş su

içmək qədər asan gəlirdi ona.

Ağzının qanını silə-silə ovcunda dörd dənə qızıl diş bayıra çıxanda ayaq üstə dayanmağa taqəti qalmasa da, qiymətli bir əşya tapan adamlar kimi sevinirdi.

İndi əsas məsələ qızıl dişləri satmaq idi və bu işin belə çətin olacağını ağlına da gətirməzdi. Əvvəlcə adamların gur olduğu bir küçədə dayanıb qızıl dişləri gəlib-gedənlərə göstərdi ki, bəlkə alıcı tapa. Böyür-başından ötüb-keçənlər ovcunda tutduğu qana bulaşmış qızıl dişlərə heyrətlə baxırdılar. Adamların çöhrəsindəki bu heyrət bütün ümidlərini öldürürdü və qorxurdu ki, dişlərini heç vaxt sata bilməyəcək, gərəksiz şey kimi gəzdirə-gəzdirə ac-sərgərdan şəhəri dolaşacaq.

Bütün günü əlində qızıl dişlər şəhəri küçəbəküçə gəzdi və o dörd dişi bir onluğa dəyişənə qədər onunku ona dəydi. Dişlərini belə ucuz qiymətə satmasına baxmayaraq sevinirdi. Sevinirdi ki, daha pulu var və o pulu istədiyi kimi xərcləyə bilər.

Onluğu alıb vağzalla üzbəüz binanın tinindəki yeməkxanaya girdi. O qədər də böyük olmayan yeməkxanada seyrəklik idi. Çəkinə-çəkinə keçib qapıya yaxın yerlərdən birində oturdu, əlini pul olan cibinin üstünə qoyaraq gözləməyə başladı. Amma aclıq güc gəldiyindən gözləməyə səbri çatmırdı. Stolların arasıyla tələsə-tələsə ora-bura gedib gələn ağ döşlüklü ofisiant isə işin tərsliyindən ona sarı baxmırdı. Yeməkxananı bürüyən xörək ətri başını gicəlləndirirdi. Dözəmmədi, qalxıb ofisianta yaxınlaşdı, çörək və bir boşqab duru yemək sifariş verdi, sonra qayıdıb əvvəlki yerində oturdu. Çox keçmədən ofisiant gətirib stolun üstünə səliqə ilə doğranmış kömbə bir çörək qoydu. Xörək gələnə qədər dayana bilmədi, çəkdirdiyi dişlərin ağrısına məhəl qoymadan özünü vəhşi kimi çörəyin üstünə saldı. Çörəyi elə parçalayıb udurdu ki, sanki yediyi nəsə isti, canlı bir şey idi.

Neçə günün aclığından sonra ilk dəfəydi ki, yeyirdi. Çörəyin tikələrini çeynəməyə səbri çatmırdı, eləcə bütöv-bütöv ötürürdü. Böyür-başındakıların onun hərisliklə yeməsinə tamaşa

elədiklərini görmürdü. Bütün fikri-düşüncəsi aclığın amansız caynaqlarından tezcə qurtarmaqdaydı. Elə bil ki, ömrü, taleyi, gələcəyi ilə bağlı nə vardısa, qabağındakı xörək kasasından boylanırdı. Bircə qorxusu vardı ki, nə qədər yesə də doymayacaq, aclığını söndürəmməyəcək, çörək deyə-deyə qəhr olacaq.

– Özgə bir şey lazım deyil ki? – Civə kimi stolların arasıyla o yan bu yana şütüyən ofisiant qadın soruşur.

– Çox sağ olun, – daha heç nə lazım deyil, gəlin pulunuzu alın. – Ofisiant qadının onunla mülayim danışığından kövrəldi.

Yeməyin pulunu verib ayağa qalxmaq istəyəndə qalın, xəstə bir səs:

– Dayanın! – deyə qışqırdı.

Səsə döndü. Ondan bir qədər aralı üst-başı dilənçi kökündə olan qoca bir kişi oturub təxminən on dörd-on beş şüşə arağı qabağına düzmüşdü. Danışığı, rəftarı ilə sərxoş olduğunu hiss elətdirsə də halı özündəydi.

Salondakılar stolun üstünə düzülmüş araq şüşələrinə, taxta kresloya çökmüş bu çəlimsiz qocaya heyrətlə baxırdılar.

– Dayanın! – Sərxoş qoca bir də təkrar elədi. – Qoyun çəngəllərinizi, qaşıqlarınızı yerə.

Dayanıb mat-mat gözlərini qocanın ağzına dikmişdi. Üst-başı it kökündə olan bu sərsərinin bir belə arağı hansı pulla alması ona qəribə gəlirdi.

– Dedim ki, çəngəllərinizi, qaşıqlarınızı qoyun yerə. Bir dəqiqəlik məni dinləyin. – Bu dəfə bir qədər asta, təmkinli səslə dilləndi.

Onsuz da heç kəs yemir, dayanıb qocanın nə deyəcəyini, bu qeyri-adi hadisənin necə bitəcəyini gözləyirdi.

Qoca adamların əl saxladığına, çəngəl-qaşıqlarını yerə qoyub ona qulaq kəsildiyinə əmin olandan sonra sözünə davam elədi:

– Əzizlərim, bu gün mənim ad günümdü, yəni ömrümün ən əziz günüdü; altmış yaşım tamam olur… Bu çağacan bircə dəfə də olsun ad günümü keçirməmişəm.

Nəyisə yadına salmağa çalışan adamlar kimi bir qədər sözünə ara verib:

– Ona görə ki, mənim heç kəsim yoxdu, – dedi.

Salonda milçək uçsaydı, qanad səsi eşidilərdi. Ofisiantından tutmuş qabyuyanınacan yeməkxananın bütün işçiləri əl saxlayıb bu mənzərəyə tamaşa eləyirdilər. İçəri keçərək gördüklərindən çaş-baş halda qapının ağzındaca dayanıb gözləyən təzə müştərilər də səssizcə qulaq asırdılar.

Qoca danışırdı:

– Bir vaxt ailəm-uşaqlarım vardı. Sonra… itirdim onları. Çoxdan, lap çoxdan olub bunlar. – Qəhər boğduğundan danışa bilmədi.

Birtərəhər özünü ələ alaraq:

– Götürün bu şüşələri, – dedi. – Mənim dilənçi ömrüm, əl açıb yaşadığım günlər bax bu yeməkxananın böyür-başında keçib. İndi sizdən xahiş eləyirəm, min kərə, milyon kərə xahiş eləyirəm ki, çıxıb getməyin, bir yerdə qeyd eləyək mənim ad günümü.

Sonra güclə ayağa qalxaraq araq şüşələrini bir-bir masaların üstünə düzməyə başladı.

Dözə bilmədi, qalxıb qapıya doğru yönəldi.

Gördüyü hadisədən büsbütün sarsılmışdı. Çünki bu hadisədə özünün taleyini, gələcəyini görürdü, boğulmuş, məhv olmuş arzularını, xəyallarını görürdü. Bu hadisə yad şəhərdə keçəcək bir ömrün son günlərini gözlərinin qabağında canlandırır, ümidlə yaşamağın, harasa can atmağın əbəs olduğunu xatırladırdı. Əgər ömür-gün buydusa, bir vaxt taleyi bu qocanın ömrü kimi bitəcəkdisə, zaman-zaman dərdlərin, iztirabların pəncəsində sıxılacaqdısa, onda bəs ölümdən qaçmaq, gizlənmək istəyi nədəndi?

Bu hadisəyə təsadüf kimi baxmalıdımı, yoxsa… Bəlkə qocanı allah özü onunla üzləşdirib ki, taleyini desin, başına gələ biləcəkləri danışsın, sonunu xatırlatsın?

Küçəyə çıxaraq dənizə tərəf üz tutdu. Bir-birini kəsib ke-

çən küçələrdə güclü, qarşısıalınmaz axın hiss olunur, uzaqdan-uzağa şəhər gözlərinin önündə rəqs edirmiş kimi görünürdü. Külək hardansa dəniz səmtindən kəsik-kəsik musiqi səsi gətirirdi.

Yeməkdən sonra get-gedə halsızlaşdığını hiss eləyirdi. Ayaqları elə ağırlaşmışdı ki, deyirdin su basmış şumda yeriyirdi. Qarnında kəskin dözülməz bir ağrı baş qaldırmışdı; neçə günün aclığından sonra yedikləri sinəsi ilə burula-burula ağzına gəlirdi. Sanki ayaqlarından tutub dayanmadan fırlayırdılar. Gözləri qaranlıq gətirirdi.

Telefon köşkünə söykənib durmuşdu. Öyüyürdü. Öyüdükcə içi-içalatı ağzına gəlir, nə yemişdisə qaytarırdı. Üzünü, alnını, boyun-boğazını soyuq tər basmışdı. Amma öyüməsi kəsmirdi ki, kəsmirdi.

...Nahaqca birdən-birə bu qədər yedi. Gör neçə vaxt idi ki, dilinin altından su keçmirdi... Gərək ehtiyatı əldən verməyəydi, nəfsini saxlayaydı, heç olmasa bircə günlüyə pəhriz gözləyəydi... Onda içi-içalatı bir-birinə qarışmaz, yediklərini qaytarmazdı...

Bir azdan özünə gələrək səkinin kənarındakı skamyalardan birində oturmuşdu. Yediklərini qaytarsa da, daha aclıq hiss eləmirdi, iştahası büsbütün çəkilmişdi. Mədəsi, bağırsaqları sıyrılıb gedirdi.

Yeməyə verdiyi pullara heyfi gəlirdi.

Hava gizlin-gizlin qaralmaqdaydı. Hələ qaranlıq düşməmiş şəhərdə keçirəcəyi ilk gecənin həyəcanı onu bürümüşdü. Hava qaraldıqca bu həyəcanı daha da artır, qəlbini cürbəcür duyğular çulğalayırdı. Kimsəsiz səhrada onu qorxutmayan, təşviş doğurmayan gecə insan dolu şəhərdə niyə vahimə oyadırdı? Bəlkə vahiməni oyadan şəhərin qaranlığı deyil, insanlarıydı?..

Budur, artıq hündür binaların pəncərələri təkəm-seyrək işıqlanmağa başlayır və küçələrdən əl-ayaq çəkildikcə işıq yanan pəncərələrin sayı çoxalır.

Təzə tanış olmağa başladığı yad şəhərin küçələri ilə ağır-ağır addımladıqca ona elə gəlir ki, hər şey bu gecədən asılıdı. Bundan sonrakı həyatının necə olacağı bu gecəylə bağlıdı və onu

necə keçirsə, qalan ömrü də elə keçib gedəcək.

Əl-ayaq seyrəldikcə onu qəribə bir qüssə bürüyür. Hərdən elə olur ki, elektrik dirəklərinin tutqun işığında küçənin bu başından o başınacan ins-cins gözə dəymir. Sonra ayaq səsləri eşitməyə başlayır. Ayaq səslərinin sahibi görünənəcən qaranlığı izləyir. Yad kölgə, yad qaraltı… Özünü öz qayğıları ilə məşğul göstərməyə çalışır. Ayaq səsləri get-gedə böyüyərək yanından ötüb keçir.

Böyüyən-kiçilən ayaq səsləri bir də, bir də təkrar olunur.

Hamı harasa tələsir.

…O isə tələsmir, heç yana tələsmir və bundan sonra da tələsməyəcək. Taleyi onu bu xoşbəxtlikdən ömürlük məhrum eləyib. Ah, necə də ayağının səsini bu səslərə qatıb harasa getmək, harasa tələsmək istəyir…

Evlərdən gələn səslər hərdən onu düşüncəsindən ayırır. Gecənin səssizliyində bu səs-küyü apaydın eşidir: kimsə əri ilə mübahisə edir, özünün haqlı olduğunu sübut etməyə çalışır, başqa bir evdən çılğın gülüş səsi gəlir, kimlərsə pəncərədən küçəni, qaranlığı seyr edə-edə müsiqiyə qulaq asır…

Lap aşağı mərtəbələrin birində uşaq ağlayırdı. Nə allah eləyirdilərsə, uşağı kiridə bilmirdilər, ovundura bilmirdilər. Anasımı, yoxsa nənəsiydimi yalvarırdı, yaxarırdı, uşaq isə sakit olmurdu ki, olmurdu.

– Mən atamı istəyirəm, – deyirdi.

Qadın qorxaq, alınmış səslə:

– Ağlama, quzum, gələcək, – deyə uşağı dilə tutub sakitləşdirmək istəyirdi.

Qızsa iki ayağını bir başmağa dirəyib:

– Yox, yalan deyirsən... Dünən də deyirdin gələcək. Bəs niyə gəlmədi?... Aldadırsan məni...

Uşaq eynən böyük qızı Günay kimi ağlayırdı. Dözə bilmədi, addımlarını yeyinləşdirərək uzaqlaşdı.

Evlərin işıqları yavaş-yavaş sönməyə başlayır. Bir azdan

küçə qəndilləri də sönəcək, şəhər büsbütün qaranlığa qərq olacaq. Sonra gediş-gəliş tamam kəsiləcək və qaranlıq küçələrdə təkcə o qalacaq. Yad şəhər, zülmət kimi gecə və o…

Gecə yarıdan keçmiş vağzala tərəf üz tutdu. Tanımadığı bir şəhərdə gecəni səhər eləmək üçün vağzaldan savayı üz tutulası yer tapmaq çətin idi.

## VIII FƏSİL

Vağzalın havası bürküydü. Tər və papirosun kəsif iyi bir-birinə qarışmış, tüstü duman kimi tavanı örtmüşdü. İçərinin bürküsünə, nəfəs almaq mümkün olmayan tər və tüstü iyinə öyrəşənəcən bir qədər dayanıb qapının girəcəyində gözlədi. Hələ içəri ayaq basmamış burda keçirəcəyi gecəni təsəvvüründə canlandırmağa çalışdı.

Gözləmə zalı bayaqkına nisbətən qələbəlik idi. Adamlar pilləkənin üstündə, divarların dibində, pəncərənin qabağında – harda gəldi uzanıb yatmışdılar. Yorğunluqdan daş kimi düşüb qalan bu adamlar gecənin, vaxtın hansı vədəsindəsə yola düşəcək qatarı gözləyirdilər və o qatara gecikməmək üçün yatmamış, iynə üstündə uzanmışdılar, hər bir səsə, qımıltıya səksənib oyanırdılar. Bu bürkü, bu tüstü, bu insanlar ona süd iyi kimi, əppək iyi kimi doğma gəlirdi, elə bil ömrünün, həyatının bir çox illəri lap yaxın günlərəcən burda keçmişdi.

Yaddaşının ucundaymış kimi xatırlamaq istədiyi tanış üzlərin, sifətlərin arasıyla boş yer axtara-axtara vağzalın geniş zalını dolaşdıqca qəlbinə, varlığına sirli, anlaşılmaz bir ümid dolurdu. Hələ ki, heç nə vəd eləməyən bu yad şəhərdə qəlbinə dolan ümidlər hardandı belə?...

Oturmaq üçün boş yer tapanda gecə yarıdan xeyli keçmişdi.

Bir müddət ayaqlarının ağrısını çıxara-çıxara gəlib-gedənlərə tamaşa elədi. Ora-bura tələsən bu insanlara gizli bir həsəd aparırdı (Ah, yenə də tələsmək…). Ömrünün hansı illərindəsə o

da bu insanlar kimi vağzalları beləcə tələsə-tələsə tərk etmişdi. Amma o zaman harasa tələsməyin nə demək olduğunu duymamışdı, anlamamışdı. Bu böyük vağzalda təkcə özünün heç yana tələsmədiyini, gediləsi yeri olmadığını düşündükcə içərisində bayaq yol boyu baş qaldıran duyğular böyüyürdü.

Vağzalda özünə tay adamlar axtarırdı. Cəmisi üççə ay əvvəl yatsa yuxusuna da gəlməzdi ki, bir zaman taleyi ondan üz döndərəcək, yaşamaq xatirinə həyatın dibinə enməli olacaq, tanımadığı, bilmədiyi yad, uzaq bir şəhərdə yurdsuz-sərgərdan insanlar içərisində özünə həmdəm arayıb-axtaracaq.

Oturduğu yerdə, gözləri ilə kimi isə axtara-axtara nə vaxt yuxuya getdiyini bilmədi…

…Kəndin girəcəyinə çatıb dayanır. İlahi, burdan çıxdığı neçə il olar?.. Elə bil bir əsrdi bu yurddan ayrılıb. Amma bu müddətdə kənd-kəsəyi necə qoyub getmişdisə, eləcə qalıb, zərrəcə dəyişiklik hiss olunmur.

Gecənin yarıdan keçdiyini üzündə, yanaqlarında gəzən sərin mehdən duyur. Bu sərinlik onu keçmişə qaytarır, ömrünün uzaq, güclə xatırlanacaq illərinə aparır.

Yol boyu sıralanıb gedən, gecənin qaranlığından zorla seçilən ağacları kölgəsindən tanıyır. Tamam sakitlikdi, yalnız arabir səs-səsə verən itlərin hürüşü mürgülü gecənin sükutunu pozur və kənddə həyatın davam elədiyini, insanların yaşadığını xatırladır. Kirəmidli damları səmanın köksünə düşmüş qara ləkəni xatırladan evlər bir-bir arxada qalır. Evə tez yetişmək üçün addımlarını yeyinlədir.

Evləri kəndin qurtaracağındadı. Həmişə bu yolu piyada gedib-gəlir. Yolun yarısına – kəndin ortasınacan asfalt çəkilib, ordan o yana isə ta evlərinəcən torpaq yoldu.

Budur, torpaq yola çatır. Ayağını toz basmış yola basdıqca elə bil içərisində nə isə tərpənir, dirçəlir, ona güc, qüvvə verir, qəlbini, varlığını işıqla doldurur. Torpaqda nə isə izaholunmaz bir hərarət duyur və yeridikcə bu hərarət bədəni yuxarı axır.

Evlərinə nə vaxt yaxınlaşdığından xəbəri olmur. Ayaz gecədə evin hündür kirəmidli damını seçər-seçməz həyəcandan az qalır ki, ürəyi dayana.

Dəmir şəbəkəli doqqaza çatıb dayanır. Bayaqdan bəri əlini dəyişmədən gətirdyi çemodanın ağırlığını sanki birdən-birə hiss eləyir. Çemodanı yerə qoyub rahat nəfəs alır, sonra doqqazın qabağından keçən yolun hər iki başına göz gəzdirir – tamam sakitlikdi.

Bilir ki, doqqaz arxadan, içəridən bağlıdı. Anasının həmişə yatmazdan qabaq düşüb həyətə göz gəzdirməsi, qapının açıq olub-olmadığını yoxlaması yadındadı. Arvadın çoxdankı adətidi, ərinin sağlığında belə bu işi ona etibar eləməyib. «Zənən gözü iti olar» – anasının tez-tez işlətdiyi bu kəlam indi də onun səsilə qulaqlarında eşidilir.

Həmişə qapı bağlı olanda qalxıb qalanın üstündən aşardı. İstəməzdi ki, vaxtsız gəlişiylə evdəkilərdən kimisə narahat eləsin. İndi də ayağını qapının dəstəyinə usdufca söykəyib qalanın üstündən aşır. Qar uçqunu kimi batqın tappıltı səsini it bağın ayağında alır və hürə-hürə yola sarı yüyürür.

Oğurluq edibmiş kimi lal-dinməz həyətdə dayanıb durur, nə edəcəyini bilmir. Bilmir eyvana çıxıb evin qapısınımı döysün, ya eləcə oturub səhərin açılmasınımı gözləsin?.. Qəfildən yadına düşür ki, çemodanı unudub küçədə qoyub. Qapının cəftəsini yavaşca açıb küçəyə çıxır. Çemodanını götürüb içəri keçərək təzədən qapını arxadan bağlayır. Elə bil vaxtın bu vədəsi kiminsə gələcəyindən qorxur, kiminsə onu görəcəyindən qorxur.

Çox istəyir ki, pəncərəyə yaxınlaşıb evin içərisinə baxsın, amma ay işığında kölgəsinin şüşəyə düşə biləcəyi ehtimalı onu bu fikrindən çəkindirir. Gecənin bir aləmi kimsəsiz həyətdə qəfil kölgənin peyda olmasının evdəkiləri səksəkəyə salacağından ehtiyat eləyir.

Ona görə də səhərəcən gözləməyi üstün tutur. Özünün olmadığı illərdə nələr baş verdiyini öyrənmək ehtirasıyla qapı-bacanı səbirsiz-səbirsiz gözdən keçirir. Həyətdəki əşyalara görə

evin-ailənin güzəranını, dolanışığını bilmək istəyir. Burnuna yarpaq, pəyə, ot-əncər qoxusu dolur və bu qoxu yaddaşından keçib iliyinəcən işləyir, onu ömrünün uzaq, əlçatmaz illərinə qaytarır.

Evin qənşərindəki üzüm tənəyi yarpaqlarını çoxdan töküb. Ağacın çılpaq budaqlarında torbaya salınmış üzüm salxımları gözə dəyir. Vaxt eləyib kəndə gələmməyəndə anası onun üzüm payını beləcə torbaya salıb budaqdaca saxlayır.

Gedib ağacdan salxımın birini üzüb yeməyə başlayır. Üzümün şirin və soyuq şirəsi boğazını göynədir. Salxımı qaldırıb ay işığına tutur… və gilələri sapsarı saralmış salxımda anasının əllərinin işığını duyur; elə bil ki, üzüm gilələrini deyil, anasının əllərinin işığını yeyir.

Elə sakitlikdi ki, öz evləri olmasa, burda adam yaşadığını ağlına belə gətirəmməz. Bu həyətdə hər şey, hər şey onun gözlərinin qabağında böyüyüb, yetişib. Bağçadakı ağacları qol-budaqlarına, gövdəsinin ən xırda cizgilərinə kimi xatırlayır. Evlərinin yuxarı başı ilə axan çayın zəif şırıltısı yuxu kimi şirin gəlir. Çayın səsi yalnız gecə yarıdan keçəndən sonra eşidilir. Gündüzlərsə suyun şırıltısı meh səsi kimi eşidilməz olur.

Bürkülü yay gecələrində atası ilə eyvanda yatdığını xatırlayır. Onda gecənin hansı bir vədəsisə oyananda suyun səsini eşidər və bu səs layla kimi ona təskinlik, arxayınlıq gətirər, təzədən yuxuya gedərdi. Sanki onu ilahidən yuxudan oyadırdılar ki, suyun səsini dinləsin…

Ona elə gəlir ki, içəridəkilərin necə nəfəs aldığını eşidir. Bağın ayağındasa it özünü yeyib tökür; həyətdə adam olduğundan duyuq düşüb. Bu qəfil, vaxtsız hürüşlə kəndin itləri oyanıb ağız-ağıza verib. Bir tərəfdəcə dayanıb gözləyir ki, bəlkə it sakitləşə, yoxsa bu saat anası qalxıb bayıra çıxacaq. Onları gecənin bu vaxtı yuxudan eləmək istəmir, onsuz da səhərə az qalır. Amma itin xasiyyətinə yaxşı bələddi, evdəkiləri qaldırmayınca səsini kəsməyəcəkdi.

İtin hürüş səsinə qapı açılır, kimsə yuxulu addımlarla eyvana çıxır. Qala divarının bir küncünə qısılıb gözləyir ki, eyvana çıxanı – anasıydımı, arvadı idimi, hər kimdisə qorxutmasın. İt səsini kəssə, eyvana çıxan kimdisə qayıdıb yerinə uzanacaq, onun həyətdə dayanıb gözlədiyini bilməyəcəklər. Amma it səsini kəsənə oxşamır, eyvanda adam kölgəsindən ürəklənərək lap yaxına gəlib; qaranlıqda itin ağzında ağaran dişlərini görür.

– Ay adam, kimsən?.. – Anasının səsi elə bil keçmişdən gəlir. Aralarındakı məsafənin bu qədər yaxın olduğuna, ikicə addım atsa, anasını eyvanda görəcəyinə inanmır. Dillənmək, cavab vermək istəyir, amma elə bil səsi tutulub, dili-ağzı bağlanıb.

İt bayaqkı kimi özünü yeyib-dağıtmaqdadı. Bilir ki, it sakitləşib səsini kəsməyincə, anası həyət-bacadan arxayın olmayınca içəri girməyəcək, eyvandaca dayanıb gözləyəcək, bəlkə əlinə yabadan, kürəkdən bir şey alıb həyətə enəcək.

– Kim var orda?.. – Anası bir də qarasına soruşur.

Bəs niyə dayanıb durur, dillənmir. Onu içəridən tutub saxlayan nədi?.. Bu ki, doğmaca anasıdı, ikicə addımlığında dayanıb. Nə vaxtdan bəri onun yolunu gözləməkdən gözlərinin kökü saralıb...

Özünü zorla ələ alıb:

– Mənəm, – deyir. – Səsi yavaş, lap yavaş çıxır. Deyəsən, anası onu eşitmir.

Bayaqdan bəri ağız-ağıza verib hürüşən itlərin səsini kəsməyi ilə ətrafa görünməmiş bir səssizlik çökür.

Bir az da ucadan:

– Ana, – deyir, – mənəm! – Və dayandığı yerdən qopub yavaş-yavaş irəli yeriyir ki, anasını görsün.

Gəlib pilləkənin qabağında durur. Xalatına bürünüb eyvanda dayanan anası elə baxır ki, sanki onu görmür. Ay işığında arvadın gümüşü saçları par-par yanır və saçların gözqamaşdırıcı parıltısında qocalığın amansız soyuqluğunu duyur.

Dayanıb mat-mat bir-birilərinə baxırlar. Səsi alınıbmış ki-

mi heç biri dillənmir. Arvadın səssiz duruşundan, ona dikilən və onu görməyən baxışlarından qorxduğunu hiss eləyir.

Birdən anası pillələri düşməyə başlayır. Addımlarını elə atır ki, sanki havada uçur. Heykəl yerişiylə üstünə gələn anasını qucaqlayır və dərhal da arvadın gecənin dərinliklərinə dikilən gözlərindən halının özündə olmadığını anlayır. Onu da hiss eləyir ki, anası qollarının arasında ağırlaşmağa başlayır və bir də… bir də baxır ki, arvad özündən gedib. Anasını qucağına alıb eyvana qalxır; bu vəziyyətdə evə girməyə ürək eləmir, uşaqların qəfil oyanıb qorxa biləcəyindən ehtiyatlanır. Ona görə də anasını eyvanın bir tərəfində ehmalca yerə uzandırır. Arvadın nəbzini tutur. «Aman allah, heç nə hiss olunmur...». Nəfəsini udub gözləyir... Handan-hana barmaqlarının ucunda anasının zəif-zəif vuran nəbzini duyur. Ürəyi üstünə gəlir, arvadın əllərini, qollarını ovuşdurmağa başlayır.

– Oğul, oğul – deyir, – sənsənmi oğul? Elə bildim qara basır məni, gözlərimə görünürsən. İnanmadım, dedim bəlkə yuxu görürəm, onunçün halım pisləşdi. – Arvadın səsi elə bil uzaqdan, vaxtın, zamanın dərinliklərindən gəlir, – sən gedəli gecələr qulağım cınqırıq alan kimi qalxıb eyvana çıxıram. Deyirəm, birdən gəlib gecə vaxtı yolda qalarsan, xəbərim olmaz. O vaxtdan bu yana bilmirəm yuxu nə olan şeydi. Ürəyimə dammışdı ki, gələcəksən. Ona görə də yuxum çəkilmişdi, yatammırdım. Oğul, oğul…

Göz yaşları arvadı boğur, danışmağa qoymur.

Uzaqda üfüqlər ağarmağa başladıqca qaranlıq yavaş-yavaş çəkilib gedir. Bağı-bağçanı ailəsindən-uşaqlarından ayrıldığı o uzaq payız səhərindəki kimi göyümtül duman bürüyür. Evin yuxulu görkəmi get-gedə canlanır…

Anası qalxıb oturur. Sonra durub bayaqkı halına uyuşmayan bir cəldliklə evə keçir:

– Qoy qızı çağırım dursun, – deyir. – İnanmayacaq ki, qayıtmısan. Uşaqlar gör nə vaxtdandı atalarının yolunu gözləyir.

Day onlara yalan söyləməkdən özümüz də zara gəlmişik.

Arvadı evin bir tərəfində divara söykənib ağlayır. O da bayaqdan, həyətdə itin özünü yeyib-dağıtdığı vaxtdan oyaqdı. Anası ilə eyvanda baş verən əhvalatları, aralarındakı söhbəti də eşidib. Ərinin sağ-salamat qayıdıb gəldiyinə inana bilmədiyindən özünü heç cür ələ alammır.

Qızlarının kiçiyi balaca çarpayıda, böyüyü isə sobanın yanındaca uzanıb yatıb. Zamanın nəfəsi onlara toxunmayıb; necə qoyub getmişdisə, eləcə qalıblar, bircə damcı belə dəyişməyiblər.

Evin ortasında dinməz-söyləməz dayanıb gözləyir. Bilmir arvadınamı sarı getsin, yoxsa əyilib uşaqlarının yuxusunamı tamaşa eləsin – eləcə döyüküb qalıb.

Durduğu yerdə birdən-birə başı hərlənməyə başlayır. Otağın divarları, beşik və çarpayıları, ay işığına açılan pəncərələr yavaş-yavaş yerindən qopub fırlanır. O, fırlananlar arasında evin bir küncündə qolları qoynunda çataqlanmış arvadını, hələ yuxudan oyanmamış körpələrini görür. Bir az sonra qapını açıb içəri keçən anası da fırlananlara qoşulur.

Elə fırlanırlar ki, gözlərinə qaranlıq çökür və bu qaranlıqda çoxdannan bəri görüşməyə can atdığı doğma adamların ondan uzaqlaşdığını hiss eləyir. Nə illah eləyirsə, onlara əli yetmir, səsi çatmır.

Əllərilə başını tutub yıxılır.

...Böyrünə ilişdirilən təpikdən dəli kimi səksənib gözlərini açdı. Başının üstündə qoluna qırmızı lent sarımış ucaboylu, dəmiryolçu geyimində bir adam dayanmışdı.

– Dur cəhənnəm ol burdan! Murdarın biri murdar! Bir sən çatmırdın!

O heç bir şey anlamırdı. Fırlana-fırlana çıxıb gedən o doğma insanların kölgəsi hələ gözlərinin önündən çəkilib getməmişdi. Yuxulu-yuxulu qolu sarıqlı dəmiryolçu geyimində olan bu adama baxırdı.

– Eşitmirsən? Dur cəhənnəm ol burdan! Yoxsa bu saat

milis çağıraram.

Təpiyin ağrısından bükülə-bükülə ayağa qalxdı. Heç bir şey deməmdi, sanki min ildi beləcə təhqir olunurdu. Böyür-başındakıların ona zillənən həqarətli baxışları altında ağır-ağır qapıya yönəldi.

Küçələrdən əl-ayaq yığışmışdı. Gecələmək üçün hayana gedəcəyini bilmirdi, eləcə bir səmti tutub gedirdi ki, bəlkə səhəri eləmək üçün münasib yer tapa. «Vağzala arxayın olmayaydı gərək, əvvəlcədən bu barədə düşünəydi. Bəlkə də gecələməyə pis yaxşı bir yer tapmışdı. Lap şəhərin ətrafında olsun. Onunçün nə fərqi vardı ki…».

Yuxunun təsiri o qədər güclüydü ki, hər şeyi unutdururdu. Fikirləşə-fikirləşə nə vaxt şəhərdən çıxdığını bilmədi. Şəhər-ətrafı parkda ins-cins gözə dəymirdi. Skamyaların birinin üs-tündə uzandı…

…Amma səhərə kimi gözlərinə yuxu getmədi. Çəkdirdiyi dişlərinin yeri sızıldayır, ağzında diş əvəzinə qan qoxusu verən boşluq hiss elədikcə ürəyi bulanırdı. Taxta skamyanın üstündə o üz bu üzə çevrildikcə soyuq iliklərinə işləyirdi. Əli-qolu ağaca dönmüş, çənəsi gömgöy kəsilmişdi. Keyimiş barmaqları daha sözünə baxmırdı. Elə bil əynində paltar, bürünəcək deyilən şey yox idi. Eləcə lat-lüt ayazın altında uzanmışdı. Bir tərəfdən də dəli mürgü əzab verirdi, ömrünün heç bir çağında yuxu ona bu qədər güc gəlməmişdi. Səhər isə açılmaq bilmirdi ki, bilmirdi.

Hava işıqlaşmağa başlayanda qalxıb şəhərə tərəf baş aldı. Gecəni dirigözlü açdığından başı bədəninin üstündə dayanmırdı. Yuxusuzluq onu elə hala salmışdı ki, yeriyəndə torpaq ayaqları-nın altından qaçırdı. Şəhərə qədər olan yolu yorğunluqdan, yuxusuzluqdan az qala dizləri bükülə-bükülə gəlib çatdı. Qaba-ğına çıxan ilk tramvaya minib özünü arxa oturacağa saldı. Nə vaxt yuxuya getdiyini bilmədi.

Yuxudan qalxanda gün günorta yerini haqlamışdı. Şəhərin gur yerində tramvaydan düşdü. Bir şey tapıb qarnını doyurandan

sonra iş məsələsilə məşğul olmağı qərara aldı. Divarlardakı elanları oxuyub soruşa-soruşa yaxınlıqdakı idarələrə baş vurdu. Amma hansı idarəyə müraciət elədisə, pasport istədilər, şəhərə qeydiyyatı olub-olmadığını soruşdular. Axşama yaxın artıq işə düzəlmək ümidini büsbütün itirmişdi.

O biri gün yenə şəhərə çıxdı.

Daha sonra yenə də…

Sonra isə günlərin sayını itirdi.

Səhər açılan kimi küçəyə çıxıb yavaş-yavaş addımlayır… Qarşıda taleyin sarmaşıq kimi dolaşıq yolları uzanır. Hayana getməlidi, hansı səmti tutmalıdı, bilmir. Ömründən ayrılan günlərin necə sovuşub keçəcəyini deyə bilməz. Bircə onu bilir ki, səhər açılanda qalxmalıdı, hansısa səmtimi, küçənimi, yolumu tutub addımlamalıdı, nə isə tapıb qarnını doyuruncaya qədər özgə heç bir şey barədə fakirləşməməlidi. Bəs sonra? Sonra yenə küçələr onu harasa aparacaq. Amma bilmir, ayaqlarının onu hayana aparacağını bilmir.

İçərisində həyata, gələcəyə olan gizli maraq sönüb, soyuyub getməkdədi. Hər şey duman içərisində fırlanır: səhər açılır, qaranlıq qovuşur, sonra yenə səhər... yenə qaranlıq... Azaddı, bütün qayğılardan azaddı. Bu sonsuz təkrarlanmaların gətirdiyi sonsuz yasaqlardan uzaqdı. Səhərin yuxusuzluğundan, ailə möhnətindən azaddı. Hara istəsə, gedə bilər, nə qədər istəsə yata, dincələ bilər. Həyat səhərlə axşamın zaman kəsiyində dövr edir.

Hərdən səhərlər yuxudan hövlnak qalxır, ona elə gəlir ki, işə gecikir. Tez-tələsik qoluna baxır; saat nə gəzir. Dərhal duyur ki, bütün bu qayğılardan uzaqdı. İndi nə işə gecikmək qorxudur onu, nə gecənin yuxusuzluğu. Gecə və gündüz ixtiyarındadı, vaxtı necə istəsə xərcləyə bilər. Ancaq onu səksəkə içərisində həlak eləyən, ömrünü gizli xəstəlik kimi içəridən yeyib qurtaran nədi belə? Niyə bu həyatla, belə yaşayışla barışmır, barışa bilmir. İstəyir ki, bir vaxt ağırlığına dözə bilmədiyi qayğı yükü çiyinlərindən əskik olmasın. Çiyinləri bu yükün ağırlığı altında əzilsin, bükülsün. Ona yad, uzaq olan bu cür azadlığı, qayğısız-

lığı istəmir...

Bayaqkı gur, səsli-küylü küçəni tutub gedir. Səhər açılandan neçə dəfə bu küçə ilə o baş bu başa gedib-qayıdıb – amma bunu hiss etmir. Gözləri büsbütün bağlanıb, heç nəyə fikir vermir. Nə evləri, binaları görür, nə ağacları, nə də küçəylə keçib gedən, onunla üzbəüz gələn insanları. Bəlkə elə buna görədi ki, yorulmur, halsızlıq, əzginlik duymur. Səhərdən axşama qədər dincini almadan addımlasa da, elə bilir ki, yeriməyib.

Elə bil şəhərdə azmışdı. Gündə neçə yol aşağı-yuxarı fırlandığı küçələrdə azmışdı, itirdiyi səmti tapammırdı ki, tapammırdı.

Bəzən yad, özgə şəhərdə olduğunu unudurdu, elə bilirdi ki, bir vaxt qoyub gəldiyi doğma şəhərin küçələriylə kirayədə qaldığı evinə sarı gedir. Bu hiss elə güclüydü ki, hər şeyi unudub çoxdannan bəri qoyub gəldiyi ailəsinə-uşaqlarına tezcə qovuşmaq üçün addımlarını yeyinlədirdi. Bilirdi ki, axşamlar, işdən dönən vaxtı böyük qızı qapının ağzında dayanıb onun – atasının yolunu gözləyir. Hər dəfə küçə qapısı açılıb örtüldükcə həyəcanla o səmtə baxır. Gözləyir ki, görsün atası ona nə alıb gətirəcək. Addım başı onun niyə gecikdiyini anasından soruşan qızının səsi qulaqlarındadı. Bu səs o qədər aydın, o qədər yaxından eşidilir ki, huşu başından çıxırdı. Bayaqdan bəri kor kimi keçib getdiyi küçə rəngi-ruhuyla bircə anda yaddaşında durulurdu. Başını qaldırıb sağına-soluna boylanır, arxaya çevrilib gəldiyi səmtə baxırdı. Ona elə gəlirdi ki, küçəni yuxu içərisində keçib. Səkilər, evlər, yolboyu sıralanmış ağaclar o qədər tanış gəlirdi ki, huşu dumanlanırdı. Amma bu hiss küçənin tininə çatanacan çəkirdi, tini burulan kimi içərisində cücərib boy atmış ümid və xəyalları bircə anda dağılıb gedirdi və başa düşürdü ki, yad şəhərdədi, qoyub gəldiyi o şəhərlə bu şəhəri heç bir şey bir-birinə bağlamır. Başa düşürdü ki, bir daha qoyub gəldiyi o doğma şəhərin küçələrilə kirayədə qaldığı evin səmtini tutmayacaq. Bir daha quruca gəlişilə körpəcə qızının uşaq sevincinə

səbəb olmayacaq…

Ömrünün dərkolunmaz xoşbəxt günlərini keçirdiyi o evdə, o yurdda özgələri məskən salacaqlar. Bir vaxt bu evdə yaşayanların taleyilə maraqlanmaq ağıllarına da gəlməyəcək…

* * *

Bir müddət başını elanlarla qatdı.

Bəzən saatlarla elanlar vurulan lövhənin qabağında dayanıb dururdu. Şəhərin müxtəlif yerlərindəki elanlar lövhəsinin qabağında dayananda həmişə fikirləşirdi ki, bir vaxt onunla bağlı xəbər, ya məlumat bu lövhəyə yapışdırılacaq.

Bu elanlarda ev dəyişən, mebel, uşaq arabası, piano, cürbəcür mətbəx əşyaları satan, özünə ömür yoldaşı axtaran adamların ünvanları, telefon nömrələri yazılmışdı. Müxtəlif xətlərlə yazılmış, az qala üst-üstə yapışdırılmış bu elanlar bir-birinə çox bənzəyirdi. Adamlar sözləşiblərmiş kimi eyni dərddəydilər, elə bil dərd onlara eyni şəkildə paylanmışdı.

Kimsə işlədib köhnəltdiyi uşaq arabasını satmaq istəyir və müştəri tapa bilmədiyindən bunu özünə dərd eləyir. Halbuki o arabanı hansısa yaxın adama bağışlamaq və bu dərddən birdəfəlik yaxa qurtarmaq olar. Biri isə özünə ər axtarır, hətta elanda ona necə adam lazım olduğunu göstərir: yaşı otuz beşdən yuxarı, yaraşıqlı, dul; bu bir yana, gərək onun ailə quracağı adamın boyu hökmən bir metr səksən beş santimetr olsun. Özü də təxminən yox, dəqiq bu ölçüdə olmalıdır. Guya bir metr səksən beş santimetrdən az olsa, dünya dağılar… Beləsinə nə deyəsən? Elan verən qadını ərə gedəcəyi adamın əxlaqı, xasiyyəti, peşəsi, maddi vəziyyəti maraqlandırmır. Əcəb işdi...

Bəlkə götürüb bu xanım qıza zəng eləsin… Desin ki, əsil o deyən adamdı: yaşı otuz beşdən yuxarı, yaraşıqlı, dul, ən mühümü isə boyunun ölçüsü bir metr səksən beş santimetr… Telefon nömrəsini kəsib cibinə qoydu.

Axşam hava qaralanda avtomat telefondan qıza zəng çaldı.

Dəstəyi dərhal götürdülər. Görünür, qız axşamlar bütün iş-gücünü buraxıb telefon zənglərini gözləyir. Bəlkə də ərsizliyə, kimsəsizliyə dözə bilmir, bəxtinin açılacağı günü səbirsizliklə gözləyir.

– Bəli...

Qız cavab gözləyir, ya dillənməli, ya da dəstəyi asıb telefon köşkünü tərk etməlidi.

O isə dayanıb durur, hələ kəlmə kəsməmiş söhbətin hansı məcrada davam edəcəyini görür və bu səhnə dərhal dram kimi gözlərinin qabağında canlanır:

Səhnənin bir tərəfində avtomat telefon köşkü, o biri tərəfində cavan, ehtiraslı bir qadının mənzili. Divardakı şəkillərdən ehtiras tökülür. Qadın kresloda oturub rəngli jurnallara baxır. Xalatının açıq düymələri arasından ətli, maya kimi baldırları görünür.

O cibindən kağız parçasını çıxarıb nömrəyə baxır və telefon köşkünə girib zəng çalır. Qadın dərhal jurnalı bir kənara atıb telefonun dəstəyini götürür.

O – Allo!

Qadın – Eşidirəm.

O (*bir qədər çəkinə-çəkinə)* – Allo, bu sizsinizmi?

Qadın (*təkəbbürlə)* – Siz, yəni kim?

O – Elan verən qadın.

Qadın – Bəli.

O – Nə bəli?

Qadın – Başa düşmədim sizi.

O – Burda başa düşülməli nə var ki...

Qadın – Bəlkə açıq danışasınız?

O – Mən sizin verdiyiniz elanı oxumuşam.

Qadın – Lap yaxşı… Neçə yaşınız var?

O – Otuz altı.

Qadın – Bu yaxşıdır. Vaxtilə evlənmisinizmi?

O – Bir dəfə evlənmişəm. Dörd il bundan qabaq ayrılmışıq.

Qadın – Bağışlayın, nə üstündə ayrılmısınız?

O – Bu uzun söhbətdi.

Qadın – Yenə də əsas səbəb?

O *(özünü ciddi tutaraq)* – Əkiz doğurdu.

Qadın – Ooo!!! Qəribə bəhanədir, birinci dəfədir eşidirəm… Yaxşı, aliment verirsinizmi?

O – Əlbəttə… hər ay üç yüz manat.

Qadın – Necə, necə? Üç yüz manat?.. Nə qədər maaş alırsınız ki, bu qədər aliment verirsiniz?

O – Ayda səkkiz yüz manat.

Qadın – Ooo!!! Bu lap qiyamətdi. Deməli, beş yüz təmiz özünüzə qalır. Bəs eviniz necə, varmı?

O – Üçotaqlı mənzilim var.

Qadın – Təkmi yaşayırsınız?

O – Bu nə sözdü, xanım qız, əlbəttə ki, tək…

Qadın – Yaxşı bəs, boyunuzun ölçüsü nə qədərdi?

O *(söhbətin istədiyi məcraya yönəlməsindən canlanaraq)* – Bunun məsələyə nə dəxli var?

Qadın – Siz nə danışırsınız… Bəyəm, elanda bu barədə oxumamısınız?

O *(qəsdən)* – Yox.

Qadın – Bu olmadı ki…

O – Tutaq ki, boyum siz deyəndən bir santimetr aşağı-yuxarı oldu. Onda daha işə yaramayacağam?

Qadın *(sərt)* – Boyunuz bir metr səksən beş santimetrdən azdısa, danışmağına dəyməz.

O – Siz ayaqqabıyla birlikdə deyirsiniz, ya yalın ayaqla bir metr səksən beş santimetr?

Qadın *(bir qədər fikirləşərək)* – Ayaqyalın.

O – Xoşbəxtlikdən boyum elə ayaqyalın bir metr səksən beş santimetrdir.

Qadın – Hansı ölçüdə ayaqqabı geyinirsiniz?

O – Qırx altı.

Qadın *(təəccüblə)* – Bu çox böyük deyil ki?..

O – Boyuma tamamilə uyğundur.

Qadın – Bəs başınızın ölçüsü neçədir?

O – Əlli yeddi.

Qadın – Belə… Daha nə qaldı soruşmalı?

O – Əsas məsələni unutdunuz, xanım...

Qadın – Nəyi nəzərdə tutursunuz?..

O – Bəs nə əcəb soruşmadınız ki, filan...

Qadın – Necə? Necə?

O – Deyirəm...

Qadın – Utanmaz!.. *(Dəstəyi asır).*

O, əlində telefon dəstəyi köşkün içərisində dayanıb durur. İstəyir həmin nömrəni bir də yığsın, amma nə fikirləşirsə dəstəyi asıb çıxır.

Pərdə

## IX FƏSİL

İş axtara-axtara səhərdən axşamadək küçələri dolaşdığı günlərdən təsadüf onu şəhərin kənarında sökülmüş bir evin yanına gətirib çıxardı. Ayaq saxladı, nədənsə ürəyinə damdı ki, bu evdə ona mütləq bir iş tapılacaq. Bu duyğunun təsiri altında istədiyinə nail olan adamlar kimi ruhi bir təskinlik duydu.

Alçaq hasardan həyət ovuc içi kimi görünürdü. İki qız xeylağı köhnə evin barısından sökülüb yığılmış kərpicləri xərəkdə həyətin yuxarı başına daşıyırdılar. Elə həvəslə işləyirdilər ki, axşamın sərinliyində yanaqları aşağı axıb gedən təri hiss eləmirdilər. Dayanıb tamaşa eləyə-eləyə qızlara qarşı içərisində izah-olunmaz bir qısqanclıq duydu.

Həyətdə kişi xeylağı gözə dəymirdi. Çox güman ki, evdə başı papaqlı yoxdu, çünki xərəkdə kərpic daşımaq qız, qadın işi deyildi.

Qapının ağzındaca xeyli dayanıb durdu. Həyətdəkilərdən kimisə çağırıb aclıqdan taqəti kəsildiyini bildirməyə, bir qarın

çörək üçün hər cür işə hazır olduğunu söyləməyə ürək eləmirdi. Gözləyirdi ki, qızlar özləri onu görüb kimi istədiyini, nə lazım olduğunu soruşsunlar, onların isə başlarını yuxarı qaldırmaq yadlarına düşmürdü. Bir xeyli gözləyəndən sonra fikirləşdi ki, ev sahibini çağırıb onunla danışsın.

Xərəyi boşaldıb qayıdanda qızları səslədi:

– Ay bacı, bir dəqiqə bura zəhmət çəkin.

Qızlar əl saxlayıb səs gələn tərəfə döndülər.

– Nə lazımdı sizə? – İkisi də birdən dilləndi.

– …

Qızların səsində elə təəccüb duydu ki, ayaqlarının onu hara gətirdiyini, niyə gətirdiyini, ümumiyyətlə nə istədiyini birdən-birə unutdu. Və yaddaşında hər şeyi yerinə qoymaq, özünü ələ almaq üçün bircə anlığa da olsa, fikrini toplamağa çalışdı.

Qızların böyüyü:

– Bizə bir sözün varmı? – soruşdu.

– Bilmək istəyirəm görüm, sizdə mənimçün bir iş tapılar? – Bu sözü tapıb deyə bildiyinə sevindi.

Qızlar bir-birinə baxdılar, amma heç biri dillənmədi, görünür, belə bir təklifi gözləmədiklərindən nə cavab verəcəklərini bilmirdilər.

Qızların biri:

– Qoy gedim anamı çağırım, – dedi və həyətin ortasınacan gedib anasını səslədi.

Ağacdan tikilmiş, birmərtəbəli evdən yaşlı, ortaboylu bir qadın çıxdı. Qadının yaxasında ağ döşlük var idi, görünür xörək hazırlamaqla məşğul idi.

– Nə lazımdı, oğul? – dedi.

Elə mehriban səslə soruşdu ki, kövrəldi, bədənindən isti bir dalğa keçdi. Çünki belə qılığa, belə səsə yadırğamışdı.

– İşləmək istəyirəm. Bəlkə sizdə mənə bir iş tapıla... – dedi.

Gözlərini yerə dikmişdi, başını qaldırıb arvadın üzünə baxmağa qorxurdu. Arvadın mehriban rəftarı baxmağa qoymurdu.

Bir də ona görə baxa bilmirdi ki, bu mehriban səslə o dodaqlardan rədd cavabının necə çıxdığını görmək istəmirdi.

Amma arvad dillənmirdi, cavab verməyə tələsmirdi, elə bil tərəddüd eləyirdi, yaxud bu təklif onunçün də gözlənilməzdi, duruxub qalmışdı və ola bilərdi ki, rəhmi gəlir, birdən-birə rədd cavabı vermək istəmir, vəziyyətdən çıxmaq üçün yollar arayırdı. O isə başını aşağı salıb heç bir söz demədən gözləyirdi. Arvadın üzünə baxmasa da, onun sifətinin haldan-hala düşdüyünü fəhmlə hiss eləyirdi.

– Ustaya verməyə pulum yoxdu axı, oğul...

Bu sözü tapıb dediyinə arvad yüngülləşən kimi oldu. Dərhal hiss elədi ki, arvad evin böyüyüdü və evdə kişi xeylağı yoxdu.

– Mən pul istəmirəm, – dedi.

– …

Arvad duruxub qaldı, bilmədi nə cavab versin.

– Razı olsanız, pulsuz da işləyərəm, gündə bir qarın çörək verərsiniz…

– Axı, iş ağırdı, oğul… Bunun müqabilində bir qarın çörək nə olan şeydi…

– Fərqi yoxdu – ağır, ya yüngül. Günə bir qarın çörək versəniz, nə lazımsa eləyərəm.

– Qoy işləsin, ana, biz də bir az dincələrik. Day xərək qaldırmaqdan belimizin sümüyü sızıldayır. – Qızların hansısa onun sözünə qüvvət verdi.

Arvad bu sözə bəndmiş kimi dərhal razılaşdı.

– Yaxşı, etiraz eləmirəm. Nə vaxt işə başlamaq istəyirsən?

– Mümkün olsa, elə bu gün… Daha aclığa dözə bilmirəm.

Arvad:

– Keç içəri, – dedi.

Keçib həyətdə kərpic qalağının yanındaca durdu.

Arvad qızları ilə evə girdi. Çox keçmədən qızlar əllərində kiçik stol və kətillə qayıtdılar. Stolu həyətin ortasındaca ayazdan

yarpaqları qovrulub qızılı rəngə dönmüş palıd ağacının altına qoydular. Keçib stolun arxasında köhnə kətildə oturdu. Bir az keçmiş arvad əlində məcməyi içəridən çıxdı. Buğlanan xörəyin ətri uzaqdan onu vurdu. Arvad məcməyini stolun üstünə qoyan kimi dərhal yeməyə cummamaq üçün özünü güclə saxladı. Ev sahibəsi səliqə ilə doğranmış ağ və qara çörəyi, xiyar turşusunu, bulanıq noxud supunu stolun üstünə düzdü.

– Bağışlayın, – dedi, – ət xörəyimiz yoxdu, bugünlük bununla keçinin.

– Nə danışırsınız… Mənimçün xoşdu, narahat olmağına dəyməz.

– Nə isə... Nuş olsun!

Söhbətin kəsilməyi üçün dillənmədi, çünki stolun üstündə buğlanmaqda olan xörəyin ətri onu haldan çıxarırdı.

Ev sahibəsi və qızlar çəkildilər.

İllərlə çörəyə həsrət qalmış insan kimi yeyirdi. Yedikcə ac qalmaqdan solmuş, sustalmış bədəninə təpər gəlir, qollarına güc yığılırdı. O, bunu bütün əzasıyla hiss eləyirdi.

Yeməyi yeyib qurtarana kimi nə ev sahibi, nə də o iki qız həyətə çıxmadı. Təzəcə yeyib qurtarmışdı ki, arvad bir stəkan qəhvə ilə qayıtdı.

– Hazır qəhvə vardı, daha çay dəmləmədim…

– Çox sağ olun! – dedi. – Mənimçün birdi.

Qəhvəni içib qurtaran kimi dərhal ayağa qalxıb:

– Mənə görəcəyim işləri göstərin, – dedi.

Ev sahibəsi:

– Bugünlük istirahət elə, – dedi, – işə sabah başlayarsan. Amma istəsən, indilik səni işlə tanış edə bilərəm.

Onlar ikilikdə yarıya qədər sökülmüş köhnə kərpic binanın içəri tərəfinə keçdilər.

Ev sahibəsi:

– Bu binanı söküb kərpiclərini həyətin o başına yığacaqsan. Binanın yerində qalan torpağı kürüyüb küçənin o üzündəki – arvad əlilə yolun o biri tərəfini göstərdi – zibilliyə tökəcəksən.

Tək adamçün bir həftəlik işdi.

– Vallah, heç bilmirəm sizə necə təşəkkür edim, – özünü saxlaya bilmədi.

– Bu nə sözdü, oğul… Əksinə, mən sizə təşəkkür eləməliyəm... Usta çağırası olsaydım, bir ətək pul istəyəcəkdi məndən.

...Səhər obaşdannan gəlib işə başlayanda ev sahibəsi və qızları hələ yuxudan qalxmamışdılar. Onları səhər yuxusundan eləmək istəmədi, onsuz da dünəndən tapşırıq almışdı.

İşləyirdi, ürəkdən işləyirdi. Bilirdi ki, iş nə qədər ağır olsa da, bir azdan doyunca xörək yeyəcək.

Gün bir adam boyu qalxanda artıq xeyli iş görülmüşdü. Ev sahibəsi həyətə çıxanda gözlərinə inanmadı.

– Ay oğul, özünü bir elə yorma, – dedi, – qaçaqaç deyil ha... Gəl otur bir az dincini al.

Ancaq o oturmaq istəmirdi, əslində yorğunluq da hiss eləmirdi. Aclıq onu o qədər qorxutmuşdu ki, yeyəcəyi bir qarın çörəyin havasına bütün günü dayanmadan işləsə də, yorulmaq nə olduğunu bilməzdi. Elə həvəslə işləyirdi ki, sanki daimi iş yeri, qazanc yeri tapmışdı.

Hiss eləyirdi ki, ev sahibəsi də, qızları da onunla maraqlanırlar, ancaq nədənsə soruşmağa ürək eləmirlər. Bir dəfə isə arvad ona çay gətirəndə marağını gizlədəmmədi:

– Anan varmı oğul? – soruşdu.

– Hə, anam da var, arvad-uşağım da. – Əlini işdən ayırmadan əlavə elədi: – Ancaq burda deyillər, uzaqdadırlar.

Və dərhal da hiss elədi ki, arvad onun sözlərinə inanmadı. Amma danışmaq da istəmirdi, qorxurdu ki, ağzından qaçırdığı nə isə bir sözləmi, ifadəyləmi arvadı şübhəyə salar, heç nədən bir qarın çörəyi əlindən alınar. Xoşbəxtlikdən arvad da onun danışmaq istəmədiyini duyub israr eləmədi.

Düz bir həftə yorğunluq nə olduğunu bilmədən səhərdən axşamacan işlədi. Gördüyü işin əvəzində səhər-axşam çay içir, günortalar isə yemək yeyirdi.

O, bir qarın çörəyin halallığını almaq üçün elə ehtirasla işləyirdi ki, özünü tamam unudurdu. Hərdən ev sahibəsi və qızların uzaqdan-uzağa onun işləməsinə heyranlıqla tamaşa elədiyini görür və bundan gizli bir həzz alırdı.

Çörək yeyəndə isə hamısı çəkilib gedirdi. Elə bil ona mane olmaq istəmir, arxayın nahar eləməsinə imkan yaradırdılar.

Axırıncı gün iş günortadan bir az keçənə qədər çəkdi. Təsadüfün gətirib çıxardığı bu ailədə sonuncu dəfə nahar elədi. Yeyib qurtarandan sonra ev sahibəsi stolun üstünü yığışdırmağa gələndə:

– Qurtardım, – dedi, – daha görüləsi bir iş qalmadı.

– Çox sağ ol, oğul, allah səni arzuna yetirsin, – arvad razılıq elədi.

Bu o deməkdi ki, daha çıxıb getməlidi.

Nə isə demək, yediyi çörək üçün təşəkkürünü bildirmək istədi, amma fikrini necə ifadə eləyəcəyini tapanacan arvad:

– Daha gedə bilərsiniz, – dedi.

Sağollaşıb qapıya sarı yönəldi. Ev sahibəsi onu küçəyə qədər ötürdü. Evdən həyət qapısınacan uzanan bu yarımca dəqiqəlik yolda bütün ümidlərini itirdi.

Qapıdan çıxanda arvad:

– Bizi yaddan çıxarma, oğul, – dedi, – nə vaxt ürəyin istəsə, öz evin kimi gəl.

Arvad çıxıb getsə də, o bir müddət küçədə, həyət qapısının ağzında dayanıb durdu. Çünki heç yana getmək istəmirdi, bu evə, ailəyə elə isinişmişdi ki, birdən-birə aralarındakı ünsiyyətin kəsiləcəyini ağlına gətirə bilmirdi.

* * *

Ümidlərini dağıda-dağıda küçələri dolaşdığı vaxt günlərin birində iki nəfər tanımadığı adam qabağını kəsdi. Onlardan biri əyninə işarə eləyərək:

– Bu pencək mənimdi, – dedi.

Bu gözlənilməz mənzərədən çaş-baş qaldı, bilmədi nə cavab verə.

– Nə gözlərini döyürsən, deyəsən, aydın olmadı sənə…

Dili topuq çala-çala:

– Başa düşmürəm? Necə yəni pencək mənimdi…

– Çox sadəcə… Bu mənim pencəyimdi, oğurlamısan.

– Oğurlayıb eləməmişəm, öz halalca pencəyimdi.

Yanındakı saqqallı kişi:

– Düz deyir də… Onun pencəyidi… Çıxar ver kişinin pencəyini, – yoldaşının sözünə söykək verdi.

– Siz allah boşlayın bu zarafatı. Mənim sizinlə söz güləşdirməyə halım yoxdu.

Pencəyini tələb eləyən təkgöz kişi qəfil yaxasından tutdu:

– Nə zarafat əəə... əclaf! Bu boyda zarafat olar? Pencəyimi oğurlamağın bəs deyil, hələ bir zarafatdan dəm vurursan?

– Əlini çək! – dedi və hiss elədi ki, içərisində hansı gizli müqavimətsə səsini qaldırmağa qoymur. Səsinin alınmağı, alçalmağı onu qorxutdu. Təkgözün əlini yavaşca yaxasından qoparmağa çalışaraq çıxıb getmək istədi. Ancaq əl yaxasından elə tutmuşdu ki, qoparmağa gücü çatmadı.

– Bu saat milisə gedirik. – Bunu təkgözmü dedi, yoxsa saqqallımı, ayırd eləyə bilmədi, çünki heç nə eşitmirdi, qulaqlarında Göyüşovu öldürdüyü zaman duyduğu həmin o dəhşətli uğultu başlamışdı və özgə bütün səsləri batırırdı. Bu uğultu səsiylə birgə qan iyi gəlib burnuna dolur, ürəyi ağzına qalxırdı. Nə isə damarlarını yandıra-yandıra təpəsindən əllərinə, barmaqlarına tərəf axırdı.

Bütün bunlardan xilas olmaq üçün dönüb getmək istədi. Amma onu buraxmadılar, yerbəyerdən qollarından tutub pencəyini əynindən çıxardılar.

– Verin mənim pencəyimi! – Ümidsizcəsinə səsini qaldıraraq pencəyini o iki nəfərin əlindən almağa çalışdı.

Sinəsindən vurub itələdilər, az qaldı arxası üstə yerə gəlsin.

Müvazinətini birtəhər toplayaraq təzədən pencəyi almağa çalışdı.

– Tez olun, verin mənim pencəyimi…

Təkgöz artıq pencəyi əyninə keçirmişdi.

– Kəs səsini, əclaf, oğurlamağın bəs deyil, hələ bir yalan da danışırsan... Sənindisə, ölçüsünü de görək... Heç tələsmə, bu saat yalanının üstünü açarıq.

Bildi ki, bütün bunlar oyundu, ələ salırlar, «rost» söhbəti də onu oynatmaq üçün bir bəhanədi, bilsə də fərqi yoxdu, daha pencəyini qaytara bilməyəcək. Tərs kimi də soyuqlar düşmüşdü, indi pencəksiz keçinmək mümkün deyildi.

Özü də bilmədi ki, nə vaxt dilləndi:

– İkinci rostdu, – dedi. – Ancaq o saat da pencəyinin ikinci rost olub-olmadığından şübhələndi, tezcə düzəliş verdi: - İkinci, ya üçüncü rostdu.

– Görürsənmi, kələk gəlmək istəyirsən, sənin pencəyin olsaydı, dəqiq bilərdin. Bəlkə ölçüsünü deyəsən?

«Qırx səkkiz, ya əllimi? Hansı ölçüdədi görəsən pencəyi? Orası yadındaydı ki, şəhərə gəlib işə düzəldiyi günlərdə qırx səkkiz ölçülü geyərdi, amma hərdən əlli də geyindiyi olurdu. İndi hardan bilsin ki, qırx səkkizdi bu, yoxsa əlli? Heç nəyi yadına sala bilmir... Sən bir işin tərsliyinə bax ki, indiyəcən əyninə geydiyi pencəyin ölçüsünə də fikir verməyib…»

– Nə oldu? Niyə fikrə getdin? Deyəcəksən pencəyin ölçüsünü, ya yox? Çoxmu gözləyəcəyik səni?..

Bu oyuna heç olmasa bircə anlıq son qoymaq üçün nə olaola:

– Qırx səkkiz, – dedi.

Pencəyi çevirib astar üzünə baxdılar və ikisi də birdən:

– Yalan deyirsən, əlli razmerdi bu…

O iki nəfər daha bir söz deməyib hırıldaya-hırıldaya çıxıb getdi. Soyuğun-sazağın qabağında nazik köynəkçədə qaldı. Ancaq bütün bunlar ona yuxu kimi gəldiyindən soyuğu hiss eləmirdi, əsəbləri elə gərilmişdi ki, buz kimi suyun içərisinə salsaydılar belə bilməzdi. Çıxmağa, dağılmağa yer tapmayan kini,

nifrəti ilan zəhəri kimi damarlarına yayılaraq bədəni boyu axırdı. İçi-içalatı alışıb yanırdı.

Bu hadisə elə gözlənilməz idi ki, heç cür özünə gələ bilmirdi. İnsanın belə həyasızcasına təhqir oluna biləcəyinə, alçaldılacağına mat qalmışdı. Elə bilirdi ki, küçəylə keçib gedənlərin hamısı ona baxır və belə soyuq havada pencəksiz gəzən bu adamın dözümünə heyrət eləyir. Başını qaldırıb yan-yörəsinə baxmasa da, ona zillənən baxışların heyrətini duyurmuş kimi xəcalət hissi keçirir, bütün bunlardan xilas olmaq üçün yollar axtarırdı.

Yanından ötənlərin hansısa:

– Gör bir nə qədər vurub, soyuğu bilmir.

Hətta qadın səsiylə:

– Yazıq, – kəlməsini də eşitdi.

* * *

Sonra həmin küçədə təkgözlə saqqallıya bir də rast gəldi. Bəlkə də pencəyini tanımasaydı, onların kim olduğunun fərqinə varmadan yanlarından ötüb keçəcəkdi. Amma pencəyi gözlərinə sataşınca istər-istəməz ayaq saxladı. Özünün, ailəsinin boğazından kəsib min bir əzab-əziyyətlə aldığı, pulsuz, ehtiyac dolu, amma xoşbəxt sandığı günlərinin şahidi olan pencəyini özgəsinin əynində görmək ağır idi, yaman ağır idi.

Onlarla bir daha üz-üzə gəlmək istəmədiyindən yolunu dəyişdi. Qorxdu ki, bu dəfə də üstünə şər atıb zorla şalvarını əynindən çıxararlar. O vaxt düz bir həftə pencəksiz gəzəndən sonra zibillikdən içinin pambığı tökülmüş köhnə bir sırıqlı tapıb əyninə keçirmişdi. Pencəksizliyə pis-yaxşı dözmək olardı, şalvarını çıxarsaydılar, şəhər tamaşasına yığılacaqdı.

Amma tale elə gətirdi ki, pencəyini qaytara bildi. Aradan ilmi, ya il yarımmı keçmişdi, bir gün vağzalda təkgözlə saqqallının qışqıra-qışqıra pencək satdığını gördü. Öz pencəyini tanıyınca dəli kimi yerindən sıçrayıb onların dalınca cumdu, qorxdu

ki, pencəyini özgə birisinə satarlar. Əlini tələsik cibinə salıb nə qədər pulu vardısa çıxardı.

– Pencəyi alıram, – dedi.

Təkgözlə saqqallı onun ovcundakı xırda pulları sayıb ikisi də birdən:

– Azdı, – dedilər.

Onların çıxıb gedəcəyindən, yaxud da qəfil bir müştərinin peyda olacağından qorxduğu üçün:

– Mümkünsə, pencəyi mənə satın, – dedi, – sizdən çox xahiş edirəm.

– Yox, bu qiymətə satammarıq.

– Bilirsiniz, bu mənim pencəyimdi…

– Necə, necə?.. – İkisi də bir-birinə baxdılar və pencəyi üstünə atıb gülə-gülə çıxıb getdilər.

* * *

Özü də bilmirdi ki, aclıqdan niyə bu qədər qorxur. Aclığın dözülməzliyindən daha artıq ac qalmaq qorxusu onu içəridən yeyirdi. Kiminsə aclıqdan öldüyünü görməmişdi, eşitməmişdi, amma ağlı kəsəndən bu qorxunu hiss eləmişdi, tox və firavan günlərində belə bu qorxu çəkilib getməmişdi. «Heç kəs acından ölməyib. İndi adamlar çörəyin acı deyillər». Bunu kim demişdi, nəyi fikirləşib demişdi? Görəsən, indi adamlar nəyin acıdılar? Və əgər acından ölən olmamışdısa, niyə bu qədər qorxurdu. Bu şəhərə gəlib çıxan gündən uşaqlıqdan içərisinə yuva salmış aclıq qorxusu təzədən baş qaldırmışdı. Dəhşətli burasıydı ki, bu qorxuyla birgə heç vaxt, heç nəylə doydurula bilinməyən amansız bir iştah da gəzdirirdi. Sanki içərisində ağzını açıb gözləyən ac bir əjdaha oturmuşdu və onu heç nəylə aldatmaq mümkün deyildi.

Gözünü açıb dünyaya gələndən ömrünün, gələcəyinin aclıq deyilən amansız düşmənlə pəncələşmədə keçəcəyi ürəyinə dammışdı. Bəlkə buna görəydi ki, hələ uşaqkən müharibə görmüş

adamların aclıq barədə söhbətlərinə qorxa-qorxa qulaq asmışdı və indinin özündə də müharibə haqqında danışılanda hər şeydən qabaq yadına acından çığıra-çığıra ölən adamlar düşürdü.

Səhərdən axşamacan qoltuq ağaclarına söykənə-söykənə gəzdiyi şəhərin küçələrində də yaddaşı, düşüncəsi hər şeyə qarşı qapanmışdı, yalnız aclıq barədə düşünürdü. Şəhərin küçələrinə yayılan, burnuna dolduqca onu dəli eləyən yemək ətri gecələr yuxularına qarışaraq əzab verirdi. Heç olmasa yuxularında doymaq, aclığın ağrısını canından, düşüncələrindən qovmaq istəyirdi. Amma aclıq qorxusu elə qüvvətliydi ki, yuxularında belə onu təslim eləyəmmirdi, uzun gecələri bu əzabla pəncələşməli olurdu. Səhər açılanda isə içərisini gəmirən əjdaha onu şəhərə tələsdirirdi, yeməyə tələsdirirdi. Qarnını doyurmaq üçün nə edəcəyini bilmirdi. Axırıncı dəfə nə vaxt çörək yediyini xatırlamırdı və ona elə gəlirdi ki, son dəfə çörək yediyi vaxtdan əlli il keçir.

Hər gün yeni bir ümidlə şəhərə çıxırdı. Günlər ötdükcə əmin olurdu ki, allah insanı yalnız yemək üçün xəlq eləyib, yer üzündə yeyib-içmək qədər insan heç nədən ləzzət apara bilməz.

Bir vaxtlar mədə xorasından bərk əziyyət çəkərdi. Yeməyinin vaxtını azca ötürsəydi, mədəsindən bir ağrı qopardı ki, ikiqat bükülərdi. Ona görə də həmişə çalışırdı ki, necə olursa-olsun vaxtında yesin. Bilirdi ki, mədə xorasını dava-dərmandan artıq ciddi rejimlə sağaltmaq olar. Amma indi günlərlə ac qaldığı vaxtlarda belə, mədəsinin ağrıdığı yadına gəlmirdi. İnsan qəribə məxluqmuş: onun dərdləri, ehtiyacları, istəkləri də dərəcələrə bölünürmüş. Onları mühit, şərait bir vaxt üzə çıxara da bilərmiş, həmişəlik gizləyərmiş də.

Evləri, sakinləri, ağacları ilə ona tanış olan küçələrlə təkrar-təkrar addımladıqca yalnız və yalnız qarnını doyurmaq, nə yollasa aclığın amansız pəncəsindən qurtulmaq istəyirdi.

Mağazaların vitrinlərinə, divarlardakı reklamlara soyuq bir etinasızlıqla baxa-baxa gedirdi. Yeməkxanaların qabağında dayanır, xörəklərin ətrini acgözlüklə ciyərlərinə çəkirdi. Pəncərə-

dən yeməkxananın mətbəxində nazik-nazik çörək doğrayan əllərə baxırdı. Amma içəri girməyə cəsarət eləmirdi. Ona elə gəlirdi ki, ayağını yeməkxananın qapısından içəri bassa, qabağını kəsib pulu olub-olmadığını soruşacaqlar. Və pulsuz olduğunu bilən kimi dərhal bayıra qovacaqlar. Beləcə düşünə-düşünə saatlarla yeməkxananın qapısı ağzında dayanıb dururdu. Sonra heysiz ayaqları ilə küçələri gəzib dolaşır, özgə bir yeməkxananın qarşısında dayanıb dururdu.

İçərisində çörəyə qarşı sonsuz bir ehtiras çağlayırdı. Hər dəfə dan yerindən qalxan günəş onu mərhəmətsizcəsinə həyata və səfalətə qaytarırdı. Şəhərə dağılan qoxuların içində yalnız və yalnız yemək qoxusunu duyurdu, duyğuları bütün qoxulara qarşı qapanmışdı. Və bu qoxu onu əldən salır, başını gicəlləndirirdi.

Aclıq onu elə sarsıtmışdı ki, günün hardan doğub, harda batdığını, vaxtın necə sovuşduğunu hiss eləmirdi. Başını qaldırıb küçə boyu sıralanan yaraşıqlı evlərə baxdıqca ruhunu, varlığını qəribə bir duyğu bürüyürdü. Ona elə gəlirdi ki, küçə boyu sıralanan yaraşıqlı binalarda yaşayan insanlar qeyri-adi məxluqlardı, onların bu dünya ilə heç bir əlaqəsi yoxdu.

Belə yaraşıqlı evlərdə hər adam yaşaya bilməz, hər kəsin yaşamağa haqqı çatmaz…

Belə yaraşıqlı, pəncərələrindən süd kimi işıq süzülən mənzillərdə yaşaya bilmək üçün tanrı səni qeyri-adi istəklə xəlq eləməlidi, adi insanlardan seçib ayırmalıdı…

Gecələr bu yaraşıqlı evlərin pəncərələrindən gələn işıq ona sirli, sehrli görünürdü. Bu işıqlar cürbəcür idi: yaşıl, mavi, çəhrayı… Evlərdən insan səsləri, musiqi sədaları eşidilirdi. O, belə yaraşıqlı evlərdə yaşayıb da xoşbəxt olmamağa inanmırdı. Fikirləşirdi ki, bu yaraşıqlı evlər kimi xoşbəxtlik də orda yaşayan insanların bəxtinə, qismətinə yazılıb.

Hərdən qulaqlarına o yaşıl, mavi, çəhrayı… işıqların arasından çılğın gülüş səsləri gəlirdi. Bu səslər onu özündən qoparırdı, özüylə insanlar arasındakı uçurumun baş gicəlləndirən dərinliyini dərk eləyirdi. Bu gülüşlər sanki iki addımlığındakı

binadan deyil, nağıl, əfsanə, xülya dolu hansısa bir dünyadan gəlirdi. Bu gülüşlərin soyuq, amansız ucunu görürdü. Bu gülüşlər ona yaxşı heç nə vəd eləmirdi, təsəlli gətirmirdi, yaddaşının xoş, isti çağlarını qaytarmırdı. Bu çılğın qəhqəhələr xoşbəxtlik deyilən şeyin uzaqlığını, əlçatmazlığını xatırladırdı, firavan həyatın nə olduğunu unutdururdu.

Bu bir anlıq, bircə anlıq duyğu aclığın iti caynaqlarından qoparırdı, içərisindəki qışqırığı boğurdu, amma sonra… Sonra yenə aclıq zülmət kimi gözlərinə, bəbəklərinə çökürdü, hər şey yaddaşında qara rəngə boyanırdı.

Bəlkə şəhərə gəldiyi ilk günlər təsadüfən iş tapdığı o həyətə getsin? Əslində bu barədə çox fikirləşmişdi; aclıq güc gələndə bir vaxt işlədiyi o həyət, ev sahibəsinin mülayim, mehriban baxışı, rəftarı yadına düşürdü, amma özünə də qaranlıq olan hansısa bir duyğu o həyətə üz tutmağa qoymurdu.

…Bununla hər şey qurtaracaqdımı, bitəcəkdimi? Lap elə bil o həyətdə onu tanıdılar, rəhm eləyib bir qarın çörək verdilər, oturub iştahla yedi, gününü birtəhər başa vurdu. Axı, həyat, ömür bütün bunlarla bitəsi deyil, bitməyəcək. Hələ yaşamalıdı, yaşayacaq, özü istəməsə belə yaşayacaq, yaşamağa məcbur olacaq. Bəs sonra? Sonra neyləməlidi? Axı, bir vaxt arzular zəncir kimi bir-birinə bağlanmışdı, ard-arda düzülmüşdü, biri o birindən doğurdu. Arzuları, istəkləri ilə birgə ömür, həyat o qədər mürəkkəb idi ki, özü özündən baş aça bilmirdi. İllərlə işıq-işıq qəlbinə dolan arzuları, xəyalları, hara qeyb oldu? İndi bir qarın çörəyinmi dərdini çəkməlidi. Bunumu özünə dərd eləməlidi. Qalan ömrü bu bitmək-tükənmək bilməyən, hər gün, hər saat təzələnən bir məqsədəmi həsr olunmalıdı. Ömür deyilən qiymətli bir sərvət bu ucuz istəyəmi qurban veriləcək? Niyə bu ömür onun bəxtinə düşdü? Kimləri, kimsələri qoyub onun yaxasından tutdu. Əydi, əydi gör bir nəyə tay elədi. Necə də alışdı buna, necə də rahat təslim oldu. Elə bil tale onu bunun üçün yetirmiş, bunun üçün ərsəyə gətirmişdi. Yer üzünə buna görə gəlmişdi ki,

təhqir olunsun, ayaqlara düşsün, əl açsın, dilənsin, alçalsın...

…Axı ömür insana bir dəfə verilir, cəmi bircə dəfə. İnsan necə yaşadı bu ömrü, xoşbəxtmi oldu, ya bədbəxtmi, bunun heç bir fərqi yoxdu, ömür təkrarlanmır, qayıtmır, dönmür.

İnsan tale qarşısında necə gücsüzmüş, köməksizmiş. Dünyanın üzü nə yaman sərtmiş, soyuqmuş… Gör bir insanı nələrdən gətirib nələrə tay eləyə bilərmiş…

Amma elə haldan düşmüşdü ki, daha dözə bilməyib bir vaxt işlədiyi həyətə getməyi qərara aldı.

Aradan nə qədər keçdiyini, o həyətdən haçan ayrıldığını bilmirdi. İlin fəsillərini unutmuşdu, təkcə axşamı, səhəri ayırd eləyirdi. Arvadın o zamankı mehriban, qılıqlı rəftarını unuda bilmirdi. Ürəyinə dammışdı ki, o qapıya getsə, xoş üzlə qarşılayacaqlar. Axı, arvad ayrılanda tapşırmışdı ki, nə vaxt xətri istəsə, öz evi kimi gələ bilər. İndi nə üçün ona baş çəkməməlidi.

Belə fikirləşə-fikirləşə küçələri keçib nə vaxt o evə yetişdiyini bilmədi. Evə yaxınlaşanda alçaq hasardan həyətdə yad bir kişinin dayandığını gördü. Ona elə gəldi ki, evi səhv salıb, amma diqqətlə baxanda tanıdı ki, həmin ünvandı. Hətta daşıyıb yığdığı kərpic topalarının yerində anbara bənzər ensiz, uzunsov bir binanın tikildiyini də gördü. Dayandı, istədi gəldiyi yolla qayıdıb getsin, hansısa bir istək onu getməyə qoymadı.

Yaxınlaşıb taxta qapını döydü. Həyətdəki yad kişi uca səslə:

– Kimdi? – soruşdu.

Özünün güclə eşidəcəyi tonda:

– Mənəm, – dedi.

– Qapı açıqdı, hər kimsinizsə, keçin içəri! – Həyətdən səs gəldi.

İlk dəfə küçədə dayanıb bu həyətə, xərəkdə kərpic daşıyan qızlara baxdığı, iş tapmaq ümidilə vurnuxduğu anları xatırladı. Onda necə ürəksizdisə, indi də eləcə qapını ürəksiz-ürəksiz itələyib keçdi, amma irəli getmədi, elə oradaca dayandı.

Yad kişi ona sarı döndü:

– Kim lazımdı sizə? – təəccüblə soruşdu.

– Ev sahibəsini görmək istəyirəm, – çəkinə-çəkinə dilləndi.

– Bu evin böyüyü mənəm, nə sözünüz var, mənə deyə bilərsiniz.

– Mümkünsə, ev sahibəsini çağırın, mən onu görmək istəyirəm.

– Deyəsən, sənə aydın olmadı, mənim sözlərim, – yad kişi əsəbiləşib özündən çıxdı.

– Siz də deyəsən məni başa düşmədiniz. Mən deyirəm ev sahibəsini…

– Cəhənnəm ol burdan!

Heç bir söz demədən çevrilib qapıya sarı yönəldi. Küçəyə çıxmaq istəyirdi ki, arxadan gələn qadın səsinə istər-istəməz ayaq saxladı. Səs ona tanış gəlirdi. Çevrildi – ev sahibəsinin böyük qızıydı. Üzünü kişiyə tutub:

– Niyə qovursan onu, – dedi, – bəlkə bir işi var?

Bu səsdə, bu etirazda qurduğu ailədən peşmanlığın eşidilməyən harayı gizlənirdi.

– Başı xarabdı onun! Deyirəm, evin böyüyü mənəm, nə sözün var, de, iki ayağını bir başmağa dayayıb ki, ev sahibəsini görmək istəyirəm.

– Aaa, bəlkə anamı soruşur.

Bildi ki, qız onu tanımadı. Aradan keçən bu müddətdə zaman onu tanınmaz dərəcədə dəyişmişdi. Bir vaxt bu həyətə gələn o adama oxşamırdı yəqin ki…

– Kimi istəyirsən, qardaş? – qız mehriban səslə soruşdu.

Səsin mülayimliyindən kövrəldi:

– Məni tanımadınız deyəsən… Bir vaxt mən sizin həyətdə işləmişəm. Təxminən üç il qabaq. Elə belə yoldan keçirdim. İstədim baş çəkəm görüm necə dolanırsınız… Onunçün ananı soruşdum. Bu yoldaş məni başa düşmədi…

Qız:

– Anam ölüb, – dedi, – bu mənim yoldaşımdı.

– Ölüb? – gözlənilməz xəbərdən özünü itirdi. – Haçan ölüb?

– Ötən qış öldü... – Qız bir müddət susdu, sonra ağır-ağır: – Heç bilmədik nədən getdi, – dedi.

– Heyf! Yaxşı qadın idi... Allah ona rəhmət eləsin, – dedi və qapını açıb küçəyə çıxanda: – Bağışlayın, əziyyət verdim sizə, – əlavə elədi.

Arxaya dönmədən çıxıb getdi.

Sonra...

...Sonra günlərin birində daha dözə bilməyib özünü yolüstü yeməkxanaların birinə saldı.

…Nahar vaxtı olduğundan o qədər adam vardı ki, iynə atsaydın yerə düşməzdi. Amma içərinin tünlüyünə baxmayaraq səs-səmir yox idi, təkcə çəngəl-qaşıq səsləri eşidilirdi. Nə edəcəyini bilməyən adamlar kimi bir xeyli mat-məəttəl dayanıb yeməkxananı gözdən keçirdi. Qapıya yaxın stollardan birinin üstü yığışdırılmamışdı. Qabağa yeriyib arxası həmin stola tərəf dayandı və adamların fikir verib-vermədiyini bilmək üçün ehtiyatla böyür-başına baxdı; hər kəs öz işində idi, ona məhəl qoyan yoxdu. Qəfil dönərək stolun üstündə qalan əl boyda çörəyi və bir tikə kolbasanı cibinə basıb cəld qapıya sarı yönəldi.

Qorxurdu ki, qapıdan çıxhaçıxda arxasınca qışqırıb saxlayacaqlar, yaxud da qabağını kəsib küçəyə buraxmayacaq, oğru kimi ifşa eləyəcəklər. Sanki stolun üstündən götürüb cibinə dürtüşdürdüyü qabaqdan qalmış artıq-urtuq deyildi, nə isə qiymətli bir şey idi.

Arxadan səs eşitdi, elə bil onu çağırdılar. Amma dönmədi, dönməyə ürək eləmədi.

Pilləkənləri enməmiş bir də qulağına səs dəydi – yenə dönmədi.

Yeməkxanadan xeyli aralanıncaya qədər əlini cibinə aparmadı. Elə bil adamlar onun nə iş tutduğunu bilirdilər, yerbəyerdən göz qoyurdular və ona zillənən baxışların zəhmi altında əlini cibinə salmağa qorxurdu. Şəhərin seyrək bir yerində eh-

tiyatla kolbasa-çörəyi çıxarıb yeməyə başaldı. Ömründə belə ləzzətli şey yediyi yadına gəlmirdi.

Növbəti yeməkxanaya çəkinmədən girdi. Bu dəfə içəridəkilərə məhəl qoymadan heç kəsdən qorxub çəkinmədən stolun üstündəkilərdən əlinə keçəni yığıb-yığışdırıb çıxdı. Və qapıdan çıxarkən heç bir qorxu, həyəcan hiss eləmədi.

Dilənçilik həyatı belə başladı.

İlk dəfə nə vaxt əl açdı?

… Papağı qabağına qoyub gözlərini yummuşdu.

Amma gözlərini açmasa da görürdü. Görürdü ki, bütün şəhər tamaşasına yığışıb. Üstündə oturduğu daş səkinin buz kimi soyuqluğunu hiss eləmirdi.

Küçə boyu aşağı-yuxarı keçib gedən adamların ayaq səsləri beynində güyüldəyirdi. Elə bil beyninin içiylə yeriyirdilər. Ayaq səsləri içərisində böyüyür və bu səslər içərisinə sığmırdı.

Sonra əllərilə üzünü örtdü. Örtdü ki, heç kəslə üz-üzə, göz-gözə gəlməsin. Heç vaxt dilənməyin, əl açmağın belə çətin olduğunu ağlına belə gətirməzdi.

Ayaqları keyimişdi, qalxammırdı, tərpənəmmirdi.

Budur, yoldan keçənlərin hansısa əyilib papağa pul atır. Pul papağın içərisiylə diyirlənib bir küncdə qalır. Sonra bir də papağa pul atırlar. Daha sonra bir də… Artıq papağa pul atılarkən cingilti səsi eşidilir.

Ayaq səslərinə pul cinciltisi qarışır. Bu səs də ayaq səsləri kimi içərisində böyüyür. Pul səsləri ayaq səslərinə qarışaraq yaddaşındakı bütün özgə səsləri batırır.

– Buna bax ey, cavan oğlandı, boyundan-buxunundan utanmır, əl açır, – qulağı bu səsi çalır.

Qışın sazağında tər gicgahları aşağı axıb gedir.

Yoldan ötənlərin rəhm eləyib papağına atdığı pulları soyuq ilana toxunurmuş kimi səksənə-səksənə ovcuna alırdı. Sanki bu pul indiyəcən xərclədiyi pullardan deyildi, tamam alayı cür pul idi.

Sonra… özü də bilmədən get-gedə buna alışmağa başlayır. Başını qaldırıb böyür-başını süzür. Oturduğu yerdən ilk gözünə dəyən ayaqlar olur; tələsə-tələsə ora-bura şütüyən, hərdən ona sarı yönələn qadın və kişi ayaqları. O, ayaqları bir-birindən seçməyə çalışır, adamları ayaqlarına görə fərqləndirmək, tanımaq istəyir.

Ayaqlar gah seyrəlir, gah çoxalır, amma kəsilmir.

## X FƏSİL

Şəhərin ətrafındakı zibillikdə böyründə qapıyabənzər deşiyi olan üzü aşağı çevirilmiş iri bir çənin altında yaşayırdı. Yaşayırdı deyəndə buraya təkcə gecələməyə gəlirdi. Həm də qaranlıq düşəndə gəlirdi ki, görüb eləyən olmasın. Çünki izinə düşüləcəyindən qorxur, ehtiyatlanırdı. Neçə vaxtdan bəri yığıb topladığı cır-cındır və əski parçalarını çənin bir tərəfinə döşəyib özünə babat bir yatacaq düzəltmişdi. Havaların birdən-birə soyumağa başladığı indiki vaxtda bu yad şəhərdə bundan rahat və isti sığınacaq axtarmaq əbəs idi.

Çənin altında gecələdiyi ilk vaxtlar səhəri dirigözlü açırdı. Yatağına qor dolubmuş kimi rahat ola bilmir, o üz bu üzə çevrildikcə əsəbləri gərilirdi. Yuxusu ona qənim gəsiləndə dözəmmirdi, gecənin hansı vaxtı olur-olsun, qalxıb çənin altından çıxırdı. Boş və kimsəsiz qayalıqların arasında oturaraq ay işığında bozumtul rəngə bürünən gecənin səssizliyini dinşəyirdi. Saatlarla beləcə gözləyirdi ki, əsəbləri yumşala, özünə gələ, yüngülləşə. Gecələr elə darıxırdı ki, az qalırdı gəldiyi yolla qayıdıb getsin. Nədənsə dərdləri, ağrıları gecələr dirçəlir, böyüyür, köksünə, sinəsinə sığmırdı. Səhərə yaxın, dan yeri sökülən ərəfədə isə bir az yüngülləşən kimi olurdu. Onda gəlib soyumuş yatağına uzanır, özü də hiss eləmədən yuxuya gedir, günəş bir adam boyu qalxanacan daş kim düşüb qalırdı.

Yuxudan qalxanda gecə heç bir şey olmayıbmış kimi şəhərə yollanırdı. Heç bir şey olmayıbmış kimi bütün günü aşa-

ğı-yuxarı küçələri gəzərək vaxtını öldürürdü. Axşam hava qaralıb çənin altına gecələməyə gələndə təzədən bir gün əvvəlki dərdlər, ağrılar baş qaldırırdı. Yenə ona qənim kəsilən yatağından qalxaraq dan üzünəcən gecənin səssizliyində gəzib dolaşır, irinli yara kimi hovlanmış dərdlərindən, ağrılarından bir yolla xilas olmağa çalışırdı. Zaman keçdikcə anlayırdı ki, istədi-istəmədi, bu həyata vərdiş eləməlidi, alışmalıdı, yoxsa ömür asan keçməyəcək onunçün. Amma tərslikdənmidi, taledəndimi bunu heç cür bacarmırdı.

Bu nə sirdi ki, gündüzlər şəhərin küçələrini dolaşarkən yadına belə düşməyən dərdləri, ağrıları gecələr böyüyür, dözülməz olurdu. Niyə yuxu gözlərindən qaçaq düşmüşdü?.. Niyə gecələr belə gücsüz, güvənsiz, ümidsiz olurdu?.. Nə vaxtacan bu əzablara, işgəncələrə dözəcəkdi?

Gecəni səhər eləmək çətin və əzablı bir ağrıya çevrilmişdi. Bütün günü şəhərin küçələrini qıçını qatlamadan belədən-belə dolaşarkən özünü gümrah hiss elədiyi halda, səhər qalxanda elə yorğun düşürdü ki, ayaq üstə dayanmağa taqəti qalmırdı. Gecə yüngüllük əvəzinə süstlük, yorğunluq gətirirdi.

Gecələr bir də pıçıltı səsindən yata bilmirdi. Səhərəcən içərisində kimsə kiminləsə nə barədəsə pıçıldaşır, səsdən qulaqları tutulurdu. O, pıçıltılardan halsız düşürdü və nə illah eləyirdisə, bu səsi batıra bilmirdi, kəsə bilmirdi. Sanki pıçıltıyla gecə səhərə kimi onu günahlandırır, üzünə durur, dilə tuturdular, eləmədiyi hansısa ağır bir cinayəti boynuna qoymaq istəyirdilər. Pıçıltı səsləri əsəblərində, sinirlərində qaynayırdı. Və nə qədər qulaq kəsilsə də, pıçıltıyla deyilənləri başa düşə bilmirdi.

Sonra pıçhapıç qışqırığa dönürdü. Gecənin qaranlığından keçib gedən bir əsim yel də pıçıltı kimi gəlirdi ona. Ən qəribəsi buydu ki, səmada sayrışan ulduzların da pıçıltısını eşidirdi.

Əsəblərində qışqırığa çevrilən bu pıçıltı səslərindən qaçmaq, yaxa qurtarmaq üçün səhərin nə vaxt açılacağı anı gözləyirdi. Səhərə yaxın pıçıltılar azalır, öləziyirdi. Gündüzlər adam-

ların, maşınların, dünyanın səs-küyü içərisində bu pıçıltılar eşidilməz olurdu. Zehni, düşüncəsi, gecəyəcən, qaranlığacan dincəlirdi. Bilirdi ki, qaranlıq düşən kimi hər şey təzədən başlayacaq. Elə bil ki, pıçıltı qaranlıq üçündü, pıçıltıyla qaranlıq arasında nə isə gizli bir qohumluq, bağlılıq vardı…

Səhərin gözü açılan kimi aclıq beynini məşğul eləyirdi.

* * *

Aclığı güc gələndə isə bir yerdə dayanıb dura bilmir, qarnını doyurmaq üçün yollar axtarırdı. Nə qədər beynini yorsa da, küçələri aşağı-yuxarı dolaşmaqdan başqa bir çarə tapmırdı. Bunun da bir faydası olmayanda təzədən münasib bir yer tapıb oturur, papağını qabağına qoyub gözləyirdi. Gözləyirdi ki, yoldan ötənlər nə vaxt rəhmə gələcək, nə vaxt çörəkpulu düzələcək. Amma aclıqdan az qala qışqırmaq həddinə yetdiyi halda yoldan ötənlər onu görmür, varlığını hiss eləmirdilər. İnsanların bir-birinin dərdinə bu sayaq biganə olmaları onu sarsıdırdı.

Əvvəllər şəhərin küçələrini dolaşdıqca hiss eləyirdi ki, yerbəyerdən göz qoyurlar, özünün geyimi, görünüşü, boy-buxunuyla özgələrindən seçilir. Bu onu əməlli-başlı narahat eləyirdi və qorxurdu ki, qabağını kəsib kimliyini-nəçiliyini, hardan-gəlib hara getdiyini soruşacaqlar. Soruşacaqlar və ömrünü-gününü xoş-naxoş bağladığı bu şəhərin küçələrilə icazəsiz-filansız gəzib-dolaşdığı üçün mühakimə eləyəcəklər. Amma zaman keçdikcə görürdü ki, daha küçələrdə ona əvvəlki kimi göz qoymurlar, hərəkətlərini izləmirlər, özü duymasa da yad mühitə, yad insanlara qarışır. Özü duymasa da şəhərin sakininə çevrilir. Bu bir qədər təskinlik gətirirdi, çünki heç nədən izinə düşülə biləcəyindən, özünün yad, nabələd görünüşü ilə şübhə oyadacağından, ələ keçəcəyindən ehtiyat eləyirdi.

Və nədənsə küçəylə o yan buyana keçib gedən adamlara baxdıqca fikirləşirdi ki, bu şəhərin sakinləri böyükdən kiçiyə işləmir, eləcə onun kimi veyil-veyil dolaşırlar. Nə sirdisə, adam-

ların səhər qalxıb işə, axşam üstü evə tələsə biləcəklərinə inanmırdı. Elə bil bu şəhər tamam ayrı adamlar üçün xəlq olunmuşdu. Hərdənsə öz-özünə düşünürdü ki, ola bilsin hamı onun kimi kimdənsə qaçıb gizlənib, ələ keçməmək üçün başını girləyir. İnsan dənizində üzərkən qarşılaşdıqlarının üz-gözündəki ifadələri, təbəssümləri qorxu, vahimə, ehtiyat bilirdi. Sanki adamlar bir-birindən baxışlarını gizləyirdilər, ələ keçəcəklərindən qorxurdular. Hansısa gizli bir işdə ellikcə iştirak eləyiblərmiş kimi bir-birinin törətdiyi əməllərdən xəbərdar idilər və məsələnin üstü açılsa bir yerdəcə faş olacaqdılar. İndi qorxu, səksəkə tökülən baxışlarla ona görə bir-birinə istiqanlılıq göstərirdilər ki, sirr açılmasın, hər şey necə var, eləcə gizli, örtülü qalsın.

Belə düşündükcə özünü bir qədər rahat hiss eləyir, yüngülləşirdi. İnsan dənizində onunla yanaşı üzən kimlər, kimsələr özü də duymadan doğmalaşırdılar, həmdərdə, həmsirrə çevrilirdilər. Bəlkə elə buna görəydi ki, insan dənizində törətdiyi cinayətin ağırlığını, özünün qatil olduğunu unudurdu. Qorxu və səksəkə tökülən, bir-birindən gizlənən, ehtiyatlanan gözlərə tuş olduqca bu cinayət ona başqalarının törətdiyi, törədə biləcəyi əməllərdən qat-qat yüngül gəlirdi. İnsan dənizinin gətirdiyi məstlik içərisində hər şeyi ürəyə salmağın, olub-keçənləri yaddaşında çək-çevir eləyə-eləyə əzab çəkməyin əbəs olduğunu anlayırdı.

Amma bu şəhərdə özünü kameradaymış kimi hiss eləyirdi. Və hisslərinin, duyğularının havasına get-gedə azadlıqda olduğunu unudur, inanırdı ki, onu darısqal, havasız bir kameraya salıblar. Kamera o qədər darısqaldı ki, qaçıb xilas olmaq bir yana qalsın, irəli-geri hərəkət eləmək belə qeyri-mümkündü.

Bəzən saatlarla kameradaymış kimi əlini-qolunu tərpətmədən dayanıb durur, bəri-bədəni keyləşirdi. Dünya gözlərinə kameradakı kimi şəbəkələr arxasından görünürdü. İnsanlar şəbəkə arxasından baxırdılar. Ona elə gəlirdi ki, ruhunu, yaddaşını, düşüncələrini də dəmir şəbəkələrlə haşiyələyiblər. Hayana gedir-

disə, bu şəbəkəli kamera kölgə kimi onu izləyirdi. Küçəylə ötüb keçən insanların ona dikilən baxışlarında kameranın keçilməzliyini, özünün itirilmiş azadlığını görürdü.

Kamerada olduğunu dərk elədikcə darıxırdı, əsəbiləşirdi, dözəmmirdi. İstəyirdi ki, qışqıra, var gücü ilə fəryad qopara, dəmir şəbəkələrdən azad olunmağını tələb eləyə. Axı, nə vaxtacan şəbəkə çevrəsində ömür sürəcəkdi?.. Ancaq nə illah eləyirdisə, səsi çıxmırdı, səsi eşidilmirdi. Sonra başa düşürdü ki, səsini dəmir şəbəkələrlə örtüblər, o istəsə belə qışqıra bilməyəcək, dadına, harayına bir kimsəni çağırmmayacaq.

İstəyirdi ki, gücünü, qüvvəsini toplayıb gözlərinin qabağında dünyanı damalara bölən dəmir şəbəkələri qırıb töksün. Amma qəzəbdən, nifrətdən, düyünlənmiş yumruqları boşluğa dəyib əkssəda verirdi. Nə təhər eləyirdisə, dəmir şəbəkələrdən xilas olammırdı. İçərisindəki gücsüzlük soyuq tərə çevrilib bədənini basırdı.

Nə sirdisə, yuxularında da şəbəkələrdən açılammırdı. Gecənin bir aləmi səksənib oyanır, yuxularını bürüyən o qorxunc şəbəkələr öz-özünə dağılıb gedirdi. Bir anlığa sevinir, elə düşünürdü ki, onu bürüyən şəbəkələr açılıb, qeyb olub, bundan belə kamerada deyil, azad, asudə, ürəyi istəyən kimi yaşayacaq. Amma bu bir anın sevincini axıracan yaşamamış təzədən dünya gözlərində özgə rəngdə, özgə biçimdə şəbəkələrə bölünürdü.

Hörümçək toruna düşən həşərat kimi əlləşib-əlləşib zəhmətinin faydasız olduğunu, qurtuluş yolunun mümkünsüzlüyünü dərk eləyəndə bir azca sakitləşirdi. Ancaq bu çox çəkmir, özünə gələndən, gücünü toplayandan sonra hər şeyi unudub yeni ümidlə vuruşa başlayırdı.

Onu ən çox darıxdıran bir də bu idi ki, burnunda darısqal, havasız kameranın kəsif, ürəkbulandıran qoxusunu hiss eləyirdi.

* * *

Sonra günlərin birində taleyi gətirib dəniz vağzalına çıxardı və... burda onu görmədilər, duymadılar, toxunmadılar,

kimliyi, nəçiliyi bir kəsin marağını çəkmədi. Gündüzlər ara-sıra vaxtını öldürmək üçün gəlməyə başladı və belə-belə özü də hiss etmədən vağzalın həyatının bir parçasına çevrildiyini anladı. Bir tikə çörək tapıb qarnını doyuran kimi ayaqları onu vağzala çəkir, oturub saatlarla göy sulara baxırdı.

Dilənmək dilənməkdi, burda dilənərdi.

Beləcə, dəniz vağzalına bağlandı.

Ayağını sahilə basan kimi elə bil ruhuna bir təzəlik səpilirdi. Sahildə oturub göy sulara tamaşa eləyəndə büsbütün dünyadan ayrılırdı. Şəhərin küçələrində maşınların, adamların qurğuşun kimi bir-birinə qaynaq olub qarışmış səslərini eşitmirdi. Sel-su kimi gurultuyla beyninin içərisindən axıb gedən addım səslərini eşitmirdi. Özünə də bəlli olmayan nə isə qəribə, sirli bir duyğu ağrı kimi içərisinə çökür, keçmiş, gələcək yaddaşında durulur, aydınlaşırdı. Dənizin, nəmiş, islaq havasında nə vardısa, onu bihuş eləyir, başına gələnləri unutdurur, ömrünün şirin, əziz günlərinə qaytarırdı. Belə çağlarında gözləri baxsa da, uzaqları, göyərən üfüqləri görmürdü. Uzaqlar, üfüqlər dumana çevrilirdi, tüstüyə dönürdü. Yaddaşına isə ay doğurdu, aydınlıq doğurdu.

Sahildə olanda bir məşğuliyyəti də limandakı gəmiləri izləməkdi. Ona elə gəlirdi ki, bu gəmilərə minən sərnişinlər həmişəlik gedirlər, biryolluq gedirlər, bir daha geri dönməyəcəklər. Gəmilərin sərnişinləri bu yurddan elə ona görə ayrılırlar ki, bir daha qayıtmasınlar.

* * *

Şəhəri küçəbəküçə, dalanbalan o qədər dolaşmışdı ki, bütün dəlmə-deşiklərinəcən əzbər bilirdi. Özünə tanışlar da tapmışdı. Onlardan biri bütün günü pivəxananın qabağında vurnuxan, müştərilərin qabağından qalan arağı pivəyə, pivəni arağa qatıb sərxoş olanacan içən, sərxoş olandan sonra isə oxuya-oxuya, yırğalana-yırğalana, yerdən yığdığı papiros kötüklərini sümürə-sümürə küçələrdə veyillənən milliyyətcə çərkəz olan

Həzrət adlı orta yaşlı bir adamdı. Həzrətin xoşuna gələn cəhəti gözütox olması, səfil vəziyyətində belə soyuqqanlılığını qoruya bilməsiydi. Bircə şeyə mat qalmışdı ki, o, çörək yemirdi, eləcə içir, papirosunu tüstülədirdi; spirt və tüstüylə yaşayırdı.

Həzrətin babası uşaqlarını atıb Türkiyəyə mühacirət eləmiş, atası isə müharibədə itkin düşmüşdü. Bu dilənçi kökündə belə özünü çərkəz oğlu kimi aparmağa çalışır və bunu kəlməbaşı hiss etdirirdi.

Sonra təzə-təzə tanışlar peyda olmağa başladı. Həzrət bu yad şəhərin ona bağlı olan qapısını açıb əyyaşlar dünyasını göstərdi. Bu mühitlə, bu adamlarla o saat dil tapa bilmədi, barışammadı. Amma Həzrətin xasiyyətində, şəxsiyyətində (ah, şəxsiyyət, şəxsiyyət...) nə vardısa, onu bu mühitdən qopmağa, ayrılmağa da qoymadı. Bir müddət nə axtardığını özü də bilmədən, kor kimi bu adamların arasında fırlandı.

Əvvəl-əvvəl içmirdi, içmək istəmirdi, amma bir az keçməmiş özü belə fərqinə varmadan içkiyə qurşandı. Yeməkxanalarda, pivəxanalarda qabaqdan qalan artıqları içə-içə elə alışdı ki, bir gün içməyəndə az qala beyni çatlayırdı.

İçəndən sonra Həzrət kimi yırğalana-yırğalana, dodağının altında zümzümə eləyə-eləyə gəzmirdi; eləcə tramvayın arxa oturacağında oturub şəhərin küçələrini dolaşaraq içkinin havasına bu günündən ayrılırdı, bir zamanlığa harda olduğunu unudurdu. Ömrünün ötən çağlarıyla bağlı xatirələri içərisinə yayılaraq orda xoş bir ağrı yaradırdı. Belə çağlarında tramvaya minib-düşən sərnişinləri görmür, özünü vaqonda büsbütün tənha zənn eləyirdi.

O bədbəxt hadisə baş verməsəydi, bəlkə uzun zaman bu məşğuliyyətinə davam edəcəkdi. Amma neyləyəsən, qəzadan, qismətdənmiş... O hadisədən sonra tramvay adı gələndə tükləri biz-biz olurdu.

...Həmin günü yenə sərxoş halda tramvayın arxa oturacağında əyləşmişdi. Uzaq, əlçatmaz uşaqlıq illərinin xatirələri onu elə ehtirasla özündən alıb aparırdı ki, heç bir şey görmür,

eşitmirdi. Necə oldusa, dayanacaqların birində düşmək istəyəndə (bu indi də ona yuxu kimi gəlirdi, necə düşdüyünü, nə səbəbə düşdüyünü ha fikirləşirdisə yadına sala bilmirdi) elə bil onu iki əlli sürüyüb tramvayın təkərləri altına saldılar və... Tramvay sol qıçını doğrayıb keçdi.

Qəfil qışqırıq və relslərin qıjıltısı – o dəhşətli hadisədən yadında qalan bunlardı. Sonrasını heç cür xatırlaya bilmirdi. Onu xəstəxanaya kimlər aparmışdı, necə aparmışdı, yadına salammırdı. Tramvay qıçını doğrayıb keçəndən sonra düz yeddi saat huşu üstündə olmamışdı.

Xəstəxanada özünə gəlib gözlərini açanda əvvəlcə heç bir şey başa düşmədi, amma qəfildən nəyi isə xatırlayaraq:

– Hanı mənim ayağım? – soruşdu.

– …

– Sizinlə deyiləm?

– …

Başına toplaşmış ağ xalatlı həkimlərdən, tibb bacılarından heç birinin dillənməyə cəsarəti çatmırdı.

Dikəlib yerində oturmağa çalışaraq:

– Verin mənim ayağımı, – qışqırdı, – yoxsa dağıdaram dünyanı!

Onun qışqırığına bütün xəstəxana bir-birinə dəydi. Cəmi yeddi saat əvvəl ölümcül halda xərəkdə gətirilmiş bir xəstənin belə haray çəkəcəyinə inana bilmirdilər.

Səsə baş həkim gəldi. Ona vəd elədilər ki, sağalıb ayağa qalxan kimi kəsilmiş qıçını özünə qaytaracaqlar.

Amma əsəblərini boğa bilmir:

– Yalan deyirsiniz, – qışqırırdı, – bu saat gətirin verin mənim ayağımı, eşidirsinizmi?

Baş həkim tibb bacısının qulağına nə isə pıçıldayıb çıxdı.

Qoluna vurulan iynədən dərhal sonra onu yuxu apardı; ayılanda əsəbləri bir qədər sakitləşmişdi.

Xəstəxanada gündə üç dəfə xörək verirdilər. O, isti yemək

vərdişini uzun zaman idi ki, unutmuşdu, az qalırdı xörəyi qablı-qaşıqlı gözlərinə təpə. Hər gün vaxtlı-vaxtında yemək verilsə də doymurdu, nahar qurtaran kimi stolun üstündəki artıq qalan çörəkləri dolabının gözünə yığırdı. Qurudub saxlayırdı ki, xəstəxanadan çıxandan sonra özü ilə aparsın. Yeməyə bir şey tapmayanda quru çörək əməlli-başlı azuqəydi. İllah da xəstələnib yatağa düşəndə bir tikə quru çörək nə idi ki, ona möhtac olurdu.

Xəstəxanada ondan başqa hamının yanına gəlib-gedirdilər. Elə xəstələr vardı ki, hətta gecələr də yalqız qoymurdular. Palata yoldaşlarının əksəriyyəti ağır cərrahiyə əməliyyatından çıxmışdı, amma onun kimisi yox idi. Baş çəkməyə isə heç kəs gəlmirdi və gəlməyəcəkdi. Bu şəhərdə heç kəsi yox idi və belə ağır halda yatmağından kimsənin xəbəri olmayacaqdı.

Gör bir başına nələr gələcəkmiş…

İndiyəcən tək bircə dəfə xəstəxanaya düşmüşdü. O zaman mədə xorasından yaman əziyyət çəkirdi. Həkimlər onu məcburi xəstəxanaya yazmışdılar. Hər il yaz-payız ayları mütləq müalicə olunmalıydı, yoxsa vəziyyəti daha da ağırlaşa bilərdi. Ancaq cəmi bircə dəfə xəstəxanaya getdi. Onu da istəməyə-istəməyə... Arvadının təkidi olmasaydı, bəlkə heç onda da xəstəxanaya getməyəcəkdi. Bir yandan da istəyirdi ki, yatıb müalicə olunsun, bəlkə bu lənətə gəlmiş xəstəliyi yüngülləşə. Onsuz da bilirdi ki, mədə xorası hələm-hələm sağalan deyil, illah da onun kimi əsəb yiyəsi ola.

Xəstəxanaya gedəndə arvadına bərk-bərk tapşırmışdı ki, nahaq yerə zəhmət çəkib yanına gəlməsin. Bunu deməklə evdə pulun olmamasını nəzərdə tuturdu, istəmirdi ki, arvadı onsuz da cüzi olan çörək pulundan, özünün, uşaqlarının boğazından kəsərək nə isə bişirib gətirsin, ya xüsusi bazarlıq eləsin. O biri yandan da xəstəxanada pis-yaxşı yeməyə bir şey verirdilər. Əslinə baxanda sağalmaq üçün gərək elə pəhrizlə keçinəydi.

O vaxt da beləcə palata yoldaşlarının yanına biri gedib, biri gəlirdi. Xəstələrə baş çəkməyə gələnləri görəndə qeyri-ixtiyari kövrəlirdi, evdə min cür ehtiyac içində allahın ümidinə qoyub

gəldiyi ailəsinə-uşaqlarına yazığı gəlirdi.

Axşam üstü arvadı əlində dolu zənbil palatanın qapısını açıb içəri girəndə qəhər onu boğdu…

...Çarpayıyla yanaşı stolun üstünə qoyulmuş zənbilə sarı baxa bilmirdi. Arvadı bunu hiss elədiyindən dolabın qapısını açıb zənbilin içərisindəki termosu, xörək dolu bankanı, meyvəni, limonu və şokolad qutusunu içəri yığmağa başladı. Zənbil boşaldıqca ona elə gəlirdi ki, içərisindən nəyi isə çəkib çıxarırlar… ağrıyır, azalır, qurtarır...

Bilirdi ki, evdə bunlara xərclənəcək qədər pulları yoxdu, bütün bu şeyləri arvadı hardansa, kimdənsə tapdığı borcla alıb gətirib. Gətirib ki, əri özgələrinin yanında utanmasın, kimsə yeyib-içəndə sıxılmasın, ürəyinə salmasın.

Arvadının çöhrəsindən nə isə bir məğrurluq tökülürdü, fədakarlıq tökülürdü, elə bir məğrurluq, elə bir fədakarlıq ki, o, bunu birgə yaşadığı illər ərzində heç bir zaman indiki kimi hiss eləməmişdi.

Qorxurdu ki, özünü saxlayammaya, ələ ala bilməyə, bu qədər adamın içərisində hönkür-hönkür ağlaya. Çünki arvadının çöhrəsinə baxdıqca məğrurluqla, fədakarlıqla yanaşı, hansısa əziz adamını itirən, amma özgələrinin dərdi qarşısında öz dərdini unudan adama xas qəribə bir duyğu gəzdiyini görürdü. Bəlkə də o özü bu duyğudan xəbərsiz idi, amma onun – ərinin düşüncələrini güman ki, oxuyurdu. Sadəcə oxuyurdu demək olmazdı, əslində bayaqdan bəri, arvadı əlində dolu zənbil palatanın qapısını açıb içəri keçəndən danışırdılar.

«– Sənə demədimmi yanıma gəlmə!»

«– Tutaq ki demisən…».

«– Bəs, onda niyə gəldin?».

«– Nolar gələndə... Axı, sən kimdən əskiksən burda?».

«– Kimdən, kimdən... hamıdan... İndi bildin? Mən burda hamıdan əskiyəm! Hamıdan aşağıyam! Sənə dönə-dönə tapşırdım axı, gəlmə yanıma!».

«– Gəlmə deyirsən, bəs niyə gəlməyimə sevindin? Elə bilirsən hiss eləmədim bunu?..».

«– Nəylə almısan bu şeyləri?».

«– Səndən gizlin pul yığmışdım».

«– Yalan deyirsən!».

«– Utanmırsan? Bu nə sözdü danışırsan? Məndən indiyəcən yalan görmüsən?».

«– İndiyəcən görməmişəm, amma indi yalan deyirsən, gözünün içinə kimi yalan deyirsən. Borc almısan!.. De görüm, kimdən almısan pulu?».

«– İşə düşmədik?».

«– Mən səndən söz soruşuram».

«– Dedim ki, səndən gizlin pul yığmışdım. Heç kəsdən borc almamışam».

«– Almısan!».

«– Almamışam!».

«– Al-mı-san!».

– Nolub, niyə kefin yoxdu? – Arvadının gözlənilməz sualından diksinən kimi olur, cavab verə bilmir. Stolun üstünə düzülən şeylərdən özgə pulunun, borc alınan pulun iyini, qoxusunu duyur. Və get-gedə artıb-yayılan bu iydən, qoxudan başı gicəllənməyə başlayır.

Arvadı zənbilin dibindən hələ də nə isə eşələyib çıxarır. Onun qolundan tutur:

– Lazım deyil, mənə heç nə lazım deyil, apar evdə uşaqlar yeyər.

– Bu nə deməkdi, – arvadı qəfildən əl saxlayır, onun çöhrəsindəki bayaqkı ifadə bircə anda çəkilib gedir. – Mən bunları sənin üçün almışam, heç yana da aparası deyiləm!..

– Aparacaqsan! – Özü də bilmədən səsi hündürdən çıxır.

– Ağlını başına yığ. Camaat baxır bizə…

– Bunlar mənim boğazıma tıxac olub qalacaq, yeyə bilməyəcəyəm. – özü də fərqinə varmadan yumşaq səslə. – Vallah həqiqi sözümdü, apar uşaqlar yesin.

– Yox, bunları səninçün alıb gətirmişəm…

– Axı, bir uşaqları da fikirləş… Onlar yeməyə bir şey tapmırlarsa, bu mənim boğazımdan necə keçər. Götür apar.

– Dedim ki, aparmayacağam.

– Vallah onları…

O, birdən arvadının yanaqları aşağı axan göz yaşlarını görüb səsini udur. Və hiss eləyir ki, arvadı kimi o da ağlayır, bayaqdan bəri ağlayır. Amma göz yaşları içərisinə axır, ürəyinə axır. Və nə yaxşı ki, ürəyinə axır, bu göz yaşlarını palatada özündən savayı heç kəs, arvadı belə görmür.

…Xəstəxanada zaman keçidləri arasında elə bir oxşayış duydu ki, o hadisə bir əsim yel kimi düşüncəsindən sovuşub keçdi.

Yemək dolabının gözünü quru çörəklə doldurmuşdu. Hər gün neçə dəfə açıb baxırdı ki, görsün yerindədimi? Qorxurdu ki, yığdığı quru çörəkləri oğurlayıb apararlar. Hər dəfə də dolabın gözünü açıb baxanda elə düşünürdü ki, bir qədər üstündən götürüblər, ya otaqda olmayanda girəvəyə salıb oğurlayıblar. Sonra palatadan çıxanda dolaba işarə qoyurdu ki, toxunub eləyən olsa, xəbər tutsun.

Gecələri səksəkə içərisində keçirdi. Hansısa xışıltı səsinə diksinib oyanır, elə bilirdi ki, kimsə çörəyini oğurlamaq istəyir. Tez-tələsik qalxıb çarpayıda yatağının içində otururdu. Otağın qaranlığında mışıltı ilə yatan xəstələr arasında kiminsə oyaq olub-olmadığını bilmək istəyirdi. Ta palatadakıların son nəfərinə qədər yatdığına əmin olmamış gözlərinə yuxu getmirdi.

Ayağı bir qədər sağalıb gəzməyə başlayanda isə palatadan çıxarkən çarpayı qonşusuna:

– Mən gəlincə çörəklərdən muğayat ol. Birdən aparıb eləyərlər, xəbərim olmaz, – deyə bərk-bərk tapşırırdı.

Qayıdıb gələndə isə çörəyə toxunan olub-olmadığını mütləq soruşardı. Bununla ürəyi soyumaz, dolabın gözünü açıb öz əlilə yoxlamayınca arxayın olmazdı.

Yemək dolabı dolandan sonra çörəyi kağız torbalara yığır və görməsinlər deyə çarpayının altında gizləyirdi. Xəstəxanadan çıxmağa yaxın artıq xeyli azuqəsi vardı. Köhnə bir kisə tapıb nə qədər quru çörək toplamışdısa yığdı ki, çıxanda özü ilə götürsün. Çünki ayağı şikəst olandan sonra özünü dolandırmağı bir az da çətinləşəcəkdi. İndiyəcən nəyi olmasa da, sağlam canı vardı, əli-ayağı yerindəydi. Amma indi…

Xəstəxanadan çıxan günü ayağını qaytardılar.

…Ana, ana, aaannaaaa!!!

…Niyə dünya gözlərində belədən-belə dəyişir.

…İçərisində yanan ümid işıqlarını kim söndürdü, haçan söndürdü.

…O, daşdı, yoxsa insandı?..

…Dözür, dözüür, dözüüür... Bəs bu dözüm tükənməyəcək, bitməyəcək, qurtarmayacaqmı…

Ayağı kağıza bükülü vermişdilər. İstəyirdi ki, sakit, adamsız bir yer tapıb ayağına baxsın, bədəninin uzun zaman özüylə gəzdirdiyi, indisə ondan ayrlımış əzasına tamaşa eləsin. Aparıb bir yanda basdırmazdan qabaq hər şeyi yaddaşına yığmaq istəyirdi.

Şəhərin kənarındakı parka gəlib çıxmağı iki saatmı çəkdi, yoxsa üç saat, bunu deyə bilməzdi. Qoltuq ağaclarına öyrəşmədiyindən yeriyə bilmir, az qala hər addımda büdrəyirdi. Ağaclar qoltuğunu sürtüb yağır eləmişdi; yeridikcə göynəyir, dözülməz əzab verirdi.

Bağda ağacların sıx olduğu bir yerdə oturub qoltuğundakı bükülünü açmağa başladı. Aman allah!.. Dizindən bir az yuxarıyacan bütöv ayaq! Ayaqqabısına, corabınacan, şalvarının kəsik balağınacan hamısı burdaydı. Ayağı necə var, eləcə sellofan torbaya qoymuşdular. Qorxa-qorxa barmağı ilə ayağına toxundu – əti çimçəşdi. Əlini ayağına toxunduran kimi kəsilmiş qıçının yeri sızıldamağa başladı. Çevirib qıçının kəsik yerinə baxdı. Təkər qıçını elə kəsmişdi ki, deyirdin sümüyü mişarla doğramışdılar – sümük bircə yerdən də çatlamamışdı. Qıçının kəsiyin-

dən axan qan dərinin üstündəcə quruyub qalmışdı.

Sonra ayaqqabısını çıxardı. Budur, uzun müddət yuyulmayan, üfunət iyi verən corabının bir tayı. Corabı ehtiyatla çəkib ayağından çıxarır. Barmaqlar küskün-küskün büzüşüb durublar. Nə vaxtdan bəri dırnaqlarını tutmadığından ayağı vəhşi caynaqlarına bənzəyir. Çeçələ barmağının üstündəki döyənək də durur. Ah, bu döyənək ona nə qədər əzab vermişdi; barmağına yüngülcə toxunanda az qala huşu başından çıxırdı.

Çeçələ barmağındakı döynəyi yavaşca sıxdı. Ağrını – həmin o başgicəlləndirən ağrını canında duydu. Elə bil ayağı görünməz ilmələrlə bədəninə bağlıydı.

Topuğundan bir az yuxarı yara ləkələri… Uşaqlıqda onu tutan itin dişlərinin yeridi. Bu hadisə dünən, srağagün olubmuş kimi yadındaydı.

…Onda yay tətilini çöl fermada babasının yanında keçirirdi. Bir səhər durub çaya yuyunmağa gedəndə görmüşdü ki, qamışlığın arasında bir dəstə it yığışıb kürsəyə gəlir. İtlərin heç biri fermanın deyildi, birinci dəfəydi ki, burda görürdü. Və qorxusundan dəsmalı-sabunu tullayıb evə tərəf qaçmağa başladı. Arxaya çevrilməsə də hiss eləyirdi ki, qancığın hansısa dalınca yüyürür. Bir az da bərk qaçmağa başlamışdı. Az qalıb, lap az qalıb, bu saatca evə çatacaq… Amma qəfildən ayağı məftilə ilişib üzü üstə küllüyə yıxılmışdı. Özünü yetirən it qıçını topuğundan bir az yuxarı dişləyib qaçmışdı.

O vaxt yaranın onu nə qədər incitdiyini bir özü bilirdi. Yayın cırhacırından qar düşənəcən qıçını sarıyıb gəzmişdi. Həkimin, dava-dərmanın da bir faydası olmamışdı. Sən demə it qudurubmuş, qıçının yarasının sağalmaması da o səbəbdənmiş.

Həmin ili kənd məktəbinin dördüncü sinfində oxuyurdu. Evdən məktəbə gedib çatanacan üç dəfə yolda oturub dincini alırdı ki, qıçının ağrısı öləzisin. Gecələrsə yara elə hovlanırdı ki, ta səhərəcən yatağında qovrulurdu.

Əlini diz kündəsinin üstünə çəkdi. Həmişə oynağın üstün-

də yumru bir fır durardı – bu da uşaqlıq illərinin xatirəsiydi. Uşaqlıqda nənəsigilin həyatində tut ağacından yıxılmışdı. Budaq qırılıb ağacın təpəsindən yerə gəlmiş, dizinin kündəsi daşa dəyib çatlamışdı. Atası onu sınıqçıya aparmış, orda dizinin xıncım-xıncım olmuş sümüklərini yerinə düzərək üstünə balla, yumurta sarısıyla, qatranla qarışıq qəribə bir məlhəm qoymuşdular. Bir ay keçməmiş sınığı tamam sağalmışdı. Amma çox yeriyəndə dizinin kündəsi onu incidirdi. Ta o vaxta qədər ki, dizinin kündəsi üstündə fır əmələ gəldi. Noxuddan bir az iri olan fır dizinin üstündə qaldı və addımını atdıqca dizinin kündəsində yeriyən fırı açıq-aşkar hiss eləyirdi. Böyüyüb yaşa dolandan sonra da o noxud boyda fır dizinin kündəsi üstündən çəkilib getmədi, neçə illər sonra quruyub kəsilən qoca şahtutdan nişanə kimi qaldı.

Sol qıçının kəsilməsiylə ömrünün bu xatirələri yaddaşından kəsilib atılırdı. Və qıçının itirilməsi əzasıyla birgə keçmişinin bir hissəsini də ondan alıb aparırdı.

* * *

Səhərisi günü axtarıb yoldaşlarını tapdı, aparıb birlikdə ayağı dəfn elədilər. Ayağını dəfn eləyəndə Həzrət qəbrin üstündə uzun bir nitq söylədi, sonra isə gözlərindən yaş axa-axa qəmli bir çərkəz mahnısı oxudu. Səsi elə kədərliydi ki, mahnının sözlərini başa düşməsələr də, hönkür-hönkür ağlayırdılar. Bəlkə də Həzrətin mahnı oxuyan səsi hər kəsə öz dərdini xatırladır və hər kəs öz dərdinə ağlayırdı.

İlk günlər çətin keçirdi, təkayaqlılığa alışa bilmirdi. Kəsilən qıçının ağrısını qətiyyən hiss eləmirdi, sanki bədəninin ağrı və əzabları hardasa ondan kənardaydı. Amma hərdən qıçının kəsildiyini unudurdu, ona elə gəlirdi ki, sol qıçının barmaqları qaşınır və əlini uzadıb qaşımaq istəyəndə əli boşa çıxırdı. Belədə qolu-qıçı, bəri-bədəni büsbütün sustalırdı.

Qoltuq ağaclarına da alışmaq çətin idi və illah da bu ağacların ömrü boyu ona yük olduğunu düşündükcə dəhşətə

gəlirdi. Bir vaxtlar saatlarla gözləməkdən, veyllənməkdən zövq alırdısa, indi yeriməyə həvəsi qalmamışdı, on addım atmamış yorulur, təngnəfəs olurdu. Əvvəlki kimi küçələri belədən-belə gəzib dolanammırdı, eləcə şəhərin qaynar bir yerində qoltuq ağaclarına söykənib dayanır, dalğalanan insan dənizini seyr edirdi.

Sonra buna da öyrəşdi və elə rahat yeriməyə başladı ki, deyirdin anadan qoltuq ağaclarında doğulmuş, qoltuq ağaclarıyla birgə böyüyüb ərsəyə çatmışdı. Sanki zaman-zaman şəxsiyyətinin, xasiyyətinin bir hissəsi qoltuq ağaclarına köçmüşdü və bu ağaclar onun bütövlüyünün ayrılmaz bir hissəsiydi.

Ona elə gəlirdi ki, gecələr ayağı qəbirdən çıxıb yeriyir, ardınca gəzir, ləpirlərini izləyir, bədəni üçün darıxdığından səhərə qədər yatdığı yerin yaxınlığında dolaşır, dolaşır və yalnız dan yeri sökülənə yaxın qəbrə qayıdır. Qayıdıb axşamacan gözləyir, yatıb dincəlir ki, gecələr yenə onu – ayrı düşdüyü bədəni gəzib tapsın. Dəfələrlə tək-tənha gəzən, arxasınca düşüb ləpir sala-sala izini qoşalaşdıran ayaq yuxularına gəlmişdi.

Ayağı kəsiləndən sonra cani olduğunu büsbütün unutmuşdu. Yaşadığı ömür uzaq, unudulmuş bir xatirə kimi yaddaşının qaranlıq qatlarına çökmüş, dönüb ayrı adam olmuşdu. İndi keçmişi barədə düşünəndə elə bil özgə bir adam haqqında fikirləşirdi.

Hərdən içib kövrələndə:

– Mənim ailəm-uşaqlarım var, – deyirdi.

Əvvəlcə təəccüblənirdilər:

– Necə? Necə?..

– Ailən-uşaqların var?..

– Sən allah, doğrumu deyirsən?

Sonra şaqqanaq çəkib gülürdülər:

– Əcəb kefliliyin varmış sənin, məzəli oğlansan!

Ələ salınmağına dözə bilmir, dediklərinin doğru olduğunu sübut eləməyə çalışırdı:

– Bax, bu da şəkilləri, – Əlini atıb cibindən əzik-üzük olmuş, tanınmaz hala düşmüş şəkli çıxarıb göstərirdi.

Uğunub gedirdilər.

Hər dəfə özünə söz verirdi ki, bir daha bu barədə söhbət açmasın, ancaq olmurdu; dilinə içki dəyən kimi, ailəsi-uşaqları gəlib dururdu gözlərinin qabağında və özgə hər şeyi unudurdu. Elə kövrəlirdi ki, dönüb uşaq kimi ağlamaq istəyirdi. Dərdini söyləməyə bir adam axtarırdı, amma tapammırdı, danışmağa başlayan kimi ələ salıb gülürdülər. Yerbəyerdən:

– Qurtar, sən allah, bu söhbəti, day qulağımız yağır oldu, – deyirdilər.

– Nəyə deyirsiniz and içim, düz sözümdü, inanın mənə. Mənim uşaqlarım, arvadım…

– Sənin arvadını…

Söyüşün dalısını eşitmədi, hirsi-hikkəsi qan kimi gözlərinin içinə vurdu. Arvadını iyrənc söyüşlə söyən təkgöz Liqonun kölgəsi gözlərini tutmuş qan örtüyünün arxasından zorla seçilirdi.

Oturduğu yerdə qoltuq ağacını elə selbələdi ki, vaxtında əyilməsəydi, Liqonun başını aparacaqdı. Qoltuq ağacının boşa çıxmasından daha da əsəbiləşərək özünü Liqonun üstünə saldı.

– Əclaf, – deyirdi, – sənin ananı...

Bu hərəkəti elə gözlənilməz idi ki, hamı mat-mat dayanıb baxırdı. Oturub söhbət elədikləri yerdə onun birdən-birə qızıb özündən çıxacağına inanmırdılar.

Liqonun saçlarından tutub başını yerə döyürdü. Və başını yerə döydükcə gözlərini örtən qan dumanı daha da qatılaşır, dünyanı görməyə qoymurdu. O, qatı örtüyün arxasında bayaq uğunub qarnını qucaqlayan adamları seçəmmirdi. Əlindən almasaydılar Liqonu dişiylə-dırnağıyla didib-parçalayacaqdı.

Var gücüylə qışqırırdı:

– Siz hardan bilirsiniz ki, mən kiməm? Bilsəniz, mənimlə danışmağa belə cürət eləməzsiniz. Mən adam öldürmüşəm – Göyüşovu öldürmüşəm. Bir köpəyoğlu onun sözünün qabağında

söz deyə bilmirdi. Amma mən onu öldürdüm. İnanmırsınız... İnanmazsınız axı... Siz hardan biləsiniz ki, ay yazıqlar, adam öldürmək nədi?.. Adam öldürmək üçün gərək kişi olasan, gərək namusun, qeyrətin olsun…

Gözlərinin önündən qan dumanı çəkiləndən sonra görmüşdü ki, böyüründə-başında heç kəs yoxdu, hamı dağılıb gedib. Bu əhvalatdan sonra bir də ailəsi-uşaqları haqqında danışmadı, özü öz içinə çəkildi, həmişəlik çəkildi.

Hərdən qoltuq ağacına söykənə-söykənə küçələri dolaşaraq ailəsiylə keçirdiyi, indi ona nağıl kimi gələn uzaq, xoşbəxt günlər gözlərinin qabağından ötüb keçirdi. Belə çağlarında qorxa-qorxa ətrafına baxırdı. Ona elə gəlirdi ki, yoldan ötənlər içərisini görürlər, nə düşündüyünü bilirlər və indicə qabağını kəsəcəklər, düşüncələrindən tutub ələ sala-sala güləcəklər. Bir şey tapıb qarnını doyurandan sonra əsas qayğısı sakit, adamsız bir guşəyə çəkilib xatirələrə dalmaq olurdu. Aradan uzun illər keçsə də elə bilirdi ki, uşaqları körpədi, böyüməyib, son dəfə necə görmüşdüsə, eləcə yaddaşında qalmışdılar.

Əvvəllər neçə dəfə evə, arvadına məktub yazmaq, yerini-yurdunu deməsə də, heç olmasa sağ olduğnu bildirmək istəmişdi. Amma qorxmuşdu ki, məktub ələ keçər, poçtun möhrünə görə harda olduğunu axtarıb taparlar.

O günləri gözlərinin qabağına gətirəndə hərdən düşünürdü ki, Göyüşovu öldürməsəydi, indi yəqin şəhərdə ev-eşik sahibiydi, çox güman ki, ali təhsil də almışdı. Uşaqlarının canı kirayədən birdəfəlik qurtarmışdı.

Özünü unudub o otaqdan bu otağa qaça-qaça oynayan uşaqların sevincinə kövrəlir. Ev aldığına, bu mənzilin ömürlük ona, onun ailəsinə verildiyinə inanmağı gəlmir. Şəhərin harasında verəcəkdilər ona mənzili görəsən? Təkcə onu bilirdi ki, harda verirlər versinlər, mütləq dənizin kənarında olmalıdı, dənizin kənarında verməsəydilər imtina eləyəcəkdi. Qəribəydi ki, o, almadığı bu mənzili gözlərinin qabağına gətirirdi; görürdü, mət-

bəxinə, hamamınacan görürdü.

O evin pəncərəsindən dəniz alayı cür görünürdü. Ən çox da dənizə gecələr tamaşa eləməyi sevirdi. Ona görə də gecələr şəhər yatandan sonra pəncərənin zərif tül pərdəsini aralayıb uzun müddət ay işığında xəfif-xəfif ləpələnən dənizə tamaşa eləyirdi. Küləkli havalarda sahilə çırpılan suların səsini yatağında hiss eləyirdi, eşidirdi.

Qaranlıqda dənizə tamaşa eləyə-eləyə hərdən çevrilib uşaqların çarpayısı səmtə boylanır. Körpələr mışıltıyla yatırlar – iki qız və bir oğlan. Qalsaydı, mütləq oğlu olacaqdı – buna inanırdı. Axı, o çox istəyirdi ki, oğlu da olsun – yurdunda çıraq yandırmaq, nəslini, soyadını yaşatmaq üçün.

Özünə hardasa münasib bir iş yeri tapacaqdı. Ali təhsillə qalıb o idarədə işləməyəcəkdi ki... Onda yəqin tramvay altında da qalıb ayağını itirməyəcəkdi...

Bunlar ola bilərdimi? Bu suala cavab vermək çətin idi. Hələ Göyüşovu öldürməmiş, cinayət törətməmiş bütün bu arzularına yaxınkən nə qədər ümidsiz idi. Bəlkə ümidsizliyiydi onu cinayətə sürükləyən? Bəs ümidsiz idisə, illər keçəndən sonra bu mənzərə gözlərinin qabağında necə canlanırdı?..

## XI FƏSİL

Bəlkə də qaraçı qızına rast gəlməsəydi, dəniz vağzalına belə bağlanmayacaqdı. Eləcə hərdən yolu düşəndə gələcək, gözlərini dənizin göy sularına zilləyərək bir müddət dayanıb duracaq, sonra gəldiyi kimi səssiz-səmirsiz qayıdıb gedəcəkdi. Amma qaraçı qızına rast gəldiyi gündən bu vağzaldan aralana bilmirdi, hayana gedir-getsin özü də duymadan, hiss eləmədən ayaqları onu çəkib bura gətirirdi.

Nə vaxt gəlir-gəlsin bu vağzalda hər şey ona qaraçı qızı ilə görüşdüyü günü xatırladırdı. Dəniz də gözlərinə o günün rəngində görünürdü. O günün ki, qaraçı qızı ilk dəfəydi bu şəhərə,

bu limana ayaq basırdı, hayana gedəcəyini, harda gecələyəcəyini bilmirdi. O günün ki, qaraçı qızı ona pənah gətirmişdi. O günün ki... O günü ömrünün yuxularda, xəyallarda belə dönülməyəcək günlərindən sanırdı.

Həmin payız səhəri yuxudan qalxıb birbaşa vağzala gəlmişdi. Gözlərini sakit dənizdə sahilə yaxınlaşmaqda olan gəmiyə zilləyib durmuşdu. Həmişəki kimi gəmi sahilə yaxınlaşdıqca böyüyən həyəcanları huşunu başından çıxarır, soyuğa, sazağa, şikəstliyinə məhəl qoymadan suya atılıb gəmiyə sarı üzmək istəyindən özünü zorla saxlayırdı.

Gəmi körpüyə yan aldı, sərnişinlər yavaş-yavaş tökülməyə başladılar. Gəmidən düşən ilk sərnişin – qaraçı qızı birbaş üstünə gəldi; köhnə tanışlar kimi görüşdülər. Elə bil ki, o səhər yerindən qalxıb qaraçı qızını qarşılamaq üçün vağzala gəlmişdi.

Qaraçı qızı gözəl idi, yaraşıqlı idi; baxışlarının dərinliyində bal rənginə çalan bir işıq, bir təbəssüm gəzirdi. Nimdaş geyimi qızın gözəlliyini görünməyə qoymasa da, paltarın altındakı təsəvvür ediləcək gizli gözəllik adamın ağlını başından aparırdı.

– Əynim təzə olsa, dinc buraxmazlar, belədə məni görmürlər, – deyirdi.

Özünün dediyinə görə heç kəsi yox idi, tək-tənha yaşayırdı. Uşaqlıqda itkin düşmüş, anasını, qohumlarını itirmişdi. Ağlı kəsəndən çörək pulu qazanmaq üçün onun-bunun falına baxa-baxa o şəhər sənin bu şəhər mənim gəzirdi. İndi də tale onu gətirib bu şəhərə çıxarmışdı. O illərdən yadında bir-birilə əlaqəsi olmayan pərakəndə, dumanlı lövhələr qalmışdı və qaraçı qızı bunları – özünün tərcümeyi-halını uzaq uşaqlıq xatirələrilə bəzəyə-bəzəyə çox qısa şəkildə anlatmışdı ona. Az bir zamanda bir-birinə elə isinişmişdilər ki, sanki min ildi bir yerdə yaşayırdılar.

Gəzib-gəzib axşam hava qaralanda şəhərin kənarındakı «mənzil»inə gəlib çıxmışdılar. Qızın boğçasından çıxardığı kolbasayla çörəyi yeyib qarınlarını bərkidəndən sonra içərinin cırcındırından özünə də, qıza da birtəhər yatacaq düzəltmişdi.

Yorğun olduğundan qız ertədən başını atıb yatmışdı.

O isə yerinə uzansa da, uzun müddət yata bilmədi; keçmiş, gələcək duman kimi yaddaşında bir-birinə qarışaraq qoynuna alıb apardı. Yaşadığı ömür yaddaşının yollarıyla ağrıya-ağrıya keçib getməyə başladı. Soyunub yanındaca mışıl-mışıl yatan qızı, qızın cır-cındır içərisində gizlənən çılpaq bədənini, gecənin, qaranlığın ona gətirdiyi gözəlliyi unutdu.

Sonra yuxu hiss olunmadan onu sirli qoynuna çəkdi. Bayaq oyaqkən düşündüklərini indi yuxuda görürdü. Necə yuxuydu fələk bu... baş aça bilmirdi. Yuxudadı, amma yuxu gördüyünü bilir və qorxur ki, gözlərini açmaqla bircə anda yuxusu dağılacaq, hər şey alt-üst olacaq. Necə olursa-olsun yuxusunun ardını görmək istəyir...

Fəhmlə hiss elədi ki, kimsə kənardan onu izləyir. Amma hələ yuxuda idi, hələ o yuxunun cazibəsindən qopammamışdı, ayrılammamışdı. Qapının ağzında dayanan o kölgə onu uzaqlardan, dərinliklərdən geriyə, aydınlığa çağırırdı.

Yuxu varlığından çıxıb getməkdəydi.

Ona elə gəldi ki, kimsə yuxusuna göz qoyur, yuxularına girmək, nə gördüyünü bilmək istəyir. Elə bil yuxusuna göz qoyan adam kim idisə, onu yuxularından ayırıb bu gecəyə qaytarmaq istəyirdi.

Yuxusu tamam çəkildi.

Qaraçı qızı qapının ağzında dayanıb ona baxırdı. Gözlərinə inanmadı, gecənin bu vədəsi qızın oyanıb qalxacağını gözləmirdi.

Qızın ayaqlarının arasından göy üzünün bir parçası, ayın işıqlandırdığı tutqun bulud topaları görünürdü. Ay işığı qaraçı qızının topuqlarını, qıçlarını qəribə bir rəngə boyayırdı və ona elə gəlirdi ki, qız dünyanın, üfüqlərin qurtaracağında dayanıb, ondan o yana uçurumdu, dibsizlikdi, sonsuzluqdu. Və sanki bu yuxuydu, bayaq gördüyü yuxunun davamıydı.

Qız yerindən qopub ona sarı gəlirdi. Yatağından baxanda qız ona duman topası kimi görünürdü və elə bil qız yerimir,

duman kimi üstünə çökürdü.

Qalxıb oturmalıydımı, yoxsa özünü yuxuluğamı vurmalıydı, bunu bilmirdi. Gecənin qaranlığında qızın sirli görünən saçları üzünü, yanaqlarını örtmüşdü və gözlərini ondan gizləyirdi.

– Əkrəm...

Deyəsən, qız onu çağırırdı – pıçıltıya bənzər bir səs eşitdi. Son dəfə belə isti, məhrəm səslə çağırıldığını xatırlamırdı.

Ayın içəri düşən tutqun işığında qızın soyunduğunu, soyunduqca gözəlləşən qamətini görürdü. Qaranlıqda rəngi bilinməyən köynəkçəsinin yaxasından qızın ağappaq, iri döşləri süzülüb çıxırdı. Yatağında çevrilməyə belə taqəti qalmamışdı. Elə bil qız soyunduqca onun heyi çəkilib gedirdi.

…Yuxuydumu bu, yoxsa gerçəkdimi?..

…Gerçəkdisə, bəs niyə hər şey ona yuxu kimi gəlir?..

…Bəlkə bu…

…Ah, bircə ürəyi dayanmaya…

…Fələk, al ömrümü, dözəmmirəm…

Qız soyunub nazik alt paltarında qoynuna girdi. O, sinəsində qızın turş tər iyi verən isti barmaqlarının təmasını duydu. Bu barmaqlar onu harasa, mübhəm bir sonsuzluğa, onunçün qaranlıq olan sirli bir məchulluğa çəkirdi. Fikirləşməyə, hərəkətlərini cilovlamağa macal tapmırdı. Ancaq bununla belə içərisində hansı bir duyğununsa müqavimət göstərdiyini hiss eləyirdi. Sanki hansısa gizli, anlaşılmaz bir qüvvə onu bu qorxulu, qaranlıq, cazibəli dünyaya aparan yoldan qaytarmaq istəyirdi. Bu hədsiz yaxınlıq bihuş eləyir, ağlını dumanlandırırdı. Qadının bu dərəcədə ona yaxın olduğuna inanmırdı. Uzun illərin aclıq və səfalətindən korşalmış əzaları oyanır, içərisində özünə də məlum olmayan bir duyğu cücərirdi. Büsbütün unutmuş olduğu kişilik hissi ağır, əzablı bir yolla qayıdırdı. Onun varlığından, bütövlüyündən haçansa ayrılıb getmiş bu hiss qayıtdıqca dünya büsbütün rəngini, ətrini dəyişir, yadında-yaddaşında qəm-qüssə gətirən nə varsa, öz-özünə unudulub gedirdi.

Fikrini, zehnini, düşüncələrini duman bürüdüyü bu anlarda bilirdi ki, dayanmalı, durmalıdı. Onu sirli bir dibsizliyə çəkib aparan bu duyğu hardasa, kiməsə xəyanətdi. Amma bu bir anlıq çəkirdi. Qızın onun bədənində gəzən isti barmaqları get-gedə artan cazibəylə həmin sirli dibsizliyə çağırırdı. Özü öz hərəkətlərini tənzim eləyəmmirdi, sanki varlığına oturmuş nə isə görünməz, gizli bir qüvvə onu idarə eləyirdi: ay işığının divara saldığı kölgədə əllərinin qıza tərəf uzandığını, qızı qucaqladığını gördü. O, kölgədə özünü tanıdı, amma bunun özü olduğuna inanmadı.

Sonra qızın ehtiras qoxuyan odlu dodaqları tüklü sifətində gəzə-gəzə axtarıb dodaqlarını tapdı. Hər şeyi unutdu.

Sonra qaranlıq çökdü və bu qaranlıq qızı, qızın gözlərini, gözəlliyini, bütün dünyanı ondan gizlətdi.

Qız onu öpə-öpə, oxşaya-oxşaya anlamadığı bir dildə nə isə deyirdi, pıçıldayırdı. Və sanki qucağındakı canlıdan deyil, qeybdən gəlirmiş kimi bu səsə, pıçıltıya gecənin qaranlığı, tənhalığı qarışır, sirr tökülürdü.

Gözlərini yummuşdu. Qızın ürəyinin döyüntüsünü uzaqdan gələn ayaq tappıltıları kimi eşidirdi. Hələ də inanmırdı, elə bilirdi ki, bu yuxudu, çox şirin bir yuxudu, gözlərini açsa, qız birdəncə qeyb olacaq.

Qəfildən dodaqlarında qızın göz yaşlarının duz dadan təmini duydu. Görən niyə ağlayırdı qız?.. Bu göz yaşları sevincdəndimi, yoxsa kədərdəndimi? Onun anlamadığı bir dildə pıçıltıyla dedikləri nə idi bəs?

Sonra qız:

– Qurban olum sənə, – pıçıldayırdı, – qurban olum...

Elə hey bu sözü təkrarlayırdı.

Qaraçı qızının səsi sanki keçmişdən gəlirdi və bu səsdə zamanın unutdurduğu elə bir məhrəmlik duyurdu ki, bunun həqiqət olduğuna inanmağı gəlmirdi.

Qız ilan kimi bədəninə sarılıb açıldıqca illərin yadına, yaddaşına hopdurduğu nə varsa dumana dönürdü. O, bu dumanda

qızın xəyal kimi tutqun kölgəsindən savayı heç bir şey görmürdü. Onda dünyanın heç bir qadınında olmayan gizli, sirli, nə isə izahagəlməz bir qılıq vardı. Bu elə bir qılıq idi ki, ondan qopmaq, açılmaq, xilas olmaq qeyri-mümkündü. Elə bil qaraçı qızı fal açarkən pıçıltıyla oxuduğu ovsunlarla onu ovsunlamış, tilsimləmişdi. O istəsə belə bu ovsundan, bu tilsimdən açılammaz, qopammaz, qaçammazdı…

* * *

Səhər oyananda günəş təpələrin üstündən boylanırdı. Qaraçı qızının nə vaxt çıxıb getməyindən xəbər tutmamışdı. Açılan səhər o qədər adi idi ki, gecə qaraçı qızının yanında olduğunu xəyalına gətirəmmirdi. Gözüylə böyür-başını axtarır, qaraçı qızından nə isə bir nişanə tapmaq istəyirdi. Ancaq qızdan heç bir nişanə qalmamışdı, sanki o yuxularına gəlib qayıtmışdı. Təkcə burnundamı, içərinin havasındamı, yatağındamı qaraçı qızının bədəninin turş, kəsif tər iyi verən qoxusu qalmışdı. Onu bihuş eləyən bu qoxu qaraçı qızıyla baş verən hadisənin yuxu olmadığına inandırdı. O gecə səhər üzü yatıb yuxuya qaldığına görə özünə lənət oxuyurdu.

Qaraçı qızı bir daha qayıtmadı. Beləcə yuxu kimi gəlib, yuxu kimi də ömründən getdi. Xəbərsiz, izsiz-tozsuz, birdəfəlik getdi...

Uzun zaman qızı unuda bilmədi. Gecələr büsbütün yuxusu çəkildi, bütün günü yalnız onun barəsində düşünürdü. O, qızın birdəfəlik çıxıb getdiyinə heç cür inana bilmirdi, sanki qız haçansa gəlməliydi, qayıtmalıydı. Onlar bir-birinə gərək idilər, taleyin bu görüşü təsadüfi ola bilməzdi.

Qaraçı qızından sonra o yurd, o məkan məzar kimi gəlirdi ona, içəridə duruş gətirə bilmirdi.

Sonra qız yavaş-yavaş düşüncələrindən çəkildi, yuxularından çəkildi, yaddaşında tutqun, dağınıq bir xatirə qaldı… Amma

sonralar da hərdən qaraçı qızıyla keçirdiyi o gecə ilğım kimi yaddaşında görsənib ağlını başından alırdı.

* * *

Qaraçı qızını bir də çox sonralar gördü. Aradan on ilmi keçmişdi, on beş ilmi, xatırlamırdı. Bu illər ərzində birgə yaşadıqları şəhərdə bircə dəfə də olsun üz-üzə gəlməmələri taleyinmi işiydi, yoxsa adi bir təsadüfdümü? O, bu müddətdə sanki yüz il qocalmışdı. Ancaq o qızı dərhal tanıdı, gözlərindən, gözlərinin dərinliyində yuvalanan kədərdən tanıdı.

İlk dəfə onunla görüşdüyü yerdəcə oturmuşdu. Qız qorxa-qorxa, çəkinə-çəkinə yaxınlaşdı, elə bil nədənsə, kimdənsə ehtiyat eləyirdi. Qızla üz-üzə gələndə ona elə gəldi ki, zaman sonu bilinməyən fəza kimi yaxınlaşdı və uzaqlaşdı, onun ömrünün ən erkən çağlarını bir anlığa göstərdi və dərhal da bir ömür qədər uzaqlaşdırdı.

Üz-üzə dayanmışdılar. Qız şaxtadan sulanmış gözlərini ona dikib durmuşdu. Qızın sifətinin arxasında onun cəsədini görürdü, ölümünü görürdü və elə bil üzbəüz dayandığı insan deyil, canlı deyil, quru skeletdi, əti tökülmüş cəsəddi. Və qıza baxdıqca özünün də canlı olduğunu unudurdu.

Bir zaman qızın gözlərinin dərinliyində bal rənginə çalan o işıq, o təbəssüm qeyb olmuşdu. Bircə baxışı öpüş qədər adamın ağlını aparan o sirli gözəlliyindən əsər-əlamət qalmamışdı.

Soyuqdan titrəyə-titrəyə:

– Üşüyürəm, – dedi, – isti bir şeyin varsa, ver geyinim...

Bu, qoca adamın səsi idi.

Qaraçı qızı onun yaddaşında o gecənin rəngində qalmışdı. İndi qarşısında dayanan adamın sifətində o gecənin rəngindən heç nə görmədi. Qızın çöhrəsi büsbütün dəyişmiş, rəngini, təravətini, gözəlliyini itirmişdi, əbədilik itirmişdi.

Qızın üst-başına nəzər saldı; pal-paltarı elə bir kökdəydi ki, sanki doğulandan bəri əynindən çıxarmamışdı.

Özü soyuqdan əssə də ürəyi dözmədi. Geyilməkdən didik-

didik olmuş jiletini çıxarıb qıza verdi.

Jileti verəndə əlləri görüşdü; diksinən kimi oldu, amma bu əllərdə bir vaxt huşunu başından aparan o isti, ılıq təması duymadı. Əvəzində barmaqlarının ucunda ölümün amansız soyuğu gəzdi. Qeyri-ixtiyari əlini çəkdi.

Qız qucaq istəyən uşaq kimi ona qısılmaq istəyirdi. Amma nə isə hiss elədiyindən birdəncə döndü və arxaya çevrilmədən çıxıb getdi. O, qızı arxadan səsləmək, heç olmasa, aclığı olub-olmadığını soruşmaq istədisə də, ayağa qalxa bilmədi.

Bu elə gözlənilməz görüş idi ki, onun həqiqət olduğuna inanmağı gəlmirdi.

Gözləyirdi ki, qaraçı qızı dayansın, qayıtsın, yenə nəsə soruşsun, istəsin, ancaq qız arxaya belə dönmədi, vağzalın dəniz səmtindəki pilləkənləri qalxaraq gözdən itdi.

* * *

Soyuqlar düşəndə bütün ətraf yerlər ağappaq örtüyə bürünür, qar az qala çənin yarısınacan qalxırdı. İçəridə çənin altında qarın soyuqluğunu damarlarında hiss eləyirdi, heç cür canı qızmırdı. Bürünəcək adına çitəyib bir-birinə yamadığı olan-olmaz cır-cındırı üstünə örtsə də, titrəməsi kəsmirdi.

Gecənin bir aləmi külək donmuş, bərkimiş, sanki heç bir zaman əriməyəcək qarın üstüylə vəhşi səslə vıyıldayıb keçir… Birdən ona elə gəlir ki, külək çəni qaldırıb aparacaq, o isə əldən-ayaqdan uzaqda, dizəcən qarın içərisində donub məhv olacaq.

Yatağı o qədər soyuq olur ki, gözlərini yumub mürgüləməyə belə qorxur. Qorxur ki, birdən onu huş aparar, yuxudaca donub ölər. Ona görə də ta səhər açılıb hava mülayimləşənə kimi gözlərinə yuxu getmirdi. Nə yolla olur-olsun, yuxusunu gözlərindən qovmağa çalışır.

Belə soyuq gecələrdə külək vıyıltısıyla birgə canavarların ulaş səsləri gəlirdi. Bütün gecəni ağız-ağıza verib vəhşi səslə

ulaşırdılar.

Uşaqlıqda, ölümündən bir gün qabaq babasıyla ova çıxdığı qış günü, qar bürümüş düzəngah gözlərinin qabağına gəlir, yaddaşı onu bir anlığa keçmişin dərinliklərinə atırdı. Ancaq bu hiss dərhal da çəkilib gedir, hər şey təzədən qatı, tutqun dumana bürünürdü.

Sirr kimi, vahimə kimi uşaqlıqdan onun hafizəsinə dolmuş bu ulaş səsləri qəribəydi ki, indi tənha keçirdiyi gecələrində onu qorxutmurdu, əksinə səhəri dirigözlü açdığı çağlarında həyanı olurdu. Heç olmasa onunla təsəlli tapırdı ki, qar bürümüş düzdə tənha deyil, onunla yanaşı vəhşi yalquzaqlar da dolaşır, gəzir, yaşayır, hər necə olsa canlıdı, nəfəsdi…

Qar düşəndən sonra şəhərə gedib-gəlmək çətinləşirdi. Soyuğa dözümü olmadığından bu uzaq yol gözlərinə dururdu. Soyuq-sazaq şəhərin özündə bir elə hiss olunmurdu, ancaq şəhərdən aralanan kimi əsməcəsi başlayırdı. İllah da ki, ayağı… Elə üşüyürdü ki, sızıltısı beyninəcən işləyirdi. Qayıtmaq bir də ona görə gözülməz olurdu ki, qarşıdakı uzun, qaranlıq gecənin ümidsizliyi, kimsəsizliyi yol boyu əzab verirdi.

Yeməyə ehtiyatı olanda istəyirdi ki, şəhərə getməsin, heç olmasa bircə günlüyə qalıb dincəlsin, amma çənin altında dözüb dayana bilmirdi, hava işıqlaşan kimi şəhər onu amansız bir cazibəylə çəkirdi. Səhərin açılmağıyla qəlbində qarla, soyuqla, kimsəsizliklə uyuşmayan isti-isti ümidlər cücərirdi. Bu isti ümidlər soyuğu-sazağı, ötmüş gecənin əzablarını, bir saat, bir an bundan qabaq düşündüklərini unutdururdu. Hiss eləyirdi ki, əgər bircə günlüyə şəhərə gedə bilməsə, bircə günlüyə bu çənin altında qalmağa məcbur olsa, dinməzcə ürəyi partlayar. Ona görə də hər şeyi unudub təzədən şəhərə yollanırdı. Şəhərə gələndə havadakı sazağı, dizə qədər qalxan donmuş qarın üstündə qoltuq ağaclarıyla yeriməyin çətinliyini hiss eləmirdi. Şikəst adam üçün hədsiz uzaq olan bu yolu az qala uça-uça gedirdi. Ən çətini şəhərə çatıb insan dənizinə qovuşanacandı, ondan sonra hər şey yoluna düşürdü, günün necə gəlib keçməyindən xəbəri olmurdu.

Amma bir dəfə…

Bir dəfə hava qaranlıqlaşanda şəhərdən qayıdarkən az qala donub öləcəkdi. O zaman necə xilas olduğu indinin özündə də ona möcüzə kimi gəlirdi. Orası yadındaydı ki, xəstəydi, qızdırmadan başı bədəninin üstündə dayanmırdı. Bəlkə buna görə idi ki, bayırdakı qarı-soyuğu tamam unutmuşdu. Qızdırma güc gələndə huşu başından çıxırdı. Bilirdi ki, belə vəziyyətdə yatağından qalxmamalıdı, heç olmasa qızdırması çəkilənəcən yatıb yüngülləşməlidi. Amma necə oldusa günorta üstü bir qədər özünə gələn kimi oldu. Şəhərə qədər olan yolu da necə gəldiyini bilmədi.

Yeməyə iştahası yoxdu, təkcə çay istəyirdi. O günü cibinin bütün qəpik-quruşlarını çaya xərclədi.

Hava əvvəlcə yumşaq idi, lopa-lopa qar yağırdı. Axşama yaxın qar kəsdi və havanın ayazımağıyla xəncər kimi kəsib doğrayan külək başladı. Birdən-birə yorulduğunu hiss elədi. İstəyirdi ki, birtəhər özünü çənin altına çatdırıb yatağına uzansın. Yol boyu bu neçə ildə şəhərə yaxın bir yerdə «mənzil» düzəldə bilməməsinə görə özünü lənətləyirdi.

Şəhərdən xeyli aralanmışdı. Neçə gündən bəri ara vermədən yağan və gecələr donub bərkiyən qar az qala dizə çıxırdı. Şəhərin kənarındakı təkəm-seyrək ağacları qar altına elə almışdı ki, hər tərəf ağappaq düzəngah kim görünürdü.

Yıxılmamaq üçün yavaş-yavaş addımlayırdı. Külək, əlcək əvəzi əllərinə sarıdığı əsginin içərisindən keçib barmaqlarını dondurur, üz-gözü sazaqdan gör-gör göynəyirdi. Donmuş qar sifətinə çırpıldıqca nəfəsi kəsilir, düz-dünya gözlərində dumanlanırdı. Özünü toplamaq, nəfəsini dərmək üçün bir anlığa dayanıb dururdu. Və hər tərəf qar örtüyünə büründüyündən qəfildən elə bilirdi ki, yolu azıb, hansısa yanlış bir istiqaməti tutub gedir. Səmti müəyyənləşdirmək üçün axtarıb şəhərin işıqlarını tutur, sonra yenidən ağır-ağır yoluna davam eləyirdi.

Hava amansızcasına soyuyur, yol isə uzandıqca uzanırdı.

O, soyuğun amansızlığına, yolun uzunluğuna təslim olmadan gedirdi.

Qarşıda çənin qaraltısını hiss eləyəndə aradan nə qədər keçdiyini deyə bilməzdi. Ona elə gəlirdi ki, bütün gecəni ayağını qatlamadan yol gəlib. Çənə çatan kimi içəri keçib ocaq qalayacaqdı, nə yaxşı ki, dünəndən odun ehtiyatı görmüşdü. Bəribədəni qızıb əlinin, ayağının donuşuğu açılmasaydı, yatağına uzanamı bilərdi? İndidən çırtaçırtla yanan ocağın istisini, alovunu, içərini bürüyən tüstünün xoş ətrini hiss eləyib soyuqdan keyimiş bədənində bir istilik duyurdu və «mənzil»inə yetişmək üçün addımlarını yeyinlədirdi.

Amma birdən…

Birdən ayağı sürüşüb təpəsi üstə yerə gəldi. Başı daşamı dəydi, yoxsa qarın içərisində donub qalmış buz parçasınamı çırpıldı, bilmədi. Huşunu itirdi.

…Üstündən nə qədər keçdiyini xatırlamırdı. Elə bil olub keçənlər ağır-amansız bir yuxunun arxasında qalmışdı. Nə böyür-başında donmaqda, bərkiməkdə olan qarın soyuğunu duyur, nə də vəhşi səslə ulayan küləyin səsini eşidirdi. Elə bil soyuq qarın içərisinə deyil, yumşaq, isti yatağa uzanmışdı və qarın soyuğu təkcə əzalarını yox, şüurunu, yaddaşını da dondurmuşdu.

Uzaqda, mavi, dupduru səmanın dərinliklərində xırdaca ulduzlar işarırdılar. Sanki ulduzlar soyuqdan qaçıb göyün dərinliklərinə çəkilmişdilər. Çovğunun belədən-belə sovurduğu qarın içərisindən o xırdaca ulduzları gördü və birdən-birə ayağının sürüşdüyünü, müvazinətini itirərək qarın içərisinə yıxıldığını xatırladı.

Yavaş-yavaş yol yeridiyi yerdə niyə yıxılıb huşunu itirdi, görən? Yıxılıbmı huşunu itirdi, yoxsa huşunu itirib yıxıldı?.. Bunun nə fərqi vardı ki... Amma çoxdan yıxılıbdısa, belə vaxtda çətin ki, ayağa qalxa bilsin. Yoxsa...

Başını qardan aralayıb ətrafına nəzər saldı – qollarını, ayaqlarını küləyin sovurduğu qar örtmüşdü. Huşu özünə bir az gec qayıtsaydı, büsbütün qarın altında qalacaqdı...

Külək yalquzaq səssiylə ulayırdı. Yenə o səsi – ölümündən bir gün qabaq babasını çağıran canavar səsini xatırladı.

Bu xatirənin vahiməsi bircə anda yaddaşı boyu axaraq onu özünə qaytardı.

Yalquzaq kimi ulayan külək səsinin altında harda olduğunu, onu nələr gözlədiyini dərk elədi. Dərk elədi ki, indicə ayağa qalxammasa, bir qədər sonra bu mümkün olmayacaq, küləyin sovurduğu soyuq qarın altındaca gözləri baxa-baxa can verəcək. Bunu təsəvvürünə gətirəndə varlığı gizildədi. Bu qəfil qorxunun gətirdiyi qeyri-adi qüvvənin təsiriylə birdən-birə sıçrayıb qarın içərisində oturdu.

Bayaq yıxılıb huşunu itirərkən qoltuq ağaclarının biri altında qalmış, o biri xeyli aralı düşmüşdü. Əlini uzadıb ağacı götürmək istədi, ancaq keyləşib gücünü itirmiş barmaqları sözünə baxmadı. İki əlli tutub birtəhər ağacı özünə tərəf çəkdi.

Xeyli əlləşəndən sonra çətinliklə ayağa qalxdı və ayağa qalxmağıyla gözləri qaranlıq gətirib təzədən qarın içinə yumalandı. Bu dəfə huşunu itirmədi, yıxılan kimi də durmağa cəhd elədi, amma nə illah elədisə bacarmadı. Qarın, soyuğun dondurduğu xəstə bədənində tab-taqət qalmamışdı.

Küləyin vəhşi səsi qulaqlarında böyüyürdü. Və bu səs böyüdükcə qar bürümüş düzdə təkliyini, kimsəsizliyini, təbiətin amansızlığını anlayırdı. Anlayırdı ki, bu dəqiqələrdə son gücünü toplayıb ayağa qalxmasa, daha heç vaxt qalxammayacaq.

Ayağa qalxmaq üçün bir də həmlə elədi. Ancaq qəddini düzəltməmiş başı gicəllənərək qarın içinə yıxıldı və bir müddət hərəkətsiz uzanıb qaldı.

...Yox, deyəsən, daha qalxa bilməyəcək, nahaq yerə əlləşir, çabalayır. Bəlkə heç qalxmasın, elə beləcə uzanıb qalsın... Bir azdan heç nəyi hiss eləməyəcək, əli-qolu, damarları donacaq, gözləri, bəbəkləri donacaq. Sonra yaddaşı donacaq... Bəlkə elə qisməti bu qarlı düzənlikdə soyuqdan, şaxtadan donub ölməkdi? Belədisə, niyə ölümdən qaçmağa, qurtarmağa can atır? Bir dəfə

ölümdən qaçıb neyləyə bildi ki, bir daha qaçsın… Olsun ki, belə əzabsız, əziyyətsiz ölüm bir də taleyinə yazılmayacaq. Gec-tez ölüm gözləmirdimi onu?.. İlahi, bu fikirlər hardan gəlib beyninə doldu belə bir vaxtda? İnsan da ölümə belə asan təslim olarmı? Yox, yox... Ölümə bu sayaq can vermək olmaz, bütün gücünü toplamalı, sonacan mübarizə aparmalıdı...

Daha ayağa qalxa bilməyəcəyini qət elədiyindən sürünməyə başladı.

Başını qaldırıb baxanda «mənzil»i iki addımlığındaymış kimi görünürdü, ancaq nə qədər sürünürdüsə çata bilmirdi. Bədəni haldan düşdüyündən o qədər ağır sürünürdü ki, elə bil qarışqa hərəkət eləyirdi və fikirləşirdi ki, çənə yaxınlaşmaq əvəzinə uzaqlaşır. Amma çevrilib qar üstüylə uzanan izinə baxanda hərəkət elədiyini duyurdu. Görmürdü, yalnız duyurdu, çünki bu görünməz bir hərəkətdi. Və bayaq yıxıldığı yerdən «mənzil»inə yetişənəcən aradan nə qədər keçdiyini yenə deyə bilməzdi. Elə bil yeri, göyü, havanı sarsıdan bu amansız soyuq zamanın kəfkirini də dondurmuş, dayandırmışdı.

Külək qarı sovurub çənin girəcəyini tutmuşdu. Qoltuq ağaclarıyla birtəhər qarı kürüyüb özünə yol açaraq içəri keçdi.

İçəridə küləyin səsi daha dəhşətliydi.

Gözləri qaranlığa alışana qədər gözlədi.

Külək, şaxta onu elə hala salmışdı ki, sanki canlı deyil, insan görkəmində buz parçasıydı.

Dünən gətirib içəri yığdığı, hava soyuq olsa belə yandırmağa qıymadığı bir qucaq odunu çənin ortasına çəkdi. Şüşədəki neftin yarısını odunun üstünə boşaltdı. İçəri soyuq olduğundan qorxurdu ocaq yanmaya, kibrit alışmaya. Ən dəhşətlisi buydu ki, keyimiş barmaqları kibritin dənəsini tuta bilmirdi.

Tonqalı alışdıranacan xeyli çəkdi. Ocaq tüstülənəndə artıq yarımcan haldaydı. İstini buraxmamaq üçün az qala ocağı qucaqlamaq istəyirdi. Qulaqlarını ovxalayıb donuşuğunu açmaq üçün bir xeyli əlləşdi. Əllərini bir-birinə o qədər sürtmüşdü ki, dərisi göynəyirdi. Soyuqdan kəsilmiş burnuna isti dəydikcə elə

bil iynə yeridirdilər.

Bir azdan çırtaçırtla yanan ocağın başında istidən xumarlanırdı. İstinin xumarı bayırda vəhşi səslə ulayan küləyin səsini batırırdı. Ocağın istisi içəriyə elə bir hərarət gətirmişdi ki, cəmisi iki addımlığında – çəndən bayırda qarın dizəcən qalxdığını, küləyin ac-ac uladığını unutmuşdu.

Yatağını tonqalın lap yanında saldı. Pallı-paltarlı yerinə uzanaraq üzünü ocağa çevirdi. Get-gedə durulan, şəffaflaşan ocağın alovu gözlərində əks eləyirdi. Soyuq, çovğun o qədər qorxutmuşdu ki, bir də ocağın yanacağına, bir də istiyə qızınacağına inanmağı gəlmirdi. Ocağın bütün odunu, istisini axıracan canına yığmaq üçün nə edəcəyini bilmirdi.

Nə vaxt yuxu apardığından xəbəri olmadı.

## XII FƏSİL

Gecənin bir aləmi yatağındaca hiss elədi ki, qızdırma içərisində qovrulur. Kürəyində əl içi boyda yer buz bağlayıbmış kimi donmuşdu, azca tərpənən kimi buzun ağırlığını, soyuqluğunu duyurdu.

Dodaqları susuzluqdan qupquru qurumuşdu. Bircə stəkan çay, ya bir parç qaynar su olsaydı... Durub çay qoymağa taqəti yox idi; həm su tapmaq lazım idi, həm də çır-çırpı yığıb ocaq qalamaq. Bunları da xəstə canıyla eləyəmməyəcəkdi. O biri yandan da xəstə-xəstə belə qarda, çovğunda bayıra çıxmaq ağılsızlıq idi. Ona görə də çaydan ümidini üzüb eləcə uzanmaqdan savayı özgə bir çarəsi qalmırdı.

Bir azdan titrəmə başlayacaq, kürəyində buz kimi donub qalan o əl içi boyda yerin soyuğu damarları boyu axacaqdı. O zaman cır-cındırdan düzəltdiyi bu nazik yorğançada heç cür canı qızmayacaqdı. Bircə yorğanı qalın olsaydı, bircə tərləyə bilsəydi… Ancaq öz xasiyyətini yaxşı bilir – üstünə lap beş-altı yorğan örtsə belə xəstəliyi keçməyincə tərləyən deyildi. Xəstəliyi sovu-

şub bir balaca yüngülləşən kimi heç nədən tər-su yuyub aparacaqdı.

Arabir qarnından kəskin sancı qalxırdı. Sancı qalxanda ağrının zərbindən yatağında bükülüb yumağa dönür, əlləri, dırnaqları ilə yeri-yurdu didib-dağıtmaq istəyirdi, ta ki ağrı keçməyincə açıla bilmirdi. Ona elə gəlirdi ki, içərisində bağırsaqları dartılıb gərilir, o andaca əyilməsə, bükülməsə qırılacaq... Amma sancı qəfil gəldiyi kimi, qəfil də sovuşurdu. Ağrısı keçəndən sonra dəhşətli bir halsızlıq duyurdu.

Günortadan xeyli keçənə qədər beləcə davam elədi. Axşama yaxın bir az yüngülləşən kimi oldu. Bədənini bürüyən tərdən bildi ki, xəstəliyi keçib gedəcək. Bir az yatıb tərləsəydi, tamam özünə gələrdi, ancaq susuzluq onu əldən saldığından dili, dodaqları təpimiş, gözləməyə taqəti qalmamışdı.

Yatağında özü-özüylə xeyli çək-çevir eləyəndən sonra qalxıb şəhərə sarı yollandı ki, çaydan-sudan tapıb susuzluğunu söndürsün.

…İl boyu ümidli-ümidsiz ayaq döydüyü yol.

…Kim bilir, bu yolu nə qədər gedib qayıdacaq.

…Həyat, ömür ağır yük kimi çiyinlərindən asılmışdısa, niyə yaşayır, niyə dözüb dayanır? Axı, gözlərinin qabağındaca ömrü başdan-başa puç olub gedir, heçliyə sərf olunur... o isə qətiyyən belə istəmir, min-milyon kərə istəmir. Bəs nədən istəməyə-istəməyə bu cür yaşamağa məcbur olur. Axı, o da başqaları kimi yaşamaq, adam kimi ömür sürmək arzulayırdı, sürünmək, özündən qat-qat aşağılara əl açmaq istəmirdi. Amma bütün bunları elədi, dözdü, dözdü, dözdü… Bəs niyə, niyə?.. Əvvəllər, axı belə şeylərə qətiyyən dözümü yoxdu. Yoxsa adam öldürərdimi, elə dəhşətli cinayətlərə əl apardımı? Bu cinayəti o törətmişdisə, deməli alçaqlığa dözəmməmişdi, nahaq söz götürmək istəməmişdi, üzünə deyilən sözləri tüpürcək bilmişdi. Bəs indi niyə barışdı dünyanın bundan da betər eybəcərlikləriIə... İndi əzirlər, təhqir edirlər, gözlərinin içinə tüpürürlər, tükləri belə qımıldanmır. Elə bil insan deyil, canlı deyil, daşdı, kəsəkdi,

torpaqdı. Ürəyi yoxdu, hissləri yoxdu, laldı, kardı, düşüncəsizdi... Aman allah! Allah? Allah vardımı? İlahi, sən varsanmı? Varsansa hökmünü, iradəni niyə göstərmirsən? Axı, niyə? Niyə dayanıb durursan? Sən yaradıb səpməmisənmi yer üzünə insanları... Niyə yaratdıqlarını bir-birinin qabağında əzirsən, alçaldırsan? Niyə onlara qarşı belə amansızsan, ilahı?! Niyə onları yarandıqlarına peşman eləyirsən? Bu nə zulumdu çəkdirirsən məxluqata?.. Axı, yaratdıqlarını dünyaya çılpaq gətirib çılpaq aparırsansa, birinin zənginliyi, birinin həqirliyi nədəndi? Niyə ömür verdiklərin bir-birinə bu qədər yaddı, uzaqdı... İnsan çörək üçün də əl açmalıdımı?.. Çörək üçün də əl açmalıdımı?.. Əl açmalıdımı?..

Ömrünün uşaqlıqdan qocalığa adladığına inana bilmirdi. Sanki yaşının, ömrünün uşaqlıqla qocalıq arasındakı illərinin üstündən qara xətt çəkmişdilər, zorla yaddaşından qoparmışdılar. Ona elə gəlirdi ki, həyatı, ömrü erkən yaşında, uşaqlığının bitdiyi çağlarda öz məcrasından çıxıb və qocalığın başladığı illərəcən səmtsiz, məcrasız axıb. Ona görə də ömrünün bu illərinin necə yaşandığını, günlərinin hansı qayğılara sərf olunduğunu bilmir.

Yox, bu illəri yaşamamışdı, itirmişdi və bu itirilən illər ömrünün uşaqlıq və qocalığı arasında başgicəlləndirən boşluq, dərin, dibsiz, keçilməz uçurum qoyub getmişdi.

…Sonu-səmti bilinməyən düşüncələrin ağırlığı altında şəhərə nə vaxt çatdığını bilmədi. Özünü ucu-bucağı görünməyən insan dənizinə vurdu – hər şey, hər şey yaddaşında göy dumana büründü.

Axın onu çəkib aparırdı…

Neçə gündən bəri əzab verən xəstəliyini unutmuşdu.

Amma hansı bir qüvvəsə onu insan dənizindən ayırırdı, çəkib saxlayırdı.

Dözə bilmədi, dayandı; bir anlığa gözləri önündə aram-aram ləpələnən insan dənizini süzdü.

…Hansı gizli qüvvəydi onu yolundan saxlayan, axından çəkib ayıran?.. Niyə əvvəlki sayaq insan nəhrinə uyuşa bilmir, axınla ayaqlaşa bilmir?..

Sövq-təbii hiss elədi ki, hardansa göz qoyurlar. Ona zillənən baxışların ağrısını kürəyində duydu – kürəyi sızıldadı.

Dərhal çevrildi.

«…Göyüşov?! Aman allah!..».

– Aaaauuuu!!!

Ondan qopan səs qışqırıqmıydı, yoxsa ulartımıydı – özü öz səsindən səksəndi. Bu səsə insan dənizi durdu, qayıtdı, bir anlığa təkbətək insan axınıyla üz-üzə qaldı.

Sonra yenə…

Unutmuşdu, onu keçmişə bağlayan nə vardısa, illər boyu aclıq amansızcasına qoparıb əlindən almışdı. Amma indi Göyüşov birdən-birə yaddaşında vaxtın unutdurduğu hər şeyi təzələyir, çözələyir, onu çoxdannan ayrıldığı vahimə və səksəkə dolu uzaq keçmişə qaytarırdı.

Nəfəsi sinəsində tıxanıb qaldığından boğulurdu, çabalayırdı, az qalırdı gözləri yerindən çıxa.

– Aaaauuuu!!! – Özünün qışqırığına ayıldı.

Qoltuq ağaclarını bədəninə elə sıxdı ki, deyirdin dartıb əlindən alacaqdılar. Tək ayağı olduğunu nə vaxt unutduğunu bilmirdi. Adamları o yan bu yana itələyə-itələyə yüyürürdü. Elə bil ilan qovurdu onu. Çevrilib arxaya baxmağa ürək eləmirdi, sanki çevrilsəydi, daşa dönüb yolun ortasındaca qalacaqdı. Qaça-qaça içərisində nə isə baş verdiyini hiss eləyirdi: dəyişirdimi, dönüb ayrı adam olurdumu, yaddaşı qayıdırdımı, bilmirdi. Zaman keçdikcə özü də duymadan yaddaşında boz rəngə dönmüş dünya yavaş-yavaş əvvəlki rənginə qayıdırdı; özü özünü tanıya bilmirdi. Bütün bunları yaddaşında bu günəcən necə gətirib gəlmişdi? Elə bil Göyüşovdan yox, keçmişindən qaçırdı, ömrünün tərpətmək, oyatmaq, qaytarmaq istəmədiyi acı xatirələrindən qaçırdı.

Dörd-beş küçə keçib adamların gur yerinə çataraq dayandı,

kürəyini binanın daş divarına söykəyib nəfəsini dərdi. Cibindən dəsmal əvəzi cındır parçasını çıxarıb üzünü, alnının soyuq tərini sildi. «Aman allah, bu nə dəhşətdi belə? Bu uzaq şəhərə necə gəlib çıxıb? Onu öz əllərilə öldürmədimi, qanına qəltan eləmədimi? İndi yuxumu görür, qaramı basır onu…».

Hələ də çevrilib arxaya baxmağa qorxurdu. Eləcə halsız divara söykənib Göyüşovu görməklə birdən-birə yaddaşında oyanan keçmişin qatma-qarışıq lövhələrini sahmanlamağa çalışırdı. O adamı necə öldürdüyünü bütün təfərrüatınacan xatırlayırdı. Hətta dəmir parçasını yerdən qapıb necə selbələdiyini, Göyüşovun gicgahına necə batdığını, yaradan fışqıran qanı – hər şeyi gözlərinin qabağına gətirirdi. O sifət, o sifətin təbəssümləri, zəhmi, rəngi yaddaşında elə durulurdu, elə aydınlaşırdı ki, canına üşütmə düşürdü, bir vaxt elədiyi cinayətin qanında, damarlarında gizlənmiş qorxusu oyanıb qalxırdı.

Ruhunu oğurlamaq istəyirmiş kimi varlığına işləyən o gözlərin soyuq, amansız işığına dözmək, tab gətirmək mümkün deyildi. Bir də orası dözülməz idi ki, kölgə onu gizlənə-gizlənə, daldalana-daldalana izləyirdi; elə də ağır hərəkət eləyirdi ki, deyirdin suyun altıyla yeriyir. Sanki girəvələyib qoltuq ağaclarını oğurlamaq istəyirdi ki, qaçıb qurtara bilməsin. Açıq-açığına üstünə gəlsəydi, bir belə qorxub çəkinməzdi. «...İlahi, hara qaçmalıdı, neyləməlidi, o gözlərin soyuq işığından nə yolla qurtarmalıdı yaxasını? Başını birtəhər girlədiyi yerdə bu nə işdi gəlib düşdü?..».

Qayıdıb küçə boyu axan insan nəhrinə qarışmağa cürət eləmədiyindən kölgənin varlığını, o gözlərin müdhiş, dözülməz işığını unutmaq üçün yolun sağındakı hündür binaya – univermağa girdi.

* * *

Univermağın içərisində adamların gur olduğu yerlərdə gəzirdi ki, bir kimsənin diqqətini cəlb eləməsin. Çünki bir yandan

qovulub bayıra çıxarılacağından, o biri yandan da kölgənin arxasınca düşüb izləyə biləcəyindən qorxurdu.

Mavi paltar geymiş satıcı qızlara, rəflərə səliqə ilə düzülmüş cürbəcür mallara, rəngli işıqlarla bəzədilmiş vitrinlərə soyuq bir etinasızlıqla baxırdı. İndi dünyanın bu üzü onunçün qapanmışdı, tamam qapanmışdı. Uzaqdan-uzağa axtardığını tapıb sevinən, nə isə almaq üçün kassada növbəyə dayanan adamları da eyni soyuq təbəssümlə süzürdü. Bir vaxt həsəd apardığı bu insanlara qarşı özü də bilmirdi ki, niyə belə biganədi. Bu insanlarla arasındakı uçurumun, ayrılığın haçan, necə yarandığını, niyə yarandığını başa düşəmmirdi.

Maraq hissi onu univermağın yuxarı başındakı uzun növbəyə tərəf çəkir. Növbədə dayananlardan uşaq üçün yun şalvar satıldığını soruşub öyrənir. Yaxınlaşıb baxmağa imkan olmadığından bir kənarda dayanıb növbəyə tamaşa eləyir. Camaat bu yun şalvarın üstündə elə didişir ki, guya ala bilməsələr, dünya dağılacaq. Qeyri-ixtiyari olaraq bir vaxtlar belə basabasda uşaqlarına nə isə aldığını və bunun ona sevinc gətirdiyini xatırlayır. Xatırlayır və dərhal da bunun illərin arxasında qaldığına və bir daha təkrar olunmayacağına acıyır.

Özü də bilmədən növbəyə dayanır. Çox keçmədən arxasında cavan bir gəlin duraraq onun axırıncı olub-olmadığını soruşur. Başını tərpətməklə cavab verir. Sonra növbə yavaş-yavaş böyüyüb uzanır.

Qabaqda dayanan orta yaşlı eynəkli qadından:

– Bilmirsiniz, şalvarın qiymətini? – soruşur.

Qadın gözlərini əlində oxuduğu kitabdan ayırmadan:

– İki manat, – deyir.

«Nə yaxşı ki, ucuzdu». – Öz-özünə düşünür. Növbəsi yaxınlaşdıqca sevinir, elə bilir ki, doğrudan da nə isə alacaq və aldığı bu paltarla uşaqlarını sevindirəcək.

Qabaqda kimsə növbəsiz soxulmaq istəyir, qadınlar yerbəyerdən qışqırışırdılar. Adamların çörəkdən ötrü deyil, uşaq şalvarından ötrü belə canfəşanlıq etməsi ona qəribə gəlir.

Növbəsinə hələ bir xeyli qalsa da, əllərini cibinə salır – bircə qəpiyi belə yoxdu. Dərhal ruhdan düşür. Adamlardan aralanıb bir kənarda dayanır və növbəsi yaxınlaşan bu xoşbəxt adamlara tamaşa etməyə başlayır.

Növbə irəlilədikcə təzə-təzə adamlar gəlib qoşulur. Bayaq arxasında dayanan cavan gəlinin növbəsi çatandan sonra ordan uzaqlaşır. Adamları aralaya-aralaya gəlib çilçıraqlar satılan bölmənin qabağında dayanır.

Bir vaxtlar mağazaya girəndə çilçıraqlar satılan bölməyə gəlib doyunca tamaşa eləyərdi. Hər dəfə seçməyə gəlibmiş kimi hamısını gözdən keçirərdi, bir-bir yandırıb işığına, yaraşığına tamaşa eləyərdi. Hər dəfə də elə ümidlə ayrılardı ki, elə bil gerçəkdən alıb aparırdı.

İndi də çilçıraqların qabağında bir zamanlar dayandığı kimi dayanmışdı. Nə isə almaq üçün o tərəf bu tərəfə vurnuxan adamları görmədən dayanıb gözlərini tavanda yanaşı asılmış saysız-hesabsız çilçıraqlardan çəkəmmirdi.

– Sizə nə lazımdı? – Satıcı qadın soruşur.

Bu səsdən diksinir:

– Çilçıraq almaq istəyirəm, – gözlərini bir-birindən yaraşıqlı çilçıraqlardan çəkmədən dillənir.

– Bir saatdı dayanıb baxırsınız…

– Bilmirəm hansını alım…

Satıcı qadın göz qırpımında onu başdan-ayağa kimi süzür. O, sürətlə vücudundan keçən bu baxışlarda nifrət və etinasızlıq duyur.

– Burda çox dayanmaq olmaz, alacaqsınızsa alın, almırsınız, çıxın gedin. Onsuz da adam əlindən tərpənmək olmur. Siz də bir yandan yolu tutub durmusunuz…

Satıcı qadının kişi səsinə bənzər qalın səsini eşitməmək üçün dönüb gedir. Amma nə qədər ki, içəridə basabasdı, ondan xəbərsizdilər, çıxmaq istəmir. Pəncərədən küləyin tərpətdiyi çılpaq budaqlar gözlərinə sataşan kimi damarlarında oyanan soyuq

onu tutub saxlayır, getməyə qoymur.

* * *

Axşamdan keçmiş vağzaldan qayıdanda «mənzil»ini yerində görmədi. Dəmir çəni sürüyüb aparmış, cır-cındırından yığıb düzəltdiyi, tikib-quraşdırdığı yorğan-döşəyini od vurub yandırmışdılar. O yurd-yuvadan əsər-əlamət qalmamışdı. Çənin yerində bir topa kül qaralırdı.

«İndi hara getsin? Gecəni harda keçirsin? Pis-yaxşı çənin altında birtəhər keçinirdi. Şəhərdə əlinə düşən cır-cındırı yığıb bura gətirmişdi. Köhnə-külə də olsa yatacağı vardı; soyuq gecələrini yola verirdi. Bəs indi neyləyəcəkdi? Harda yaşayacaqdı? Yenə küçələrəmi düşəcək, yenə vağzalamı gedəcək. Gecənin bir aləmi yenəmi onu vağzaldan qovacaqlar?».

O, bir topa külün başında oturdu. Ocaq təzəcə söndüyündən hələ külün istisi çəkilməmişdi. Ayın aydınlığında bir topa qara kül onu keçmişə qaytarırdı, bu şəhərə gəldiyi ilk günlərə, bu yurdu-yuvanı özünə məskən elədiyi çağlara qaytarırdı. Bu bir topa qaraküldən onun şəhərdəki ömrü boylanırdı, qaraçı qızıyla keçirdiyi sirli gecə boylanırdı, xatirələri boylanırdı. Elə bil hər şeyi yığıb-yumrulayıb bir topa külə döndərmişdilər.

Birdən şəhərin kənarında ayağını basdırdığı qəbir yadına düşdü. Ona elə gəldi ki, burdakı yurd-yuvası kimi ayağını basdırdığı o qəbrin də başdaşını uçurublar, yerini itiriblər.

Dərhal qoltuq ağaclarını götürüb ayağa qalxdı. Hiss elədi ki, gecəynən gedib qəbri görməsə, rahatlana bilməyəcək.

Gecənin qaranlığında kəsə yolla ayağını basdırdığı yerə gedirdi. Nə gecənin qaranlığı, nə yolun uzunluğu onu qorxudurdu. Yanaqlarından, boyun-boğazından sel kimi axıb gedən təri hiss eləmirdi. Hər şeyi, hər şeyi yaddan çıxarmışdı.

Qəbrin üstə gəlib çatanda səhərə az qalırdı. Hava ayazımışdı. Bapbalaca bilək yoğunluğunda başdaşını görcək rəngi-ruhu üstünə gəldi.

«…Onun qəbri də kəsilmiş ayağının üstündə dikəltdiyi bu bilək boyda başdaşı kimi yiyəsiz olacaq. Lap elə bu saat yıxılıb ölsə, sürüyüb hardasa basdıracaqlar. Basdıracaqlar deyəndə, yeri külünglə qazıb üstünü torpaqlayacaqlar, vəssalam. Rəhmi gəldikləri üçün yox, meyit çöldə, bayırda qalıb üfunət iyi verməsin deyə torpağa quylayacaqlar. Bilməyəcəklər ölənin kim olduğunu… Heç kəs də şəhadət verməyəcək – üstündə sənədi-filanı da yoxdu. Bəlkə ölüxanada saxlayıb ora-bura xəbər göndərəcəklər, bir-iki həftə bu ümidlə gözləyəcəklər ki, yiyəsi tapıla. Yiyəsi isə tapılmayacaq. Sonra arxayınca torpağa quylayacaqlar və hər şeyə birdəfəlik son qoyulacaq. Bəlkə heç üstündə başdaşı da ucaldılmayacaq. Ölənin kimliyi bilinmirsə, başdaşını qoymağın bir mənası varmı? Əgər başdaşı qoyulsa, ora təkcə ölüm tarixini yaza bilərlər, çünki ölən haqqında yeganə bildikləri fakt bu olacaq».

O günü qaş qaralanacan havalı kimi gəzdi. Axşam üstü yaman gün üçün yığıb saxladığı pullarını son qəpiyinəcən içkiyə xərclədi. Getməyə yeri olmadığından şərabın havasına qızınmaq, varlığını çulğayan dözülməz duyğulara sinə gərmək üçün gecədən xeyli keçənə kimi içdi.

* * *

Səhər başının ağrısına gözlərini açanda özünü dəniz vağzalından azca aralı, qalın küknar ağaclarının dibində uzanmış gördü. Nə qədər fikirləşdisə, buraya necə gəlib çıxdığını yadına sala bilmədi.

Bir vaxtlar bu küknar ağaclarının dibinə yığılan boş taxta qutuların arasında uzanıb dincəlmək üçün özünə yer düzəltmişdi və dəniz vağzalına yaxın olduğundan gündüzlər tez-tez buraya gələrdi. Sonra günlərin birində taxta qutuları həmin yerdən daşıyıb aparmışdılar və o vaxtdan bəri bu tərəflərə keçməmişdi.

Başının ağrısından gözlərini aça bilmirdi. Bir şey tapıb içməliydi ki, özünə gəlsin, yoxsa bütün günü baş ağrısı onu gic

eləyəcəkdi.

Şəhərə tərəf baş aldı, çünki bu vaxtlar dəniz vağzalında nəsə tapıb içəcəyinə ümidi yox idi. Şəhərsə böyük idi; pivəxanalarda, yeməkxanalarda qabaqdan qalan içkilərdən heç olmasa bir şey tapıb içə biləcəyinə ümid eləmək olardı.

Dənizdən əsən soyuq səhər küləyi küçələri süpürə-süpürə şəhərin içərilərinəcən gedirdi. Və küləyin süpürdüyü küçələrdə həyat təzə-təzə canlanır, tək-tək harasa tələsən adamlardan başqa ins-cins gözə dəymirdi. Bu tək-tək adamlarıyla şəhər elə yetim görünürdü ki, bir azdan küçələrin oyanacağına, izdihamla qaynayacağına inanmaq olmurdu.

Pivəxananın qabağında iki-üç nəfər dayanıb gözləyirdi. Üz-gözlərindən aydın bilinirdi ki, dözməyə, gözləməyə səbirləri çatmır, az qala saniyələri sayırlar – amma vaxta hələ xeyli vardı. Pivəxananın qabağında dayanıb gözləyən o adamlardan biri – balaca, cılız, gözləri eynəkli adamı tanıdı. Həmişə səhərlər pivəxana açılmamış qapının ağzını kəsdirərdi. Hərdən axşamlar da onu burda görərdi.

Get-gedə adamlar çoxalmaqdaydılar. Pivəxana açılanda içəri keçdi. Qapının ağzında o qədər gözləyən vardı ki, içəridə dərhal növbə sıralandı.

Cibində bir qəpiyi yox idi, ancaq nə yolla olursa-olsun içmək istəyirdi. Başı elə ağrıyırdı ki, sanki beyninə iynə yeridirdilər. Bir yandan da əsməcəsi tutmuşdu və bilirdi ki, içməsə, nə başının ağrısı çəkiləcək, nə də əsməcəsi keçəcək. Fikirləşdi ki, bəlkə pivəsatana yaxınlaşıb bir parç nisyə pivə istəsin, lap yaxın günlərdə, əlinə pul gələn kimi borcunu qaytarar. Amma o saatca da fikrini dəyişdi, çünki pivəsatanı yaxşı tanıyırdı, bilirdi ki, canı çıxsa da nisyə verməyə razı olmayacaq.

Bəlkə növbədəkilərdən birinə yanaşıb bir parç pivə pulu xahiş eləsin? Axı, niyə bu qədər bədgümandı, bəlkə kimsə rəhm eləyəcək. Əl açdığı adamlardan azmı mərhəmət görmüşdü…

O vaxt kənddən şəhərə gəldiyi ilk günlərdə küçədə bir uşaq əl açmışdı ona. İndiyəcən bu əhvalatı unuda bilmirdi. Uşaq:

– İyirmi qəpik pul ver mənə, əmi, – demişdi.

Və uşaq əlini uzadıb başını aşağı salaraq dayanıb gözləmişdi.

Uşağın üst-başından cin hürkürdü. Ayaqyalın idi, kirdən üzünün, boyun-boğazının rəngi bilinmirdi.

Həmişə küçədə oturan dilənçilərə, şikəstlərə rəhmi gələrdi, dinməz-söyləməz çıxarıb pul verərdi, amma bu dəfə nədənsə vermək istəmədi.

– Neynirsən pulu, – dedi, – nə alacaqsan özünə?

– Dondurma. – Uşaq bunu elə sevinclə bildirdi ki, sanki pulun verilib-verilməməsi sözün necə deyilişindən asılıydı.

– Yox, verə bilmərəm, – əsəbiləşdi, – çörək alsaydın, başqa məsələ, onda verərdim.

Onda düşünmüşdü ki, üst-başı bu kökdə olan adam yalnız çörək barədə, qarnını doyurmaq barədə düşünməlidi. Ac-yalavac bir uşağın ürəyi istəsə belə dondurma yeməyə haqqı yoxdu.

– Əmi, onda çörək pulu verin.

– Sənin yalan danışmağın da varmış…

– Yalan danışmıram, çörək alacam.

– Axı, yalan deyirsən, gözünün içinə kimi yalan deyirsən, çörək alsaydın, əvvəlcədən çörəkpulu istəyərdin. Yalan danışmaq nə lazımdı. Çörəkpulu istəsəydin verəcəkdim.

– Siz verin, vallah, çörək alacam.

– Cəhənnəm ol burdan, bir də gözüm səni görməsin.

Uşaq bayaqdan bəri uzalı qalan əlini çəkib heç bir söz demədən çıxıb getmişdi. Sonralar bu əhvalatı xatırlayanda uşağa rədd cavabı verməsini heç cür özünə bağışlaya bilmirdi. O vaxt dondurma almağa haqqı olmadığı üçün uşağa pul verməmişdi. Bəs indi pivə pulu istəməyə haqqı çatırdımı? Axı, pivə də çörək deyildi…

İçəri adamla dolmuşdu, səs-küydən qulaq tutulurdu. Ayaq üstə dayanıb içən adamların arasıyla gəzib ora-bura göz gəzdirirdi ki, bəlkə qabaqdan qalan pivə parçlarından bir şey tapa

bildi. Amma stolların üstündə bircə dənə olsun yarımçıq içilmiş parç yox idi. Adamlar sözləşiblərmiş kimi son qətrəsinə qədər içmişdilər.

Turş pivə qoxusu onu vurduqca başının ağrısı daha da dözülməz olurdu. Az qalırdı ki, pivə parçını kiminsə əlindən qamarlayıb başına çəksin. Qoltuq ağaclarını taqqıldada-taqqıldada sağa-sola vurnuxduqca başı hərlənir, gözləri ayağının altını seçmirdi.

Özü də bilmədi nə vaxt pivəsatana yaxınlaşıb bir parç pivə istədi. Pivəsatan ağlına heç nə gətirmədən parçı doldurdu. Parç dolan kimi götürüb birnəfəsə başına çəkdi, əlinin dalı ilə ağzını sildi. Elə bil gözlərinə işıq gəldi.

Parçı yerə qoyub ciblərini qurdalamağa başladı. Pivə gözləyənlər yerbəyerdən bağırışıb satıcını tələsdirirdilər. Satıcı isə bu çığır-bağıra məhəl qoymadan onun pulu nə vaxt tapıb çıxaracağını gözləyirdi.

Bütün ciblərinin astarını çevirəndən sonra:

– Pulum yoxdu, – dedi.

– Pulun yoxdu, pivəni niyə içirdin, alçaq!..

– Yadımdan çıxıb, o biri pencəyimin cibində qoymuşam, sonra gətirərəm…

– Rədd ol, bir də ayağın buralara dəyməsin!

– Mən… mən…

– Sənin ananı…

Amma dayanıb dururdu və niyə dayanıb durduğunu özü də başa düşə bilmirdi. Elə bil bu sözlər, bu söyüşlər ona deyil, hansısa özgə bir adama deyilirdi. Birdən hiss elədi ki, pivəsatanı və ona baxanları inandırmaq, özünün hərəkətinə bəraət qazandırmaq üçün nə isə demək istəyir. Amma nə illah eləyirdisə, ağzını açıb danışa bilmirdi, elə bil dodaqları tikilmişdi.

Növbədə dayananlardan hansısa boynunun ardından yapışıb düz qapının ağzına aparıb qoydu. Bayıra çıxan kimi küləyin qovub gətirdiyi dəniz havası onu vurdu, ürəyi üstünə gəldi.

İçdiyi bir parç pivə yüngül xumar gətirmişdi.

Küçənin tinində cavan bir qadın dayanmışdı. Arxadan baxanda arvadından seçilmirdi. Boyu-buxunu, pal-paltarınacan eyni idi. Qadın balaca bir qız uşağının əlindən tutub durmuşdu, elə bil kimisə gözləyirdi. Bu oxşarlıq o dərəcədə güclüydü ki, qadının onun arvadı deyil, özgə adam olduğuna inana bilmirdi. Hər şeyi unudaraq küçəni keçməyə başladı.

Gizli bir səksəkə damarları boyu axmaqdaydı.

Küçəni keçib qadına tərəf addımladı. Yaxınlaşıb onun ikicə addımlığında dayanıb durdu. Ancaq qadın harasa başqa səmtə baxdığından gözlədi ki, ona sarı çevrilsin, sifətini yaxından görə bilsin.

Qadın arxasında yad adam həniri duyub çevrildi. Bir anlığa üz-üzə dayandılar və qadını lap yaxından gördü, gözlərinin giləsinəcən gördü.

O deyildi.

Sanki ürəyinin damarı qırıldı.

Özünü zorla ələ alaraq dönüb getmək istədi, ancaq hayana gedəcəyini bilmədi, elə bil özü öz içərisində azmışdı. Və birdən sol yanağında şillə zərbəsinin səsini duydu. Köhnə, tükləri yeyilmiş papağı başından düşüb dığırlandı.

Heç nə olmayıbmış kimi əyilib papağını yerdən götürmək istəyəndə arxadan ilişdirilən təpikdən üzüqoylu yerə yıxıldı, yanağı asfalt səkiyə çırpılıb qanadı. Amma nə ağrı duyurdu, nə də əsəbiləşirdi, sanki bunlar olmalıydı, qarşısındakının onu döyməyə, təhqir eləməyə haqqı vardı.

Ayağa durmağa taqəti olmadığından uzanmış vəziyyətdə bir xeyli gözlədi. Bir yandan da qorxurdu ki, ayağa dursa belə alacağı zərbədən təkrar yıxılacaq və daha qalxammayacaq.

Uzandığı yerdə ərinimi, aşnasınımı çəkib aparmağa çalışan qadının yalvarışlarını eşidirdi. Sonra qulağı söyüş aldı, daha sonra tüpürdülər və uzaqlaşan addım səsləri eşidildi.

Handan-hana ayağa qalxanda qara plaşlı ucaboy bir kişinin qadının qoluna girib getdiyini gördü.

Özünü elə rahat hiss eləyirdi ki, deyirdin onu vurmamışdılar, təhqir eləməmişdilər.

* * *

Bayaq içdiyi pivənin gətirdiyi xumarla birgə başağrısı da çəkilib getmişdi. İndi vağzala getmək istəyirdi.

Dəlixananın qabağından keçəndə içəridən gələn səs-küy onu fikirdən ayırdı. Bu qara hündür bina onda həmişə qorxu və səksəkə oyadırdı. Dəmir şəbəkəli pəncərələrdən sinəsi, baldırları açıq, bəzən lümlüt soyunmuş qadınlar, qızlar baxır, küçədən keçənləri çağırırdılar.

Bir dəfə dəlixananın yanından keçəndə açıq pəncərədən bir qadın çağırıb xahiş eləmişdi ki, mümkünsə qohum-əqrabalarına xəbər çatdırsın, gəlib bir yolla onu dəlixanadan çıxarsınlar. Qadın and-aman eləmişdi, göz yaşı axıtmışdı ki, dəli deyil, ağlıbaşı üstündədi, onu bura zorla gətirib salıblar. Qadını dinləyə-dinləyə ürəyində onun halına acımış və fikirləşmişdi ki, madam qohum-əqrabası uzaqda deyil, bu şəhərdədi, gedib deyər, nolar savabdı, günahsız yerə əziyyət çəkir burda. Yəqin evinə-ailəsinə xəbər yollamağa imkanı yoxdu, bir yandan da dəli olmadığını sübut eləyə bilmir. Axı, bu asan məsələ deyildi... Belə bir mühitdə necə sübut eləyəsən ki, dəli deyilsən, başqaları kimi sənin də ağlın başındadı, kiminsə səhvi ucbatından gəlib bura düşmüsən, yaxud odlu-alovlu hərəkətinimi, danışığınımı, sözünümü dəlilik sanıblar. Onsuz da boş-bekar küçələri dolaşırdı, işinin-gücünün adı nəydi ki… Qoy bir gününü də bu işə həsr eləsin.

Qadının danışığı elə səlis, göz yaşları elə təbii idi ki, inanmamaq olmurdu.

– Sənə qurban olum, qardaş, – deyirdi, – bu xəbəri bizimkilərə çatdıra bilsən, ömrüm boyu duaçın ollam. Burda dəlilərin arasında qala bilmirəm. Gecə səhərəcən qorxudan-hürküdən gözlərimə yuxu getmir. Döyürlər məni burda, ölüncə döyürlər. Bax, görürsən sinəmdəki yumruq yaralarını, – qadın yaxasını açıb sinəsinin qançır yerlərini göstərmişdi. – Deynən gəlib çıxar-

masalar, ya döyüb öldürəcəklər, ya da özüm-özümü asıb biryolluq canımı qurtaracağam. Bu qədər dəlinin içərisində ağıllı adam dözüb yaşayamı bilər… Qurban olum sənə, qardaş, get de, gəlib məni burdan qurtarsınlar. Bax, sənə ümidliyəm. O bir olan allaha and verirəm, mənim ümidimi qırma…

– Arxayın ol, bacı, mütləq çatdıraram, – qadına təskinlik vermişdi.

– Qoy, burdan qurtarım, görərsən xəcalətindən necə çıxacağam, sağlıq olsun. – Qadın dil boğaza qoymurdu.

– Heç bir şey lazım deyil, bacı, arxayın ola bilərsən, bu gün gedib xəbər verərəm.

Qadın göz yaşları tökürdü.

– Bilirsən, qardaş, – deyirdi, – kimə açıram ürəyimi, inanmır mənə, elə fikirləşirlər ki, bura düşmüsənsə, dəlisən. Andaman eləyirsən, inanmırlar, ən adi hərəkətində də dəlilik axtarırlar. Axı, mən dəli deyiləm, ağlım üstümdədi. Bilmirəm kim gətirib, necə gətirib salıb məni bura. Bircə o yadımdadı ki, iynə vurmaq istəyirdilər, qışqırırdım, qoymurdum, qaçıb qurtarmağa çalışırdım. Amma qollarımı bərk-bərk tutmuşdular, heç tərpənə də bilmirdim. Nə qədər çığırıb bağırdımsa, sözümə baxmadılar, zorla iynəni vurdular qoluma. Sonrası yadımda deyil. Özümə gələndə gördüm ki, məni dəmir çarpayıya sarıyıblar. Əvvəlcə elə bildim ki, xəstəxanadayam, sonra öyrəndim ki, bura… dəlixanadı.

Qızın göz yaşları yanaqları aşağı axıb gedirdi. O, göz yaşlarına dözəmmədiyindən qızı arxayın salıb getmək istəyirdi. Amma qəfildən qız:

– İstəyirsən səninçün çaynik olum, – dedi və büzüşüb oturaraq əllərini cütləyib qabağa uzatdı, çaynik pozasını aldı.

Elə bil birdəncə beynimə duman gəldi, adamlar, ağaclar, şəbəkəli pəncərələr gözlərinin qabağında üzməyə başladı. Əllərilə başını tutdu ki, yıxılmasın.

Handan-hana hər şey öz əvvəlki yerini aldı.

Qız yenə nə isə danışır, and-aman eləyirdi.

Daha bir söz deməyib çıxıb getdi.

İndi dəlixananın yanından keçəndə həmin əhvalat yadına düşdü və şəbəkəli pəncərədən baxan yarıçılpaq qadınların arasında gözləri o qızı gəzdi, gəzdi, amma tapmadı. Nədəndisə, o qəribə əhvalatla bağlı acı bir nisgil duydu.

…Avtobus dayanacağından bir azca aralı iki qız durmuşdu. Qızlar geyimləri, boy-buxunları ilə uzaqdan-uzağa seçilirdilər. Yoldan ötənlərin gözləri onlarda idi, hər xırda hərəkətlərini belə izləyirdilər. Tez-tez sağa-sola boylanmaqlarından, saata baxmaqlarından güman olunurdu ki, kimisə gözləyirlər və gözlədikləri adam gecikir.

Bu qızların sifətimi, saçlarımı, boy-buxunumu ona tanış gəlir, kimisə xatırladırdı. Və qəribə burasıydı ki, qızların biri yox, hər ikisi tanış gəlirdi, elə bil onları bir yerdə görmüş, bir vaxtda tanımışdı. Və bəlkə onlara ayrı-ayrılıqda rast gəlsəydi, tanımayacaqdı da…

Səkinin o biri üzündə dayanıb onları hardan tanıdığını xatırlamağa çalışırdı. Qəfildən yadına düşdü; qızları şəhərə gəldiyi ilk illər çimərlikdə görmüşdü.

…Sən bir işə bax… Gör bir o vaxtdan nə qədər keçir… Necə də yadında qalıblar. Necə olub ki, bu çağa kimi unutmayıb onları?

Aradan illər ötəndən sonra qızları xatırlaya bilməsinə özü də heyrət eləyirdi.

Qızlar ona görə yadında qalmışdı ki, əkiz imişlər kimi hər ikisinin baldırında xal vardı. O vaxt qızların yanında iki oğlan da uzanmışdı. Sahildən bir az aralı ağ bir çadır qurmuşdular. Oğlanlar növbə ilə o çadırda qızlarla əylənirdilər. Orda, dənizdə də qızlar adamların baxışları altındaydı. O isə çadırdan bir qədər aralı isti, yumşaq qumun üstündə uzanaraq dənizin üstündəki uzaq, əlçatmaz üfüqləri süzürdü.

Axşama yaxın onlar maşınlarına minib getmişdilər.

Sonra bircə dəfə də olsun bu qızları xatırlamamışdı.

İndi küçədən keçənlərin hamısı dayanacaqda durub gözləyən bu qızlara baxırdı, ancaq heç kəsin qızların baldırında olan o sehirli qara xaldan xəbəri yoxdu. Təkcə ondan başqa… Qızlar da ağıllarına belə gətirmir ki, qoltuq ağaclarına söykənib gendən-genə tamaşa eləyən bu şikəst adamın onların baldırlarındakı xaldan xəbəri ola bilər.

Qızların hərəkətlərini izləyə-izləyə qəlbində qəribə bir arzu doğdu. İstədi yaxınlaşıb onları tanıdığını, bir zaman çimərlikdə, ağ çadırın altında ikisindən biri, lap elə ən gözəgəlimlisi hündürboylu, sarışın saçlı ilə yatdığını desin. İnanmasalar nişanələrini söyləyib onları heyrət içərisində buraxsın. Bundan ötrü nə olacaqsa, qoy olsun. Bir də nə olasıdı ki…

Amma qəfildən mavi rəngli bir maşın sürətini azaldaraq yanlarında dayandı. Qızlar bunu gözləyirmiş kimi dinməz-söyləməz keçib arxa oturacaqda oturdular və maşın yerindən tərpənərək gözdən itdi. Asfalt boyu uzanan tüstü zolağı əriyib itənəcən gözlədi, sonra tini burulub insan dənizinə qovuşdu.

Və rahat nəfəs aldı…

Bu dənizdə özünü taleyin ümidinə buraxır, qov kimi atıb-tutan dalğaların hansı səmtə aparacağına məhəl qoymur. Genişlikdən, asudəlikdən gizli bir həzz duyurdu. Amma qorxurdu… qorxurdu ki, haçansa dənizdə bata bilər, boğula bilər, köməyinə, harayına yetişən olmaz, səsinə məhəl qoyulmaz… Çünki bu insan dənizidi, çünki bu dəniz sərtdi, sonsuzdu, amansızdı…

Və bu dənizdə yalqız, kimsəsiz olması ona dəhşətli gəlirdi. Allahın yaratdığı, ağılla, şüurla sərvətləndirdiyi insanların bir-birinə belə yaxınkən yad, uzaq məxluqlara çevrilməsinin sirrini dərk eləyə bilmirdi. Heç cür dərk eləyə bilmirdi ki, dalğaların ağzına alıb apardığı insanlardan onu ayıran hansı səbəbdi?.. Hansı səbəbdəndi ki, bir dənizdə üzdüyü insanlara qaynayıb qarışa bilmir, onlarla həmdərdə, həmsirrə çevrilə bilmir.

Bu düşüncələr çox davam eləmirdi – insan olduğunu unudanacan, insan dənizində üzdüyünü unudanacan çəkirdi. O vax-

tacan çəkirdi ki, hər şeyin qəzadan, qismətdən olduğunu və bunlardan qaçmağın, uzaqlaşmağın qeyri-mümkünlüyünü anlayırdı. Anlayırdı və yenidən özünü taleyin ümidinə buraxırdı.

…Dalğalarla pəncələşən insanların can atdığı, çırpındığı sahil ölümdüsə, ölümə aparırsa, bəs onda bu tələsmək nə deməkdi? Onunla çiyin-çiyinə üzən insanlar ölüm sahilinin qorxu yayan kölgəsini hiss eləmirlərmi? Hiss eləmirlərmi ki, günlərin bir günü bu dənizin dalğaları qoynundakıları əbədi olaraq o sahilə tullayacaq. Bu aydın həqiqət niyə dərk olunmurdu? Niyə dərk olunmurdu ki, hayana gedilməsindən asılı olmayaraq tələsmək yalnız və yalnız ölümə tələsməkdi, ölümə yaxınlaşmaqdı...

İndi belə düşünsə də, bir vaxt o da tələsirdi, tələsdiyini bilmədən tələsirdi. Öyrəşmişdi, vərdiş eləmişdi buna. Görünür, həyat elə tələsməkmiş. Həyat elə o imiş ki, insan tələsdiyini hiss eləməsin, günün hardan doğub harda batdığını bilməsin, ömrün necə sovuşduğundan xəbər tutmasın.

İndi isə tələsmir, heç yana tələsmir.

Tələsmirsə… deməli yaşamır. Yaşamadığını bir də ondan bilir ki, nəfəs aldığı dünyada onu özünə heç nə bağlamır. Səhərin açılmağının, axşamın düşməsinin fərqinə varmır. İnanmır, günəşə, aya, ulduzlara, dənizə – heç nəyə, heç nəyə inanmır. İçərisində üzdüyü insan dənizini görmür, hiss eləmir. Hərdən özünü büsbütün unudur. Şəhərdə olduğunu, böyür-başında insanlar yaşadığını unudur. Şəhəri, maşınları, insanları görmür, duymur, hiss etmir...

Gecənin, gündüzün uzunluğundan yorulur, hədsiz dərəcədə yorulur. Haçansa, nəyəsə son qoyulmalıydı, amma qoyulmurdu. Dözmək, gözləmək olduqca çətinləşirdi. Hər gün yeni bir ümidlə açdığı səhər keçmiş günlərdən zərrəcə fərqlənmirdi. Bir-birindən seçilməyən bu uzun, dözülməz günlər heç nə demirdi, ömürdən nə isə alır, aparır, amma gətirmirdi...

Bir vaxt kimdənsə, hardasa eşitmişdi ki, xoşbəxtlik ömrü uzun, günləri qısa eləyir. İnsan bədbəxtdirsə, bunun tamam əksi olacaq: günlər uzun, ömürsə qısa. Bu hissin ağırlığı altında

birdən həyat onunçün dayanır. Ona elə gəlir ki, yer kürəsi daha fırlanmır, kainatda hər şey hərəkətsizdi, ölüdü. Get-gedə ağırlaşdığını, fırlanmayan dünyada hərəkətin çətinliyini duyur.

Bitməz-tükənməz düşüncələr yol uzandıqca ağırlaşan yük kimi onu əldən salırdı.

* * *

Bazarın qabağındakı səs-küy onu özündən ayırdı. Cavan bir oğlan milis işçisi ilə əlbəyaxa olmuşdu. Camaat isə dinməzcə vuruşanlara tamaşa eləyirdi. Bircə nəfərin ağlına belə gəlmirdi ki, bunları aralamaq , sakitləşdirmək olar. Oğlanın köynəyi cırıq-cırıq olub əynindən çıxmışdı. Milis işçisi onu tutub bölməyə aparmağa çalışırdı, amma oğlan heç cür özünü milisə təslim eləmək istəmir, müqavimət göstərə-göstərə girəvə axtarırdı ki, qaçıb aradan çıxsın.

– Burax qolumu, – deyirdi, – mənim heç bir günahım yoxdu.

– Sənin ananı… – milis işçisi söyürdü.

– Ananı da, bacını da… – Oğlan da cavabsız qoymurdu.

Hər belə söyüşmədən sonra milis işçisi bir az da qızışıb özündən çıxırdı. Və birdəncə oğlanı qaldırıb yerə vuraraq sinə-sinə çökdü.

Adamlar geri çəkilib meydanı boşaltdılar ki, rahat tamaşa eləyə bilsinlər.

Milis işçisi əvvəlcə yumruqla oğlanın üz-gözünü o ki var əzişdirdi, sonra ayağa qalxıb təpiklə qarnına-qarnına vurmağa başladı. Amma oğlan döyüldükcə tabdan-taqətdən düşmək əvəzinə sanki güc toplayırdı, qüvvə yığırdı. Milis işçisi də bunu bildiyindən zərbələrinin arasını kəsmirdi. Sonra oğlana necə güc gəldisə, qəfil təkanla milis işçisinin sinəsindən itələyib ayağa qalxdı.

Yaşlı bir kişi:

– Qoyma qaçacaq, – dedi.

Milis işçisi oğlanın qolunu burub arxada saxladı. Və bunu elə çevik hərəkətlə etdi ki, oğlan gözünü açmağa belə macal tapmadı.

– Hara qaça bilər mənim əlimdən, – dedi. – Oğurluq eləməyi bəs deyil, hələ mənim üstümə əl də qaldırır.

Cavan oğlan:

– Mən oğru deyiləm, – dedi.

– Çox çərənləmə, – camaatın içərisindən kimsə dilləndi.

– Mən oğru deyiləm. – Oğlan dil boğaza qoymurdu.

– Necə oğru deyilsən, indicə əlini cibimdə tutub saxlamamışdımmı? Utanmırsan, hələ bir yalan da danışırsan… Əxlaqsız! – Pulu oğurlanan adam hündürdən dedi.

– Yalan deyirsən, mən pul götürməmişəm.

– Yalanı sən danışırsan, hələ başından böyük qələt də eləyib onun-bunun cibinə girirsən, alçaq!

Cavan oğlan qolunu milisin əlindən qoparmağa çalışaraq:

– Alçaq sənsən, sənin atandı! – dedi.

Pulu oğurlananın irəli cummağıyla şillənin oğlanın sol yanağında partlamağı bir oldu. Oğlan müvazinətini saxlaya bilməyib səndərlədi, şillənin zərbindən gözlərinə qaranlıq çökdü. Yerə çökmək istəyəndə qoymadılar, yerbəyerdən tutub saxladılar. Gah sağ, gah sol yanağında açılan şillələrin zərbindən yerindəcələngər vururdu. Sanki adamlar milis işçisiyləköməkləşib oğlanı – oğrunu tutub saxlamışdılar ki, pulu oğurlanan pulunun hayıfını alsın. Oğlan isə huşunu itirdiyindən daha vurulan zərbələrin ağrısını hiss eləmirdi.

– Oğurluq eləyənin əli kəsilməlidi, – kimsə qışqırdı.

– Düzdür, onda qələt eləyər bir də belə iş tutmaz. – Başqa birisi sözə qüvvət verdi.

O heç cür başa düşə bilmirdi ki, oğurluq eləyənin əli nə üçün kəsilməlidi. Axı, oğurluğa onu nə vadar eləyibsə, axtarıb o səbəbləri tapmaq lazımdı, yoxsa əlin kəsilməsilə iş bitəcəkdimi?.. Əlini kəsəcəksən, ehtiyacı olsa gedib dişiylə oğurlaya-

caq. Hər cinayətə belə yanaşılsa bunun axırı necə olar?..

– Niyə öldürürsünüz bədbəxti? Pul oğurlayıb, adam ki, öldürməyib.

Qadın səsi idi, o qıyma-qışqırığın içərisində güclə eşidildi. Bu səsə bəndmiş kimi əl saxladılar. Oğlan ayaq üstə adamların qolları arasında olsa da, halı özündə deyildi. Handan-hana huşu üstünə qayıdanda inildəyə-inildəyə:

– Ay ana, – dedi.

Ürəyi ağrıdı.

Çox keçmədən bazarın yuxarı başında milis maşını dayandı. Maşından düşən serjantlar dərhal izdihama sarı yüyürdülər və hərəsi bir tərəfdən oğlanın qollarından tutub çəkə-çəkə aparmağa başladılar. Oğlan getmək istəmir, döyülməkdən qüvvəsini itirmiş bədəni ilə zəif-zəif müqavimət göstərir, ayaqlarını sürüyürdü.

– Nə istəyirsiniz məndən, – deyirdi, – mən oğru deyiləm.

Serjantlar onun sözlərinə məhəl qoymurdular.

Oğlanın üzündə, baxışlarında, danışığında elə bir ifadə vardı ki, doğrudan da oğruya bənzəmirdi. Üst-başı toz-torpağa bulaşmasa, köynəyi cırılıb əynindən çıxmasaydı, kimsə oğru olduğunu ağlına belə gətirməzdi. Kim bilir, bəlkə heç oğru da deyildi. Amma innən belə oğru, ya doğru olmağının fərqi yox idi. Milis nəfərinə əl qaldırmışdı, onu rahat buraxmayacaq, nə yolla olursa-olsun eləmədiyi işi boynuna yıxacaqdılar. Oğlan bunu bilsə də elə hey:

– Vallah mən oğru deyiləm, – deyirdi. – Axı, niyə inanmırsınız mənə. Nəyə deyirsiniz and içim ki, heç nə oğurlamamışam.

Oğlanı maşına mindirib qapını bağladılar. Ancaq bazarın qabağına yığılmış camaat hələ dağılmaq bilmirdi, dağılmaq istəmirdi, elə bil bir azdan milis bölməsindən kimsə gəlib burda toplaşan adamlara o oğlanın taleyi barədə məlumat verəcəkdi.

İzdihamdan aralanıb küçə yuxarı addımlamağa başladı. Bir qədər getməmiş bir dəstə adamın ona sarı gəldiyini gördü. Yaxınlaşanda başa düşdü ki, qəbiristanlıqdan qayıdırlar. Addımla-

rını yavaşıdıb onlara qoşuldu.

Əvvəllər də tanımadığı adamların yas yerinə gedər, yeyib-içib qarnını doyurardı. İstənilən yas yerində özünü elə rahat hiss eləyirdi ki, sanki mərhumun ən yaxın, ən əziz adamıydı.

Dəstə ikimərtəbəli bir binanın qabağında dayandı. Evin qənşərindəki xeyir-şər üçün düzəldilmiş üstü şiferli çardaqda xeyli adam vardı, dəfnə gedənlərin qayıtmasını gözləyirdilər. Adamlara qarışıb boş stullardan birində oturdu.

Sonra stollara çörək, kolbasa, pendir verildi, araq gətirildi.

Adamlar başlarını aşağı salıb könülsüz-könülsüz yeyib-içirdilər. Heç kəs dinmirdi, danışmırdı, təkcə qaşıq-çəngəl səsləri eşidilirdi.

Amma o tələsə-tələsə yeyib-içirdi. Bilirdi ki, belə imkan hər deyəndə ələ düşmür və oturub rahat yeyib-içdiyi yerdə kiminsə səssizcə qolundan tutub bayıra çıxaracağından qorxurdu. Onsuz da oturmağa yer azlıq eləyirdi və adamların bir çoxu şəbəkəli divar boyu düzülüb ayaq üstəcə içirdilər. Buna görə də kimsə ilə göz-gözə gəlməmək üçün başını yuxarı qaldırmırdı.

Məclisin yuxarı başında mərhumun böyüdülmüş şəkli vurulmuşdu. Sir-sifətindən ahıl adama oxşayırdı, çox güman ki, yaşı yetmişi keçmiş olardı.

Yeyib-içib özünə gələndən sonra gözünü şəklə zilləyib durmuşdu.

…Görən kim olmuşdu bu adam? Necə ömür sürmüşdü?.. Xoşbəxtmi olmuşdu, ya bədbəxt? Dünyadan razımı getmişdi, yoxsa…

İndi bunları bilməyin bir mənası vardımı onunçün?

Adamlar içib kövrəlmişdilər. Qocalar mərhumun xatirəsini yad etdikləri üçündümü, ya talelərini düşündüklərindəndimi, göz yaşları tökürdülər. Elə kədərli bir mənzərə yaranmışdı ki, deyirdin bir az da keçsə, yasa yığışanların hamısı xorla ağlayacaqdılar.

O da adamlara qoşulub ağlayırdı, özü öz taleyinə ağlayırdı. Göz yaşlarının islatdığı tüklü, saqqallı sifətlərə baxdıqca keçmiş,

gələcək yaddaşında qovuşurdu, birləşirdi.

«…Ah bu düşüncələr…

İnsan keçmiş haqqında nə qədər düşüncələrə dalarmış? Axı, bu düşüncələrdən dəli olmaq olar! Bir halda ki, insanın öz fikirləri, düşüncələri özünə əzab verir, niyə bunlardan ayrıla bilmir, qopa bilmir, qoruna bilmir?..».

Bu düşüncələr onu gecələr yuxudan oyadır, səhərəcən əzab verirdi. Gündüzlərin hardan başlayıb harda bitdiyini hiss eləmirdi. Özü öz düşüncələrinin qarşısında, keçmişinin qarşısında gücsüzlük duyurdu.

«…İnsanı bu dünyaya bağlayan xoşbəxt günlər, qəmli, kədərli, sevincli, su səsi, insan nəfəsi ilə dolu günlər hayana qeyb olur? Axı, keçmiş göy tüstü dumanı kimi izsiz-tozsuz çıxıb gedə bilməz. Keçmiş varsa, ondan nə isə bir iz qalmalıdı. Madam ki, keçmiş düşüncələrdə qayıdır, onu yuxuda görə bilirsən, deməli o hardasa səninlə yanaşıdı, hissolunmaz bir yaxınlıqdadı. Axı, bəs hardadı, kainatın hansı qütbündə, hansı məkanındadı? Kimsə, nə vaxtsa keçmişinə, ömrünün o uzaq, yaşanmış illərinə qayıda bilibmi?».

Keçmiş yuxuda, düşüncələrdə vaxt-bivaxt qayıdırsa, əzab-işgəncə, dərd-sevinc gətirirsə, deməli, canlıdı, insanın cismindən ayrılan nə isə qəribə bir varlıqdı, yanmış, yaşanmış ömrün küldü. Bəs axı kül olsa belə orda nə isə qalır, yaşayır. Yaşayır ki, insana əzab versin, onu özündən, özülündən ayrılmağa qoymasın, qısa ömrünücə ona haram eləsin, gilə-gilə burnundan gətirsin. Keçmiş insanın ayrıla bilmədiyi, özündən, ömründən qova bilmədiyi dərddi, sızıltıdı, ağrıdı...

Bəs niyə insan keçmişsiz yaşaya bilmir, niyə keçmişi əzab verən yara kimi yaddaşından kəsib ata bilmir? İnsanın yolunu kəsən, hərəkətlərini cilovlayan nədi?..

Ona elə gəlirdi ki, insan ömrü roman kimidi: proloqu, süjeti, epiloqu var. Roman gözlənilməz epiloqla da bitə bilər, adi bir sonluqla da. İnsan ömrü də belədi. Epiloq insan ömrünün ən

şərəfli çağına belə dönə bilər, onu alçaldıb ayaqlar altına da sala bilər. Bəzi ömürlərin ancaq epiloqu, sonluğu yadda qalır. Sanki insan bütün ömür süjeti boyu əlləşir, vuruşur ki, axırı, sonu yadda qalsın. Adam var ki, həyata başlamamış həyatı bitir. Onun ömrü isə… Bu ömür çoxdan, lap çoxdan, əslində Göyüşovu öldürdüyü andaca qurtarıb, amma zəif epiloq kimi elə hey uzanır, uzanır…

İslanmış saqqalından damcı-damcı tökülüb acı arağa qarışan duzlu göz yaşlarını da içirdi. Keçmiş onu özündən amansızcasına ayırıb apardığından ömrün uzaq erkən illərindən savayı hər şeyə kor olmuşdu.

* * *

Yas yerindən çıxanda gün solmuşdu. Nə vaxtdan bəriydi ki, belə içdiyi yadına gəlmirdi. Qoltuq ağaclarını hiss eləmirdi, çox yüngül, rahat yeriyirdi.

…Kinoteatrın qabağında qələbəlikdi. Adamlar axşam seansına tələsirdilər. Binanın solunda telefon köşkünün iki addımlığında yeniyetmə bir qızla oğlan dayanmışdı. Duruşlarından, danışıqlarından o saat bilinirdi ki, təzə-təzə görüşürlər, bəlkə tanış olduqları müddətdə ilk dəfəydi beləcə axşam gəzintisinə çıxıblar.

O, maddım-maddım dayanıb baxırdı. Ürəyində o oğlanın yerində olmaq arzusu gəzirdi. Qızın sarışın saçları, mavi, duru gözləri onu qəribə bir ehtirasla özünə çəkir, qoymurdu ki, çıxıb getsin.

Yaxınlaşıb qızla oğlanın dayanıb söhbət elədikləri telefon köşkünün yanında durdu. Gözlərini qırpmadan qıza tamaşa eləməyə başladı. Qızın duruşunda, baxışlarında elə bir saflıq vardı ki, özünü, yaşını tamam unutmuşdu, harda olduğunu unutmuşdu, eləcə gözlərini qıza zilləyib baxırdı.

Qız yad baxışları dərhal tutdu və çevrilib elə dayandı ki, onunla göz-gözə gəlməsin. Onun qızın diqqətini cəlb etməsi, baxışlarından narahat olması nədənsə xoşuna gəldi. Hiss elədi

ki, qız arxasını ona çevirsə də, özünü sevdiyi oğlanla məşğul kimi göstərsə də, onun baxdığını bilir, buna dözəmmir…

Qız birdən oğlana:

– Gedək burdan, – dedi.

Oğlan:

– Niyə? – soruşdu və təəccüblə dönüb böyür-başına göz gəzdirdi, amma deyəsən heç nə başa düşmədi.

– Heç elə belə… Kino başlayanda qayıdarıq, – bunu qız dedi.

Çıxıb getdilər.

Varlığına çökən ağır, ümidsiz kədər içərisində sahilə endi.

Dəniz təlatümə gəlmişdi. Dalğalar harın atlar kimi şahə qalxmış, dənizlə səma bir-birinə qovuşmuşdu. Dənizin belə təlatümlü çağlarında sahildə dayanıb cəngə çıxan dalğalara tamaşa eləməyə səbri, dözümü çatmırdı. Çalxanan dəniz ona dünyanın sonunu xatırladırdı. Belədə yuvasından perik düşən quş kimi özünə heç yerdə yurd, sığınacaq tapa bilmirdi.

Sahildə ins-cins gözə dəymirdi. Qağayılar da harasa qeyb olmuşdular. Belə havada gəmilər dənizə çıxmağa ehtiyat eləyir, dayanıb tufanın yatmasını gözləyirdilər.

Külək sahildəki ağacları amansızcasına sağa-sola əyir, elə bil kökündən çıxarıb atmaq istəyirdi.

Sahilin məhəccərindən bərk-bərk tutub dayanmışdı ki, külək yıxmasın. Bura niyə gəldiyini özü də bilmirdi. Əslində sahilə enəndə havanın qarışdığını, dənizin təlatümə gəldiyini görürdü.

Sahildə tək-tənha dayanmaq çətin idi, dözülməz idi. Amma hayana getsin, hansı səmti tutub getsin? Gediləsi yeri vardımı? İlahi, nədən tale ona belə əzab verir? Niyə bu şəhərdə, bu dənizin sahilində təkdi, kimsəsizdi? Hamını, harasa, nə isə çəkir, aparır, o isə burda küləyə, sazağa dözməlidi, dayanmalıdı. Özgə yolu yoxdu; bu tale, qismət kimi bəxtinə düşüb, boynuna biçilib, alnına yazılıb…

Ona elə gəlirdi ki, şahə qalxan dalğaların arasından insan səsi, insan fəryadı eşidilir. Elə bil kimsə dənizdə batırdı, boğulurdu, gücü-qüvvəsi son ümid yeri kimi fəryada, qışqırığa çatırdı. Ancaq şahə qalxan dalğaların arasından eşidilən o qışqırıq heç kəsə çatmırdı; sahil boş və kimsəsiz idi. Sanki dalğalar o səsi, o qışqırığı kəsmək, batırmaq üçün get-gedə güclənir, daha amansızcasına çağlayırdılar.

Dənizin, dalğaların inadla batırmaq istədiyi fəryad, qışqırıq qulaqlarında böyüyür, özünü ucsuz-bucaqsız suların qoynunda nicat diləyən insan kimi hiss eləyirdi.

## XIII FƏSİL

Vağzala gedən yolla ondan qabaqda tanımadığı bir adam yavaş-yavaş addımlayırdı. Uzaqdan-uzağa boyu-buxunu, yerişi kimisə xatırladırdı. Tanımadığı bu adam hərdən arxaya çevrilir, sanki onun gəlib-gəlmədiyini bilmək istəyirdi.

Belə getmək onu bezdirdiyindən dayandı ki, yad adam çıxıb getsin. Amma buna bəndmiş kimi yad adam da ayaq saxladı.

Yenidən getməyə başladı. Yad adam da hərəkətə gəldi. Küçənin tininə çatanda addımlarını yavaşıtdı ki, sağamı, ya solamı dönəcəyinə qərar versin. Yad adam elə bil bunu hiss eləmişdi, döngəyə yaxınlaşanda dayanıb papiros çıxardı ki, onun hansı səmtə yönələcəyini dəqiqləşdirib hərəkət eləsin. «Əcəb işə düşdük... Gəl indi bunun avarası ol ki, görəsən fikri-qərarı nədi, neyləmək istəyir, onunla – qoltuq ağaclarında sürünən dilənçiylə nə işi var».

Tini burulmaq istəyəndə çevrilib ona sarı zəndlə baxdı. Bu adam tanış gəlirdi, yaman tanış gəlirdi… Amma… harda görmüşdü, axı?.. Qəfil xatırladı. Kənddə qapıbir qonşuları, uşaqlıq dostu Səfiydi. Bayaqdan bəri hərəkətlərini izləməyindən, tez-tez çevrilib arxaya baxmağından şübhə elədiyi aydın bilinirdi. Çox güman ki, üzdən oxşatsa da, təkayaqlı olması onu çaşdırırdı.

Amma birdən Səfi:

– Bağışlayın, – dedi, – Siz Əkrəm deyilsiniz…

Səs həmin səs idi, bir zərrə də dəyişməmişdi, uşaqlıqda necəydisə, eləcə qalırdı. Səs onu birdən-birə zamanın arxasına, uşaqlıq illərinə qaytardı.

...Budur, yayın qızmar çağıdı... O, Səfi ilə xəlvətcə çaya tərəf qaçır. Günorta olduğundan bütün məhlədə sakitlikdi. Hava elə istidi ki, nəfəs alanda az qala adamın ciyərləri qarsır. Bütün bunlara məhəl qoymadan tozlu yolla ayaqları yana-yana qaçırlar. Evdə valideynlərinin gözlərindən yayınmaq üçün onların yatıb dincəldiyi vaxtı seçiblər. Hələ balaca olduqlarından çayda çimməyi qadağan eləyiblər, ona görə də gizlin getdikləri kimi, gizlin də gəlib yatağa girməlidilər. Günorta yatmaq heç birinin ürəyindən deyil, evlərində nə qədər deyilib-danışılsa da, bu heç birinin ağlına batmır.

Qaça-qaça gəlib körpünün başına çatırlar. Günün bu vədəsi çayda adam əlindən tərpənmək olmur. Uşaqların diqqətini cəlb eləmədən soyunub çayın dayaz yerində çimməyə başlayırlar. Su dupduru və istidi. Hələ üzmək bilmirlər, eləcə atılıb düşür, biri-birinin üstünə su çiləyir, balaca, rezin topla oynayırlar. Başları çimməyə elə qarışır ki, evə qayıtmaq yadlarına belə düşmür və bir də baxırlar ki, gün əyilib axşam yerindədi. Tələsik sudan çıxıb paltarlarını geyinirlər. Amma hayana getsinlər? Bu vədə evə qayıtmaqmı olar? Onları nə gözlədiyini ikisi də yaxşı bilir. Dəfələrlə xəbərdarlıq olunub, hətta bunun üstündə neçə dəfə döyülüblər.

İndi evdə yəqin ki, cin atına miniblər. Bəlkə qaçıb bir yanda gizlənsinlər… Burda dayansalar, çox güman, bir azdan dallarınca gələcəkdilər. Səfinin təklifilə kolxozun üzüm bağında gizlənməyi qərara alırlar. Tələsik çayın o biri sahilinə keçib üzüm bağına girirlər. Bağın içərilərinə doğru xeyli gedib qalın bir yerdə tənəklərin altında gizlənirlər.

Gizləndikləri yerdə budaqlardan üzüm salxımları sallanır.

Meyvəsinə göz düşsə də hələ yetişməyib. Yarpaqların arasında gizlənib nəfəslərini çəkmədən gözləyirlər. Danışmırlar, elə bilirlər ki, cınqırıqlarını çıxarsalar, dərhal gəlib tapacaqlar.

Bir azdan analarının səsini eşidirlər. Əvvəlcə Səfinin anası çağırır, sonra onu səsləyirlər. Heç biri dillənmir, bir-birinə qısılıb gözləyirlər.

Anası bir az da ucadan çağırmağa başlayır. O, Səfiyə:

– Gəl gedək, – deyir, – nə olar-olar.

Ancaq Səfi qolundan tutub getməyə qoymur.

– Qorxuram, – deyir, – atam xəbərsiz çimməyə getdiyimi bilsə, məni tikə-tikə doğrayar.

Beləcə baş-başa verib ağıllarına heç nə gətirmədən gözləyirlər. Bilmirlər ki, anaları bir-birinə qoşulub qaça-qaça çayın yaxası boyu onları axtarır, qabağına çıxanlardan uşaqlarını görüb-görmədiyini soruşur. Bilmirlər ki, onları tapmaq üçün bütün qohum-qonşu bir-birinə dəyib. Bilmirlər ki, analarının ağlına min cür fikir gəlir, həyəcandan az qalır ürəkləri dayana.

Get-gedə hava qaralmağa başlayır. Hava qaraldıqca vahiməyə düşürlər. Bilirlər ki, gecəni burda keçirmək çətindi, bürkü, ağcaqanad bir yana, qaranlığın vahiməsindən sözsüz ki, ürəkləri partlayar.

Bir azdan anasının səsini lap yaxından eşidir. O, bu səsdəki titrəyişi duyur. Kövrəlir, anasının həyəcanını büsbütün dərk eləməsə də, onun səsindəki titrəyişə dözə bilmir, heç cür dözə bilmir. Səfiyə sarı dönüb yavaşca:

– Gedək, – deyir, – dur gedək.

Amma Səfi onun qolundan tutub saxlayır, heç nə demir. Tez-tez udqunmağından başa düşür ki, hıçqırıq onu boğur.

Artıq anasının səsi iki addımlığından gəlir. Bağın o biri başında Səfini çağırırlar. Anası o qədər yaxındadı ki, azacıq belə qımıldansalar, yerlərini nişan verərdilər. Hiss eləyir ki, arvad tənəklərin arası ilə bağın dərinliklərinə tərəf gedir, bu saat yanlarından ötüb keçəcək.

Qəfildən anasının hıçqırtısını eşidir. Daha dözə bilmir,

qalxıb tənəklərin arasından çıxır. Anası bir də səsləyəndə qeyri-ixtiyari dillənir:

– Mən... burdayam...

...Ürəyi həyəcanla vurur, damarlarının qanı od tutub yanırdı. Nə vaxtdan bəri yatmış, səngimiş duyğuları qəfil ağrı kimi qalxıb yaddaşını oyandıra-oyandıra əzaları boyu axmaqdaydı.

Ancaq zaman fərqi o qədər böyük idi ki, qarşısında dayanan bu adamla uşaqlığını bir yerdə keçirdiyini, bir yerdə böyüdüklərini, haçansa yoldaşlıq elədiyini, ünsiyyət saxladığını ağlına sığışdıra bilmirdi.

İndi nə cavab versin? Özünün kim olduğunu boynuna alsınmı? Desinmi ki…

Sanki qarşısını nə isə bir sədd kəsir, danışmağa, dillənməyə qoymurdu. Bu səddin arxasında onun ömrü, həyatı, uzaq gənclik illərində yaşanmış, yaddaşına yuxu kimi, duman kimi hopmuş xatirələr dururdu. Qeyri-ixtiyari:

– Yox, – dedi, – mən deyiləm.

Səfi gözlərini onun sifətindən çəkmədən:

– Üzr istəyirəm, bağışlayın, sizi bir adama oxşatdım, – dedi və adamın bu dərəcədə də bir-birinə oxşaya biləcəyinə heyrət eləyə-eləyə çıxıb getdi.

Gicgahlarından yanaqlarına axan tərdən bu söhbətin hansı əsəb gərginliyi bahasına başa gəldiyini hiss elədi.

Səfi tini burulanda doğma bir adamını itiribmiş kimi içərisində qəfil bir ümidsizlik duydu. Elə bil uzaq illərin xatirələrinin ona məhrəm olan bir parçasını yaddaşından zorla çəkib ayırdılar. Özündən asılı olmayaraq dəli kimi qışqırdı:

– Səfiiii!!!

Adamlar səsə tərəf döndülər.

O, qışqırığa dönən adamlara məhəl qoymadan Səfinin ardınca cumdu. Küçənin tininə çatmaq, Səfini qaytarmaq, hər şeyi necə varsa, necə olubsa danışmaq, etiraf eləmək üçün yerimir, yüyürürdü.

Tinə çatıb küçə boyu baxdı. Səfi gözə dəymirdi.

– Səfiii!!! – Var gücüylə qışqırdı.

Cavab gəlmədi.

Dönüb arxaya baxdı. Cəmi ikicə dəqiqə qabaq ondan ayrılan adam elə bil yağlı tikə olub göyə çəkilmişdi.

Bir də, bir də qışqırdı.

Cavab yox idi.

Küçə boyu aşağı-yuxarı yüyürür, yıxılır, durur, adamları itələyib keçir, elə hey Səfini çağırırdı. «İlahi, niyə belə ağılsız iş tutdu… Axı, o bu adamdan ailəsini, uşaqlarını, anasını soruşar, kənddən, qohum-əqrəbadan hal-əhval tuta bilərdi. Oturub ötən günlər, burnunun ucu göynədiyi o günlər haqqında şirin-şirin söhbət eləyə bilərdilər. Tale özü onu yetirməmişdimi?.. Uzaq başı bərk-bərk tapşırardı ki, qayıdanda onu gördüyünü heç kəsə deməsin. Uşaqlıq dostu deyildilərmi?.. On ildən yuxarıdı ki, bu şəhərdədi, ilk dəfədi tanış adama, doğma sifətə rast gəlir. O da ki, belə… Heyf, min heyf!».

Sanki onu qara basmış, bütün bunlar gözlərinə görünmüşdü.

…Onu ötüb keçmək istəyən orta yaşlı bir kişidən saatı soruşdu. Harasa tələsən bu adam dayanmadan gümüşü cib saatını çıxarıb qapağını qaldırdı.

– Dördə qalır, – dedi və saatın qapağını şaqqıltıyla bağlayıb yenidən cibinə qoydu.

– Dördə qalır? Nə qədər qalır dördə? – Özü də bilmədi ki, niyə soruşdu.

Artıq ondan xeyli aralanmış olan həmin adam dillənmədi, arxaya belə çevrilmədi. Olsun ki, ya onu eşitmədi, ya da sadəcə cavab vermək istəmədi.

Qarşıdan gələn cavan bir qadından yenidən vaxtı soruşdu. Qadın saatına baxmadan:

– Dördə qalır, – dedi.

– Onu bilirəm. Deməzsiniz ki, nə qədər qalır dördə?

Qadın qol saatına baxıb vaxtı dəqiq deyə bilərdi. Əslində

soruşulursa, vaxtı düz, dəqiq deməliydi. Bu, nəzakət qaydalarına aid olan yazılmamış bir qanundu.

Ancaq qadın:

– Vaxtı bilmək nəyinizə lazımdı sizin, bilmirəm, – əsəbi cavab verərək uzaqlaşdı.

Axı, doğrudan da vaxtı bilmək nəyinə lazımdı onun? Hayana tələsirdi, hara gecikirdi, kimi gözləyirdi?.. Axı, bu dünyada getdiyi yol, yaşadığı ömür, xərclədiyi vaxt – hər şey nagüman idi... Bəs onda günün hansı vaxtı olmağının fərqi var idimi? Amma gəl ki, vaxtı bilmək, özü də təxminən yox, dəqiq bilmək istəyir...

* * *

…Bir dəfə milis bölməsinin yanından keçəndə divarda axtarışda olan canilərin şəkilləri vurulmuş lövhəni gördü. Əvvəllər bu küçədən qorxa-qorxa, çəkinə-çəkinə keçirdi, bəlkə də ona görə bu lövhə gözünə dəyməmişdi. İllər ötdükcə, həyat, ömür əsil mənasını itirdikcə, bütün bunlar da unudulub getmişdi. İndi bu küçədən tamam etinasız halda keçib gedirdi.

Divarda axtarışda olan canilərin arasında öz şəklini görəndə nədənsə sevindi. Hər şeyi unudub həyəcan içində şəklinə tamaşa eləməyə başladı. Yox, bu şəkli nə vaxt çəkdirdiyi yadına gəlmir. Elə bil ki, bu şəkli nə vaxtsa özündən xəbərsiz, cani olduğunu sübut eləmək üçün çəkiblər. Gözləri elə qəzəblə baxır ki, deyirsən bu saat hədəqəsindən çıxıb düşəcək. Qırxılmış saçlarına, qapqara kəsilmiş sifətinə, alnının əsəbdən yığılmış düyününə baxan onun cani olduğuna qətiyyən şübhə eləməz.

Onunla yanaşı milis paltarında cavan bir oğlan dayanıb şəkillərə baxır. Bu adamın qəfildən yanında peyda olmasından diksinir, içərisindən soyuq bir gizilti keçir.

Oğlan bir-bir şəkillərə baxıb altındakı yazını oxuyandan

sonra baxışlarını onun şəklinin üzərində saxlayır. Ürəyi həyəcanla vurur. Birdən ona elə gəlir ki, özünü saxlaya bilməyib qışqıracaq, yaxud qoltuq ağaclarını qapıb qaçacaq… və hər şeyə son qoyulacaq. Gözləri ixtiyarsız qapanır və handan-hana özünü ələ alır.

Gənc milis işçisinin ağlına da gəlmir ki, onunla yanaşı dayanıb şəklə baxan bu şikəst adam uzun illər axtarışda olan qatı cinayətkardı.

…Sonra milis işçisi çıxıb gedir. Üstündən ağır bir yük götürülübmüş kimi rahat nəfəs alır, sevinir ki, nə yaxşı insanlar bir-birinin qəlbini, düşüncəsini oxuya bilmir, yaddaşını oxuya bilmir.

«…Deməli, onu unutmayıblar, yaddan çıxarmayıblar, hələ axtarırlar. O isə düşünür ki, çoxdan unudulub, büsbütün hafizələrdən silinib… Bəs niyə sevinir buna, axı bu o deməkdi ki, hər dəqiqə onu tutub ölümün pəncəsinə verə bilərlər. O bütün bunları bilə-bilə sevinir. Sevinirsə, demək unudulmaq ölümdən də dəhşətliymiş...».

Qorxa-qorxa şəklinin altındakı yazını oxudu: «1938-ci ildə anadan olmuşdur, azərbaycanlıdır, tünd qara saçları var. Burnu sivridir. Uca boyludur, üzündə və bədənində heç bir çapığı yoxdur. Adam öldürdüyünə görə güllələnmə cəzasına məhkum olunmuşdur. Qatı cinayətkardır…».

Ardını oxuya bilmədi, qəhər onu boğdu. Ağır-ağır lövhədən uzaqlaşdı.

* * *

Ümidsiz axşamlardan birində evə məktub yazdı. Yazdı ki, ölümdən qaçıb qurtarıb, sağ-salamatdı, o vaxtdan bu yana yad, uzaq bir şəhərdə yaşayır və elə dəyişib ki, indi görsələr tanımazlar. Yazdı ki, o vaxtdan bu yana başına olmazın müsibətlər gəlib: tramvay altına düşərək ayağını itirib, indi qoltuq ağaclarında gəzir; küçələri yora-yora ümidini itirib, əslində yaşamır,

ömrünü-gününü çürüdür və bircə istəyi varsa, o da doğulduğu yurda qayıtmaq, ailəsini-uşaqlarını görüb ölməkdi…

İki həftə sonra məktubuna cavab alanda sevincindən uçmağa qanadı yox idi. Zərfi pencəyinin qoltuq cibinə soxmuşdu, addımbaşı yoxlayırdı ki, birdən itirər. Bu anda, bu dəqiqələrdə dünyada onunçün bu məktubdan qiymətli heç nə olammazdı. Sakit bir guşəyə çəkilib məktubu arxayınca oxumaq istəyirdi.

Yenə özünün şikəstliyini, qoltuq ağaclarını unutmuşdu. Ona elə gəlirdi ki, evindən-ailəsindən məktub aldığını hamı bilir, indi bu şəhərin ən xoşbəxtidi və adamlar onun – qoltuq ağaclarında az qala uça-uça gedən cındır qiyafəli bu adamın əzabdan, dərddən qırış bağlamış sifətinə yayılan xoşbəxtliyə həsəd aparır.

Dənizin kənarında adamsız bir yerə çəkilib oturdu. Əlləri titrəyə-titrəyə zərfi cibindən çıxardı, o üz bu üzünə baxdı. Arvadının xəttilə yazılmış ona doğma olan ünvan, indeks, ad-familiya…

Bədəni od tutub yanırdı.

Arvadı ilə heç vaxt məktublaşmamışdı. Təkcə qızları doğulanda doğum evində yatan arvadı ilə yazışmışdılar. Daha doğrusu, o, xəstəxanaya gətirdiyi yemək şeyləri ilə birlikdə bir neçə sətir məktub da yazıb torbaya qoyurdu. Arvadı da həmin məktubu oxuyur, sonra kağızın o biri üzünə cavab yazıb boşaltdığı qablarla birgə xəstəxana xidmətçisi vasitəsilə qaytarırdı. Bu məktubları əziz xatirə kimi saxlayırdılar. Axşamlar hərdən keçmiş günləri yad eləmək üçün o məktubları çıxarıb oxuyurdular.

Zərfə baxdıqca arvadının gecə uşaqları yatırandan sonra oturub necə məktub yazması, səhərisi gün heç kəsə etibar eləməyib özünün rayon mərkəzinə gələrək zərfi poçt qutusuna salması xəyalında canlanır və bu bir əlcə kağız parçasında onun barmaqlarının istisini duyurdu.

Məktubu nə vaxt açdığını, nə vaxt oxuyub başa çıxdığını bilmədi. Arvadı ərə getdiyini, təzə həyat qurduğunu, keçmişi büsbütün unutduğunu bildirirdi. Yazırdı ki, hər şeyi uşaqlarından

gizləyib və uşaqları indiki ərini doğma ataları bilirlər. Ən axırda da xahiş edirdi ki, bir də məktub yazmasın, çünki keçmişin acı xatirələrini yad eləyib indiki sakit həyatını pozmaq istəmir.

Ömründə heç kəsdən belə soyuqqanlı şəkildə yazılmış məktub almamışdı.

Sonra məktubu bir də, bir də oxudu… Oxudu ki, orda yazılanlara inana bilsin. Çünki oxuduqlarına şəkk edir, özünü inandırammırdı.

Məktubu diqqətlə o üz bu üzə çevirirdi, sanki nə isə qiymətli bir şey düşüb sətirlərin arasında itmişdi, axtarırdı, tapammırdı. Bu məktubda nöqtələr də söz idi, nöqtələr də danışırdı.

Məktubu oxuyandan sonra bir müddət özünə gələmmədi. Başa düşdü ki, onun bütün həsrət və ümidləri, xəyal və arzuları əbəs imiş. Qorxu və həyəcan içərisində yaşanmış bu ömür onun özündən savayı heç kəsə gərək deyilmiş. Deməli, arvadının tökdüyü o göz yaşları yalanmış, saxtaymış, gözdən pərdə asmaq üçünmüş, illər boyu bir yerdə yaşasalar da, onu tanımırmış, hansı yuvanın quşu olduğunu bilmirmiş. O indi anlayırdı ki, ailəsi olduğunu bildirəndə, ailəsi ilə birlikdə çəkdirdiyi şəkli çıxarıb göstərəndə niyə qəhqəhə çəkib gülürmüşlər, niyə onu ələ salırmışlar. Bəs necə olmuşdu ki, bu acı həqiqəti indiyəcən dərk eləyə bilməmişdi...

Belə olacağını bilsəydi, heç vaxt o cinayəti törətməzdi. Bu cinayəti ona görə törətmişdi ki, alçaqlığa dözməmişdi, qürurunu, ləyaqətini qorumuşdu. Ah, bu ləyaqət! Onun uğrunda belə bir cinayəti törətməyinə dəyərdimi? Axı, niyə bir vaxt ləyaqətsiz yaşamağı ağlına sığışdıra bilməyən adam indi onun varlığını hiss eləmir? Niyə o vaxt, cinayəti törətdiyi ərəfədə ona elə gəldi ki, ləyaqəti alçalır. Özgə heç nəyi yox, məhz ləyaqəti…

İndi aradan illər keçəndən sonra bir vaxt onu ölümə sürükləyən ləyaqətin nə olduğunu bilmir. İtirib, həmişəlik itirib. Qəlbindən, varlığından birdəfəlik çıxıb gedən o hissin, duyğunun nə olduğunu belə yadına sala bilmir. İnsan ləyaqətsiz yaşaya bilirmişsə, ləyaqətin nə olduğunu həmişəlik unutmağı bacarır-

mışsa, bəs onun uğrunda ömründən keçmək nə üçünmüş…

Axı, doğma uşaqlarına özün sağ ola-ola özgəsinin atalıq eləməsinə necə dözmək olar? Arvadının onu atıb özgəsinə ərə getməsi təkcə ərlik ləyaqətinə deyil, həm də atalıq ləyaqətinə toxunmurdumu? Görəsən arvadı özgə birinə ərə gedəndə bütün bunlar barədə fikirləşmişdimi? Birgə yaşadıqları günlərin yalnız onlara məlum olan acılı-şirinli xatirələrini bircə anlığa olsa belə yadına salmışdımı? İnanmırdı, qətiyyən inanmırdı. Yadına salmış olsaydı, belə hərəkət eləməzdi. Heç olmasa, uşaqlarının xatirinə hərəkətlərini götür-qoy eləyərdi.

…Atalıq haqqını əlindən almaq. Axı, bu hissi, bu qan birliyini insanın varlığından ayırmaqmı olar... Bəs uşaqları necə? Doğma atalarını unudublarmı görən? Ona güllələnmə cəzası kəsiləndə böyüyünün üç yaşı vardı. Bu yaşda uşağın yadından sözmü çıxar?.. Arvadısa fəxrlə uşaqlarının indiki ərini doğma ataları bildiyini yazır. Ancaq heç olmasa bircə anlığa yadın dönüb necə doğma ola biləcəyini fikirləşmir. Fikirləşmir ki, doğma ata öz balasına doğmalıq eləyə bilmirsə, yad gəlib necə doğma olacaq. Yox, yox, buna inanmır. Ola bilsin ki, uşaqları atalıqlarına ata gözü ilə baxsınlar. Bəlkə hər kimdisə halal adam ola bilər, amma yad doğma atanı heç bir zaman əvəz eləyə bilməz. Uşaqları özgəsinə ata kimi yox, olsa-olsa ata gözü ilə baxa bilərlər. Özgə heç nəyə inanmır. Arvadının yazdıqları ağ yalandı, o uşaqlarının düşüncəsini, qəlbini necə var, ifadə eləyəmməz. Çünki arvadı atalıq hissinin nə demək olduğunu uşaqları qədər bilə bilməz.

İndi bütün bunları düşünməyin bir mənası varmı? Olan olub, keçən keçib, bundan sonra məsələni necə qiymətləndirir qiymətləndirsin, zərrəcə faydası olmayacaq. İnnən belə bu barədə düşünməyin əhəmiyyəti yoxdu. Deməli belə… Görünür, qanunlardan əbəs yerə qaçıbmış. Qanunlar onu yerindəcə cəzalandırıbmışlar, o bu cəzanı çəkməli imiş, bu cəza onun boynuna biçilibmiş, alnına yazılıbmış, vəssalam. Nahaqca qaçdı qanunlar-

dan, nahaqca. Bilmədi, inanmadı hadisələrin belə yön alacağına. Taleyin amansız gərdişlərindən məğlub çıxacağını bilmədi. Sən demə, hər şey tale ilə, qəzavü-qədərlə bağlıymış. Alın yazısından qaçmağı düşünmək ağılsızlıqmış. O isə bu aydın həqiqətə inanmadı, başı daşdan-daşa dəyənəcən inanmadı. Yollarını vaxt-bivaxt kəsən sədlər, uçurumlar onu daş yuxusundan oyatmadı. Tutduğu yolun yanlışlığını, puçluğunu, insanlardan, qanunlardan qaçmağın mümkünsüzlüyünü dərk eləyəmmədi. Bütün bunlar indi-indi çatır ona... İndi başa düşür ki, bunlar əbəsmiş, büsbütün əbəsmiş. Gərək ilk həmlədə təslim olasanmış qismətinə. Həyatını, ömrünü taleyin ümidinə, ixtiyarına buraxasanmış. Nə ola-ola... Həyat özü insanı taleyin qaçılmaz məcrasına salıb aparacaqmış... Bütün cəhdlər, sapınmalar puçmuş, faydasızmış...

Məktub onun yaddaşında hər şeyi alt-üst eləmişdi. Xəyalında göy dumana bürünmüş, düşünülə-düşünülə süslənmiş o uzaq illər hansısa amansız bir duyğunun təsirilə varlığından, bütövlüyündən qopub gedirdi. Və onu dünyaya bağlayan hər şeyə qarşı soyuq bir biganəlik duymağa başlayırdı.

…Bundan sonra kimə inanmalıdı, necə inanmalıdı, niyə inanmalıdı?..

Bu məktub ümid, tutacaq yeri qoymurdu.

Özü özünün avamlığına, sadəlövhlüyünə heyrət eləyirdi. Çünki bu məktubu alana qədər qəlbində arvadının sədaqətinə zərrəcə şübhə oyanmamışdı, əksinə onu dünyanın ən vəfalı qadını bilmişdi. Azacıq şübhə yeri olsaydı, onda bu xəbər onunçün belə qəfil, gözlənilməz olmazdı.

Hər şeyini itirmiş bir adamı daha nələr gözləyə bilərmiş... O daha nədən qorxub çəkinməliymiş. Daha itirilməli nəyi qalıb? Güllələnmə cəzası kəsiləndə elə düşünürdü ki, hər şeyini itirib... Sən demə, itirəcəkləri hələ qabaqdaymış, azadlığın əlindən alınması ilə hər şey bitmirmiş. Amma necə oldu ki, bunu vaxtında dərk eləyə bilmədi. Dünya onun düşündüyü kimi sadə deyilmiş, ağlına belə gətirəmməyəcəyi dərəcədə qarışıq və mürəkkəb imiş. Olanlardan, olacaqlardan baş çıxarmaq hər adamın işi deyilmiş.

İşıq kimi parıltısı göz qamaşdıran həqiqətlərə də kor olmaq olarmış...

O məktubu yazmasaydı, heç olmasa, ümidlərinin istisinə qızınıb birtəhər dözüb yaşayacaqdı, hər şeydən xəbərsiz ömrünü-gününü başa vuracaqdı. Gərək hadisələri hər yöndən ölçüb-biçəydi, yersiz yerə o işığı itirməyəydi. O məktubu yazmasaydı, heç olmasa şirin xəyallara daldığı anlarda özünü xoşbəxt hesab eləyəcəkdi. İndi o xəyalların gətirdiyi xoşbəxtliyi belə itirmişdi… və əslində hər şeyini itirmişdi.

Axı, o məktubu yazmaq istəmirdi, uzun illər dözmüş, səbrlə, zillətlə dözmüş, bir gün hər şeyin işıqlı sonluqla qurtaracağına inanaraq gözləmişdi. Hadisələrin özgə səmt alacağını ağlına belə gətirməmişdi. İndi onu bu qadına – doğma uşaqlarının anasına heç nə bağlamadığına inana bilmirdi.

Bəlkə zəng eləyib arvadıyla danışaydı, onun səsini eşidəydi. Axı, səs çox şey deyir. İnsanın deyəmmədiyi, demək istəmədiyi çox şeyləri səs gizləyə bilmir. İnsanın qəlbini çılpaq, boyasız, necə var, eləcə açıb göstərir.

Ancaq ola bilərdi ki, arvadı onunla heç danışmağa gəlməsin. Bəlkə onunla danışığa bir başqası gəlsin, lap elə ərini də göndərə bilər. Arvadı telefon danışığına gəlməsə, o zaman demək istədiyi sözlər əbədilik ürəyində qalacaqdı. Onu eşitməyəcəkdilər, eşitmək istəməyəcəkdilər. Bəs onda neyləyə bilərdi? Yox, yox! Buna inanmırdı... Məktubuna cavab yazmağı özünə layiq bilmişdisə, mütləq danışmağa da gələrdi. Gələrdi və məktubda demək istədiklərini telefonda deyərdi. Heç olmasa səsinin titrəyişindən arvadının bu sözləri ürəkdənmi, üzdənmi söylədiyini biləcəkdi. Biləcəkdi və ona təsəlli olacaqdı. Təsəlli olacaqdı ki, arvadı ailə qursa da, onu – ilk ərini unuda bilmir, onunla keçirdiyi günləri (ehtiyac içərisində olsa belə) ömrünün ən xoşbəxt çağları sayır. Başqa cür də ola bilməz. Arvadı bunu məktubunda yazmamışdı, telefonla danışsaydılar, bəlkə yenə etiraf eləməyəcəkdi. Amma səsi, səsinin titrəyişi hər şeyi deyəcəkdi. Özgə cür

düşünməyi arvadı xəyalına belə gətirəmməzdi – buna bütün varlığıyla inanırdı.

Bir də axı, arvadı onu necə unuda bilərdi... O iki uşaq ki, əbədi şahid idi, onlardan qaçmaqmı olardı? Uşaqların üz-gözündə, hərəkətlərində onun – atasının nişanələri yaşamırdımı?.. Axı, arvadı özü dəfələrlə demirdimi ki, qızların ikisi də ona – atasına çəkiblər, gözlərinə baxanda adam heyrət eləyir... Bu sözlərdə həqiqət vardısa, uşaqların hansısa bir hərəkətimi, danışığımı, gülüşümü addımbaşı onu keçmişə qaytarmayacaqdımı? Kim bilir, hər dəfə o adamla bir yastığa baş qoyub yatanda birgə keçirdikləri gecələri, ömrün erkən illərini yaşayır və qaranlıq gecənin uzunluğu boyu qucağındakını unudaraq qollarını onun mehrinə, onun istisinə, onun ehtirasına açır... Kaş ki, heç olmasa bircə dəfə arvadını görəydi, dinməz-söyləməz üz-üzə, göz-gözə dayanaydılar; sifətindəncə hər şeyi oxuyacaqdı.

Yox, o, arvadının hər şeyi ürəkdən yazdığına inanmır.

…İnanmır və dərhal da gözlərinin qabağında həmin əhvalat təfərrüatınacan səhnə kimi canlanır.

Pərdə açılan kimi iri, o qədər də zəngin olmayan otaq görünür. Axşamdan xeyli keçib. Otağın baş tərəfində qoyulmuş televizorda nə isə maraqsız bir veriliş gedir. İki qız uşağı pəncərənin qabağında oturub dərslərinə hazırlaşır. Arvad divanda nə isə tikməklə məşğuldu. Əri ondan bir az aralıda oturub televizora baxır. Hiss olunur ki, narahatdır, gözləri televizorda olsa da, fikri ayrı yerdədi.

Ər *(əsəbi)* – Bu gün hara getmişdin?

Arvad *(başını qaldırmadan)* – Bu nə sualdı? Bilmirsən bəyəm hara getmişdim? Sənə dedim ki, həkimə…

Ər - Elə ona görə də soruşuram. Sən bu gün həkimə getməmisən.

Arvad *(diksinir və dərhal özünü ələ almağa çalışır)* – Necə yəni həkimə getməmişəm? Bunu kim dedi sənə?

Ər – Sən yaxşı bilirsən ki, məndən heç nəyi gizlətmək mümkün deyil.

Arvad – *(özünü büsbütün itirmiş halda)* – Mən başa düşmürəm sən nə haqda danışırsan…

Ər *(bərkdən)* – Özünü tülkülüyə qoyma!

Arvad *(tutularaq)* – Bu nə danışıqdı? *(Çıxmaq istəyir, amma əri onun qabağını kəsir).*

Ər – Hara? Bununla canını qurtarmaq istəyirsən? De görüm, niyə ondan məktub aldığını məndən gizlədirsən?

Arvad *(susur).*

Ər – Hələ üstəlik cavab da yazırsan. Məni həkim adıyla aldadıb şəhərə gedirsən. Elə güman eləyirsən ki, bilmirəm şəhərə getməyinin səbəbini? Çünki istəyirdin ondan məktub gəldiyini bir adam bilməsin, özün öz əlinlə aparıb poçta salasan. Sirrin üstünə mala çəkəsən…

Arvad *(bir qədər yumşalaraq)* – Sən, axı, bilmirsən mən ona necə cavab yazmışam…

Ər – Söhbət necə cavab yazmaqdan getmir. Bunu yaxşı bilirsən. Ondan gedir ki, sən hər şeyi məndən gizləmisən. Özü də bilə-bilə ki, mənim gözümdən heç nə yayınmır.

Arvad – Sən heç nəyi başa düşmürsən. Başa düşmək də istəmirsən.

Ər – Mən nəyi başa düşməliyəm? Bir yastığa baş qoyduğum halal arvadım çörəyimi yeyə-yeyə mənə xəyanət edirsə... Axı, mən nəyi başa düşməliyəm?

Arvad – Mən sənə heç vaxt xəyanət eləməmişəm.

Ər *(əsəbiləşib özündən çıxaraq)* – Bəs bu xəyanət deyil, nədi? Xəyanətin başı-buynuzu olmur ki...

Arvad – Mənimlə belə danışma... Biz evlənəndə sən bilmirdinmi məyər mənim ərim sağdı...

Ər – Sağ, ya ölü. Ona ki, güllələnmə cəzası kəsilib, üzə çıxa bilməyəcək. Bu elə varkən yox olmaq deməkdi.

Arvad – O ölməyib sağdı. Hələ yaşayır.

Ər *(şillə ilə qadının sol yanağından vurur)* – Fahişə!

Arvad *(sarsılmış halda dişlərini bir-birinə qıcayaraq)* –

Mən bunu sənə heç vaxt deməmişəm. Heç demək fikrim də olmayıb. Həmişə xətrini uca tutmağa çalışmışam. Öz dərdimi içimdə boğmuşam. Amma indi söhbət açıldığı üçün deyirəm: Sən onun kəsilib atılan dırnağına belə dəyməzsən. Tfu sənin üzünə! *(çıxır).*

Pərdə

Bu hadisənin necə bitəcəyini xəyalən yaddaşında canlandırmağa çalışırdı. Əgər o tanıdığı, bir vaxt qoyub getdiyi arvadıdısa, bu söhbətdən sonra uşaqlarını götürüb biryolluq evdən çıxmalıdı.

…Məktubu bir də oxudu. Vərəqin lap qurtaracağında bir cümlə ilə anasının öldüyünü xəbər verirdi. Bu cümlədə özünün yazıqlığını, kimsəsizliyini duydu. Necə olmuşdu ki, bu bəd xəbər gözlərindən yayınmışdı.

Anası haqqında fikirləşəndə onu gecə-gündüz pəncərənin qabağında oturub ağaran yollara baxan görürdü.

…Daha onun nəfəsi kənddə, üzü qibləyə baxan evlərinin divarlarına hopmayacaq, pəncərənin qabağında balaca nimdərin üstündə oturduğu yer həmişəlik boş qalacaq.

Eh, kaş ki, anası əvvəl, bütün bu dəhşətli əhvalatlar baş verməmiş öləydi... Heç olmasa, onun başına gələnləri bilməz, dünyadan bir az rahat köçərdi, bu qədər dərd, nisgil aparmazdı özüylə. Erkən ölüm bala dağından yüngül olardı… İtirdiyi ilk oğlunun dərdi azmış kimi bu da üstünə gəldi. Övlad doğmadı özünə, dərd doğdu, bəla doğdu.

...Güman ki, ölümündən qabaq günlərlə yatağında qovrula-qovrula qalıb. Qulağı gecə-gündüz səksəkədə olub ki, bəlkə doğmalardan-yaxınlardan qapısını açan ola, yad eləyən ola… Hər kiçik xışıltıdan diksinib, həyəcanlanıb, içərisinə ümid dolub, işıq dolub. Bəlkə evinə, mənzilinə yaxınlaşan, qəfildən astanadaca tükənən addım səsləri içərisində oğlunun yerişini xatırladan səslər də duyub... Kim bilir, boğazı quruyanda bir qurtum su

verəni olmayıb... Bəlkə də aclıq, susuzluq öldürüb bədbəxti... Arvadı anasının ölümünü belə soyuqqanlılıqla xəbər verirsə, bəlli ki, ailədən uzaq olub, dəfnə də getməyib ki, əri söz eləyər...

Alnına yazılan taleyə bax ki, anasının dəfninə gedə bilmədi. Bu da cəhənnəm, anasının ölümündən vaxtında xəbər tuta bilmədi ki, ağlaya, göz yaşı tökə, bəlkə qəbirdə ayan ola arvada. Ayan ola ki, oğlu sağdı, onunçün ağlayır, yas saxlayır. Qəbrini görmədi və görəmməyəcək.

Kimlər dəfn elədi anasını görən? Kimlərin çiynində qəbiristanlığa getdi, kimlərə yük oldu? Qiyamətəcən sümükləri sızıldayacaq bədbəxtin...

Bu dərd onu bütün özgə düşüncələrdən artıq sıxmağa başlayırdı. Çünki ananı dəfn eləmək övladlıq borcuydu və bu borc yeganə övlad kimi onun çiyinlərinə düşürdü. İndi anasının yad əllərdə, yad çiyinlərdə qəbiristanlığa aparılmağını düşündükcə az qalırdı dəli ola.

Anası vəsiyyət eləmişdi ki, əgər bir vaxt oğlu geri dönərsə qəbir daşını döyüb, gəlişini bildirsin, yoxsa təskinlik tapmayacaq, rahat olammayacaq... Niyə anası belə vəsiyyət eləmişdi, görən? Bilmirdimi ki, ona – oğluna güllələnmə cəzası kəsiblər və bu cəzadan hələm-hələm qurtaran olmayıb. Vəsiyyət eləmişdisə, güman ki, arvadın ürəyinə dammışdı, nə isə ayan olmuşdu ona. Yoxsa niyə bunu vəsiyyət eləməliydi ki...

Görünür, ölümə inanmaq üçün hər şeyi gözlərinlə görməlisən. Ölüm göz qabağında keçməlidi, ölənin qəbri, son sığınacaq yeri olmalıdı... O isə bunlardan məhrumdu, güllənmə cəzasına məhkum olunub.

Kaş, məktub yazacaqdısa, bir az əvvəldən yazardı ki, barı arvad oğlunun sağ olduğunu bilib heç olmasa dünyadan rahat gedərdi. Oğlundan məktub gəlsəydi, zavallı bəlkə bir müddət də yaşayacaqdı, ömürdən möhlət alıb oğlunun yolunu gözləyəcəkdi.

Ömür elə sürətlə ötüşmüşdü ki, insanın qocalıb ölə biləcəyini belə ağlına gətirməmişdi. Deməli, belə? Anası onun – doğ-

ma oğlunun ölümünə inanmadan dünyadan köçüb. Hələ üstəlik inanmadığını sübut etmək üçün belə bir vəsiyyət də eləyib, ancaq...

Ancaq o anasının bu vəsiyyətinə heç zaman əməl eləyə bilməyəcək. Bu dəhşətli fikri başından çıxarmağa çalışsa da, içərisində özünə də məlum olmayan bir səs onu bu hökmə inandırmaq istəyir.

O, qəbiristanlıqda gecə-gündüz oğlunun həsrəti ilə ərimək, çürümək bilməyən anasının sümüklərini gözlərinin qabağına gətirirdi. Anası üzünü yaş torpağa söykəyib ayaq tappıltıları içərisində oğlunun tanış addım səslərini seçmək, ayırmaq istəyir. Amma ayaq səsləri ona sarı gəlmir, aralıdan ötüb keçir. Vaxt keçdikcə qəbir daşını örtən yaşıl mamırlar böyüyür, qalxır. Ana get-gedə ümidini itirməyə başlayır.

Yaşıl mamır örtüyü anasının adı-soyadı, doğum-ölüm tarixçəsi yazılmış lövhəciyi də örtür.

İllər keçir.

Qəbrin torpağında otlar göyərib solur.

Bu məktuba dünyanın heç nəylə çəkilməyən dərdləri yüklənmişdi.

...Dənizin sahilinə endi, qoltuq ağaclarını cütləyib bir tərəfə qoyaraq, hər gün oturduğu daşın üstünə çökdü. Qağayılar sahildən uzaqlaşmışdılar, nöqtə kimi görünürdülər.

Körpüdə seyrəklikdi. Sahildən xeyli uzaqda hansısa bir yük gəmisi lövbər ataraq dayanıb və dənizdə özgə bir qaraltı gözə dəymir.

Sular aram-aram yırğalanır, dəniz nəfəs alırdı. O, nəfəs alan dənizin səsini, xırda, xəfif ləpələrin pıçıltısını eşidir, uzaqda nöqtə kimi seçilən qağayıların çığırışını eşidir, özgə heç nə, heç nə…

Dənizə ağır-ağır qaranlıq çökməkdədi. Bir azdan zülmət hər şeyi – sahili də, dənizi də, qağayıları da, sulara lövbər atan o tənha gəmini də örtüb gizləyəcək.

Gözlərini get-gedə qaranlıqlaşan sulara dikib durur, qalxıb

heç yana getmək istəmir.

«Deməli belə…».

Ah, niyə dənizin sahilinə enəndə dünyanın hüdudsuzluğunu belə dərindən hiss eləyir. Niyə ona elə gəlir ki, yer üzünü ağzına alan sel-suyun sonu, sahili yoxdu. Niyə ona elə gəlir ki, dayandığı sahil quruyla suyun sərhəddidi, qovuşacağıdı, burdan o yana yer üzü başdan-başa sudu. Niyə dəniz ümidlərə, təsəllilərə yer qoymur?..

Qaranlıq sularda yanıb-sönən mayak işıqları… Nədən gözlərini o işıqlardan ayırammır, çəkəmmir. Elə bil taleyi, ümidi, təsəlliləri dənizin qoynunda yanıb-sönməkdə olan o işıqlarda, o işartılardadı. Və o işıqlar olmasa, kim bilir daha nələr baş verə bilər...

«Deməli belə…».

Qəlbinin o isti, işıqlı ümidlərinin dənizdəki uzaq işartılar kimi sönüb gedəcəyinə inanmaq istəmir.

Dənizə qaranlıq çökür.

* * *

Birdən-birə canında, damarlarında o soyuq, amansız baxışların giziltisini duydu və dərhal da hansı görünməz əlləsə onu geriyə çevirdilər.

«…Göyüşov!!!».

Əyninə nə isə təzə, səfər geyiminə bənzəyən bir paltar geymiş, gözlərinə tünd qara eynək taxmışdı. Amma gözlərində elə bir müdhiş parıltı vardı ki, qara eynəyin arxasından da görünürdü. Ara vermədən papirosunu tüstülədirdi. «…İlahi, pal-paltarını, formasını büsbütün dəyişmiş bu adamı hansı fəhmlə tanıya bildi?.. Duyğuları bu kölgəyə qarşı belə həssasdısa, onu gözləyən təhlükə labüddü, qaçılmazdı; hissləri onu bu çağacan aldatmayıb, axı? Yaxşı, bəs niyə səfər paltarındadı? Bəlkə bu geyimlə onu aldatmaq, başını qatmaq istəyir. Bəlkə heç onu

izləmir, birdəfəlik çıxıb getmək üçün gəlib vağzala… Belə olsa biryolluq canını onun əlindən qurtarar, rahatlanar. Nə vaxtacan səksəkə içərisində yaşamaq olar? Daha bezib, səbri tükənib... Yox, yox, səfər geyimindədisə, sözsüz çıxıb gedir, buna şübhə ola bilməz; hər halda dalda bir yerə çəkilib onu izləməlidi. Gəmiyə minib getdiyini öz gözlərilə görməlidi, yoxsa rahatlana bilməz».

Ən çox qorxduğu da bu idi ki, kölgənin peyda olmağıyla fikri, xəyalı, düşüncəsi donub qalır, nə edəcəyini bilmirdi. Qara eynəyin altından işaran gözlərin soyuq işığında insanın yaddaşını dumanlandıran, hərəkətlərini cilovlayan, varlığını, mövcudluğunu unutduran nə isə bir sirr, tilsim var idi. Baxışların ona tuşlandığını hiss eləyən kimi burulğana düşübmüş kimi yerindəcə fırlanır, qaçmaq, qurtulmaq üçün canında, vücudunda tab-taqət duymurdu. İliklərinə işləyən baxışların soyuğundan, dözülməzliyindən qışqırmaq, fəryad qoparmaq istəyirdi, amma o saatca da başa düşürdü ki, bunun faydası olmayacaq, kimsə dadına, harayına yetməyəcək.

Hərdən kölgənin baxışları ondan çəkilib özgə bir səmtə dikiləndə bunu dərhal hiss eləyir, tabı-taqəti özünə qayıdırdı. Onu çaş-baş salan təkcə kölgənin səfər geyimində olması deyildi, həm də gəminin yola düşəcəyi vaxtı göstərən lövhəni gözdən qoymamasıydı. «Yox, doğrudan çıxıb gedənə oxşayır; daha o yan bu yanı ola bilməz. Gör bir gözlərini lövhəyə necə zilləyib. Şükür sənin kəreminə, yarəbbi!..».

Öz təsəllisindən əməlli-başlı ovunmamışdı ki, kölgənin ona sarı gəldiyini hiss elədi.

İçərisindən keçən qəfil dalğadan sümükləri səksəndi və... Nə vaxt yerindən qalxıb adamlara qarışdığını bilmədi. Yaxşı ki, vağzalda qələbəlik idi, izdiham onu ağuşuna aldı. İndi tünlükdən istifadə eləyib aradan çıxmaq lazımdı, ara seyrəlsə qaçıb qurtarammayacaq, dalda küçələrin birində qabağını kəsib işini bitirəcəkdi.

Əlilə cibini yoxladı – bıçaq tiyəsi yerindəydi. Bir qədər

ürəyi üstünə gəldi. Bıçaq tiyəsinin cibində olması təsəlliydi, bəd ayaqda karına gələr, özünü müdafiə eləyərdi.

Başını aşağı salıb özünü məşğul göstərsə də, dözə bilmir, gözlərini dolandırıb gizlin-gizlin soyuq baxışların ona tuşlandığı səmtə baxırdı. Kölgə bayaqkı yerindən uzaqlaşıb harasa çəkilmişdi. Amma canında gəzən soyuq baxışların giziltisindən hiss eləyirdi ki, çıxıb getməyib, yaxınlıqdadı.

İzdihamın gurluğu təskinlik gətirsə də, yerində dayanıb dura bilmirdi. Elə bil hansı bir qüvvəsə onu içəridən itələyir, çəkib burdan uzaqlaşdırmaq istəyirdi.

Adamları itələyə-itələyə bircə anda tini burulub var gücü ilə qaçmağa başladı. Sanki kölgədən qaçmır, özündən, həyatının düzənini dağıdan keçmişindən, xatirələrindən qaçırdı. Bədəninə elə bir güc gəlmişdi ki, deyirdin qaçmır, uçurdu...

Ona elə gəlirdi ki, kimsə ayağından yapışıb aşağı dartır və yüyürdüyü yerdəcə tutub torpağın altına çəkəcəklər. Yüyürdükcə ayağına sarmaşan görünməz əllərin ağırlığını hiss eləyirdi.

Bir tin ötdü.

Sonra bir tin də ötdü.

Qarşıdakı dayanacağa çatıb ayaq saxlayaraq tələsik yol boyu sağa-sola göz gəzdirdi. Gözləri yaxınlaşmaqda olan tramvaya sataşanda ürəyi üstünə gəldi. Dayanacağa gəlib çatanacan iki dəqiqə, bəlkə bir az artıq çəkərdi. O vaxtacan kölgənin gəlib çıxacağına inanmır, çevrilib baxmağa da ürək eləmirdi. Amma kürəyini göynədən o soyuq baxışları hiss eləyirdi.

İki dəqiqə iki il qədər uzun gəldi ona. Qapı açılan kimi özünü sürüyüb içəri saldı. «Bircə tramvayın qapısı bağlanaydı... Ah, nə uzun çəkdi bu... Gəlib ona yetişməsə yaxşıdı...».

Qapı ağır-ağır bağlandı, oturmağa macal tapmamış tramvay yerindən tərpəndi, yıxılmamaq üçün qoltuq ağacını buraxıb arxası ona sarı dayanmış qadının belini qucaqladı. Qadın dərhal ona sarı dönərək nifrətlə əlini itələdi, ancaq nədənsə dillənmədi, adamları aralayaraq qabağa keçdi.

Birtəhər arxa oturacaqda həmişəki yerində əyləşdi.

Tramvayın şüşələri tərlədiyindən bayırı görmək olmurdu. Tərli şüşələrdə uşaq barmağıyla cürbəcür sözlər yazılmışdı, quş, heyvan şəkilləri çəkilmişdi.

Bir vaxtlar içib keflənəndə ötən xatirələrin istisinə qızınmaq üçün tramvaya minər, bu yerdəcə oturub saatlarla şəhəri dolanardı. Ayağı kəsiləndən sonra tramvay görəndə bədəni ürpəşirdi. O dəhşəti yadına salmamaq üçün bacardıqca uzaq olmağa çalışırdı. Ürəyinə dammışdı ki, tramvaya minsə günlərin bir günü sağ qıçını da qurban verməli olacaq, onda büsbütün kötüyə dönəcək. İndisə kölgə gözlərinə dəyən kimi qaçıb özünü dayanacağa çatdırmış, qorxunu unudaraq tramvaya minmişdi.

Kürəyini oturacağın yumşaq arxalığına söykəmişdi. Bayaqdan bəri soyuğun qabağında dayandığından əsim-əsim əsən bədəni içərinin xoş, ılıq havasından boşalır, əsməcəsi, titrəməsi çəkilib gedirdi. Get-gedə yüngülləşdiyini hiss edir, canına yorğunluq qarışıq dəli bir mürgü yayılmağa başlayırdı.

Tramvay getdikcə sürətini artırırdı. Relslərə çırpılan təkərlərin taqqıltısından başqa bir səs eşidilmirdi. Bayaq tramvayda gördüyü adamların biri də yox idi, hamı düşüb getmiş, içəridə təkcə o qalmışdı. İndi birdəncə tramvayda özünü tənha, narahat hiss elədi. Yəqin ki, sürücü ona fikir verməmişdi, üst başına baxan kimi nə yuvanın quşu olduğunu biləcək, düşürüb qovacaqdı. Amma tramvay dayanacaqlara, dayanacaqlarda çoxalmaqda olan adamlara məhəl qoymadan çıxıb gedirdi.

Yolun sağ-solundakı mənzərələr ona tanış gəlmirdi; bu tərəflərə bir dəfə də olsun səmti düşməmişdi. Bir az qabaq sürücünün onu düşürüb qovacağından qorxurdusa, indi tramvayın getdiyi səmtin nagümanlığından şübhələnir, ağlına min cür fikir gəlirdi. Qəfildən qalxıb qabaq qapıya tərəf yaxınlaşdı ki, tramvayı saxlatdırıb qarşıdakı dayanacaqların birində düşsün. Və dayanacağa bir az qalmış yavaşca kabinənin qapısını döydü. Amma sürücü ona sarı baxmadı, elə bil ki, içəridə sərnişin olduğunu büsbütün unutmuşdu.

Şüşəni bir də, bir də döydü – bunun da fərqi olmadı. Sonra cibindən çıxardığı dəmir pulla kabinənin şüşəsini döyə-döyə qışqırmağa başladı:

– Saxla, saxla!..

Tramvay sürətini bir az artırmışdı. O isə ara vermədən qışqırır, qışqırırdı:

– Saxla deyirəm sənə, saxla!..

Birdən gözləri tramvayın güzgüsündə sürücünün sifətinə sataşdı.

«...Göyüşov!!! Aman allah!!!».

O idi, özüydü...

Sanki damarlarında qanı dondu.

Tramvay bayaqkı sürətlə gedirdi.

«...İndi nə yolla xilas eləsin özünü? Burdan qaçıb qurtarmağa ümid bəsləməkmi olar? Bəlkə allaha pənah deyib özünü pəncərədən atsın? Yox, yox... Burdan salamat qurtarmağa ümid eləmək sadəcə olaraq ağılsızlıqdı. Bəs onda neyləsin? Dayanıb durmaq da olmaz, axı?.. Vaxt gözləmir... gözləmir...».

Qəfildən tramvayın güzgüsündə Göyüşovla göz-gözə gəldi.

– Fələəək!!! – Öz səsinə diksinib ayıldı.

Bayaqdan bəri tramvayın arxa oturacağında düşüb qalmışdı. İçərinin istisi bütün günü vağzalda dolaşmaqdan soyumuş bədənini yumşaltmış, özü də hiss eləmədən yuxuya getmişdi.

Böyür-başındakılar təəccüblə ona baxırdılar. O isə səsinə, qışqırığına çevrilən adamları görmürdü. Şəhər illər uzunu onu kənardakıların bu cür baxışlarına alışdırmışdı.

Gördüyü yuxunun vahiməsindən bəri-bədəni titrəyir, özünü ələ ala bilmirdi.

Bir qədər toxdayan kimi təzədən vağzala qayıtmaq barədə düşündü. Qorxurdu ki, hardasa, nəyəsə başı qarışar, illərdən bəri gözlədiyi adam gəmidən düşüb onu tapa bilməz, qayıdıb gedər. İndi yəqin ki, kölgə də çıxıb getmiş olardı; bayaqdan bəri bir

dünya vaxt keçmişdi...

«O kölgədən niyə bu qədər qorxur?.. Heç ölüm hökmü veriləndə belə narahat olmamışdı, axı... Bəlkə kölgə vağzala onu izləmək üçün gəlməmişdi. Geyimindən, görkəmindən səfər adamına oxşamırdımı? Bəs eləydisə, niyə adamların arasıyla ehtiyatla ona sarı gəlirdi? Niyə gözlərinə ilin-günün bu vədəsi eynək taxmışdı? Niyə izləyirdi onu? Bəlkə, bəlkə iz azdırır? Ya səfərqabağı hər şeyə son qoyub getmək istəyir, üzülüşmək istəyir. Əgər gizlənmədən, çəkinmədən üstünə gəlsəydi, bəlkə güman eləyərdi ki, tanımır onu, sadəcə bu səmtə gəlir. Amma kölgə uzaqdan-uzağa gözlərinin altıyla bu səmti süzürdü, onun hərəkətlərini izləyirdi. Ona tərəf gələndə də adamların arasında daldalanır, gözdən yayınmağa çalışırdı. Kölgənin bu sirli gəzişini necə oxuyub anlamaq mümkün idi?.. Yox, hər halda vağzala qayıdacaqdı. Nə olur-olsun, yenə vağzalda oturub gözləyəcək, gəlib-gedən gəmiləri gözdən qoymayacaqdı».

Vağzalyanı dayanacaqların birində tramvaydan düşdü. Bir qədər özünə gəlsə də, gördüyü yuxunun vahiməsi canından çəkilib getməmişdi. Nə isə onu tutub saxlayır, yeriməyə, hərəkət eləməyə qoymurdu. Qorxurdu ki, dəniz vağzalında təzədən Göyüşovla üzləşə və bayaqkı dəhşətli səhnə təkrar oluna.

«Bəlkə də həyəcanları, təşvişləri əbəsdi, arxasınca kölgə kimi sürünən Göyüşov deyil, özgə, yad bir adamdı, gözləri onu aldadır. Amma yox, bu ola bilməzdi. Əyninə necə paltar geyir-geysin, gözünə nə cür eynək taxır-taxsın, min adamın içində tanıyardı. Axı, onu öz əlilə öldürmüşdü. İndiki kimi yadındaydı ki, yaradan axan qan qolundan bir az aralıda gölməçə yaratmışdı. Hətta qandan gələn ürəkbülandırıcı qoxu indi də burnundan çəkilib getməmişdi. Hər dəfə o hadisəni xatırlayan kimi həmin qoxu burnuna dolur, ödü ağzına gəlirdi. Belədə onun ölmüş olduğuna şəkk eləməyə yer qalmırdı. O yaradan sağ qalsaydı belə, bunu işin sonrakı gedişində, lap elə məhkəmə prosesində bilərdi. Dəqiq yadındaydı ki, məhkəmənin gedişində onun adam öldürdüyünü neçə dəfə təfərrüatınacan təsvir elədilər. Bir də

Göyüşov sağ qalmış olsaydı, o heç vaxt belə ağır cəzaya məhkum olunmazdı. Lap uzağı on beş il iş kəsərdilər. Axı, güllələnmə hökmü adi bir cinayətə görə verilmir. Arada ölüm olmasaydı, güllələnmə cəzası almazdı. Nahaq şübhələrə düşür, nahaq özünü əbəs yerə üzür...

Bəs onda bu qara kölgə nə olan şeydi? Bəlkə gözlərinə görünür, həqiqətdə elə bir şey yoxdu. Madam ki, gecə-gündüz fikri-düşüncəsi ölümlə bağlıdı, kölgənin gözünə görünməsi təbiidi. Bəs axı, ölümü onun yadına salan nəydi? Hər şey unudulmamışdımı, yaddaşında çeynənib-çeynənib köhnəlməmişdimi? Ölümü niyə xatırlayırdı belə? Bəlkə ölümlə bu kölgəni biri-birinə nə isə bağlayırdı və ölümü xatırlamasına səbəb də elə kölgənin birdən-birə peyda olmasıdı?.. Yoxsa ölmək məqamı gəlib çatmışdı, yetişmişdi və kölgənin peyda olması elə bununçün lazımdı? Bəs onda bu qorxu, bu təşviş nə üçündü? Bütün bu əzablardan, sarsıntılardan sonra da ölümdən qorxmalıdımı?».

Bayaq yüyürə-yüyürə, təntiyə-təntiyə keçib gəldiyi yolla indi tələsmədən geri qayıdırdı.

«Yox, yox kölgədən qaçmaqla qurtarammayacaq. Axı, kölgə onu vaxt-bivaxt izləyir. Özü də elə izləyir ki, heç cür azdırmaq olmur. Hayana gedirsə, yerin altından çıxırmış kimi qarşısında peyda olur. Gecələr yuxularına gələrək səhərə kimi əzab verir. Ağlına belə gətirməzdi ki, gəlib dəniz vağzalına çıxa bilər. Yox, o vağzaldan ayrı çətin ki, dözüb yaşaya bilə. Bəlkə kölgəni öldürə... Ah, yenə ölüm! Amansız, sirli ölüm! Yaxşı, bəs dilənçi həyatı da ona çox görülürsə, neyləməlidi, nə yolla yaxasını qurtarmalıdı? Çıxış yolu yenə ölümün üstünə gəlir. Xəyal kimi bircə anda yüz yer dəyişən bu kölgəni necə öldürəcək və öldürməklə hər şeyə son qoyulacaqmı? O zaman Göyüşovu öldürməmişdimi? Budur, ruhumu, kölgəsimi yad şəhərdə qarabaqara onu izləyir. Oturub gözləməklə heç nə dəyişməyəcək, kölgəni aradan götürmək üçün yollar aramalıdı, düşünüb-daşınmalıdı...».

Ha fikirləşirdisə, öldürməkdən savayı çıxış yolu görmürdü. Sanki tale qəsdinə durmuşdu, elə hey ölümə, cinayətə, qətlə çəkirdi, qana sürükləyirdi. «Amma öldürmək belə asan idimi? Kölgənin onu izlədiyini bilə-bilə camaatın gur yerində belə bir qəsdi həyata keçirə biləcəkdimi? Bəs bunu necə eləyəcəkdi? Bəlkə kölgəni nə yollasa aldadıb tənha, adamsız bir yerə apara, cibində gizlətdiyi bıçaq tiyəsilə vurub öldürə... və hər şeyə son qoya...».

Dəniz vağzalına bir az qalmış dayandı. Uzaqdan-uzağa vağzal binasının tağlı günbəzini süzdü, süzdü sonra ağır-ağır dönüb getdi.

Səhərəcən dözmək, gözləmək, hər şeyi son dəfə götür-qoy etmək istəyirdi.

## XIV FƏSİL

Səhəri gün obaşdannan dəniz vağzalında həminki yerində oturmuşdu. Axşamdan bıçaq tiyəsinin itiliyini yoxlamış, təzədən əskiyə büküb şalvarının arxa cibində gizlətmişdi. Qəti qərara gəlmişdi; kölgəni mütləq aradan götürməliydi, bunsuz gün-dirrik nə olduğunu bilməyəcəkdi. Çünki kölgə peyda olandan bütün fikri-düşüncəsi yalnız onunla məşğul idi, özgə heç nəyin barəsində düşünə bilmirdi.

Hava küləkli olduğundan dənizdə gəmilər gözə dəymirdi. Az qala göy qübbəsinəcən qalxan fırtına dənizin o tayı ilə bu tayı arasında sulardan divar hörərək yolları bağlamışdı. Allah bilir, külək nə vaxt yatacaq, sular durulacaq, dənizin o tayından gələn gəmilər sahilə yan alacaqdılar…

Həmin gün səhərdən axşama kimi dəniz vağzalından aralanmadı – amma kölgədən əsər-əlamət yox idi.

Səhərisi gün də həminki qaydayla kölgəni izlədi – yenə səs-soraq çıxmadı. Elə bil kölgə onun qəsdindən, məramından xəbərdar idi və bilərəkdən üzə çıxmır, gizlənirdi.

Sonra günlər qarışdı...

* * *

Bir səhər yenə sahildə oturub gözlərini sulara dikmişdi. Həmin gün vağzalda qəribə bir canlanma vardı. Nə vaxtdan bəri aramsız əsən külək kəsmiş, dəniz sakitləşmiş, gəmilər səfərə çıxmışdılar. İndi neçə günün ayrılığından sonra sahilə gəmi yan alırdı.

Gəmi sahilə yaxınlaşdıqca sürətini azaldır, ağır-ağır üzürdü. Körpüylə sahil arasında dayanmış adamlar get-gedə artan həyəcanla gəmiyə sarı can atırdılar. Oturduğu yerdə dayana bilməyib qalxdı.

Nəhayət, gəmi körpüyə yan alıb dayandı və bayaqdan bəri kayutlarından çıxıb göyərtəyə dolmuş sərnişinlər səbirsiz-səbirsiz tökülüşməyə başladılar. İrəli keçib gəmini qarşılayan adamlara qarışdı. Sərnişinlər körpüyə qalxdıqca bir-bir onları gözdən keçirirdi. Diqqətlə baxırdı ki, uzun illərdən bəri axtardığı o adamı gözdən qoymasın. Hərdən suyu şirin adamla üzləşəndə diksinirdi, amma dərhal özünü ələ alır, bir az da diqqətlə sərnişinləri izləməyə başlayırdı. O, gözlədiklərini qarşılayıb sevinə-sevinə körpüdən uzaqlaşan adamların arxasınca baxa bilmirdi.

Ürəyi, əsəbləri hansısa bir hadisənin ərəfəsindəymiş kimi gizli bir həyəcanla vurur, dözüb dayanmağa səbri çatmırdı.

...Bu da son sərnişin... ağır-ağır körpüyə qalxır... və gəmiylə körpünü birləşdirən taxta pilləkəni götürürlər. Vəssalam. Neçə gündən bəri gözlədiyi bu səfər də belə başa çatır.

Özünə gələndə başını qaldırıb baxır ki, körpüdə ondan başqa kimsə yoxdu. Geri dönüb ağır addımlarla körpünü tərk edir.

«…Nə vaxtacan gözlədiyi, ümidini-pənahını dikdiyi o adamdan səs-soraq çıxmayacaq? Nə vaxtacan sahildə dayanıb göy sulardan imdad diləyəcək? Nə vaxtacan dəniz inad göstərəcək, susacaq, susacaq… Axı, dözə bilmir, gözləyə bilmir…».

Taxta skamyaya çökməyiylə adamların arasında gözləri kölgəni çaldı – sümükləri gizildədi.

…Aman allah, necə birdən-birə bu qarmaqarışıqlıqda kölgənin varlığını hiss elədi?..

…Heç o səmtə baxmaq istəmirdi…

…İstəmirdisə, bəs…

…Onun varlığını hiss eləməyilə damarlarında qan niyə dondu?..

…Elə bil yuxudaydı, kimsə onu silkələyib oyatdı…

…Kim oyatdı?..

Kölgə həminki kimi adamların arasında gizlənə-gizlənə, yerini dəyişə-dəyişə hərəkətlərini izləyir, o oturan səmti gözdən qoymurdu. Elə bil onu oturduğu yerdə tutmaq, qoltuq ağaclarını oğurlamaq üçün girəvə axtarırdı. Bir əlini qeyri-ixtiyari qoltuq ağaclarına uzatdı.

Neçə gündən bəri fikirləşdikləri birdən-birə beynində alt-üst olmuşdu. Nəyisə yadına salmaq üçün zehnini yorur, amma faydası olmurdu ki, olmurdu. Hər şey bir yana, özünü, kimliyini unutmuşdu.

…Fələk, ona yaxın düşməkmi olar?.. Bir belə adamın içərisində bu gözlərin soyuq işığına dözəmmir, bu gözlərlə üzbəüz dayanamı bilər?.. Kölgəni öldürmək, illah da ki, şəhərin seyrək, adamsız bir yerinə aparıb öldürmək necə cəfəng bir söhbətmiş. Hər şeyi dönə-dönə ölçüb-biçdiyi bu günlərdə niyə işin bu tərəfini fikirləşməyib…

Ötən həftə vağzalda gördüyü geyimdəydi. Yenə gözlərinə qara eynək taxmışdı.

Yavaş-yavaş ayağa qalxdı. Ayağa qalxa-qalxa gözlərinin altı ilə kölgəni izləyirdi ki, ona sarı gəldiyini, ya baxdığını görə bilsin. Onun ayağa qalxmağıyla kölgə də yerini dəyişməyə başladı və adamların arasında gizlənə-gizlənə harasa qeyb oldu.

Yaddaşı bütün özgə səsləri, özgə düşüncələri batırırdı. Qaçmaq və o gözlərin mənfur işığından gizlənməkdən savayı heç bir şey barəsində düşünə bilmirdi.

Tələsik vağzalın pillələrini qalxıb hündür, tağlı binaya – gözləmə salonuna daxil oldu. İçəri də bayır kimi qələbəlik idi. Bu bir qədər təskinlik gətirsə də, salonda dayanıb dura bilməzdi. Neçə ki, o soyuq işığı kürəyində hiss eləyirdi, tez-tələsik hardasa qaçıb gizlənməliydi, yoxsa ürəyi dayanardı.

İti addımlarla binanı keçib pillələri düşdü, vağzalın qarşısındakı meydançaya çıxdı.

Asfalt gecə-gündüz çisələyən yağışdan par-par yanırdı. Bayaqdan bəri çiskinin altında otursa da, pal-paltarının su içərisində olduğunu hiss eləməmişdi. Başı gəmidən enən adamlara elə qarışmışdı ki, özünü, varlığını belə unutmuşdu.

Çiskinin isladıb sürüşkən elədiyi asfaltda sürətlə hərəkət eləyirdi. Arxaya çevrilib baxmağa qorxurdu. Hansısa qəribə bir hərəkətlə kölgəni duyuq salmaq istəmirdi, belədə qaçıb gizlənmək çətin olardı.

Dəniz vağzalının qarşısındakı geniş asfalt meydançanı keçib parka daxil oldu. Mümkün qədər sərbəst və arxayın hərəkət eləyirdi ki, həm kölgəni şübhələndirməsin, həm də hayana gedəcəyini dəqiqləşdirsin. Çünki bu yerişlə çox gedə bilməyəcəkdi, münasib bir yer tapıb gizlənməliydi.

Parkı keçəndən sonra tramvay xətti gəlirdi. Ötən dəfə burda tramvaya minib canını birtəhər qurtarmışdı, amma indi bədbəxtlikdən tramvay gözə dəymirdi. Vaxt itirməmək üçün xətti tutub getməyə başladı – bu yol şəhərin kənarına, ilin bu vədəsi gəliş-gedişin seyrək olduğu qayalığa tərəf aparırdı. Xətt boyu imkan olsa, qarşısına çıxan ilk dayanacaqdaca tramvaya minər, bu yolla təhlükəni sovuşdurardı. Minmək imkanı olmasa belə, bütün dəlmə-deşiyinə bələd olduğu şəhərin bu səmtində bir yer tapıb gizlənərdi. Amma mümkün qədər yerişini sürətləndirməliydi ki, bir iş görə bilsin.

Göyüşovun arxasınca gəldiyini kürəyini deşən baxışlardan bilirdi. Bu baxışlar sümüklərini gizildədirdi, sızıldadırdı, amma dönmürdü, çevrilmirdi ki, kölgəni duyuq salmasın. Həm də hiss

eləyirdi ki, kölgə onu açıq-açığına deyil, ehtiyatla, gizlənə-gizlənə izləyir, çox güman ki, kölgə də onu duyuq salmaqdan ehtiyatlanır.

Tramvayın xətti boyu hərəkət eləyirdi. Hündür, on iki mərtəbəli yaşayış binasını keçəndən sonra tramvay xətti bəzək ağacları ilə dövrələnmiş alçaq, kirəmidli evlərin arası ilə uzanıb gedirdi. Bu yol xeyli uzun olsa da, düz şəhərin kənarına aparırdı. Şəhərin kənarındakı təzə salınmış bağ indi kimsəsizdi. Bağ sahil qayalıqlarına kimi uzanır, düz dənizəcən ağaclıqdı. Oraya kimi gedib çıxa bilsə, təhlükənin sovuşduğuna əmin ola bilər.

Hava çiskin olduğundan tramvay xəttinin uzanıb keçdiyi yol boyu ins-cins gözə dəymirdi. Küçənin adamsız olması onu qorxudur, kürəyinə tuşlanan soyuq işıqdan vücudu gizildəyir.

Tramvaylar bir-birinin ardınca dayanıblar, cərəyan kəsildiyi üçün, ya nədəndisə, hərəkət eləmirlər. Adamlar da tramvayın içərisində oturub gözləyirlər, hava yağışlı olduğundan heç kəs düşüb getmək istəmir. Axırıncı dəfə kölgə onu vağzalda izləyəndə də hava belə çiskin idi, onda qaçıb trolleybusa minmişdi; içərinin isti havası mürgü gətirmiş, dəhşətli bir yuxu görmüşdü. «Bəlkə o da tramvaya minsin. Sürücüyə yaxınlaşıb xahiş eləyər, qapını bağlayar, bununla da hər şeyə son qoyular». Öz-özünə götür-qoy eləyirdi ki, birdən tramvaylar işləməyə başladılar. Yüyürüb çatmaq istədi, amma artıq gec idi. Ani olaraq çevrilib arxasınca baxdı; kölgə uzaqda yol kənarındakı dirəklərin arxasında gizlənə-gizlənə yavaş-yavaş hərəkət eləyirdi.

Yolun o biri üzünə keçdi.

İçərisində görünməmiş bir nifrət çağlayırdı. Bu nifrət ötüb keçən hadisələri yaddaşında təzələyir, hər şeyi təkrar-təkrar düşünməyə məcbur eləyirdi.

Tramvay xəttini tutub gedirdi. Artıq şəhərin hündür evləri arxada qalmışdı, yol alçaq, birmərtəbəli, özbaşına tikilmiş evlərin arasından keçirdi. Arxaya çevrilməsə də, kölgənin gəldiyini, onu qarabaqara izlədiyini bütün varlığıyla duyurdu.

Budur, tramvay xətti dövrə vurub geri qayıdır. Burdan belə

yol yoxdu, evlər, tikililər bitməkdədi. Xətdən bir qədər uzaqdakı evlərə sarı ensiz bir cığır uzanır. Həmin bu cığır evlərin arasından keçib dənizin sahilinə, çılpaq qayalıqlara aparır.

Göyüşovun arxadan gəldiyini duyur, bütün varlığıyla duyur. Tələsə-tələsə cığırla yuxarı qalxmağa başlayır. Dəniz vağzalından bura qədər birnəfəsə gəldiyi uzaq yol onu tamam əldən salıb; qıçının kəsiyi göynəyir, oynaqları sızıldayır. Amma bütün bunlara baxmayaraq canında zərrəcə yorğunluq hiss eləmir. Qaçıb bir tərəfdə gizlənməkdən savayı özgə bir fikir ağlına gəlmir.

Yoxuşu qalxdıqca hərdən dayanıb nəfəsini dərir və kölgənin arxasınca gəlib-gəlmədiyinə qəti əmin olmaq istəyir. İndi kürəyini gizildədən soyuq işıqla yanaşı, bir də kimsəsizlik qorxudur onu. Vağzalın qələbəliyindən qopub bu adamsız yerə gəlib çıxdığına min-milyon kərə peşmandı.

Bu da təpənin üstü. Dənizin səsini, qayalara çırpılan dalğaların şırıltısını apaydın eşidir. İnnən belə ta dənizəcən yoxuş aşağı hərəkət eləməlidi. Təpənin üstündə bir anlığa dayanıb hələ də kölgənin onu izlədiyinə əmin olandan sonra cığırla üzü aşağı enməyə başlayır və bir neçə addım atandan sonra evlər, tikililər görünməz olur. Qoltuq ağaclarıyla enmək çətin olduğundan yavaş-yavaş, ehtiyatlı addımlarla hərəkət eləyir. Bilir ki, ayağı bir balaca sürüşsə, dərənin dibinə yuvarlanasıdı və çətin burdan adam salamat qurtara. Nə yaxşı ki, kölgə hələ uzaqdadı, arxayınca düşür, tələsmir.

Yoxuş boyu torpağa oturmuş daş parçalarına söykənə-söykənə qarış-qarış addımlayır. Yol təhlükəli olsa da, qorxu deyilən şey ağlına belə gəlmir. Narahatlığı yalnız kölgə sarıdandı, çünki üzü aşağı endikcə kölgənin arxadan gəldiyini, o soyuq gözlərin işığını hiss eləmir.

İstəyir geri qayıdıb gəldiyi yol-rizi gözdən keçirsin, kölgənin izləyib-izləmədiyini yəqinləşdirsin, amma birdən kürəklərində o soyuq gözlərin amansız işığını duyur. Başa düşür ki, kölgə təpənin üstündədi, onu duyuq salmamaq üçün hələlik dərə

aşağı enmir, gözləyir bir qədər aralansın, uzaqdan onu rahat izləyə bilsin. Yəqin ki, münasib bir yerdə başının üstünü almaq, haqq-hesabı çürütmək istəyir.

Kölgənin arxasınca gəldiyini hiss elədikcə ona yeni qüvvə gəlir. İti yerişlə təpə aşağı enməyə başlayır.

Aşağı endikcə yoxuş yastılanır, bir az da ensə tamam qurtaracaq, sahil boyu uzanan qayalıqlar başlayacaq.

«…Nahaqca şəhərdən kənara çıxdı, həmişəki kimi vağzalın qələbəliyində gözdən yayınıb gizlənmədi. İndi şəhərin kənarında insan ayağı dəyməyən bu yurdda kim köməyinə gələcək, kimə pənah bağlaya biləcək…».

Yoxuşu endikcə özünü ələ almağa, soyuq düşüncəylə son anda neyləyəcəyini götür-qoy eləməyə çalışırdı, ancaq kürəyinə saplanan amansız işıq ona mane olur, fikrini bir yerə cəmləşdirə bilmirdi.

Cığırı itirdiyindən yerimək bir az da çətinləşmişdi. Ayağı şikəst olmasaydı daşlardan tuta-tuta göz qırpımındaca bu sıldırım yoxuşu enərdi. Ancaq qoltuq ağaclarında hər dəqiqə təhlükə ilə üzbəüz qalır, yıxılmamaq üçün az qala otura-otura yeriyirdi.

Birdən necə oldusa, torpaq ayaqlarının altından axdı, yıxılmamaq üçün cəld qoltuq ağaclarını buraxıb iri bir daş parçasından tutdu. Qoltuq ağaclarının biri ayağına ilişib dayandı, o biri isə səs eləyə-eləyə dərə aşağı axıb harasa düşdü.

Müvazinətini birtəhər saxlayıb ayağının altının möhkəm olduğunu yəqinləşdirəndə öz-özünə fikirləşdi ki, niyə insan belə bədbəxtdi... Niyə olacaqdan, alnına, taleyinə yazılanlardan qaçıb qurtarmağa can atır? Bu saatca qayadan uçub məhv ola biləcəyini – bir addım aşağıda dayanan ölümünü görmür, amma onu izləyən soyuq gözlərin işığından tir-tir əsir.

Ürəyi üstünə gələndən sonra birtəhər dənizin sahilinə enib iri bir qaya parçasına söykəndi. «…Burdan o yana bir addım da atası deyil. Nə ola-ola... Görünür, onunku elə buracanmış...».

Külək dalğaları qova-qova sahilə gətirir, qayalara çırpıb qayıdırdı. Amma o dənizin səsini eşitmir, üzünə-sifətinə sıçra-

yan suyun soyuqluğunu hiss eləmirdi, elə bil yaxınlıqda dəniz olduğunu unutmuşdu.

Fəhmlə duydu ki, kölgə eniş aşağı ona sarı yaxınlaşır. Qayaların arasında elə bir dalda yerdə dayanmışdı ki, iki addımlığına çatmayınca onu görə bilməzdi. Nəfəsini udub kölgənin nə vaxt peyda olacağını gözləyirdi. Əlilə bıçaq tiyəsini bir də yoxladı. Əslində yol boyu əlini tiyənin üstündən çəkməmiş, hər diksinişində cibindən çıxarıb hazır tutmuşdu.

Çevrilib arxaya baxmağa, kölgənin gəldiyi səmti izləməyə ürək eləmirdi. Bayaqkı kimi kürəyini qayaya söykəyərək əlini cibindəki bıçaq tiyəsinin üstündən çəkmədən kölgənin gələcəyi səmti dinşəyirdi. Amma səs-səmir eşidilmirdi – hər şey sükuta qərq olmuşdu. Yaddaşından, qulaqlarından bütün səslər çəkilmişdi, hətta küləyin qovub qayalara çırpdığı dalğaların səsini belə eşitmirdi. Özünü dünyanın havasız bir səmtində hiss eləyirdi, sanki boşluq üzərində dayanmışdı – yer, göy, aşağı, yuxarı boşluq idi, hayana dönəcəkdisə boşluqla üz-üzə qalacaqdı.

Hər ehtimala qarşı qoltuq ağacını elə söykəmişdi ki, qəfil lazım olanda karına gəlsin. İş əlbəyaxa davaya düşsə, qoltuq ağacından savayı ümid olunası bir şeyi yoxdu. Qoltuq ağacının birini əlindən salmasaydı, yenə nəyəsə ümid bəsləmək olardı, ancaq indi tək ağacla müdafiə olunmaq bir yana, heç hərəkət eləmək mümkün deyildi. Kürəyini söykəyib dayandığı, daldalandığı yer bir də buna görə əlverişli idi.

Başını qaldıranda gördü ki, kölgə onun gözləmədiyi, tamam əks tərəfdə dayanıb baxır. İxtiyarsız olaraq qışqırdı və özünü itirdiyindən az qala qaçıb gəldiyi yolla qayıtmaq istədi, amma dərhal da yadına düşdü ki, bayaq yoxuşu enərkən qoltuq ağacının birini salıb itirib və burdan qaçıb qurtarmağa ümid bəsləmək əbəsdi.

Kölgənin par-par yanan gözlərinin işığı qara eynəyin altından canına vicvicə salırdı və elə bil kölgə onu gözlərilə, gözlərinin soyuq, amansız işığıyla ram eləmək istəyirdi. Baxışlarını

kölgənin gözlərindəki o işıqdan yayındırmağa çalışırdı, ancaq olmurdu, ovsunlanıbmış ki, gözlərin cazibəsindən qaçammırdı.

Kölgənin ağzını, burnunu, sifətini görmürdü, elə bil bütün bunlar yox idi, təkcə gözlərini görürdü və bu Göyüşovun gözləri idi. Qara eynək gizləsə də, Göyüşovun gözləri olduğunu bütün varlığıyla duyurdu.

– Niyə məni qarabaqara izləyirsən? – Özü öz səsindən səksəndi, çünki dili olduğunu, danışa bildiyini unutmuşdu.

Kölgə:

– Səni öldürmək istəyirəm, – dedi.

İyirmi ilin arxasından gələn bu səs Göyüşovun ağzından çıxmadı, Göyüşovun ağzı yox idi, eynəyinin altında qara, nazik bığları tərpənirdi.

– Niyə? Niyə öldürmək istəyirsən ki, məni? – Qorxa-qorxa soruşdu və hiss elədi ki, bədəni vahimədən tir-tir titrəyir.

– Çünki sən ölməlisən!

– Niyə ölməliyəm mən? Nə günahın sahibiyəm?

– Sən məni öldürmüsən.

– Axı, sən sağsan…

– Yox, mən ölüyəm, səni öldürmək üçün dirilmişəm. Elə bildim güllələnəcəksən, o dünyada haqq-hesab çəkəcəyəm səninlə, amma çox gözlədim, gəlib çıxmadın. Onunçün dirilib gəlmişəm səni öldürməyə.

Səs Göyüşovun səsi idi; o bu səsi unutmuşdu, çoxdannan unutmuşdu, bəlkə özgə vaxt olsaydı, yadına da sala bilməzdi. Amma indi nədənsə xatırladı.

– Axı, mənim günahım yoxdu. Niyə məni öldürmək istəyirsən? – Bu nədi, Göyüşovun kölgəsi qarşısında niyə belə yazıqlaşdı? Niyə səs onu özünə təslim elədi?

– Səninmi günahın yoxdu? Heç bilirsənmi nə danışırsan? Yaxşı bəs günahın yox idisə, sənə güllələnmə cəzası kəsilərdimi?

– Məni çoxdan unudublar, innən belə nə güllələnmə, nə filan. Günahım olsaydı, çoxdan ələ keçərdim, günahsızam ki,

azadlıqdayam.

«Axı, niyə belə yerli-yataqlı məlumat verir. Bütün bu sorğu-sual nə üçündü? Lüzumsuz söhbətlərə nə ehtiyac var…».

– Sən buna azadlıqmı deyirsən?

– Əlbəttə… Yoxsa buna da şübhən var?..

– Ha-ha-haaa!!!

«Bəs onda can atdığı, yolunda ömrünü qoyduğu azadlıq nə olan şeydi, ilahi? Bəlkə ölümü seçsəydi, ömrü daha şərəfli olardı? Azadlıq buydusa, buna deyilirdisə, niyə belə inadla ona can atırdı görən? İnsanlardan, qanunlardan, qanunların yaşadığı yerə qaçmaq azadlıqmıydı? Bəlkə, bəlkə... Amma yox... O ki ölümdən qaçmışdı, ölümdən azad olmuşdu».

Əsəbi səslə:

– Mənim ömrümə qarışma, – dedi. – Sən ölüsən, mən diri. Əl çək məndən, yoxsa səninçün pis olar.

– Nə pis olasıdı ki? Ölümdən o yana nə yaxşı, nə pis?

«Bu söhbət hələ nə qədər uzanacaq, görən? Boş-boşuna vaxt itirmək nəyinə lazımdı onun?».

– Sən doğrudanmı Göyüşovsan, yoxsa mənim gözlərimə belə görünür? – «Yaxasını şübhələrdən qurtarmaq üçünmü bu sualı verdi. Yoxsa…».

– Düz tapmısan, Göyüşovam. Bilirəm məni unutmamısan, nə də torpağa qarışanacan unutmayacaqsan.

– Sən mənim bütün ömrümü heç elədin. Səni necə unuda bilərəm mən?

– Sən özün öz ömrünü heç eləmisən.

– Necə, necə?..

– Deyirəm, ömrünü heç eləyən sən özün oldun.

– Aradan bu qədər keçəndən sonra da günahını etiraf eləmirsən. Başa düşmürsən ki, səni haqlı öldürmüşəm…

– Məni sən öldürməməliydin.

– Niyə? Kim öldürməliydi ki, səni?

– Hər halda sən öldürməməliydin... Bilirdim ki, məni öl-

dürəcəklər, həmin gün ürəyimə dammışdı. Ancaq inanmırdım… inanmırdım ki, məhz sən öldürəcəksən məni.

– Deməli, bilirdin səni öldürəcəklər.

– Hə, ürəyimə dammışdı.

– Bilirsənmi, bu nə deməkdi? O deməkdi ki, sən həqiqətən günahkarsanmış, ölməlisənmiş.

– Yox, səhv eləyirsən, bu o demək deyil. Sadəcə insan qabaqcadan nəsə hiss eləyir. Ürəyinə damır ki, öləcək, amma inanmır. Bəlkə də öləcəyinə inansa, bir çarə qılar başına…

Göyüşovun kölgəsi elə yumşalmışdı ki, deyirdin dönüb tamam özgə bir məxluq olmuşdu və sanki qatiliylə deyil, yaxın həmdəmiylə söhbət eləyirdi. Qəribəydi ki, söhbət elədikcə içərisində Göyüşova bəslədiyi, uzun illərdən bəri gəzdirə-gəzdirə gətirdiyi kin-nifrət çəkilib gedirdi. Amma kölgə birdən:

– Belə yumşaq danışmağıma baxma, – dedi, – öldürəcəyəm səni. Neçə vaxtdı səni öldürmək üçün izləyirəm. Hər dəfə bir yolla qurtarırsan əlimdən, ancaq daha bıçaq sümüyə dirənib, bu dəfə qaça bilməyəcəksən.

Bu sözlərin ardınca kölgənin gözləri qara eynəyin arxasında elə parladı ki, əl-qolu sustalıb yanına düşdü və ixtiyarsız olaraq içərisindəki kin-nifrət təzədən kükrəyib qalxmağa başladı.

Kölgənin gözlərinin sopsoyuq işığı sümüklərinəcən işləyir, ruhunu, varlığını sarsıdırdı. Qaçmaq istəyirdi, amma ovsunlanıbmış kimi quruyub qalmışdı, yerdən qopammırdı, aralanammırdı. Belə gücsüz, aciz olduğuna görə özünə nifrət eləyirdi. Sonra hiss elədi ki, kölgənin barmaqları yavaş-yavaş ona sarı uzanır. «Aman allah!.. Bu nə bəladı, nə əcirdi çəkir… Kim qarğıyıb onu, nə günahın yiyəsidi?..».

Kölgənin barmaqları sifətində gəzməyə başlayır. Barmaqlar üz-gözünü yoxlaya-yoxlaya nəsə axtarırmış kimi bir yerdə dayanmır. Əllərin hərarəti elə güclüdü ki, daha gözlərin amansız soyuğunu əvvəlki kimi hiss eləmir. Elə bil ki, kölgənin gözlərinin soyuq işığı gücə, ehtirasa dönüb barmaqlarına axır.

Kölgənin meyit əlləri sifətində dolaşdıqca nəfəs ala bilmir-

di. Elə bil əllər canındakı hərarəti çəkib aparmaq üçün sifətində gəzirdi. Çünki əllər sifətində gəzdikcə canı, diriliyi bədənindən çıxıb gedirdi.

Kölgənin əlləri get-gedə daha ehtirasla sifətində gəzməyə başlayırdı və əllərin ehtirası artdıqca nəfəsi tövşüyürdü, az qalırdı boğula. Hiss eləyirdi ki, canı gəlib boğazına yığılıb, bir az da dözsə, ləngisə, xilas olammayacaq.

Ölümün qorxunc, amansız kölgəsi ani olaraq yaddaşından keçdi – tükləri qabarıb qalxdı. Elə bil onu göyün yeddinci qatına qaldırıb başıaşağı buraxdılar; bir anlığa ölümlə üzbəüz qaldı.

Qəfildən dəli bir ehtirasla kölgənin hulqumundan tutaraq var gücü ilə sıxmağa başladı. Bayaqdan bəri barmaqlarını sifətində gəzdirə-gəzdirə ruhunu, canını çəkib çıxarmaq istəyən kölgə bu hücumu gözləmədiyindən bir anlığa özünü itirən kimi oldu, amma dərhal da gücünü toplayaraq əlləri, ayaqları ilə müqavimət göstərməyə başladı. Qorxu güc gəldiyindən kölgənin hulqumundan elə tutmuşdu ki, nə qədər çabalasa da, boğazını xilas eləyəmməzdi.

Kölgənin gözləri böyüyüb yumurta boyda olmuşdu. Dili ağzından bir qarış uzanıb çıxmış, sifəti qaralıb kömürə dönmüşdü. Kölgə çabaladıqca barmaqları ixtiyarsız olaraq sıxılır və barmaqları sıxıldıqca kölgənin müqaviməti daha da artırdı. Bədəninin bütün gücü, nifrəti axıb əllərinə, barmaqlarına dolmuşdu, indi heç bir qüvvə onun barmaqlarını kölgənin boğazından açammazdı.

Aradan nə qədər keçdiyini bilmədi. Handan-hana kölgənin qüvvədən düşdüyünü, ağırlaşdığını hiss elədi. Daha qollarının bədəni saxlamağa taqəti çatmırdı. Ancaq hələ barmaqlarını kölgənin boğazından açmağa qorxur, onu öldürdüyünə inanmırdı.

Kölgənin ağzının kənarlarından soyuq qan axaraq əlini isladanda barmaqları öz-özünə boşaldı və cəsəd arxası üstə daşlığa yıxıldı.

Üstündən ağır bir yük götürülübmüş kimi rahat nəfəs aldı

və təpəni enib sahilə düşdüyü vaxtdan bəri ilk dəfə böyür-başına nəzər saldı. Suyun ovub itilədiyi qaya parçaları nəhəng xəncər ağzına bənzəyirdi və adama elə gəlirdi ki, bu nəhəng qaya–xəncər sahilə can atan dalğaları qovub geri qaytarır; dəniz də azadlıq həsrətindədi, dəniz də məhbəsdədi.

Qorxa-qorxa meyidə sarı döndü. Bir vaxt Göyüşovu öldürəndə meyidi necə torpağa uzanmışdısa, indi də eləcə düşüb qalmışdı. Meyidin ağzının kənarlarından axıb gələn qan quma hopurdu. Yaddaşının qəfil qayıdışından səksəndi. Bir anlığa ona elə gəldi ki, Göyüşovu indicə vurub öldürüb, meyid qan içərisində çabalayır... Bir azdan onu tutub aparacaqlar, sonra isə üzücü istintaq səhnələri, məhkəmə...

Qalxıb yavaş-yavaş suya tərəf endi. Kölgənin ağzından axıb gələn soyuq qan əllərinə bulaşmışdı. Əllərini yumaq üçün qoltuq ağaclarını bir tərəfə atıb dizi üstə çökdü. Amma nə qədər elədisə, əllərinin qanı getmədi, eləcə ləkə kimi ovcunun içində, barmaqlarında qaldı. Sonra əllərini qumla sürtüb yumağa başladı. Bunun da faydası olmadı – qan əllərindən getmədi ki, getmədi. Nə sirdisə, əlinin içi, qan ləkəsinin düşüb qaldığı yer soyuqdan donurdu – sanki ovcunda bir əlcə buz tutmuşdu.

Axtarıb qoltuq ağacının o birini tapdı və gəldiyi yolla geri qayıtmağa başladı. Elə rahat yeriyirdi ki, deyirdin heç bir şey baş verməyib, hər axşamkı kimi sakit-səssiz dəniz sahilindən qayıdır. Bayaqkı həyəcandan sifətində əsər-əlamət qalmamışdı.

Təpəni qalxandan sonra nəfəsini dərmək üçün dayandı. Səhərdən bəri ayaq üstə olduğunu yalnız indi, təpənin üstündə hiss elədi. Hiss elədi ki, əməlli-başlı yorulub. Azacıq dincini almaq üçün yağışın yuyub təmizlədiyi qara sal daşın üstündə oturdu.

Qayalara çırpılan dalğaların səsi buracan gəlib çatırdı. Bu səs bir anlığa keçirdiyi həyəcanları unutdurur, əsəblərini ovundururdu.

Gəldiyi yolla dərə aşağı baxanda birdən gözləri heyrətdən böyüdü; kölgə dənizin sahilinə enib ağzının qanını yuyurdu.

Əlləri yanına düşdü.

Ayağa qalxıb özünü tramvay dayanacağına necə çatdırdığından xəbəri olmadı. Tələsik xətt boyu sağa-sola boylandı. Tramvay gözə dəymədiyindən özünü küknar meşələrinə vurdu. «...İlahi, bu nə olan işdi başına gəlir? İndi vaxt-bivaxt kölgə izləyəcəkmi onu? Qalan ömrü əzab, işgəncə içərisindəmi keçəcək?.. Xilas, qurtuluş yolu yoxdumu görən? Bəlkə... Bəlkə...».

Küknar ağaclarının arasıyla şəhərə tərəf gedə-gedə olub-keçənləri düşünürdü. Min-milyon kərə fikirləşdikləri bir daha beynindən gəlib keçirdi. Bu olub-olacaqların arxasında nələr gizləndiyini, taleyin sərt dönüşlərinin insanı hayana sürüklədiyini, yaranmışların bir-birinə qənim kəsilməyinin sirlərini heç cür anlaya bilmirdi. Anlaya bilmirdi ki, o insandısa, minlər-milyonlar kimi doğulub işıqlı dünyaya göz açmışdısa, niyə ömrü təkcə dərdlərə, əzablara yüklənməlidi?..

Gedə-gedə hiss eləyirdi ki, ağacların arxasında daldalana-daldalana onu izləyirlər. Bağın alatoranlığında qəfil peyda olub qəfil də itən qaraltılardan addımbaşı səksənir, qışqırmamaq üçün özünü zorla saxlayırdı. İndi kölgənin soyuq gözlərinin parıltısı müxtəlif səmtlərdən işarır, o amansız baxışlardan qaçmaq, aralanmaq üçün hayana gedəcəyini, hansı səmti tutacağını bilmirdi. Ağaclardan da üşənirdi. Ona elə gəlirdi ki, ağaclar tərpənir, torpaqdan qopub yerimək istəyir. O soyuq işıqlarla özülündən, kökündən qopub yerimək istəyən bu ağaclar arasında nə isə sirli bir bağlılıq duyurdu. Sanki ağaclar onun yolunu, qabağını kəsə bilər, tutub saxlaya bilər, üstünə yerbəyerdən dikilən o soyuq gözlərin amansız işığına təslim eləyə bilərdilər.

Alnının tərini siləndə gözləri əlinə sataşdı; ovcuna düşən qan ləkəsi eynən dururdu. Bayaq ləkənin soyuqdan buzlayan yeri indi tamam keyimişdi, əlinin həmin parçasını kəsib qoparsaydılar, xəbəri olmazdı.

Qaranlıq düşürdü.

* * *

Bu hadisədən sonra yuxuları səslər, qışqırıqlar içində keçir, gecəni səhər eləyənəcən neçə dəfə diksinib ayılırdı. Günlər ötdükcə yatağından, yuxularından üşənirdi, yatmırdı, cır-cındıra bürünüb səhərəcən otururdu. Amma belədə də yuxularına təslim olurdu.

Ona elə gəlirdi ki, ölüb, gözlərinə görünən isə kölgə deyil, Göyüşovun özüdü, haqq dünyada görüşürlər. Gecənin bir vədəsi qeybdən gələn səs sağ olduğunu unutdururdu.

«– Neçə yaşın var?» – Səs ona tanış gəlir, amma nə qədər fikirləşirsə, kimin səsi olduğunu ayırd edə bilmir.

«– Neçə yaşın var?.. Bu nə deməkdi, ölüdən də yaş soruşarlarmı? Görmürsənmi ki, mən ölmüşəm...» – Yaşının soruşulmağı əməlli-başlı onu heyrətləndirir.

«– Necə yəni ölmüsən?» – Sualın ucundan tutub ucuzluğa çəkirlər.

«– Ölmüşəm də... Ölmək necə olur ki...» – Hiss eləyir ki, ölümünə inandırmasa, qaranlığın dərinliklərindən gələn səsi susdura bilməyəcək.

«– Vallah, heç nə başa düşmürəm». – Səs inadından əl çəkmir.

«– Burda başa düşülməyəsi nə var ki...».

«– Ölümün belə olduğuna inana bilmirəm. Sən özün inanırsanmı öldüyünə?» – Qaranlıqdan gələn səs ondan qəti cavab gözləyir.

Bu sual öldüyünə şübhə oyadır və dərhal əllərinə baxır. Çünki ömrünün bitdiyi, ölümün rəngi-ruhu əllərindən bilinir. Əllərinə baxan kimi qəti inanır ki, ölüb.

«– İnanıram, qardaşım, inanıram... Sən də hər kimsənsə, inan».

«– Axı inanmıram...».

«– İnanmırsan, bax əllərimə. – Əllərinin ikisini də ay işığına tutur. – Görürsənmi əllərimi?».

Qaranlığın köksündən qopan səs ay işığına tutulan bu əllərə bəndmiş kimi dərhal kəsilir.

Ölümün gətirdiyi azadlığa, asudəliyə sevinir. Bir vaxt ölüm adı gələndə varlığını sarsıdan xofun, vahimənin əbəs olduğunu indi-indi dərk eləyir. Amma çəkilib gedən səs istəməyə-istəməyə onu təzədən dünyanın dərdlərinə, əzablarına qaytarır.

Gecənin belə səksəkəli çağında sübh kimi oyanan, aydınlaşan yaddaşıyla dünyanı necə var eləcə görür... Görür ki, aram-aram yol gedir. Uzaq karvanın yolçuları onu zamanca arxada qoyublar. O, illərin arxasından dünyanın uzaq üfüqlərində itən insan dəstələrini görür. Bilir ki, o insanlara yetişmək üçün gecəni gündüzə qatıb illərlə yol getməlidi.

«Dünyanın sinəsi boyu uzanan ömür karvanı hardan başlayıb gəlir? Bu karvanın yönü, səmti hayanadı, bir sonu, dura-cağı olacaqmı?.. Yoxsa bu karvan yolu heç bir zaman bitmək, tükənmək bilməyəcək, insanı yarandığı günə lənət yağdıra-yağdıra sonsuzluq boyunca fırlanacaq. Bəs ölüm? Ölümün qara rəngdə, qara boyada görülməsinin səbəbi nədi? Əgər ölüm taleyin son mənzilidisə, ölümlə hər şey bitir, qurtarırsa, hər şeyə nöqtə qoyulursa, niyə ondan qaçılır? Niyə insan gözəlliyi işıqda, aydınlıqda axtarır. İnsan həyatın sirli vədlərinə nə vaxtacan aldanacaq, yaşadığı dünyanın vəfasızlığını haçan dərk eləyəcək? Bəlkə heç bir zaman anlamayacaq ki, onun cəhdləri, mübarizələri dünyanın qədimliyi, vaxtın bu başından o başınacan uzanan karvan yolunun sonsuzluğu qabağında bir heçdi, əbəsdi... İllərdən bəri onu bu şəhərdə tutub saxlayan, gözləməyə məcbur eləyən, üstündə gəzdiyi dünyanın işıqlı sonuna aldadan nədi? Taleyin qovub gətirdiyi bu yad şəhərdə gizlənməyinin, həyat adına, yaşayış adına dözüb dayanmasının səbəbi nədi? Həyatdan, ömürdən umduğu, istədiyi özünə də qaranlıqdısa, niyə yaşamağa can atır? Axı niyə, nəyin xətrinə? Buna nə adla yaşamaq deyirdi? Bir dünyada yaşadığın insanlarla təmasdan, ünsiyyətdən uzaq ömrə ömür demək olardımı? Bunun üçün ölümdən, güllələnmə cəzasından qaçmağına dəyərdimi?».

* * *

Gəmiyə tərəf tələsən sərnişinlərin içərisində gözləri tanış bir simanı aldı. Əvvəlcə duruxub qaldı, tanıya bilmədi, sonra qəfildən yaddaşı ayazıdı, duruldu. Və ayazıyan, durulan yaddaşı ömrünün o şirin, heç bir zaman təkrar oluna bilməyəcək gecəsinin ətrini qaytardı.

«– Bu sənsənmi, qaraçı qızı!».

Bir zaman ağlını aparan sirli gözəlliyin məhv olub getdiyinə heyrət ifadə eləyən bu sözlərin nə vaxt dodaqlarından qopduğunu bilmədi.

Qaraçı qızı adamlara qarışıb körpüyə tərəf gedirdi. On il bundan qabaq gələndə necə ümidlə, cəsarətlə gəlmişdisə, eləcə də gedirdi, arxaya çevrilmədən, bu şəhərdən, şəhərin adamlarından ayrıldığına təəssüflənmədən gedirdi.

«– Qaraçı qızı, məni görmürsənmi?».

Yox, yox, ola bilməzdi ki, görməsin. İndicə çevriləcək, gəmiyə ayaq basmamış dayanacaq, mütləq ona sarı baxıb əl eləyəcək. Hiss elətdirəcək ki, birgə keçirdikləri o uzaq, sirli gecəni unutmayıb, çıxıb getsə də, xatirəsilə bağlı nələrisə özüylə aparır.

Amma onun gözlədiyi kimi olmadı. Qaraçı qızı qəfildən gəmiyə yaxınlaşmaqda olan adamlardan ayrılıb qaça-qaça ona tərəf gəldi, cibindən köhnə əskiyə bükülü bir şey çıxarıb ovcuna qoydu, sonra boynunu bükərək müti qul kimi dayanıb gözləməyə başladı.

«– Həmişəlikmi gedirsən, qaraçı qızı?..».

Bərkdənmi dedi bunu, yoxsa pıçıldadımı, özü öz səsini eşitmədi.

Qaraçı qızı:

«– Hə, dedi. – Həmişəlik gedirəm, salamat qal, bəlkə daha görüşmədik. – Sonra gözlərini dəniz səmtə dikərək:– İstədim səndən xəbərsiz gedim, amma olmadı. O qədər adamın içərisində tanıdın məni. Gördüm ki, kürəyim od tutub yanır – bildim

baxırsan. Dözə bilmədim, qayıtdım ki, vidalaşaq», – deyib sözünü bitirdi.

Qaraçı qızı qəfil gəldiyi kimi qəfil də qayıdıb taxta körpüylə qaça-qaça adamlara qarışaraq gözdən itdi.

«– Məni qoyub hara gedirsən?».

Bu sözləri ünvansız dedi və öz səsinin, pıçıltısının sədası qulaqlarından çəkilməmiş hiss elədi ki, ömründən, həyatından həmişəlik çıxıb gedən qaraçı qızına qarşı içərisində indiyəcən duymadığı soyuq bir biganəlik var.

Qaraçı qızını bu şəhərdən aparan gəmi uzaqlaşıb itənə qədər gözlərini dənizdən çəkmədi.

# EPİLOQ

Başını qaldıranda özünü milis şöbəsinin qabağında gördü.

Bütün bu əhvalat elə gözlənilməz şəkildə baş vermişdi ki, onun həqiqət olduğuna inanmağı gəlmirdi. Ona elə gəlirdi ki, başına gələn bu hadisə sadəcə olaraq tamaşa, bütün iştirakçılar isə aktyorlardır və onlar özlərini teatr səhnəsində necə lazımdı, eləcə aparırlar. Onun qarşısında sərt, amansız həyat deyil, sənət əsəri dayanır:

Milis bölməsi. Balaca, darısqal bir otaqda beş-altı nəfər milis serjantı hündürdən-hündürdən söhbətləşirlər. O, nabələd adam kimi içəri daxil olur. Otaqdakılardan heç kəs ona məhəl qoymur. Bir müddət nə edəcəyini bilməyən adam kimi durub gözləyir. Sonra nə fikirləşirsə, üstündə «rəis» sözü yazılmış qapının qarşısında dayanır. Özünü toplayıb yüngülcə qapını itələyir. Koridora bənzəyən ensiz, uzun otaqda milis paltarında cavan bir qadın oturub. İçəridən, müstəntiqin otağından telefonla danışan kişi səsi eşidilir. Qadın onu görən kimi başını qaldırır, acıqlı-acıqlı:

Qadın – Kim lazımdı sizə?

O *(çəkinə-çəkinə)* – Rəisi görmək istəyirəm.

Qadın – Kimsiniz? Hardan gəlmisiniz?

O – Caniyəm! *(Qeyri-ixtiyari bədənindən soyuq bir gizilti keçib gedir).*

Qadın *(təəccüblə)* – Nə? Cani?!

Bu vaxt qapı açılır və müstəntiq furajkası əlində otaqdan çıxır. Hərəkətlərindən hiss olunur ki, tələsir, təcili harasa getməlidi. Açar tutan barmaqlarının titrəyişindən əsəbi olduğu bilinir.

Qadın *(hələ də təəccübünü gizlədə bilməyərək)* – Bu yoldaş sizi görmək istəyir. Deyir ki... caniyəm. Əgər vaxtınız varsa...

Müstəntiq *(Çevik nəzərlərlə onu ayaqdan-başa qədər süzür. Elə bil bu dar macalda bircə baxışla onu yaddaşına,*

*gözlərinə köçürmək istəyir. Sonra baxışlarına yaraşmayan bir soyuqqanlılıqla)* – Adın, familiyan nədir?

O – Əkrəm.

Müstəntiq – Üstündə bir sənədin varmı?

O – Yox, tutulanda bütün sənədlərimi alıblar.

Müstəntiq – Nə vaxt tutulmusan?

O *(Yadına salmağa çalışır, amma nə qədər fikirləşirsə, xatırlaya bilmir)* – Yadıma gəlmir...

Müstəntiq – Qəribə işdi... Nə vaxt tutulduğunu yadına sala bilmirsən. Yaxşı neçə il iş almısan?

O – Güllələnmə verilib mənə, adam öldürmüşəm *(Birdən otaqda axtarışda olan canilərin şəkilləri içərisində özünün rəsmini görür. Son dərəcə qiymətli bir şey tapıbmış kimi sevinə-sevinə)* – Bax, o mənim şəklimdi.

Müstəntiq *(Bayaq harasa tələsdiyini, təcili bir iş üçün çıxdığını yadından çıxararaq diqqətlə şəkli və onu gözdən keçirir)* – Nəylə sübut eləyə bilərsən ki, bu şəkildəki sənsən?

O – Necə nəylə? Burda sübut olunası bir şey yoxdu ki... Bir fikirləşin, güllələnmə cəzası almış hansı axmaq bu qədər aradan keçəndən sonra hər şeyi boynuna alar?

Müstəntiq – Qəribə söhbətdi…

O – Mənə inanın… Hər şeyi…

Müstəntiq *(əsəbi)* – Biz nə əsasla sizə inanmalıyıq.

O *(bir qədər özünü itirərək)* – İstəsəniz, mən bütün əhvalatı olduğu kimi sizə danışa bilərəm.

Müstəntiq – İndicə dediniz ki, heç bir sübutunuz yoxdu. O sözünüzə inanaq, yoxsa buna. Axı, bizə söz-söhbət yox, sübut lazımdı, sübut!

O *(təmkinini qorumağa çalışaraq)* – Dedim ki, hər şeyi necə var, elə danışaram.

Müstəntiq *(Əsəbi hərəkətlə üstünə hücum çəkərək)* – Bəsdirin!..

Pauza

Müstəntiqin qışqırığından sonra otağa çökən sükutu içəridəkilərdən heç biri pozmaq istəmir. Hərəsi baxışlarıyla bir səmti tutub baxır. Otağın sükutunda uçuşan milçəklərin qanad səsləri eşidilir. Katibə qadın heyrətlə bu söhbətin nəylə nəticələnəcəyini, necə bitəcəyini gözləyir.

Müstəntiq *(Bayaqdan səsini qaldırdığını, qışqırıb özündən çıxdığını unudaraq)* – Bəs niyə indiyə kimi gizlənirdin?

O – Yaşamaq istəyirdim. *(Bunu elə deyir ki, özü öz səsindən heyrətlənir).*

Müstəntiq – Belə çıxır ki, bir vaxt yaşamaq istəyirdin, indi isə istəmirsən, daha doğrusu həyatından bezmisən?

O – İndi həyat, ya ölüm, fərqi yoxdu, ikisi də bir şeydi mənimçün… Mənim kimisinə ölüm daha şərəfliymiş, bunu vaxtında bilməmişəm.

Müstəntiq *(Nə fikirləşirsə, birdən)* – Çıx get, ölümə məhkum olunmuş heç bir axmaq özünü ələ verməz. Onda ola ki, aradan bu qədər vaxt keçə, hər şey unudulub köhnələ…

O *(Birdən-birəcə əsəbiləşir, yumruqları ixtiyarsız düyünlənir, qırış basmış tüklü sifətində qara-qara kölgələr gəzir. Ona elə gəlir ki, ucsuz-bucaqsız bir dənizin qoynundadı, boğulur. O, boz-bulanıq duzlu suyun ağzına necə dolduğunu, bədəninin getgedə ağırlaşdığını, qaçılmaz, labüd bir ağırlığın onu suyun təkinə çəkdiyini hiss eləyir. Suda boğulmaqda olan adamın son fəryadı kimi var gücüylə bağıraraq)* – Mən caniyəm! Başa düşmürsünüzmü, caniyəm! Adam öldürmüşəm. Bax beləcə *(Əllərini çalın-çarpaz bir-birinə çəkir)* bıçaqla doğram-doğram eləmişəm. Ölümdü bunun cəzası! Sizsə deyirsiniz ki, çıxım gedim!

Müstəntiq *(özündən çıxaraq)* – Rədd ol burdan, gözüm səni görməsin! Əclafın biri, əclaf! Bunun qışqırmağına bir bax. Sənin kimilərini çox görmüşük. Yatmağa yeriniz, yeməyə çörəyiniz olmayanda türmə düşür yadınıza. Yox bir cani, adam öldürən... *(qapını elə çırpıb çıxır ki, az qalır rəzəsindən qopub düşə).*

Pauza

Çırpılan qapının səsi bir müddət qulaqlarından getmir. İşin belə nəticələnəciyini gözləmədiyindən gicgahlarını ovuşdura-ovuşdura dayanıb gözləyir, nə edəcəyini kəsdirəmmir.

Qadın *(Hələ də heyrətini gizlədə bilməyərək)* – başa düşmədinmi nə deyildi sənə? Yoxsa gözləyirsən ki, başqa cür başa salsınlar səni...

Kor-peşiman otaqdan çıxır. Çıxa-çıxa fikirləşir ki, başqa bir vaxt gəlib məsələni yerli-yataqlı izah edər. Bəlkə onda müstəntiqi inandıra bildi. Belə qaçaqaçla heç bir iş görmək mümkün deyil. Nahaqca yerə bu dar macalda söhbəti açdı, gərək bir arxayın vaxtda gələydi, müstəntiqlə üzbəsurət oturub hər şeyi yerli-yataqlı danışaydı. Elə danışaydı ki, heç bir şübhəyə-filana yer qalmayaydı. Amma serjantların yığışdığı otağın qabağından keçərkən birdən fikirləşdi ki, məsələni bunlara açsın. Bilmək olmazdı, bəlkə onlar cani olduğuna inanıb cəzasına çatmaqda kömək edərdilər. Burda elə bir qəliz iş yox idi, cinayət törətmişdi, qanunla cəzasını almalıydı, vəssalam...

Amma məsələni izah eləyib qurtarmamış qəhqəhə çəkib gülürlər.

I Serjant *(ələ salaraq)* – Cani!.. Xox qorxdum. Uşaqlar, bir buna baxın. *(Ona sarı dönərək).* Bu boy-buxunla, bu əl-ayaqlamı adam öldürmüsən?..

Kimsə gülməkdən qarnını tutub ikiqat olur.

II Serjant – Necə dedin? Bir də təkrar elə! Sən atanın goru düz deyirsən?..

O – Nəyə deyirsiniz and içim... Axı, niyə inanmırsınız mənim sözlərimə. Vallah, düzünü deyirəm...

Serjantların qəhqəhəsi otağı başına götürür. Nə üçünsə geri qayıdan müstəntiqin qapının ağzında görünməsi ilə içəri sükut çökür, serjantlar farağat vəziyyəti alırlar. Müstəntiq onu serjantların otağında görəndə özündən çıxır.

Müstəntiq *(hiddətlə)* – Sən hələ burdasan? Axmağın biri axmaq, aydın olmadı bayaq sənə nə deyildi?.. Bu saatca rədd ol! Tez!.. Tez!.. Bir də buralara ayaq bassan *(Əlilə pəncərədən hündür, qara rəngli binanı – dəlixananı göstərir)* səni bax ora yollatdırram. Başa düşdünmü?..

Qəfil zərbə alan adamlar kimi gözlərinə duman çökür və yıxılmamaq üçün divardan tutaraq bir müddət dayanıb durur, sonra heç bir söz demədən qoltuq ağaclarını taqqıldada-taqqıldada birtəhər otaqdan çıxaraq dəniz vağzalına yönəlir.

Pərdə

* * *

Yağış elə tökürdü ki, sanki dünyanın axırıydı və haçansa bu yağışın sonu, nəhayəti olmayacaqdı. Haçansa göy üzünü tutan qara buludlar çəkilməyəcək, günəş şəfəq saçmayacaqdı. Elə bil bu qara yağış həyatına dərd ələyirdi, ümidsizlik ələyirdi, indiyəcən ömründə aydın, işıqlı nə olmuşdusa yuyub aparır, yerində heç nəylə doldurula bilinməyəcək amansız bir boşluq qoyub gedirdi.

Papağını çıxarıb qabağına qoymağı unutmuşdu; gəlib-gedənlərin ara-sıra böyür-başına atdıqları qara pullara məhəl qoymurdu.

Gözləri gəmidən tökülüşən və tələsə-tələsə hayanasa çıxıb gedən insan axını içərisində kimi isə axtarırdı. Diqqətlə baxırdı ki, qarmaqarışıqlıqda axtardığı gözlərindən yayınmasın. Ürəyinə dammışdı ki, uzun illərdən bəri gözlədiyi o adam indilərdə gəlib çıxacaq.

Yalnız bircə şeydən qorxurdu. Qorxurdu ki, o adam da başqaları kimi cani olduğuna inanmasın…

*Bakı- Moskva-Bakı,*
*1984*

**Vaqif Sultanlı**
**İnsan dənizi**
(roman)
**Bakı,  Azərnəşr, 2014**

*Müəlliflə əlaqə saxlamaq üçün aşağıdakı ünvana müraciət oluna bilər:*

Azərbaycan Respublikası, Bakı şəhəri,
Z. Xəlilov küçəsi, № 23, Bakı Dövlət Universiteti,
Müasir Azərbaycan ədəbiyyatı kafedrası

Tel.: (+99412) 439-04-25 (iş)
(+99450) 313-10-22 (cib)
E-mail: vagif_sultanlı@yahoo.com

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**Professor Nadir Məmmədli**

Rəssam:
**Günay Sultanlı**

Bilgisayar tərtibatı:
**Məhəbbət Köyük**

Korrektoru:
**Aysel Süleymanlı**

Yığılmağa verilmiş 16.01.2014
Çapa imzalanmış 05.02..2014
Formatı 60x90 1/16
Şərti çap vərəqi 16
Sayı 1000
Sifariş № 222
Qiyməti müqavilə ilə